## “Koroğlu” eposundan “Həmzənin Qıratı qaçırması” qolu

## *(ixtisarla)*

Bolu bəyə deməlisini dedi, tapşırmalısını tapşırdı, yola saldı ki, gedib hazırlaşsın. Özü də bir namə yazıb bir qasidlə bayazidli Əhməd tacirbaşıya göndərdi ki, “Səninlə çox vacib işim var. Başını orada islat, burda qırxdır!”

Bəli, qasid Əhməd tacirbaşı üçün Bayazidə getməkdə olsun, Bolu bəy hazırlaşmaq üçün Ərzincana getməkdə olsun, sənə kimdən deyim, Keçəl Həmzədən.

Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi, düşdü yolun ağına. Pay-piyada, günə bir mənzil, təyyi-mənazil, orda ayla, illə, burda müxtəsər dillə, az getdi, çox dayandı, çox getdi, az dayandı, bir axşamüstü gəlib Çardaqlı Çənlibelə çatdı.

Deyirlər ki, Koroğlu Ağ Qayada durub karvan yollarına baxırdı. Bir də gördü ki, budu, bir nəfər gəlir. O qədər gözlədi ki, Həmzə gəlib qayanın dibinə çatdı. Başladı cığıryuxarı dırmaşmağa. Koroğlu qayadan düşüb kəsdi onun qabağını ki:

– Dayan! De görüm, kimsən? Haradan gəlib haraya gedirsən?

Həmzə baxdı ki, qabağındakı bir oğlandı, bir oğlandı ki, adam üzünə baxmağa ürək eləmir. Boy-buxun, qol-bilək… Gözlər tərlan gözü kimi oyur-oyur oynayır. Belində bir qılınc var ki, Allah göstərməsin. Həmzə bildi ki, bu, Koroğludu, hiylə niqabını çəkdi üzünə. Özünü tanımazlığa vurub dedi:

– Koroğlunu axtarıram.

Koroğlu soruşdu:

– Neyləyirsən Koroğlunu?

Həmzə dedi:

– Qadan-balan mənim bu canıma gəlsin. Mən ilxıçıyam. Ömrümü-günümü bəy-paşa qapısında çürüdüb ilxıya getmişəm. O necə deyərlər, qurbağalı gölməçələrdən su içməkdən dodaqlarım ziyil töküb. Anamı görüm ki, məni doğan gün bir qara daş doğa idi. Başım keçəldi. Onun ucbatından heç bir qapıda duruş gətirə bilmirəm. Nə qədər can yandırsam da, elə ki keçəl olduğumu bildilər, çıxardıb qovurlar. Day bu keçəlliyim üzündən gen dünya mənə dar olub. İndi başına dönüm, Koroğlunu deyib gəlmişəm. Deyirlər, o çox mərd adamdı. Çörəyə qızırqanan deyil. Ya budu, məni qoysun elə qapısında, bacasında süfrəsinin qırıq-quruğundan yeyib dolanım, ya da bu başımı çəkib bədənimdən qopartsın, bu dünyanın dərd-qəmindən azad olum.

Bunu deyib Keçəl Həmzə elə ağladı, elə ağladı ki, gözünün yaşını bıldır-bıldır tökdü. Koroğlunun keçələ yazığı gəldi. Dedi:

– Dur, gedək! O Koroğlu dediyin elə mənəm. Bunu eşitcək Həmzə düşdü Koroğlunun ayaqlarına ki:

– Qurban kəsilim sənə, Koroğlu, məni qapından qovma!

– Dur ayağa! Kişisən. Kişi bir qarın çörəkdən ötəri ayağa yıxılmaz. Keçəl Həmzə durdu. Koroğlu dedi:

– De görüm, əlindən nə iş gəlir?

Həmzə dedi:

– Can Koroğlu, mən bilirəm ki, bu başla sən məni nə kababçı eləyəcəksən, nə şərabçı. Elə mənə bir dənə at tapşır, bəsləyim sənin üçün, dədə-baba sənətim odu.

Koroğlu Keçəl Həmzəni götürüb gəldi. Dəlilər Həmzəni görüb dedilər:

– Ay Koroğlu, bunu haradan tapıb gətirdin? Bunun gözləri Üçtəpə sağsağanının gözləri kimi qayır-qayır qaynayır. Heç əməlli adama oxşamır. Rədd elə, getsin.

Xanımlar da dəlilərin sözlərini təsdiqlədilər. Koroğlu xanımları, dəliləri sakit eləyib dedi:

– Görürsünüz, yazığın birisidi. Bizə nə eləyəcək? Qoyun, süfrəmizin qırıq-quruğundan yeyib qapıda, bacada dolansın.

Keçəl Həmzə qırıq-quruqdan yeyib qapıda, bacada qurdalanmağa başladı. Xanımlar, dəlilər nəyə buyurardılarsa, gedərdi. Getdiyi işi yaxşı da yarıdardı. Belə zirəkliyinə görə get-gedə dəlilərin, xanımların yanında keçəl Həmzənin hörməti də artdı.

Koroğlu da Keçəl Həmzənin diribaşlığını görüb, onun adını dəyişdirib Kaloğlan qoydu. Tövlədə bir yük yabısı var idi. O qədər yükləmişdilər ki, sümükləri çıxmışdı. Ona baxmağı da Keçəl Həmzəyə tapşırdı. Keçəl Həmzə yabıya muğayat olmağa başladı. Amma başladı, nə başladı...

Axşam tumarlayır, səhər tumarlayır, yabıya bir can yandırırdı ki, gəl görəsən. Tövlədəki atların otundan, arpasından oğurlayıb yabının qarnına tökürdü. Bir neçə gündə yabını elə kökəltdi, elə kökəltdi ki, dərisinə sığmaz elədi.

Bir gün Koroğlu tövləyə atların yanına gəlmişdi. Yabıya baxıb mat-məəttəl qaldı. Dedi:

– Kaloğlan, sən ata nə yaxşı muğayat olurmuşsan. İndi ki belə ata baxmaq əlindən gəlir, Dürat bu il çox sınqındı, tapşırıram onu sənə. Gərək onu da Qırata çatdırasan.

Bu işə xanımlar, dəlilər razı olmadılar. Amma Koroğlu onlara qulaq asmadı.

Keçəl Həmzə bir neçə gün Dürata çox yaxşı baxdı. Elə ki at başladı dirçəlməyə, birdən arpasını xırpadan kəsdi. Dürat yenə də başladı arıqlamağa.

Koroğlu işi belə görüb soruşdu:

– Ay Kaloğlan, bu ata nə oldu belə, genə gün-gündən dala gedir? Olmaya, yaxşı baxmırsan?

Keçəl Həmzə dedi:

– Mən əlimdən gələni eləyirəm, ağa! Amma at, o necə deyərlər, gecə-gündüz içəridə başından bağlıdı, ayaqlarından buxovlu. Nə eşik üzü görür, nə gün üzü. Yəqin ki, ondan sınıxır.

Qırat ilə Dürat bir tövlədə bağlanırdı. Atların ikisinin də ayağında buxov var idi. Özləri də ayrı-ayrı açarlarla açılırdı. Koroğlu çıxartdı Düratın açarını Keçəl Həmzəyə verdi. Xanımlar, dəlilər bunu eşidib dedilər:

– Ay Koroğlu, sən nə eləyirsən? Tanımadığın, bilmədiyin bir adama etibar eləyib Düratın buxov açarını niyə verirsən?

Koroğlu yenə də xanımları, dəliləri sakit elədi ki:

– Qorxmayın, heç zad olmaz.

Keçəl Həmzə bir neçə gündə yenə də Düratı dərisinə sığmaz elədi. Amma ki, vaxt keçirdi. Keçəl Həmzə Çənlibelə gələni az qalırdı, bir ay olsun. Hasan paşaya verdiyi vədə tamam olurdu. Çox fikir-xəyaldan, çox götür-qoydan sonra gecələrin birində öz-özünə dedi: “Mən bir il də burada qalsam, Koroğlu Qıratın nə mehtərçiliyini mənə verəcək, nə də buxovunun açarını. Toqatda nə tanıyırlar ki, Qırat hansıdı, Dürat hansıdı. Elə bunu aparım, paşanı aldadım, qızı alım, beş gün bu dünyada kef çəkim”.

Keçəl Həmzə bunu deyib, gecə xəlvətcə Düratı yəhərlədi. Minib, asta qaçan namərddi, birbaş Toqat deyib daban aldı.

Sabah açıldı. Dəli Mehtər yerindən qalxıb atlara baş çəkmək üçün tövləyə gəldi. Gördü, nə Dürat var, nə də Keçəl Həmzə. Başılovlu gəldi Koroğlunun yanına ki:

– Nə durubsan? Nə Dürat var, nə də Keçəl Həmzə...

Dəlilər çaxnaşıb bir-birlərinə dəydilər. Xanımlar da bir yandan düşdülər Koroğlunun üstünə. Di başladılar məzəmmət eləməyə ki:

– Biz sənə demədikmi, tanımadığın adama etibar eləyib atı tapşırma. İgidin atını apardılar, ya arvadını, ikisi də namusdan sayılır. Bizim qorxumuzdan quş quşluğu ilə Çənlibelin həndəvərinə gələ bilmirdi. Koroğlunun, Çənlibelin, dəlilərin adı gələndə paşalar, bəylər tir-tir əsirdilər. Gör indi iş nə yerə gəldi ki, keçəl gədənin birisi gəlib buradan at apardı. İndi bu xəbər ətrafa yayılacaq. Düşmənlər üstümüzə ayaq alacaq. Özün öz əlinlə elə iş elədin ki, aləm yığılsaydı, sənə eləyə bilməzdi. İndi de görək, Düratı haradan tapacaqsan? Necə gətirəcəksən?

Koroğlu dedi:

– Dürat gedib, Qırat durur. Minib, gedib, tapıb gətirrəm. Az məni məzəmmət eləyin.

Dəlilər başladılar deyinməyə ki: gedərsən... gətirərsən... Sən nə bilirsən ki, o kimdi? Haradan gəlmişdi? Atı haraya apardı?

Koroğlu qəzəblənmişdi. Taqsırkardı deyin, bir söz deyə bilmirdi. Amma ki, acığından bığlarını gəmirirdi. Birdən dik qalxdı ayağa. Dəli Mehtərə dönüb çığırdı ki:

– Atı yəhərlə!

Qıratı ifçin yəhərləyib Koroğlunun qabağına çəkdilər. Elə bil ki, Koroğlunun dili lal olmuşdu. Bir kəlmə nədi, heç dodağını da tərpətmədi. Atı minib yola düşdü.

Koroğlu Qıratı sürməkdə olsun, sənə deyim Həmzədən.

Həmzə canının qorxusundan bir yerdə düşüb dincəlməyib at sürürdü. Yolun üstündə Qırx Dəyirmanlar deyilən bir yer var idi. Oraya çatmağa az qalmışdı ki, dönüb geri baxdı. Gördü, vallah, yolda toz dumana qarışıb, duman toza. Bir də diqqət eləyəndə gördü, budu, Koroğlu Qıratın üstündə elə gəlir, elə gəlir ki, ley kimi. Keçəl Həmzənin tüpürcəyi qurudu. Ha udqundu, gördü, yox, ağzının suyunu uda bilmir. Elə onu eləyə bildi ki, Düratı qamçılayıb özünü tez Qırx Dəyirmanın qapısına saldı. Atdan düşdü. Atı dəyirmanın qapısındakı dirəyə bağlayıb tələsik çağırdı:

– Ay dəyirmançı, bir tez eşiyə çıx!

Dəyirmançı tez eşiyə çıxıb soruşdu:

– Qardaş, nə istəyirsən? Nə var?

Həmzə dedi:

– Bax, o yol gələn qoç Koroğludu. Çənlibeldən gəlir. İlxısına qotur düşüb. Nə qədər dava-dərman eləyibsə, bir şey çıxmayıb. Axırda həkim-kimyagər dəyirmançı beyni buyurub. İndi dəyirmançı beyni axtarır ki, atların qoturunu qurtarsın. Məni Hasan paşa göndərib ki, dəyirmançılara xəbər verəm. Tez başına çarə qıl ki, yetişsə, ömrünü tamam eləyəcək.

Dəyirmançı dili tutar-tutmaz dedi:

– Ay qadan alım, bəs mən nə eləyim? Onun əlindən necə qurtarım? Bir bölük köç-külfətim var. Gəl məni tərkinə al, bir yana qaçırt.

Həmzə dedi:

– Soyun paltarını, al, mənim paltarlarımı gey, get, dəyirmanın donuzluğunda gizlən. Mən Koroğlunun ağzını bir yana salaram, çıxıb-gedər. Sala bilməsəm də, qoy məni öldürsün. Sən yazıqsan. Uşaqların yetim qalar. Mən subay adamam.

Dəyirmançı tez paltarını çıxarıb onun paltarlarını geydi. Qaçıb donuzluğa girdi. Həmzəyə də elə bu lazım idi. Tez onun paltarını geyinib dəyirmanın içinə girdi. Özünü guppadan unluğun içinə salıb üzünü-gözünü o ki var, una buladı.

O tərəfdən Koroğlu özünü dəyirmanın qapısına yetirib çağırdı ki:

– Ay dəyirmançı, çölə çıx!

– Nə buyurursan? Mənə görə nə qulluq?

Koroğlu dedi:

– İndicə mənim qabağımca buraya gələn atlı necə oldu?

Keçəl Həmzə dedi:

– Odu, girib içəridə dəyirmanın donuzluğuna, gizlənib. Bilmirəm, nə işi varsa, səni görən kimi qaçıb donuzluğa girdi.

Koroğlu atdan sıçrayıb düşdü. Dedi:

– Bir bu atı saxla görüm.

– Ayə! Ay keçəl! Belə çıx!

– Haraya çıxım? Mənim sənin ilxının qoturuna dərman olası beynim yoxdu. Ölsəm də, çıxmaram.

Koroğlu dedi:

– Ayə! Ay keçəl! Qotur nədi? Beyin nədi? Belə çıx! Səninlə işim çoxdu.

Koroğlu gördü, yox, bu öz xoşuna donuzluqdan çıxmaq istəmir. İrəli yeridi. Dəyirmançı qorxub lap dibə çəkildi. Koroğlu bir addım da irəli atdı. Dəyirmançı qorxudan lap küncə qısılmaq istəyəndə paltarı ilişdi dəyirmanın çarxına, çarx az qalmışdı dəyirmançını birtəhər eləsin ki, Koroğlu aman verməyib cəld onun qıçından tutdu, çəkdi bayıra. Baxdı ki, Həmzə nə gəzir, bu, dəyirmançı imiş. Başa düşdü ki, Həmzə onu aldadıb. Tez bayıra tullandı. Eşit, gör indi Həmzə nə elədi.

Keçəl Həmzə Çənlibeldə Dürata baxdığı zaman Qıratın da yan-yörəsinə hərlənib özünə mehriban eləmişdi. Bir də Qıratın belə bir xasiyyəti var idi ki, Koroğlu onun yüyənini kimə tapşırsaydı, ona üzəngi verərdi. Odur ki, Koroğlunun başı içəridə dəyirmançıya məşğul olan müddətdə Həmzə Qıratın gözlərini tumarlayıb minmişdi. Koroğlu dəyirmandan çıxıb baxdı ki, Keçəl Həmzə Qıratın belində, dəyirmandan da bir az aralı durub. Koroğlu bir qəzəbləndi, misri qılıncını çəkib hücum eləmək istədi. Ancaq baxdı ki, bundan bir fayda olmayacaq. Qırat ayağını götürsə, heç quş da ona çata bilməz. Başladı onu dilə tutmağa. Dedi:

– Ayə, Kaloğlan, atı yeyin sürmüşəm, tərləyib. Elə minib incitmə! Düş, al yedəyinə, bir az gəzdir, təri soyusun.

Həmzə dedi:

– Eybi yoxdu. Mən elə yavaş-yavaş sürüb gedəcəyəm. Soyuyar.

Bunu deyib Həmzə başladı atı gərdişə gətirməyə. Koroğlu baxdı ki, Həmzə at minməkdə çox naşıdı. Yüyəni qorxudan elə dartır ki, dəhnə az qalır atın cəvcələrini kəssin. Koroğlunun ürəyi tablamadı. Dedi:

Canım Həmzə, gözüm Həmzə,
Həmzə, incitmə Qıratı!
Budu sənə sözüm, Həmzə,
Həmzə, incitmə Qıratı!

Qıratdı mənim dirəyim,
Əriyər, qalmaz ürəyim.
Sən olasan duz-çörəyim,
Həmzə, incitmə Qıratı!

Qırat mənim iki gözüm,
Belə dərdə necə dözüm?
Həmzə, sənə budu sözüm,
Oğul, incitmə Qıratı!

Eşidər paşalar, bəylər,
Şadlıq xəbərini söylər.
Koroğlu iltimas eylər,
Bala, incitmə Qıratı!

Həmzə dedi:

– Koroğlu, igidliyin var. Adın-sanın var. Mərd adamsan. Bir ay süfrənin qırıq-quruğundan yemişik, onu niyə dilinə gətirib başımıza vurursan? Heç sənə yaraşan sifət deyil. Bir də bir at nədi ki, onun üçün bu qədər yalvarıb-yaxarırsan?

Koroğlu dedi:

– Həmzə, mən bilirəm ki, sən bu atı aparıb saxlayan, minən deyilsən. Düzünü de görüm, səni kim öyrədib göndərib?

Həmzə dedi:

– Koloğlu, eşit və agah ol! Mən Çənlibeldə sənə nə demişəmsə, hamısı doğrudu. Bu keçəl baş bu gen dünyanı mənə dar eləyib. Bir adam rəğbət eləyib məni qapısına qoymur. İndi bu atı aparıram Toqatda, verəm Hasan paşaya, bəlkə, bu yolla bir ağ günə çatam.

Koroğlu dedi:

– Ayə, bu tədbir Hasan paşanındı, ya elə sən özün bu fikrə düşmüsən?

– Xeyr, Hasan paşanındı. Məni o göndərib.

Koroğlu dedi:

– Bala, indi ki belədi, düş, atı ver özümə, dünya malından nə deyirsən, nə qədər pul istəyirsən, sənə verim.

Həmzə güldü, dedi:

– Koroğlu, sən dünya görmüş adamsan. Niyə sən bilmirsən ki, keçəli Allah da aldada bilməz. Yaxşı, mən atdan düşəndən sonra sən Koroğlu məni sağ buraxarsan? Yox, aşna, üz vurma! Keçəl suya getməz.

Koroğlu dedi:

– Ayə, Kaloğlan, indi sən elə atı mənim əlimdən alıb, aparıb Hasan paşaya verəcəksən?

– Koroğlu, keçəl mərd olar. Mən sənin nəinki atını, heç bir tükünü də qıyıb Hasan paşaya vermərəm. Mən bilirəm ki, sən axırda gəlib öz atına sahib olacaqsan. Mən ona görə belə eləyirəm ki, ortada bir ağ günə çıxam. Hər nə vaxt ki Toqata gəldin, atın üzəngisini özüm basıb səni ona mindirəcəyəm. İndi day məni bağışla, gedim. Yolum uzaqdı.

Koroğlu gördü Həmzə atı aparır, dedi:

– Həmzə, indi ki yola gəlmirsən, atı aparırsan, barı əylən, onun qiymətini deyim, aldanıb ucuz verməyəsən.

Bunu deyib, Koroğlu sazı basdı sinəsinə, dedi:

Əylən, deyim Qıratın qiymətini,
Səksən min sərkərdə, mala da vermə!
Səksən min ağ tüklü qəmər öyəcə,
Səksən min xəzinə pula da vermə!

Səksən min ilxıya, səksən min ata,
Səksən min mahaldan gələn barata,
Səksən min kotana, səksən min cütə,
Səksən min kotanlı kala da vermə!

Həmzə dedi:

– Koroğlu, arxayın ol, mən atı dünya malına verməyəcəyəm, Hasan paşa ilə şərtim var. Atı ona verib onun kiçik qızı Dona xanımı alacağam.

Koroğlu dedi:

– Ay zalım, belə atı da bir qıza verərlərmi?

Sazı sinəsinə basıb aldı sözün axır xanəsini, dedi:

Koroğlu dövlətin endirsin düzə,
Say, götür hamısın səksən min yüzə.
Səksən min gəlinə, səksən min qıza,
Səksən min ərgənə, dula da vermə!

Həmzə dedi:

– Koroğlu, mən işin olanını sənə dedim. İndi özün bil. Mənə nə ad verirsən, ver! Day mən gedirəm.

Koroğlu dedi:

– Həmzə, indi ki belə oldu, apar, get, muradına çat! Ancaq mən gəlincə atı yaxşı saxla! Qoyma incitsinlər. Sən ki bilirsən. At ki var, igidin qardaşıdı.

Bu sözdə Koroğlunun ürəyi köyrəldi. Sazı yenə də sinəsinə basdı, dedi:

Həmzə, atı yaxşı saxla!
At igidin qardaşıdı.
Gündə muğayat olub yoxla!
At igidin qardaşıdı.

Yay olanda dağa yollat!
Yaz olanda ifçin nallat!
Qış olanda məxmər çullat!
At igidin qardaşıdı.

Atı sevib bəslə körpə,
Hayqıranda çıxsın sarpa,
Hər yeyəndə qırx tas arpa,
At igidin qardaşıdı.

Uzaq-uzaq yollarınan,
Beli ipək çullarınan,
Hoqqa yarım nallarınan,
At igidin qardaşıdı.

Məclis qurdum çoxlarınan,
Dava etdim oxlarınan,
Qara polad mıxlarınan,
At igidin qardaşıdı.

Sərin-sərin yu suyunan,
Quyruğun bağla muyunan,
Qoç Koroğlu çox öyünən
At igidin qardaşıdı.

Həmzə dedi:
– Koroğlu, arxayın ol! İnşallah gələrsən, görərsən.
Koroğlu dedi:
– Həmzə, get. Amma mənim bu sifarişimi də Hasan paşaya çatdır:

Get de o paşaya, köç eləməsin,
Qıratı gətirrəm, qala qoymaram!
Qoşunun qıraram, varın taparam,
İlxısında bir day qala qoymaram!

İçmişəm badəni, indi meyxoşam,
Qıratın dərdindən dəli, sərxoşam,
Sözlərimi eşit, yaxşı bil, paşam,
Dağıdıb ölkəndə qala qoymaram.

Həmzə dedi:

– Gözüm üstə! Çatdıraram. Ancaq sən tez gəl!

Keçəl Həmzə bunu deyib Qıratı səyirtdi, gözdən itdi. Koroğlu Düratı qaytarmağa gəlmişdi, Qıratı da əlindən verdi. Dəyirmanın qapısında yerə oturdu, aldı görək nə dedi:

Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən, Koroğlu!
Verdin Qırı, aldın Dürü,
Döy başına, yan, Koroğlu!

Qırat əldən getdi barı,
Canda qaldı intizarı.
Üyüd arpa, buğda, darı,
Al şahadın sən, Koroğlu!

Qırat burdan getdi büyün,
Sinəmə vurdu dağ, düyün,
Gedim, dəllərə nə deyim?
Öl, burada qal, Koroğlu!

Koroğlunun özü ac idi, atı da arpasız. Dəyirmançı da suyu sovub qaçmışdı. Koroğlu gecəni ac-susuz yatdı. Elə ki sabah açıldı, bir də baxdı ki, budu, bir kişi qabağında da iki yüklü öküz gəlir. Kişi gəlib yetişdi. Bir Koroğluya baxdı, bir paltar-maltarına, şəst-bəstinə baxıb dedi:

– A qardaş, dəyirmançı hanı?

Koroğlu dedi:

– Dəyirmançı yoxdu. İndi dəyirmanda mən dururam.

Kişi inanmadı. Amma Koroğlu da macal vermədi. Bayaq ha öküzlərin üstündən çuvalları düşürüb dəyirmana apardı. Sonra kişidən soruşdu:

– Qardaş, bunların içində heç arpa varmı? Mənim atım arpasızdı. Qorxuram damaq ola. Bir az ona arpa verim, yesin.

Kişi dedi:

– Çuvalların ikisi arpadı, ikisi buğda.

Koroğlu baxdı ki, arpa çuvalları yarımçıqdı. Tez ikisini qarışdırıb bir çuval elədi. Düratın qabağına qoydu. Kişi istədi, qoymasın. Koroğlu ona bir tərs baxdı. Kişi gördü ki, bu o dəyirmançılardan deyil. Bir az da oyan-buyan eləsə, çəkib cəcənəyini ayıracaq. Yavaşca çəkilib bir tərəfdə durdu. Koloğlu özü də yaman ac idi. Dürat arpasını yeyənə qədər buğdanı da töküb üyütdü. Unluğa bir az su buraxıb tez xamır qatdı, ocaq çatdı, çörək bişirdi. Öküzün də birini kəsdi, kabab çəkdi. Yeyib, toqqanın altını bərkitdi. Doyandan sonra dönüb kişiyə baxdı. Gördü kişi kirimişcə durub matdım-matdım baxır onun üzünə. Dedi:

– Əmi, özünü itirmə, bu şeyləri ki, mən yedim, pulu neçə eləyir?

Kişi dinmədi. Koroğlu gördü ki, kişi ondan qorxub. Çıxartdı taxılın da, öküzün də pulunu ikiqat verib onu razı saldı. Sonra Düratı minib yola düşdü.

Dəlilər, xanımlar Koroğludan çox nigaran idilər. Gözlərini yola dikib onu gözləyirdilər. Bir də gördülər ki, budu, Koroğlu gəlir. Gəlir, amma necə gəlir. Dürat yedəyində, başın dikib aşağıya. Özü də elədi, elədi ki, elə bil dəyirmançıdı. Dəlilər, xanımlar o saat başa düşdülər ki, Keçəl Həmzə dəyirmanda Koroğlunu aldadıb, Qıratı qaçırdıb. Hamı başını aşağı saldı. Nə bir salam, nə bir kalam. Heç kefini, halını da soruşmadılar.

Koroğlu gəlib çatdı. Eyvaz onun qabağına çıxdı. Aldı görək nə dedi:

Təzə sövdagər olubsan,
Bu sövdan mübarək olsun!
Alış-veriş öyrənibsən,
Bu sövdan mübarək olsun!

Niyə girdin dəyirmana?
Bizi qoydun yana-yana,
Atı verdin Kaloğlana?
Bu sövdan mübarək olsun!

Sən Eyvazı qoydun xəstə,
Get, comərddən mətləb istə.
De bir, neçə verdin üstə?
Bu sövdan mübarək olsun!

Koroğlu neçə-neçə səfərlərə getmişdi, amma heç olmamışdı ki, qayıdanda dəlilər belə eləsinlər. Amma bu dəfə... Hələ o bir tərəfə dursun ki, xanımlar onun üzünə baxmırdı, dəlilər salam vermirdi. Eyvazın töhmətli sözləri Koroğluya dağdan ağır gəlmişdi. Koroğlu elə bir hala düşmüşdü ki, az qalırdı, gözlərindən yaş gəlsin. Sazı sinəsinə basıb qəmli-qəmli dedi:

Keçər dövran, belə qalmaz,
Şad ol, könül, nə məlulsan?!
Dəlilərim salam almaz,
Şad ol, könül, nə məlulsan?!

Geydiyim igid kürküdü,
Dünya Süleyman mülküdü,
Dövlət ki var, əl çirkidi,
Şad ol, könül, nə məlulsan?!

Koroğluyam, deyim sənə,
Od tutub alışdı sinə,
Aşıqlığım bəsdi mənə,
Şad ol, könül, nə məlulsan?!

Dəlilər o qədər incimişdilər ki, bu sözlər də ürəklərini yumşaltmadı. Heç birisi Koroğlunun üzünə baxmadı. Hələ bəziləri başladılar dinib-danışmağa. Birisi dedi:

– İndi ki biz dəlilərin sözü Koroğlunun yanında bir çürük qozdur, day bizim burada qalmağımızdan nə çıxsın?

Söz Koroğluya acıq gəldi. Bir tərəfdən Qırat əldən getmişdi. Bir tərəfdən Həmzə kimi bir keçəlin biri onu aldatmışdı. Öz dərdi özünə bəs deyildi, indi də dəlilər belə deyirdilər.

Özünü saxlaya bilməyib birdən qayıtdı ki:

– Mən heç kəsi burada güclə saxlamıram. Kim getmək istəyir, çıxıb getsin. At mənimdir, vermişəm, özüm billəm.

Bu söz dəliləri götürdü. Hamısı vəlvələyə düşdü. Getmək üçün hazırlaşmağa başladılar. Nigar işi belə görəndə ayağa durdu. Dəlilər dayandılar. Nigarın dəlilər arasında o qədər hörməti var idi ki, bir sözünü iki eləməzdilər. Dəli Həsən qayıdıb oturdu. Eyvaz oturdu. Dəmirçioğlu oturdu. Dəlilər hamısı bir-bir qayıdıb oturdular. Nigar özü də onların arasında oturub üzün də Koroğludan o yana çevirdi.

Bu məlul, müşkül vaxtında Nigarın küsməyi Koroğlunun ürəyini lap qübarlandırdı. Üzünü ona tutub dedi:

Uca dağların başına,
Çıxmağı kimdən öyrəndin?
Sən mənim dəli könlümü
Yıxmağı kimdən öyrəndin?

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı,
Koroğlunun gözəl yarı,
Küsməyi kimdən öyrəndin?!

Söz tamam oldu. Amma Nigar heç bir cavab vermədi. Heç başını qaldırıb onun üzünə də baxmadı. Koroğlu gördü, yox, bu, elə-belə küsmək deyil. Nigar da üz çevirib. Bu, Koroğluya hamısından bərk yer elədi. Sazı sinəsinə basdı, görək nə dedi:

Ala gözlü Nigar xanım,
Üzün məndən niyə döndü?!
Sənə qurban şirin canım,
Üzün məndən niyə döndü?!

Qoyun otlar quzu ilə,
Ayağının tozu ilə,
Müxənnətin sözü ilə
Üzün məndən niyə döndü?!

İgidin yatmasın baxtı,
Yana çevrilməsin taxtı,

Koroğlunun məlul vaxtı
Üzün məndən niyə döndü?!

Nigar bir tərs-tərs ona baxdı. Dedi:
– Sən işi o yerə çatdırmısan ki, dəlilərə “gedin” deyirsən?
Onda əlini uzadıb sazı onun əlindən aldı. Dedi:

Binadan gözəl olmayan
Telin qədrini nə bilir?
Çöldə gəzən boz sərçələr
Gülün qədrini nə bilir?

Kəl qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən
Balın qədrini nə bilir?

Utan, qoç Koroğlu, utan!
Dağların damənin tutan!
Sənin kimi başa çatan
Elin qədrini nə bilir?

Ustad deyir ki, Koroğlu Nigar xanımın bu sözündən sonra bir kəlmə də kəsmədi. Öz taqsırını başa düşdü. Durub birbaş getdi, göy otun üstündə üzü üstə düşdü. Üç gün, üç gecə tamam ac, susuz yatdı.

Dəlilər də başa düşdülər ki, pis eləyiblər. Ona ürək-dirək vermək yerinə, bir az da ürəyini sıxıblar. Qəlbinə toxunublar. Nə qədər oyan-buyanına keçdilərsə, Koroğlu oyanmadı. Deyirlər ki, o belə vaxtlarında üzü üstə düşüb düz üç gün, üç gecə yatardı.

Dəmirçioğlu dedi:

– Nigar xanım, bu iş Eyvazla səndən aşacaq. Siz gərək onun ürəyini alasız.

Nigar dedi:

– Yaxşı. Qoy yatsın. Durana macal siz dağılıb gedin. Gözünə görünməyin. Eyvaz onu mənim yanıma gətirər, mən işi yoluna qoyaram.

Dəlilər tədbir tökməkdə olsunlar, sizə kimdən deyim? Koroğludan.

Üç günün tamamında Koroğlu yuxuda gördü ki, Toqatda Hasan paşanın qabağındadır, Qırat da altında. Diksinib yuxudan oyandı. Baxdı ki, Eyvaz oturub onun başının üstündə. Özü də elədi, elədi ki, bircə sözə bənddi, ağlasın. Koroğlunun ürəyi Səməndər kimi alışdı, yandı. Sazı bağrına basıb dedi:

Eyvaz, məndən nə istərsən,
Candımı, başdımı, nədi?
Axıdırsan ala gözdən
Qandımı, yaşdımı, nədi?

Məclisdə dolanmır sağın,

Sinəm üstdən getməz dağın.
Tökülübdü qaşqabağın,
Boranmı, qışdımı, nədi?

Dayan, qoç Koroğlu, dayan!..
Sözlərini elə bəyan!
Yatıbsan, qəflətdən oyan!
Gördüyün düşdümü, nədi?

Eyvaz dedi:

– Dur gedək! Dəlilər, xanımlar səni gözləyir.

Koroğlu dedi:

– Yox, Eyvaz! Yalan deyirsən. Mən ki dəliləri, xanımları özümdən elə incitdim, onlar day bir də mənim üzümə baxmazlar.

Eyvaz nə qədər elədisə, Koroğlu durmadı. Dedi:

– Yox, Eyvaz! Mən gedib Qıratı gətirməyincə onların üzünə çıxa bilmərəm.

Eyvaz dedi:

– Bu fikrə mən də razıyam. Di onda dur ayağa, geyin, yar-yaraq götür, get!

Koroğlu durdu ayağa. Elə bir addım atmışdı, bir də baxdı, vallah, kimdisə bir saz çalır, bir oxuyur ki, gəl görəsən. Qulaq verib gördü, çalıb-oxuyan Nigardı. Amma elə çalır, elə oxuyur ki, göydə gedən quşlar az qalır, qanad saxlayıb tamaşaya dursun.

Belə baxanda gördü, Nigar Yağı qoruğunun yanındakı çəmənliyin başında dayanıb, üzünü də ona tutub deyir:

Ay ağalar, ay qazılar,
Ay bu gələn yar olaydı!..
Haqdan beləymiş yazılar,
Ay bu gələn yar olaydı!..

Bağçalar olmasın narsız,
Heyvalar olmasın barsız,
Heç gözəl olmasın yarsız,
Ay bu gələn yar olaydı!..

Ay bimürvət, çıxdı canım,
Müjganların tökdü qanım,
Sənə qurban Nigar xanım,
Ay bu gələn yar olaydı!..

Eyvaz dedi:

– Gördün ki? Di gəl!

Koroğlu Nigara tərəf yönəldi. Gəlib çəmənə çatanda nə gördü? Burada bir məclis qurulub ki, gəl görəsən. Dəlilər, xanımlar – hamısı geyinib-kecinib onu gözləyirlər.

Koroğlu məclisə girdi. Eyvaz özü saqi dolandırmağa başladı. Yedilər, içdilər, keflər kökəldi, damaqlar çağladı, inciklik yaddan çıxdı. Yenə də əvvəlki kimi oldular. Koroğlu Keçəl Həmzənin işini necə ki, olmuşdu, onlara danışdı. Sonra sazı götürüb dedi:

Allahı çağırıb düşərəm yola,
Bu dərdi sinəmdə qala, qoymaram.
Qıratım həsrətdi, yolum gözləyir,
Düşmanlar əlində qala, qoymaram.

Ah çəkərəm, hərdən köysüm ötürrəm,
Yola düşüb mətləbimi bitirrəm,
Ya ölərəm, ya Qıratı gətirrəm,
Ayı dolansa da, ilə qoymaram.

Koroğluyam, qoç oğluyam, qoçam mən,
Çətindi ki, mərd meydandan qaçam mən,
Havada dövr edən tərlan quşam mən,
Sarlar şikarımı ala, qoymaram.

Koroğlu ayaqdan geyindi, başdan qıfıllandı, başdan geyindi, ayaqdan qıfıllandı. Misri qılınc bağladı. Qalxan asdı. Əmud götürdü. Dava libasının üstündən bir kürk geyindi. Çiyninə də bir saz keçirtdi. Tək başına, payi-piyada Toqata yola düşdü. Az getdi, çox getdi, gecəni gündüzə qatdı, gündüzü gecəyə qatdı, özünü Toqat şəhərinə yetirdi. Baxdı ki, hava qaranlıqlaşır. Bir qarının qapısını döyüb dedi:

– Ay qarı nənə, bu gecəliyə məni qonaq saxlayarsanmı?

Qarı dedi:

– Niyə saxlamıram. Qonaq Allah qonağıdı.

– İndi ki, elədi, al, mənə yemək hazırla!..

Qarı pulu çox görüb soruşdu:

– Pulun qalanını nə eləyim?

– Qalanı nədi? Hamısına al!

Qarı soruşdu:

– Tək canına bu qədər şeyi neynirsən?

Koroğlu gülüb dedi:

– Qonağım var. On adamlıq xörək bişir!

Koroğlu içəri girib oturdu. Qarı da tez ayağa durub bazara üz qoydu. Yağdan, düyüdən, ətdən alıb, gətirib on adamlıq xörək hazırladı.

Elə ki xörək hazır oldu, qarı gəldi ki:

– Yaxşı, xörək hazırdı. Sənin də yoldaşların gəlmədi. Bəs nə eləyək?

Koroğlu dedi:

– Onlar day gələsi olmadılar. Çək, gətir buraya!

– Elə hamısını?

Koroğlu dedi:

– Bəli. Elə hamısını.

Qarı əvvəlcə inanmadı. Sonra gördü ki, yox, balam, bu elə düz danışır. Fikirləşdi ki, yaxşı, çəkib apararam. Bu day əjdaha-zad deyil ki... Bir qarnı var da... Yediyini yeyər, qalanı da mənim on-on beş günümə bəsdi.

Qərəz, qarı ortalığa yekə bir mis məcməyi qoyub plovu çəkdi. Məcməyi təpə kimi qalandı. Yazıq qarı nə qədər hıqqandı, məcməyini yerdən götürə bilmədi. Koroğlu işi belə görüb durub gəldi. Məcməyini götürüb evə gətirdi, ortalığa qoydu, qollarını da çırmayıb əyləşdi. Qarı fikirləşdi ki, mənim oturub bununla bir yerdə yeməyim yaxşı deyil. O yeyər, doyar, qalanını da mən xırda-xırda yeyərəm.

Koroğlu qarını çağırdı ki:

– Qarı nənə, gəl, yeyək!

Qarı dedi:

– Sən ye! Mən ac deyiləm.

Koroğlu dedi:

– Nə yemisən ki, ac deyilsən? Gəl! Sonra peşman olarsan.

Qarı dedi:

– Yox, sən ye! Mən elə qoxusu ilə doymuşam.

Koroğlu bir də dedi:

– Qarı nənə, gəl! Bax, sonra peşman olarsan ha...

Qarı genə də naz elədi. Koroğlu ilişdi plova. Birinci tikədə plovun ürəyi üzüldü. İkinci, üçüncü... Qarı gördü, bu, bir-iki tikə də vursa, məcməyidə bir şey qalmayacaq. Düşdü əl-ayağa ki, plovdan şişəcəyəm. Ancaq day bir dəfə "yemirəm" demişdi, düşmüşdü boynuna. Yaxınlaşa bilmirdi. Elə bu fikirdə idi ki, "ay Allah, bir də çağıraydı, bir-iki tikə də mən yeyəydim".

Koroğlu dedi:

– Qarı nənə, gəl, peşman olarsan.

Qarı tez çökdü məcməyinin başına. Qərəz, yedilər, içdilər, qarınlarını doyurdular. Koroğlu bir düzəldi. Pələ bığlarını eşib qulaqlarının dalına keçirdi. Qarı da ortalığı yığışdırdı. Əyləşib söhbətə başladılar…

Qarı dedi ki:

– Sənin qonaqların gəlmədi. Bu sazı da ki, bir çalmadın.

Koroğlu dedi:

– Eybi yoxdu. Sabah gələrlər, çalarıq.

– Sabah mən evdə olmayacağam. Həmzə bəyin toyuna gedəcəyəm.

Koroğlu dedi:

– Nə Həmzə bəy? Həmzə bəy kimdi?

– Həmzə bəy Hasan paşanın kürəkənidi. Çox igid oğlandı. Gedib, o Koroğlu var ha... Eşidibsən ki?

Koroğlu dedi:

– Hə. Eşitmişəm.

– Hə, Həmzə gedib o Koroğlunun atını gətirib. Hasan paşa da ona bəylik verib, üstəlik də qızı Dona xatını verir ona. Sabah toylarıdı…

Koroğlu soruşdu:

– Ay qarı nənə, bəs Koroğlunun o atını harada saxlayırlar?

– Hasan paşanın tövləsində. Amma çər dəymiş deyirlər, yaman bəddi. Yanına bir adam qoymur. Day Hasan paşanın tövləsində mehtər qalmayıb, hamısını şil-küt eləyib. İndi arpa-samanını bacadan tökürlər.

Qərəz, Koroğlu öyrənməlisini öyrəndi, bilməlisini bildi, ondan qarıya dedi:

– Gecə keçir. Gəlsənə, yataq.

– Nə olar, elə mən də səhər tezdən toya gedəcəyəm. İstəsən, sən də gələrsən. Bir az çalıb-oxuyarsan, nəmərdən-zaddan alarsan.

Qərəz, gecəni yatdılar. Səhər Koroğlu durdu. Geyinib-kecindi. Qarını çağırıb bir ovuc da pul verdi. Dedi:

– Əgər gecə gəldim, şeydən-meydən alarsan, yeyərik. Yox, gəlmədim, özün üçün xərclərsən…

Koroğlu sözünü qurtarıb sazı çiyninə saldı. Yavaş-yavaş gəlib Hasan paşanın imarətinə çatdı. Baxdı ki, bir toydu, bir toydu, gəl görəsən. Məclis paşa, bəy, xan, tacirlərlə doludu.

Bəli, eşitdilər ki, aşıq gəlib, hamı sevindi. Koroğlunu çəkib məclisə apardılar. Amma baxdılar ki, bu aşıq heç onlar görən aşıqlardan deyil. Boy uca, kürəklər enli… Boynunun əti girdin-girdin, bığlar kəl buynuzu kimi. Sirindən-sifətindən zəhm tökülür. Məclisdəki paşalardan biri dedi:

– Aşıq, hara aşığısan?

– Qafın o biri tayındanam, ağrın alım!

Paşa dedi:

– Koroğlunu tanıyırsanmı, aşıq?

Koroğlu dedi:

– Çox yaxşı tanıyıram. Bir dəfə o mənim başıma elə bir iş gətirib ki, dünya durduqca yadımdan çıxmayacaq.

Hasan paşa soruşdu:

– Nə iş?

– Paşa sağ olsun, o Koroğlunun bir çərən dəymiş atı var. Adına da Qırat deyərlər.

Paşalardan birisi istədi danışsın, Hasan paşa qoymadı. Koroğluya dedi:

– Danış! Danış!

– Hə, paşa, at çox yaxşı atdı. Amma ki, dəlidi. Günlərin bir günü yolla gedirəm. Elə bax, bu saz da çiynimdə. Bir də onu gördüm ki, məni qamarladılar. Gözümü bağlayıb dik götürdülər. Hara getdik, necə getdik, bilmədim. Bir də gözümü açdılar, baxdım ki, bir dağın üstündəyəm. Qabağımda da bir kəlpeysərin birisi dayanıb. Sən demə, bura Çənlibel imiş, o kəlpeysər də Koroğlu. İndi denən, məni buraya nəyə gətiriblər? Sən demə, bu atın yenə də dəliliyi tutub. Nə qədər dava-dərman eləyirlər, bir şey çıxmır. Yanına adam qoymur ki, qoymur. Girinə kim keçirsə, şil-küt eləyir. Axırda Koroğlunun bir kimyagər həkim dostu var, onu tapırlar. Həkim gorbagor deyir ki, bəs bu atın cini var. Gərək bunun yanında üç gün, üç gecə saz çalına, söz oxuna ki, bəlkə, bunun cini yata. O vaxtlar hələ Koroğlu çalıb-oxumaq bilməzdi. Sən demə, mən başıdaşlını bunun üçün gətiriblərmiş. Qərəz, başağrısı olmasın, məni itələyib saldılar bu atın yanına. O üç gündə mən nə çəkdim, Allah bilir. Day o necə deyərlər, anadan əmdiyim süd burnumdan gəldi.

Hasan paşa tez soruşdu:

– At necə oldu? Sağaldımı?

– Sağaldı! Elə Koroğlu da ondan sonra çalıb-oxumaq binasını qoydu. Deyirlər, indi genə də beşdə, on beşdə atın cini tutur. Day Koroğlu özü çalıb-oxuyub onu sağaldır.

Yenə də paşalardan biri istədi danışsın, Hasan paşa gözünü ona ağartdı. Sonra aşpazı çağırdı ki:

– Apar, aşığı yedirt, içirt, doydur, sonra buraya gətir.

Aşpaz Koroğlunu götürüb aşpazxanaya apardı. Hasan paşa o qədər gözlədi ki, onlar məclisdən çıxdılar, ondan sonra yavaşca paşalara dedi:

– Qoy yesin, doysun, gəlsin. Atın dərdini dedi, dərmanını da özünə elətdirəcəyəm.

Paşalar hamısı onun bu fikrinə əhsən dedilər. Kef başlandı. Paşalar kef eləməkdə olsunlar, görək Koroğlu necə oldu.

Aşpaz Koroğlunu gətirdi aşpazxanaya. Bir böyük sini plov çəkdi. Koroğlu soruşdu:

– Bu nədi?

Aşpaz dedi:

– Sənin üçün qoymuşam da... ye!

Koroğlu dedi:

– Ayə, bu heç mənim dişimin dibində qalmaz. Burada nə var ki, mən nə yeyim?

Aşpaz dedi:

– Evin yıxılsın, day ondan da artıq yeməyəcəksən ki? Gör bir nə qədərdi.

Koroğlu dedi:

– Ayə, zarafat eləmə! Bəri elə görüm!

Əlini atıb qazanlardan birini çəkdi qabağına. Bir pəncə, iki pəncə, üçüncü pəncədə aşpaz baxdı ki, çıxdı qazmağa. Tutdu Koroğlunun əlindən ki:

– Sən olasan o inandığın, bir mənə de görüm, sən kimsən? Hara adamısan?

Koroğlu elə bildi ki, aşpaz onu istəyən adamdı, dedi:

– Koroğlunun adını eşidibsənmi?

Söz elə Koroğlunun ağzından çıxcaq aşpaz bağırdı. İstədi havar çəksin. Koroğlu dik qalxıb tutdu onun hülqumundan. Yavaşca belindən iki qatlayıb, basdı boş qazanın içinə. Ağzını örtdü, özü də üstündə əyləşib o biri qazanı çəkdi qabağına.

Qərəz, neçə qazan boşaltdı bilmirəm, neçə tuluq boşaltdı bilmirəm, baxdı ki, day doyub. Özünü düzəltdi. Yağlı əlləri ilə bığlarını da eşib durdu ayağa, gəldi paşaların məclisinə.

Hasan paşa soruşdu:

– Aşıq, doydunmu?

Koroğlu dedi:

– Bəli, qurbanın olum. Doydum.

Hasan paşa dedi:

– Di indi bir az çal, oxu, qulaq asaq.

Koroğlu sazı köklədi, dedi:

– Kimdən deyim?

– Sən deyirsən ki, Qıratı görmüsən. Bir az onun tərifindən de! Xasiyyətindən, nişanından oxu, görək necə atdı.

Koroğlu dedi:

– Paşa sağ olsun, çərən dəymiş çox yaxşı atdı, bircə o cini olmaya.

Ondan sazı basdı sinəsinə, dedi:

Paşa, sənə nişan verim Qıratı,
Əbrişim ipəkdən yalı gərəkdi.
Bir mina boyunlu, uca sağrılı,
Bir yarım hoqqadan nalı gərəkdi.

Armudı dırnaqlı, hündür boyunlu,
Meydana girəndə yüz min oyunlu,
Dəyirman mədəli, ac qurd yeyimli,
Ortası qulana dolu gərəkdi.

Qaranlıq gecədə yol çaşırmayan,
Düşman qabağında ər düşürməyən,
Üstündə əl-ayaq yığşırılmayan
Koroğlunun atı dəli gərəkdi.

Söz tamama yetdi. Hasan paşa dedi:

– Aşıq, dediyin haman o Qırat bu saat mənim tövləmdədi. İndi de görüm, mən ki onu Koloğlunun əlindən çıxartmışam, mən igidəm, Koroğlu?

Koroğlu dedi:

– Paşa, əgər doğrudan da, belədisə, onda sən igid adamsan. Ancaq paşam, igidlik ondu. Sən onun birini eləmisən. Qulaq as, o birilərini də sənə deyim:

Sənə deyim qoç igidin nişanın:
Aça yağılarla meydan, gərəkdi.
Nərə çəkib atılanda ortaya
Qaça qabağında düşman, gərəkdi.

Təslim deyib qəniminə enməyə,
Əcəl çağı yoldaşından dönməyə,
Düşman qabağında heç vaxt sinməyə,
Meydanlarda qızmış aslan gərəkdi.

Qoç Koroğlu meydan açıb öyünü,
Namərd sinəsinə çəkər düyünü.
Ac qurdlardan saldırmağa qoyunu
Qurd ağızlı qoçaq oğlan gərəkdi.

Hasan paşa dedi:

– Aşıq, birini eləmişəm. Doqquzunu da görərsən. İndi səni aparacağam Qıratın yanına. Bir bax, gör odu, ya yox?

Koroğlu bunu eşitcək sazı basdı bağrına, dedi:

Canım Qırat, gözüm Qırat,
Yarəb, Qırat dururmu ola?!
Hasan paşa mehtərləri
Otun, suyun verirmi ola?!

Qırata xələt biçəndə,
Üstündə badə içəndə,
Şeşpər yalmandan keçəndə
Sərxoş-sərxoş yerirmi ola?

Qoç Koroğlu hanı, hanı?
Dostunla düşmanın tanı!
Qırat ilə Eyvaz xanı
Bir də gözüm görürmü ola?!

Söz tamam oldu. Hasan paşa ayağa durub dedi:

– Gedək, aşıq!

Koroğlu dedi:

– Paşa, gedək! Amma bu başdan şərtimizi sizə deyim. Hamımız belə gedək tövlənin ağzına. Mən Koroğlunun sözlərindən birini oxuyum. Siz də qapının deşiklərindən baxın. Əgər mənim çalmağım, oxumağım ata əsər elədi, sözüm yoxdu. Girərəm. Yox, əgər eləmədi, onda lap istəyir, boynumu vur, mən onun yanına girən deyiləm. Mən ondan gördüyümü görmüşəm.

Paşa razı oldu. Koroğlu qabaqda, paşalar dalda düzəldilər yola.

Hasan paşa üzdə razı olmuşdu. Amma daldada adamlarına tapşırmışdı ki, göz eləyəndə aşığı itələyib Qıratın yanına salsınlar. Qapını da bağlasınlar ki, bəlkə, öz canının qorxusundan atı sağalda.

Bəli, gəlhagəl hamısı bir yerdə gəlib çıxdılar tövlənin qabağına. Koroğlu qapının deşiyindən baxdı, gördü vallah Qırat elə bil qoxu alıb. Gözlərini dikib qapıya. Elə baxır, elə baxır ki, adamın ürəyi yanır. Tez geri çəkildi. Dedi:

– Hə, paşam, indi mən çalıb-oxuyacağam. Siz ata baxın.

Paşalar arı kimi suvaşdılar qapının çatlarına. Koroğlu başladı:

Bizim elin dəliləri,
Girər meydana mərd olu.
Ölüncə meydandan qaçmaz,
Girəndə meydan gərd olu.

Sarp qayalarda yurd olmaz,
Müxənnətə söz dərd olmaz.
Çaqqal əniyi qurd olmaz,
Yenə qurd oğlu qurd olu.

Dəlilərim fovcu-fovcu,
At minib düşman qovucu,
Belində misri qılıncı,
Koroğlu kimi mərd olu.

Qırat Koroğlunun səsini eşitcək az qaldı ki, tövləni başına götürsün. Elə oynadı, elə oynadı ki, gəl görəsən. Hasan paşa yanındakı adamlarda sağ islahat qoymadı. Sevindiyindən onu dürtmələdi, bunu dirsəklədi. Hamısını çimdikdən keçirtdi. Koroğlu qurtarcaq Hasan paşa özün atdı onun üstünə ki:

– Aşıq, tez ol, gir içəriyə. Səni dünya malından qəni eləyəcəyəm. İndi Koroğlu tanıyar ki, biz kimik. Qoy indi beş özündən deyəndə on da bizdən desin.

Qapını açdılar, Koroğlunu itələyib saldılar Qıratın yanına. At Koroğlunu görcək kişnədi, elə kişnədi ki, dam-daş lərzəyə gəldi. Koroğlunun ürəyi atlandı. Sazı basdı sinəsinə, dedi:

Çənlibeldən səni deyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!
Dəmir libas, polad geyib gəlmişəm,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!

Əzəldən biləydim sənin halını,
Əşrəfidən kəsdirərdim nalını,
Yüz gözələ toxudardım çulunu,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!

Neçə vaxtdı məni qoydun piyada
Müxənnətlər yaxşı yetdi murada.
Günbəgündən dərdim oldu ziyada,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!

Qabaqda qalırmı arpan səhərə?
Üzəngilər nə yaraşır yəhərə...
Dəlilər salmışdı məni qəhərə,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!

Mənim atım atım-atım atılar,
Qulaqları qarğı kimi çatılar,
Ucuzluqda min tümənə satılar,
Alma gözlüm, qız birçəklim, Qırat, gəl!

Koroğlu sözü qurtarıb sazı bir tərəfə qoydu. Qucaqlayıb atın üzündən-gözündən öpüb duz kimi yalamağa başladı. Qırat da burnunu onun qoynuna, qoltuğuna soxub elə iyləyirdi, elə iyləyirdi ki, elə bil inək balasını iyləyir.

Koroğlu elə bil birdən yuxudan ayıldı. Öz-özünə dedi: “Ey dili-qafil, nə eləyirsən? Sən yağı içindəsən. Özünü tanıdarsan”. Tez qapıya yaxınlaşıb dedi:

– Paşa, indi siz bir az aralı durun, mən atı çıxardım, gəzdirim, bir az hava-zad dəysin. Sonra tapşırım özünüzə. Amma paşa, bilmirəm, gərək məni razı salasan.

Hasan paşa dedi:

– Arxayın ol, aşıq! Səni qızıla quylayacağam. Amma hələ biz çəkilməmiş çıxartma. Ziyanlıq-zad eləyər.

Hasan paşa qabaqda, qalan paşalar da dalda daban aldılar. Haraya? Haraya? Birbaş qalanın burcuna. Orada oturub başladılar gözləməyə. Elə ki paşalar getdilər, Koroğlu ətrafa baxıb gördü, yəhər bir tərəfdədi. Götürüb basdı atın belinə.

Koroğlu atı yəhərləməkdə olsun, paşalar burcda gözləməkdə, sənə kimdən deyim, Keçəl Həmzədən.

Keçəl Həmzə olmuşdu Həmzə bəy. Bu gün də ki toyu idi. Axırı ki, mətləbinə çatmışdı. Day dünyada bir kef var idi, o da Həmzədəydi.

Elə ki toy günü oldu, səhər tezdən Həmzə durub bəy paltarını geyindi, bəy papağını başına qoydu, keçəlini örtdü, adamların gözündən yayınıb özünü verdi Dona xanımın pəncərəsinin qabağına.

Dona xanımın imarəti meydanın yanında idi. O, pəncərədə oturub camaata tamaşa eləyirdi. Bir də gördü ki, budu, Həmzə bir tozlana-tozlana gəlir ki, elə bil xotkar oğludu. Gözlədi, gözlədi, Həmzə gəlib pəncərənin altına çatanda başını çıxardıb dedi:

– Ədə, Həmzə!

Həmzə səsindən onu tanıdı. Ürəyi meydan kimi açıldı. Tez başını qaldırıb dedi:

– Can Həmzə! Həmzə deyən dillərinə Həmzə qurban olsun. Nə buyurursan?

Dona xanım dedi:

– Həmzə, görəsən, mənim başı batmış atam məni vermək üçün day bir adam tapa bilmədi? Elə gərək sənə verəydi?!

Həmzə dedi:

– Xanım, hanı mənim kimi adam ki, o da tapaydı? Kim mənim kimi igid ola bilər ki, gedib Koroğlunun Qıratını gətirə?

Dona dedi:

– Ədə, keçəl, bəs sən heç utanmadın, bir qızdan ötrü gedib elə bir igidin atını oğurladın?

– Xanım, niyə elə deyirsən? Bu, oğurluq deyil. Buna oğurluq deməzlər. Bu igidlikdi. Koroğlunun atını gətirmək özünü gətirməklə tən yarıdı. Hələ bir az da ondan artıqdı.

Dona xanım dedi:

– Həmzə, indi ki belə oldu, bax, budu, sənə deyirəm. Ya gərək gedib Koroğlunun özünü də gətirəsən, mən baxam, görəm, o necə oğlandı, ya da ki məndən sənə arvad olmayacaq.

Həmzəni gülmək tutdu. Ucadan bir şaqqanaq vurdu, güldü. Dedi:

– Rəhmətliyin qızı, mən hələ onun dilsiz-ağızsız, qılıncsız-qəməsiz atını gətirmişəm, atan onun əlində aciz-avara qalıb. Day az qalıb ki, bütün osmanlı qoşununu yığıb buraya töksün, yenə də o atın öhdəsindən gələ bilmir. Koroğlu özü buraya gəlsə, gör nə olar? Onda gərək atan kəlmeyi-şəhadətini bu başdan deyə ki...

Ondan Həmzə dedi:

– Bir də ki, xanım, day iş işdən keçib. Bu gün bizim toyumuzdu.

– İstəyir, bir toy olmasın, min toy olsun. Koroğlu buraya gəlməyincə məndən sənə arvad olmayacaq.

Dona xanım sözünü deyib hirslə pəncərədən çəkildi. Həmzənin dərdi artdı. Qaldı məəttəl ki, nə eləsin. Bu da paşaya deyilməli söz deyil ki, gedib deyə, ya şikayət eləyə, ya qol kağızından-zaddan ala. Deyər, o da cavabında deyər ki: "Ay əfəl oğlu əfəl, sən məndən qız istədin, mən də verdim. Get, o sən, o da sənin arvadın". Dona xanım da ki dediyindən çətin dönə.

Həmzə elə bu fikir-xəyalla gəlib çatdı meydana. Baxdı ki, meydanda qaçaqaçdı. Soruşdu:

– Ayə, nə var? Haraya qaçırsız?

Əhvalatı ona danışdılar. Həmzə belə baxanda gördü, paşalar da hamısı dırmaşıblar burca. Məsələni başa düşdü. Bildi ki, aşıq-zad sözdü. Gələn Koroğlu özüdü. Tez özünü verdi tövlənin qabağına. Elə Həmzə tövlənin qabağında, tövlənin qapısı açıldı. Həmzə baxdı ki, bəli, qoç Koroğlu Qırat da yedəyində tövlədən çıxır. Tez yüyürüb üzəngini basdı ki:

– Koroğlu, söz dəyirmandakıdı.

Koroğlu belə baxanda gördü üzəngini basan Həmzədi. Dedi:

– Ayə, Kaloğlan! De görüm bir, qızı ala bildin, ya yox? Deyəsən, sir-sifətini düzəldibsən. Həmzə dedi:

– Can Koroğlu, sir-sifətimi düzəltmişəm, qızı da almışam. Sənin bu gəlməyin də lap işi düzəltdi. Sən gəlməsəydin, işim şuluq idi.

Koroğlu soruşdu:

– Necə? Ayə, bəs Hasan paşa hanı?

Həmzə dedi:

– Qıratın qorxusundan qaçıb, dırmaşıb qalanın burcuna. Koroğlu dedi:

– Dayan, dayan, gör indi onun başına nə həngamə açacağam.

Həmzə dedi:

– Koroğlu, sən Qırat üçün gəlmişdin, onu da minmisən. Mən sənin yerinə olsam, səssiz-sədasız sürüb çıxıb gedərəm.

Koroğlu dedi:

– Əgər atı səssiz-sədasız aparsam, mən də olaram Həmzə də... Onda sənlə mənim aramda day nə təfavüt qalar?

Həmzə başını saldı aşağıya. Koroğlu dedi:

– Utanma! De görüm, bu qaladan çıxmaq üçün neçə yol var?

– Beş. Ancaq gərək qoşun bəndləri kəsməmiş sən qaladan çıxasan. Yoxsa sonra çətin olar.

Koroğlu Həmzə ilə görüşüb ata bir üzəngi göstərdi. At bayaq ha özünü yetirdi meydana. Süzüb düz dayandı meydanın ortasında. Hasan paşa dedi:

– Ayə, aşıq, sənin at minməyin də varmış ki... Nə yaxşı sürürsən? Koroğlu dedi:

Laf eyləmə, Hasan paşa,
Ağır-ağır ellərim var.
Bir tamaşa eyləyəsən,
Qılınc çalan qollarım var.

Uca dağlardan daşlanı,
Ağır alaylar boşlanı,
Gəlsələr, dava başlanı,
İgid-igid dəllərim var.

Mən anadan mərd olmuşam,

O Çənlibeldən gəlmişəm,
Koroğluyam, at
minmişəm, Yüz min
belə fellərim var.

Koroğlu meydanda gərdiş eləməkdə olsun, eşit, sənə deyim Həmzədən. Həmzə oradan birbaş özün yetirdi Dona xanımın pəncərəsinə. Çağırdı ki:

– Ay Dona xanım! Ay Dona xanım! Dona xanım gəldi pəncərəyə ki:

– Nə var, ədə?

– Muştuluğumu ver! Gəlmişəm, səni atanın toyuna çağıram. Dona xanım dedi:

– Ədə, nə danışırsan? Atamın toyu nədi?

– Atanın toyudu da... İndi bu saat başlanır. Səhər bizim toyumuz idi. İndi də Hasan paşanın toyudu. Bir meydana bax!

Dona xanım baxdı ki, meydanın düz ortasında bir oğlan Qıratın üstündə dayanıb. Dedi:

– Ədə, o kimdi elə?

Həmzə dedi:

– Dona xanım, axır ki, bu bəhanən də kəsildi. Koroğludu, Koroğlu.

Dona xanım əvvəl inanmadı. Bir də baxanda gördü, vallah, bu atlı meydanda bir gərdiş eləyir ki... Üzün tutub Hasan paşaya deyir:

Muradbəyli derlər bizə.
Meydanda mərdlik işləni.
Qoç igiddən oğul törər,
Düşman gözündə beşləni.

Hay deyəndə haylarım var,
Hoy deyəndə hoylarım var,
Qurdlarım var, ayılarım var,
Hay vursam, şəhrin boşlanı.

Koroğlu oxuyanda paşalardan biri əyilib Hasan paşaya dedi:

– Hasan paşa, mənə nə deyəcəksən, de, sənin bu aşığından gözüm su içmir. Bu, deyəsən, Çənlibel adamıdı. Hələ lap az qalıram deyəm ki, elə Koroğlu özüdü.

Hasan paşa elə bil yatmışdı, yuxudan oyandı. Diksinib qalxdı. Dedi:

– Yox əşi. Yanı biz o qədər axmaq olduq ki, o gəlib bizi belə biləyinə sarıdı.

– Hasan paşa, sən mənim sözümü qəribçiliyə salma! Bu, Koroğludu. Adam yolla, Həmzə bəyi çağırtdır, ondan soruşaq.

Həmzəni çağırdılar. Hasan paşa soruşdu:

– Ayə, Həmzə bəy, bax gör, o, Koroğlu deyil ki?

Həmzə baxdı ki, Koroğlu Qıratın üstündə, bundan sonra min dənə Hasan paşa gəlsin, ona bir şey eləyə bilməz. Yalandan bir əlini gözlərinin üstünə qoyub baxdı, qışqırdı ki:

– Eviniz yıxılsın, Koroğlu olmayanda bəs kimdi? Atı ona kim verdi?

Elə bil dünya-aləm Hasan paşanın gözlərində qaraldı. Tez qoşun böyüklərinə əmr elədi ki, bütün yolları, bəndləri tutsunlar. Qoşun hərəkətə gəldi. Koroğlu baxdı ki, qoşun yolun birini tutdu. Üzün Hasan paşaya tutub dedi:

Bir qasiddən xəbər aldım,
Beşdi qalanın yolları.
Hayqırdım, tüplər dağıldı,
Boşdu qalanın yolları.

Bunu deyib Koroğlu özünü ikinci yola vurdu. Qoşun qabağı kəsdi. Koloğlu misri qılıncı çəkib özünü qoşuna verdi. De birini, beşini, on beşini, qoşun dağıldı. Koroğlu atı vurdu yola. Gördü, at çətinlik çəkir. Qəsdən yola o qədər daş tökmüşdülər ki... Koroğlu gördü, atın ayaqları inciyəcək, bir tərəfdən də onu burclardan oxa basırlar. Atın başını döndərib yenə meydana qayıtdı. Dedi:

Kamandar atar oxunu,
Al eylədim mən çoxunu.
Qırat tökər nal-mıxını,
Daşdı qalanın yolları.

Sözünü deyib özünü vurdu üçüncü yola. Bir tərəfdən Qırat, bir tərəfdən Koroğlu özü, day Hasan paşanın qoşununda qoşunluq qoymadılar. Qırıb tökdülər. Amma sən gəl ki qoşunun dalı kəsilmirdi. Biri ölürdü, beşi gəlirdi. Koroğlu yolların hansına özünü vurdusa, aradan çıxa bilmədi. Day yollarda leş-leşin üstünə qalandı. Koroğlu təzədən atı meydana qaytardı. Dedi:

Koroğlu deməz yalanı,
Hay vursam, ölkən talanı,
Leş-leşin üstə qalanı,
Leşdi qalanın yolları.

Toqat qalasının üç tərəfi quru idi, bir tərəfi su. Bu da ki Tona çayı idi. Hasan paşa qəsdən üç tərəfi tutdurub çay tərəfi açıq qoymuşdu ki, Koroğlunu ya bu yollarda öldürsünlər, ya da ki, özünü çaya vurub orada boğulsun. O bilirdi ki, Tona çayından salamat çıxmaq olmaz.

Koroğlu bir ətrafa baxdı. Bir də dönüb çaya baxdı. Sonra əyildi, Qıratın boynunu qucaqlayıb dedi:

Mindim Qıratın belinə,
Kaş ki, düşman yüz olaydı.
Çəkəndə misri qılıncı
Dərə, təpə düz olaydı.

Atı minmişəm gəzməyə,
Düşman bağrını əzməyə,
Tona çayını üzməyə
Qırat bir qəvvas olaydı.

Verin yeddiilik xaracı,
Paşalar gətirsin bacı,
Koroğlu çəkib qılıncı,
Düşman üzbəüz olaydı.

Bunu deyib Koroğlu atı vurdu Tona çayına. At qulaqlarına qədər batdı suya. Su çıxdı Koroğlunun qurşağına. Koroğlu baxdı ki, su ata güc eləyir, at suya güc eləyir. Gördü, yox, belə olsa, su atı yıxacaq. Bir dəli nərə çəkib dedi:

Ceyrana bənzər qaçışım,
Addımla, qurban qoluna!..
Tərlana bənzər uçuşun,
Əl çatmaz ipək yalına!..

Kəsdirrəm gümüşdən yəhər,
Tumarlaram axşam, səhər.
Götür burdan qaç birtəhər,
Sikkə vurdurram nalına!..

Koroğluyam, güman belə,
Deməyinən gəlməz dilə,
Məni çıxart Çənlibelə,
Qotaz düzdürrəm çuluna!

Koroğlunun sözləri ata elə bil qol-qanad verdi. Odu ha, üzüb çaydan çıxdı. Koroğlu dönüb geriyə baxdı. Gördü, Hasan paşa hələ də burcdadı. Çağırıb dedi:

– Hasan paşa, bu dəfə burca çıxdın, əlimdən qurtardın. Görüm, gələn dəfə haraya çıxacaqsan. Eybi yoxdu. Borclu borclunun sağlığını istər. Görüşərik.

Sözünü deyib Koroğlu yol başladı. Gəlhagəl, gəlhagəl, gəlib Çənlibelə çatdı. Qırat Çənlibelin qoxusunu alcaq elə kişnədi ki, dağlar, daşlar dilə gəldi. Dəlilər töküldülər. Atı tutdular. Koroğlunu düşürdüb gətirdilər. Hamı yığıldı.

Soruşdular ki:

– Koroğlu, danış görək, nə elədin? Atı necə gətirdin?

Koroğlu ta dəyirmanda Həmzə ilə olan söhbətdən Tona çayınacan bütün əhvalatı danışdı. Dəlilər onu incitdiklərinə peşman oldular. Başlarını aşağı saldılar.

Koroğlu dedi:

– Utanmayın! Siz haqlı idiniz. Mən gərək etibar eləyib açarları ona verməyəydim. Ancaq bir işdi, oldu. Amma siz də yadınızdan çıxarmayın ki, mən Koroğluyam.

Nigar xanım gördü, Koroğlu yenə qızışır. Tez söhbəti zarafata çevirdi. Dəlilərə göz basıb dedi:

– Koroğlu, biz sənin Koroğlu olmağını bilirik. Əgər bilməsəydik, sənin başına yığılmazdıq. Düzdü, igidsən, qoçaqsan, iş üzü bilənsən. Amma belə sir-sifətdən çox qarasan ey!.. Dəlilər hamısı gülüşdü. Koroğlu özü də güldü. Sonra sazı sinəsinə basıb dedi:

Mənə qara deyən gözəl,
Qaşların qara deyilmi?
Tökülübdü dal gərdənə,
Saçların qara deyilmi?

Çənlibeldə qurdum binə
Bənzəyirsən aya, günə,

Ağ üzündə dənə-dənə
Xalların qara deyilmi?

Koroğlu mayıldı sizə,
Qulaq verin saza, sözə,
Siyah sürmə ala gözə
Çəkibsən, qara deyilmi?

# Nizami Gəncəvi
# İskəndərnamə
## ŞƏRƏFNAMƏ
### *(tərcüməçi: Abdulla Şaiq)*
### *(ixtisarla)*

**İSKƏNDƏRİN TƏLİM ALMASI**

Tarixin yığılmış tumarlığından
Keçmişi belə nəql edir bir dehqan:
Elə ki Feyləqus təzə gəlintək
Vurdu bu dünyanın mülkünə bəzək.
Ağıllı övladla ata fəxr edər,
Çünki mübarəkdir seçilmiş gövhər.
Dünyada ataya varmıdır, gerçək,
Ağıllı oğuldan başqa bir istək,
Oturtdu öyrənsin ədəblə hünər,
Günəş eylər daşı qiymətli gövhər.
Niqumaş alimdi, biliklə dolu,
Alimin oğluydu həkim Ərəstu.
Təlim işlərində çəkdi çox əmək,
Hikmətlər öyrətdi ona sevərək.
Şahanə tərbiyə, hünər, nəzakət
Ağıla nur verir, ürəyə qüvvət.
Hər əqlə sığışan hünər, bilikdən
Bir məna çıxarır mənanı bilən.
Ulduzlar bəzəyən kimi göyləri
Bəzədi pak olan yeni gövhəri.
Çatdırdı onu hər gizlin biliyə,
Hansı bir gənc almış belə tərbiyə?
Şahzadə illərlə çox çalışdı, çox,
Qulağı elm aldı, başqa heç nə yox.
Öz ağlı, zəkası olunca rəhbər,
Tapırdı ən incə, mənalı sözlər.
Hər incə mənanı edərkən bəyan,
Sözləri su kimi olurdu rəvan.
Həmdərsi Ərəstu, bir qardaş deyə,
Ürəkdən bağlıydı bu şahzadəyə.
Ərəstu aldıqca bilik atadan,
Ona öyrədirdi hər an, hər zaman.
Yəqindi bilikli həkim ustadə
Tacidar olacaq bir gün şahzadə.
Onun təliminə verdi çox diqqət,

Kişini şad edər qorunsa sərvət.
Bəxtini oxudu parlaq alnından,
Verdi oğluna da ondan bir ünvan[1].
Tale xidmətində duran zamanda,
Söz qaşı möhrünü vuran zamanda
Oğlunu tapşırdı gənc şahzadəyə[2],
And verdi, söz aldı: "Peyman ver", – deyə,
Məktəbdən meydana sən at sürərkən,
Şahanə başını göydə görərkən,
Başını əyərkən köhnə dünyanın,
Hər səmtə gedərkən hökmün, fərmanın,
Taxtını tacınla məsud edərsən,
Xərac göndərərlər yeddi kişvərdən.
Dünyaya şövkətlə verərsən fərman,
Padişah olarsan uzun bir zaman.
Bu dərsi, təlimi tut xatirində,
Qızıla, gümüşə çox olma bəndə!
O zaman oğlumdan götürmə nəzər,
Haqqıma, sözümə bir hörmət göstər.
Onunla et çətin işdə məşvərət,
Qılıncdan kəskindir gözəl məsləhət.
Səndə dövlət vardır, onda da hünər,
Hünərlə dövlət bir çəkiyə girər".
Şahzadə söz verdi öz ustadına:
"Hər əmrin qəbuldur, – söylədi ona, –
Taxtımla, tacımla olsam padişah,
Ərəstu vəzirim olacaq, billah!"
Ustadı bilirdi: bir gün bu uşaq
Dünya şahlarına fərman yazacaq.
Ustadın oğlu da alim bir kəsdi,
Onunla həm yaşıd, həm də həmdərsdi.
Şahzadə daima ona mehriban,
O da şahzadədən ayrılmaz bir an.
Ərəstu razılıq verməzsə işə,
İskəndər bir quş da taxmazdı şişə.
O tədbir vermədən tutmazdı bir iş,
Hər işdə alardı ondan göstəriş.
Feyləqus dünyanı tərk etdi daha,
Taxtını tapşırdı gənc padişaha.

***İzahlar və şərhlər:***

1 *Bəxtini oxudu parlaq alnından,*
*Verdi oğluna da ondan bir ünvan.*

*Yəni Nikumaxis İskəndərin taleyini təyin edərkən öz oğlu Ərəstunun da adını ona bağladı.*

2 *Tale xidmətində duran zamanda,*
*Söz qaşı möhrünü vuran zamanda.*
*Oğlunu tapşırdı gənc şahzadəyə.*

*Yəni ulduzlar xoşbəxtlik göstərən vəziyyətdə olduqları bir gündə o, Ərəstunu İskəndərə tapşırdı.*

**İSKƏNDƏRİN TAXTA ÇIXMASI**

Elə ki Rum şahı taxta oturdu,
Dünyaya mum kimi bir naxış vurdu,
Bütün ölkələrə ədli səs saldı,
Rum taxtı onunla yeni rəng aldı.
Atadan gördüyü rəsmi, ayini
Seçərək saxladı bəyəndiyini.
Köhnə adətləri möhkəm saxladı,
Keçmiş qanunları bərk qucaqladı.
Daraya xəracı verirdi yenə,
Ölkədə hakimdi köhnə ənənə.
Feyləqus əmrində olan hər diyar
Onun da əmrinə boyun qoydular.
Dostluqda atadan daha da mətin,
Düşmənin məhvində qılıncı kəskin,
İgidlər qorxardı: “Güclüdür”, – deyə,
Onunla girməzdi bir tərəziyə.
Onda ki, qolunun gücün yoxlardı,
Aslan qulağına düyün vurardı.
Hər mərdə, igidə o üstün gəldi,
İnsanın fikrinə sığmayan qədər
Hamıya yaxşılıq etdi İskəndər.
Kimsənin qəlbini o incitməzdi,
Ədalət xəttindən uzaq getməzdi.
Bütün tacirlərdən o, bac almadı,
Ölkədə kimsədən xərac almadı.
Dehqan vergisinə çəkərək qələm,
Sərmayəsizlərdən almadı dirhəm.
Zər saçdı hər yeri abad edərək,
Qırdı tikanları, əkdi gül-çiçək.
Əlinə keçirdi bütün dünyanı,
Ətri tutdu Misri, Həbəşistanı,
Ədli, səxavəti cahanı sardı,
Hər kəs Rum mülkünə həsəd apardı.
Ərəstu vəzirdi uca dərgaha,
Hər yaxşı-yamanda məhrəmdi şaha.
Tökdü İskəndərə hər işdə tədbir,

Az zaman keçmədən oldu cahangir.

**ZƏNCI QOŞUNUNUN GƏLMƏSINDƏN İSKƏNDƏRİN XƏBƏRDAR OLMASI**

Elə ki fələyin çırağı səhər
Dünyanı nuriylə etdi münəvvər,
Günəş əlvan şəfəq saçdı hər yana,
Gəlintək oturdu qızıl taxtına.
İskəndər qədimki ayində durdu,
Eyvanda şövkətli bir məclis qurdu.
Bir nur çeşməsiydi, oturmuşdu şən,
Aman səsi gəldi uzaq ellərdən.
Məclisdə padşaha etdilər məlum:
"Amana gəlmişdir bir yığın məzlum.
Kömək istəyirlər Rum sultanından,
Deyirlər: Misrə çox dar oldu cahan.
Zəncilər axınla gəlmiş bu səfər,
Dolaşmaq çətindir, tutmayır çöllər.
Ordularla dolmuş bu böyük cahan,
Çöllərdə hakimdir qorxu, həyəcan.
Hamısı çöllüdür, qatrandan qara,
Çöllərin otu da çatmaz onlara.
Köməyə çatmazsa böyük tacidar,
Qarətə gedəcək o zəngin diyar.
Bu haqsız axından pərakəndəyik,
Şah, fərman sizindir, bizlər bəndəyik."
O dinin pənahı, adil hökmdar
Bildi ki, Zəncidə hədsiz qoşun var.
O hədsiz ordudan qorxdu hökmüran,
Qorxusuz olurmu ağıllı insan?
İskəndər vəziri tez dəvət etdi.
Onunla ətraflı məsləhət etdi.
Ağıllı, bilikli, hünərli vəzir
Müzəffər olmağa tökdü bir tədbir:
“Qalx, – dedi, – bəxtini sına, zamandır,
Belə əjdahanı məhv etmək şandır.
Zəfərlər yaratsa ordunun əli,
Daha möhkəm olur şahlıq təməli.
Misir də, Zənci də olur sənə ram,
Mərdlikdə alarsan yenilməz bir nam.
Ölkədən silinsə azğın düşmənlər,
Xainlər kor olar, dostların gülər”.
Rəhbərin əmriylə o gənc hökmüran
Bayrağı ucaltdı Makedoniyadan.

Topladı süngülü, qılınclı əsgər,
Qılınc şəfəq atdı buluda qədər.
Dənizdən quruya çıxınca ordu,
Tərpəndi, bir daha Misirdə durdu.
Padişah əmr etdi, Nil sahilindən
Keçərək çöllərdə tutsunlar məskən.
Yedəkli at ilə axsın meydana,
Döyüşdə verməsin aman düşmana,
İgidlər düzüldü yola hər nə var,
Zəncinin kininə bel bağladılar.
O coşqun ordunu görüncə zənci,
Gözündə qaraldı dünya sevinci.
Döyüşə başlarkən hər iki əsgər,
Divləri sarsıtdı ucadan səslər.
Elə yerdə idi bu döyüş, inan,
Qubar gətirirdi adam yanğından.
Kükürdün tozutək qupquru çöllər
Cəhənnəm kimiydi, yanırdı ciyər.
Sərin su yox idi ağudan başqa,
Bir də günəşdəki yanğıdan başqa.
Baxırdı əjdaha kimi hər mağar,
O yerdə hər fitnə açmışdı bazar.
Orda ki yaşayır qulyabanılar,
Yaşayıb, hər yerə soxulur onlar.
Ləli yer öküzü udduğu zaman
Pusqudan sıçradı qapqara aslan”.[1]
Gecənin zülməti dünyanı sardı,
Aslanın dişitək ulduz ağardı.
Gecənin göbəyi yayırdı ətir,
İşıqdan dünyaya açmışdı çətir.
Düşməni tanıyan növbətçi əsgər
Yollara çıxaraq keşik çəkdilər.
Ulduzlar yer-yerdən doğmuşdu parlaq,
Xalq oldu zəhmətdən, kədərdən uzaq.

***İzahlar və şərhlər:***

*1 Ləli yer öküzü udduğu zaman,*
*Pusqudan sıçradı qapqara aslan.*

*Dini rəvayətə görə, yer gav-mahinin, o da suyun üzərində durur. Günəş də gedib haman suda batır. Yəni gövhərə bənzəyən günəşi gav-mahi uddu, nəticədə qaranlıq çökdü.*

## DARANIN İSKƏNDƏRLƏ MÜHARİBƏYƏ QOŞUN ÇIXARMASI

Məzlumlar axaraq gəldi hər yandan,

Dedilər: “Coşğun sel qoparır tufan”.
Daranın ordusu edərkən səfər
Polad geyimlərdən qaraldı yerlər.
Bir casus söylədi: “Düşmən sərxoşdur,
Durduğu yerlərdə qafil olmuşdur.
İskəndər bir basqın etsə qəflətən
Bir anda çıxarar onu mülkündən”.
İskəndər gülərək söylədi cavab:
“Gizlində qalmağı sevməz afitab.
Yararmı döyüşdə böyük İskəndər
Adi quldur kimi qazana zəfər?”
Uca şəhriyarın mətin sözləri
İnandırdı buna hər bir əsgəri.
Get-gedə böyüdü bu qızğın xəbər,
Ölkəyə yaxındır o qorxunc əjdər.
İskəndər bildi ki, o bir buludtək
Gələcək, qılıncı saçacaq şimşək.
Bütün ölkələrə göndərdi xəbər:
“Durmadan dərgaha yığılsın əsgər!”
Rumdan, Əfrəncədən, Misirdən, Rusdan
Bir ordu bəzədi gəlindən rəqsan.
Ordu toplanınca uca İskəndər
Əmr etdi sayından verilsin xəbər.
Sayçılar məlumat verdi padşaha:
Altı yüz min əsgər gəlmiş dərgaha.
Hər yandan yığışıb gəlincə ordu
Çalğısız, içkisiz bir məclis qurdu.
Aqillər yığılıb uca dərgaha
Verdilər diqqətlə qulaq padşaha.
İskəndər söz açdı bütün işlərdən,
Daranın açdığı o döyüşlərdən:
“Şübhə yox, – dedi, – o, adlı tacidar
Bizimlə döyüşə vermişdir qərar.
Hərb üçün, sülh üçün fikriniz nədir?
Düşmən çox yaxındır, göstərin tədbir.
Çıxmasa bu kəskin qılınc qınından.
Bizə kişi deməz bir nəfər insan.
Tac-taxt alarsam qoca Daradan
Zalım adlanaram bununla da mən.
Qıymaram çıxsın öz mülkündən Dara,
Yamanlıq etmərəm mən Kəyanlara.
Çünki qorxuram bu əməlim bu gün
Düşməni çıxarsın bizlərə üstün.
Bu yolda düzgün bir tədbir göstərin,

Sonunda işimiz olmasın çətin.
Düşünüb söyləyin sağlam bir fikir,
Bu döyüş haqqında fikriniz nədir?
Bilikli, şüurlu, ayıq, hünərvər
Başçılar diqqətlə çox dinlədilər.
Hörmətlə hamısı dil tökdü ona,
Padşaha etdilər çox dua, səna:
"Uğurlar doğsun bu yaşıl ağaca,
Kökləri möhkəmdir, adısa uca.
Taxtınla, tacınla dünya qurulsun,
Qapında düşmənin başı tac olsun.
Doğrudur təmamən şah buyuranlar,
Bir də biz onları edəkmi təkrar?
Əmrindən dönmərik, sözün fərmandır,
Padşahın yolunda canlar qurbandır".
Sözləri bununla bitirdi: "Ancaq
Sən bu qan tökməyə qoyma ilk ayaq.
Kəyanın taxtına göstər sən hörmət,
Öncə qan tökməyə gəl etmə cürət".
Hamının fikrini şah öyrənərək,
Bildi, sərkərdələr edəcək kömək.
Doğrular sözünü tutaraq getdi,
Ordu yeritməyə o gün əmr etdi.
Tərpəndi əjdaha heybət əsgərlər,
Başında əjdaha peykər İskəndər.

***İzahlar və şərhlər:***

1 *Mən onu içərsəm verər səadət,*
*O məni yeyərsə doğar fəlakət.*
*Yəni mən şərabı içsəm, o, qəlbimə hərarət və işıq saçar, o məni yesə, yəni bərk sərxoş edib məni öldürsə, qismətim torpaq olar.*

**DARANIN İSKƏNDƏRLƏ MÜHARİBƏSİ**

Çin şahı səhərə nəfəs verərkən
Ulduzu günəşə dəyişdi Ədən[1].
Toqquşma yerinə yetişdi ordu,
Qaf kimi düz iki pərgarda durdu.
Yollara töküldü dəmirdən tikan[2],
Şeypurlar coşduqca qopdu həyəcan.
Üz-üzə gəlirdi hər iki ordu,
Nə ürəkdə dinclik, nə gözdə uyğu.
Hər iki tərəfdə ordu qaynaşır,
Qaynaşma ayağa, ələ dolaşır.

Üz-üzə durdular döyüş yerində,
Döyüşə cəsarət yox heç birində.
Hamı düşünürdü, bəlkə, sülh olsun,
Qılınclar qınında sakit otursun.
Meydanı bürüdü qanlı vurhavur,
Döyüşdən igidlər getdikcə coşur.
Sanki bir məhşərdir, yer, göy dağılır,
Nəfəslər göydə bir buluddur guya,
Qılınc şöləsindən yanırdı dünya.
Qılınc oynadırdı torpaqla, qanla,
Havanın dimağı dolurdu canla,
İran tacidarı səhərdən durdu,
Sazladı olduqca mükəmməl ordu.
Öncə sağ qanada bəzəklər saçdı,
Əjdaha qılınclar ağzını açdı.
Sonra da sol qolu nizama saldı,
Cəbhəyə poladdan bir dağ ucaldı.
O yanda Rum şahı qurdu ordunu,
Sanki bal arısı şan etdi mumu.
Silah istəyənə payladı silah,
Kömək istəyənə payladı pənah.
Sağ-solu bəzədi qılınc və qalxan.
Necə ki canlanır çəmən buluddan.
Dağtək möhkəmlətdi önü, arxanı,
Göydə səyyarətək qurdu meydanı.
Coşduqca fillərin sərxoş nərəsi,
Tıxandı ərlərin kəskin nəfəsi.
Ordu mərkəzində Daranın qəlbi
Darıldı bir aslan ürəyi kimi.
Rumların qədərsiz töküldü qanı,
Torpağa sərildi min pəhləvanı.
Bu yanda qılıncla igid İskəndər
Qaldırdı dünyada qanlı bir məhşər,
İki əl qan tökər, çalışar, durmaz,
Hər əldə bir qılınc – kəsərli almaz.
Ağzından sanki bir aslan od saçır,
Aslan qarşısından madyanlar qaçır.
Daraya dedilər: "Bu qızmış aslan
Çox adlı igidi saldı atından.
Orduya əmr ver, dolaraq kinə
Hər yandan yürüşlə axsın üstünə".
Bu fikri Dara da gördü məsləhət,
Ordular dəniztək etsin hərəkət,
Hamısı sel kimi bir səmtə axsın,

İskəndər üstünə cilov buraxsın.
Daranın əmriylə ordu yer-yerdən
Qaynayıb irəli atıldı birdən.
Cilovlar parladı edərkən həmlə,
Qılınca sarıldı iki əliylə.
İskəndər görüncə elə divanı
Atdı düşmən kimi şərmi, həyanı,
Əmr etdi yerindən tərpənsin dəniz,
Hər kəs öz canını tutmasın əziz.
Düşmənin yolunu tutsun hər yandan,
Keçirsin qılıncdan, verməsin aman.
Qarınca, çibintək qaynadı meydan,
Girdi bir-birinə hər iki cahan.
İskəndərsə haman qorxulu anda
Bir kötüktək möhkəm durdu meydanda.
Həmlədən-həmləyə keçirdi ordu,
Su deyil, sanki qan içirdi ordu.
Daranın iki baş sərdarı vardı.
Üzdə dost, ürəkdən çox kin tutardı.
Daranın kinindən yorulmuşdular.
Ortada bir ürək incikliyi var.
Şahı öldürməkçin oldular əlbir,
Kin ilə oturub tökdülər tədbir.
Bəzəmək istərkən qanlı bir bazar.
Gedib İskəndərə sığındı onlar:
"Daranın bizə çox etimadı var.
Tək bizə inanır qoca tacidar.
Zülmündən yanaraq etmişik tədbir,
Öldürmək fikrində olmuşuq əlbir.
Ancaq sən doğru qal bu şərtimizə,
Xəzinə ağzını geniş aç bizə!
Hər birimizi sən varlandırasan,
Qulluğumuz üçün qızıl saçasan".
Bu iki xainə rumlu hökmüran
Söz verdi, onlarla bağladı peyman.
Lakin inanmadı buna İskəndər:
Daranı öldürə bilsin xainlər.
Ancaq düşmənindən qurtulmaq üçün
Hər kəs üçün çarə aramaq mümkün.
Bu zülmü ədalət gördü hökmüran,
Gəldi xatirinə köhnə bir dastan:
"Dovşanını hər bir yerin, – məsəl var, –
Yenə də o yerin tazısı tutar".

***İzahlar və şərhlər:***
*1 Çin şahı şəhərə nəfəs verərkən,*
*Ulduzu Günəşə dəyişdi Ədən.*
*Yəni səhər açılıb Günəş çıxınca, Ədən dənizinə bənzəyən göy ulduzları verib, onun əvəzinə Günəşi aldı.*
*2 Yollara töküldü dəmirdən tikan.*
*Qədim Şərqdə (hətta orta əsrlərdə Avropada da) müharibə zamanı düşmənin dəvələrini, atlarını zəif salmaq üçün onlann keçdiyi yollarda ayaqları altına üçkünc dəmir tikanlar tökərdilər.*

# İqbalnamə

## *(tərcüməçi: Mikayıl Rzaquluzadə)*
## *(ixtisarla)*

**KİTABIN BAŞLANMASI**
Bir dəfə dünyanı səyahət edən
İskəndər keçərək neçə ölkədən,
Gəlib öz yerinə, yurduna çatdı,
Doğma vətənini nurla parlatdı.
Ağıl hər bir sirrə yol tapsın deyə.
O verdi fikrini elmə, biliyə,
İstər Rum elində, istər Yunanda,
Dünya dillərində nə var cahanda.
Buyurdu tərcümə edilsin bütün
Bilik xəznəsini doldurmaq üçün.
Dürr yığdı elm üçün bir-bir hər yandan.
Bunlardan yaratdı böyük bir ümman.
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! – Başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçilir biri –
Hamıdan ucadır alimin yeri!"
Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmiylə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət.
Çünki elmə təşviq edirdi dövlət.
Elmə qiymət qoydu böyük hökmüran.
Elm ilə ucaldı dünyada Yunan.
Qoymazdı... O, zülmə verməzdi imkan,
Saxlardı dünyada daim bir mizan.

Qocalar, cavanlar, uşaqlar üçün
Açıqdı qapısı onun bütün gün.
Özünə düzlüyü eləyib şüar,
O, yeddi ölkəyə oldu hökmüdar.
Tədbir soruşardı iş bilənlərdən.
Odur ki, olmuşdu özü işbilən.

**İSKƏNDƏRİN PEYĞƏMBƏRLİYƏ YETİŞMƏSİ**

O dünya padşahı – böyük İskəndər,
Uca ulduzlara o uca rəhbər
Elmdə o qədər oldu ki, pərgar
Əqli hər müşkülə saldı bir açar.
O, Rumun, Yunanın alimlərindən
Hər elmi öyrəndi möhkəm, dərindən.
Daha ulduzları göydə güdmədi,
Tamam başqalaşdı onun məqsədi.
Başından lovğalıq tacını atdı,
Öz başı allahın tacına çatdı.
Qasiddən peyğamı qəbul eylədi:
“Allaha biz müti bəndəyik” – dedi.
O gündən hazırlıq gördü səfərə,
Əsla baş qoşmadı başqa işlərə.
Kənar məşğələdən uzaq olaraq,
Səfərə tədarük görürdü ancaq.
Mələk gətirmişdi ona xoş xəbər,
Əlavə olaraq, yenə İskəndər
Tədbirlər öyrəndi hər bir alimdən,
Çatar məqsədinə çox tədbir bilən!
Nəsihətnamə də keçirdi ələ,
Yazdırdı ipəyə qara müşk ilə.
Ərəstu oldu ilk naməni yazan,
O xəbər verirdi yaxşı-yamandan.
İkinci naməni bildiklərindən
Əflatun yazmışdı duyub dərindən.
Üçüncü xəzinə Sokratdan idi,
Qiymətli gövhərlə doluydu içi.
Sözlər bir-birinə rəbt edilərək,
Üç nəsihətnamə tamama yetcək,
Padşah möhürlədi bunları o dəm,
Səhmanla bağlayıb saxladı möhkəm.
Tədbirə ehtiyac duyduğu zaman
Açıb oxuyardı bir-bir onlardan.

**İSKƏNDƏRİN PEYĞƏMBƏRLİK**

**SƏFƏRİNƏ ÇIXMASI**

Allahın hökmüylə böyük İskəndər
Vəhy alıb elə ki oldu peyğəmbər,
Dövlət divanından pozdu adını,
Zəhmət divanına yazdı adını.[1]
Əmr etdi bacını Rum ilə Rusun
Yazsınlar adına İskəndərusun.
Getmədən tərk etdi təxti oğluna,
Tapşırdı anası göz olsun ona!
Vəsiyyət etməkçün gələrək dilə,
Əziz anasına söylədi belə:
“Gedirəm, bu xalqla et yaxşı rəftar,
Qoy səndən həmişə razı qalsınlar.
Ata tək bu xalqı himayənə al,
Anasan, anatək dərdlərinə qal.
Mən yola çıxmağa duydum zərurət,
Qalır təxtim, tacım sənə əmanət.
Yollarım uzundur, mənzillərim çox,
Bilməm dönəcəyəm geriyə, ya yox.
Elə et qayıtsam əgər səfərdən,
Xəcalət çəkməyək nə mən, nə də sən.
Yox, əgər dönməyim olmasa qismət,
Huşyar ol, xoş gəlsin ta ki, aqibət.
Elə et ki, haqqın məhkəməsindən
Dilin tutulmasın, xəcil olma sən”.
Bütün sözlərini deyib İskəndər,
Qoyub təxti, tacı, elədi səfər.
Əmr etdi bir anda bütün Rum və Şam
Qoşunu önündə cəm olsun tamam.
Fərmanında olan bütün qoşundan
Yol üçün ayırdı yüz min pəhləvan.
O, Məqduniyyədən yola düşərək
İskəndəriyyəyə gəlib çatantək,
İlk əvvəl yolunu Məğribə saldı.
Misrə gəlib orda iki gün qaldı.
Sonra çıxıb ordan, qəlbində dilək,
Allahın əmrinə əməl edərək,
Bir xeyli yol gedib, dərələr keçdi.
Ötüb zəmiləri, çölə yetişdi.
Məqdəsdən dəstəylə bir neçə adam
Hakimin zülmünə etməyib davam,
Yolda düzüldülər, o qadir şahdan
Belə dilədilər mərhəmət, aman:
“Pak etdin dünyanı, sən, ey hökmüdar,

Gəl, bu pak evi də paklığa çıxar.
Ucalt bayrağını şəhərimizdə,
Yox et bədxahları, dincələk biz də.
O paklar yurdunda var bir əhrimən,
Allah dostlarıyla düşməndir, düşmən.
Müqəddəs binada itaətkarlar
Olub o zalimin zülmündən bezar.
Tərk edib sitayiş yolunu hakim,
Bütün din əhlinə zülm edir daim.
Başını dik tutub, tökür nahaq qan,
Çoxunun başını kəsib nahaqdan.
Hamımız qorxuruq o əhrimәndən,
Divlər qənimisən, dadə yetiş sən!”
İskəndər onları belə görəntək,
O göz yaşlarına rəhm eləyərək,
Əsla incimədi fəryadlarından.
Çatdı məzlumların dadına o an.
Dinləyib onların ah-fəryadını,
Beytülmüqəddəsə sürdü atını.
Bu vaxt hər tərəfdən – dağdan, dərədən
Ədalət səsini eşidib düşmən,
Tədarük görərək döyüşə çıxdı,
Bilmirdi ki, şahın bəxti açıqdı.
İskəndər vuraraq ona şəbxunu,
Yolkəsən ağzının kəsdi yolunu.
Onu zalim görüb, qanını tökdü,
Qüdsün qapısında çarmıxa çəkdi.
Carçılar bir neçə müddət çəkib car,
Elədiyi zülmü bir-bir saydılar,
Dedilər: “Bu evə zülm etsə hər kəs,
Belə aqibətdən qurtara bilməz!”
Beytülmüqəddəsi nizama saldı,
Sonra da Məğribə tərəf yol aldı.
... Altı ay yol getdi sonsuz çöllərdən,
Qoşun təngə gəldi axır səfərdən.
O, fil ayağıyla səhralar keçdi,
Nilin sahilinə gəlib yetişdi.
Quru qumluqları keçib ötürdü,
Axırda yamyaşıl bir təpə gördü.
Təpənin ətrafı uca dağlardı,
Minatək yamyaşıl daşları vardı,
Bu daşlar kəsmişdi çıxacaq yolu,
Yol gedən azardı orda sağ-solu.
Zillətlə qalxsaydı biri zirvəyə,

Orda unudardı əziyyətləri,
Keçərdi o üzə, dönməzdi geri.
Ora neçə nəfər oldusa rəvan,
Olmadı bir nəfər geri qayıdan.
Yığdı alimləri yenə İskəndər,
Bu işə, bəlkə, bir çarə etsinlər.
Dedilər: "Yaramaz təklikdə getmək,
Oraya çıxanlar cüt olsun gərək.
Birbaşa çıxmaq da ora çətindir.
Yolda dincəlsinlər on addımda bir.
Təpəyə yetişib dayansın onlar.
Sonra tədbirləri işə salsınlar.
Heyrətə düşməsin deyə gözləri,
O üzə tədriclə baxsın hər biri".
Nəticə vermədi bu son tədbir də,
Yığdı alimləri İskəndər bir də.
Düşünüb verdilər belə bir qərar:
"Hünərli, vicdanlı bir şəxs tapsınlar.
Dünyagörmüş olsun, yazmaq bacarsın,
Gedəndə qələmlə kağız aparsın.
Götürsün yanınca əziz oğlunu,
Dərd-qəmdən qorusun övladı onu.
O dağı çıxdıqda oğlu da hər an
Gərək təqib etsin onu arxadan.
Qayıda bilməsə o kişi əgər,
Ordan övladına eləsin xəbər.
İşdir, heyrətindən dili tutulsa,
Danışa bilməsə, qəfil lal olsa,
Yazar, gördüyünü verər oğluna,
Çünki varlığıyla bağlıdır ona".
Həmin sifətlərə malik, cəld, qıvraq
Bir qoca tapdılar soraqlaşaraq.
Yollandı dağlara qocayla cavan,
Sanki balasıyla getdi bir aslan.
O günün sabahı, günorta çağı
Gənc igid qayıdıb gəldi aşağı.
Bükülü naməni möhkəm tutaraq,
Baş əydi padşaha rəngi ağappaq.
Şah alıb oxudu, beləydi yazı:
"Məni bezdirmişdi yolların tozu,
Lap cana gəlmişdim, qorxurdum yaman,
Sanki cəhənnəmdi bu yolda hər yan.
Elə bil həyatın asılır tükdən,
Canından əl üzər bu yolu gedən.

Bu yollar çətindir, incədir tüktək,
Burdan mümkün deyil geriyə dönmək.
Sarp qaya üstünə gəlib çatarkən
Darısqal yollardan təngə gəldim mən.
Baxdıqca keçdiyim qorxunc yollara,
Qəlbim sıxıntıdan gəldi zinhara.
Bu tayın yolları düzdür, hamardır,
Hər yana baxırsan yaşıl bağlardır,
Boldur gül-çiçəyi, suyu, meyvəsi,
Gəlir hər tərəfdən quşların səsi,
Havası tərtəmiz, qəşəngdir hər yan,
Belə yurd arzular allahdan insan.
Havası tərtəmiz, ətir qoxulu,
Gözəl torpaqları çeşməli, sulu,
Çeşmələr, bulaqlar verib əl-ələ,
Bunlardan böyük çay gəlib əmələ.
Bu yanda bəzəkli gözəl bir həyat,
O yanda azğınlıq, düşgünlük, fəryad..
O tərəf – cəhənnəm, bu tərəf – gülşən,
Dönməz cəhənnəmə heç kəs behiştdən.
Bir də ki, gəlmişik gör hardan-hara,
Baxıram keçdiyim qorxunc yollara,
Belə gözəl yerdən kim dönər geri,
Keçər o dəhşətli qorxunc yerləri?
Mən getdim, səlamət olsun görüm şah,
Mən şadam, sizi də şad etsin allah!"
Şah gizli sirlərdən oldu xəbərdar,
Qoşunu tez etdi o yerdən kənar.
Heç kəsə demədi oxuduğunu,
Qorxdu ki, hamısı tərk edər onu.
O, tozlu yollarla səfər edirdi,
Zamanı arxada qoyub gedirdi.
Bu yolda heç nəyə meyl etməyərək,
Qəlblərdən tozları silirdi yeltək.
Dostların könlünü o şad edirdi,
Yadlara həqiqi din öyrədirdi.
Yolun yarısına çatıb İskəndər.
Vəhşilər gördü ki, insana bənzər.
Bunlar çöl əhliydi, qırdan da qara.
Yaşayış yerləri kaha, mağara.
Onlardan soruşdu: "Bu çöllərdən siz
Sərgüzəşt, əfsanə nə bilirsiniz?
Deyin, sizdən başqa varmı yaşayan
Bu çöldə ya əhli, ya vəhşi heyvan?"

Onların cavabı şaha bu oldu:
“Az olur bu çölün suyu, buludu;
Bu susuz səhrada yaşayırıq biz.
Səhranın ovudur yediklərimiz.
Yalnız ovçuluğu etmişik peşə,
Ömrümüz heyvantək keçir həmişə.
Yeyərik nə etsək bu çöldə şikar,
Tüklərdən, dəridən geyərik paltar.
Burada nə atəş, nə də ki, su var,
Odu günəş verir, suyu buludlar.
İşıqlı gündüzlər göyün günəşi
Bizə əvəz edər odu, atəşi.
Şeh düşüb havanı nəm edən zaman
Nəfəslə alırıq suyu havadan.
Bu çöldə belədir məişətimiz,
Belədir işimiz, vəziyyətimiz.
Bir də soruşdunuz, deyək bir qədər
Bu çöldə kimlər var, necə ömr edər?
Bu odlu səhralar dəhşətdir, dəhşət,
Bir quş da uçmağa etməz cəsarət.
Dəstə-dəstə vəhşi adamlar yaşar,
Heç kəslə ünsiyyət bağlamaz onlar.
Bir gündə onların getdiyi qədər
Biz getsək, inan ki, iki ay çəkər.
Onlardan birisi düşmüşdü ələ,
Soruşub birtəhər gətirdik dilə:
“Necə edirsiniz susuzluğa tab?”
O bizə nifrətlə vermişdi cavab:
“Su bizə zəhərdir, su içməz heç kəs,
Bizə suyu hava eləyər əvəz.
İlantək heç kəsə yovuşmarıq biz,
Kərtənkələlərdir yediklərimiz.
Sizdən ki, bir fayda yoxdur bizlərə,
Neçin boyun əyək sizə boş yerə?”
Yemək, yatmaq vaxtı yenə birtəhər
Onlardan gizlincə almışdıq xəbər:
“Bu sonsuz səhranı, susuz çölləri
Gəzib görübsünüz siz çoxdan bəri;
Söyləyin, kim görüb başqa zihəyat?
Varmı bu çöllərdə başqa məxluqat?”
Onlar cavab verib: “Bu çölü, dağı
Axtarıb gəzmişik yaxın-uzağı.
Ahutək biz qaçdıq illər uzunu,
Tapmadıq səhranın ancaq sonunu.

Bizə rast gəlmişdir başqa çöllülər,
Onlardan soruşub tutmuşuq xəbər:
“Görəsən bizlərdən başqa, yaradan
Burda yaratmışmı başqa bir insan?”
Onlar deyiblər ki: “Çox uzaqlarda,
Günəş ziyasına həsrət diyarda
Müşk meşəsi kimi bircə şəhər var,
Orda ağ bədənli insanlar yaşar.
Gözəl, xoşxasiyyət, üzləri gülər,
Onlar beş yüz ildən artıq ömr edər.
Beş yüz yox, lap min il yaşasalar da,
Qocalıq əsəri olmaz onlarda”.
Onların halına yanıb İskəndər,
Cürbəcür nemətdən verdi bir qədər.
Qayda-qanun qoydu, ayin öyrətdi,
Onları haqq dinə hidayət etdi.
Düzgün nişanlarla bilməkçin yəqin
Yolunu soruşdu məchul yerlərin
Gördülər İskəndər çox şəfqətlidir,
İnsaflı, qayğıkeş, mərhəmətlidir,
Eyləyir onlara ürəkdən kömək.
Dedilər: biz də bir xidmət göstərək.
Torpağı od, atəş, küləyi zəhər
Səhradan çıxmağa yol göstərdilər.
İskəndər vaxt-bivaxt, baxmadan yola,
Oradan atını çapdı dördnala.

**İzahlar və şərhlər:**

*1 Dövlət divanından pozdu adım,*
*Zəhmət divanına yazdı adım.*
*Dövlət divanı - hakimiyyət mövqeyi, şahlıq; zəhmət divanı - peyğəmbərlik.*

## İSKƏNDƏRİN ŞİMALA ÇATMASI VƏ YƏCUC SƏDDİNİ BAĞLAMASI

Yayın ən şiddətli, isti çağında,
Daş muma dönəndə gün qabağında
İskəndər gözündən qovub yuxunu,
İstədi Xırxıza çəksin qoşunu.
Şah vida eylədi Çin xaqanına,
Xəzinə, var-dövlət bəxş etdi ona.
Yola rəvan oldu, Çini tərk etdi,
Qoşunu səhraya doğru yönəltdi.
Bəxtinin təblini çaldırıb yenə,

Yetişdi Məşriqdən Şimal həddinə.
Keçdi o, çöllərdən, axan qumlardan,
Nə uçan quş gördü, nə də bir insan.
Qarşıda parlayan düzənlik vardı,
Qumları nur saçar, par-par yanardı.
Bələdçi dedi ki: "Burda gördüyün
Qumlar başdan-başa gümüşdür bütün.
Burdan sən o qədər götür xəzinə,
Qoşunu salmasın yolda çətinə.
Qoşundan bilməsin bunu bir nəfər.
Ağır yük götürüb əldən düşərlər".
Şahınsa, çox idi saf qızılları
Odur ki, baxmadı gümüşə sarı.
Ancaq ki neyləsin, güc gəldi tamah,
Bir neçə dəvəni yüklətdi padşah.
Yel kimi keçsə də, yolu çaparaq,
Qalxmırdı havaya nə toz, nə torpaq.
Bir həftə qonmadı toz paltarlara.
Çünki başdan-başa gümüşdü ora.
Deyərdin, bu yerlər iki hissəydi:
Torpağı gümüşdü, suyu civəydi.
Nə gümüş üstündə dincəlmək olar,
Nə civə su kimi içməyə yarar.
Bir ay yol getdilər onlar bu sayaq,
Öldü susuzluqdan bir çoxu ancaq.
Gümüşlü çöllərdən keçərək yenə
Gəlib yetişdilər vətənlərinə.
Düşdülər torpağa yorğun, natəvan,
Torpaqda dincələr torpaqdan olan.
Gördülər qarşıda bir düşərgə var,
Zülmətdə günəştək par-par parıldar.
Qabaq-qarşı duran dağda bir qala
Tutmuşdu başını göyə vüqarla.
Qala arxasında bir dağ da vardı,
Belində kəməri sarp qayalardı.
Orda peyğəmbərə etməyib beyət,
Bir tayfa yaşardı sakit, səlamət.
Onlar ilham alıb böyük tanrıdan.
Özləri olmuşdu allahtanıyan.
Onlar İskəndəri pak sifət görcək
Qəbul elədilər bir peyğəmbərtək.
Bilikli, adil bir hökmdar kimi
Qəlbləri bəzədi onun təlimi.
İskəndər onlara haqqı göstərdi,

Din, bilik, mərifət – çox şeylər verdi.
Şahı mərhəmətli, qayğıkeş görcək
Açıb dərdlərini umdular kömək:
“Ey qəlbi şəfqətli aqil hökmüran.
Müti qullarına, gəl, ol pasiban!
Bu dağdan o yana vardır bir diyar,
Sonsuz bir səhradır, sərt qayalıqlar.
Oranı yəcuclar etmişlər məskən,
İnsana bənzərlər, divdirlər əslən!
Şirtək almazcaynaq, sərt, dəmirürək.
Hamısı xaindir yırtıcı qurdtək.
Təpədən dırnağa tükləri biz-biz,
Yoxdur üzlərində burundan bir iz,
Boyları bir qarış, yeməkləri çox.
İstidən, soyuqdan qorxuları yox;
Dişdən, dırnaqdan da – yırtıcı heyvan.
Qana hərisdirlər onlar hər zaman.
Yeyinlikdə üstün gələrlər yelə,
Poladı deşərlər dırnaqlar ilə.
Yeməkdə, içməkdə naşükürdürlər,
Allahı tanımaz orda bir nəfər.
Onların yerində bir cür ot bitər,
Verər istiottək çox tünd danələr.
Hər gecə-gündüzdə ondan bir azca
Yeyərək yatarlar elə ordaca.
Bir xırman başqa ot versən də əgər,
Yeyərlər, yenə də doymaq bilməzlər.
Ayla Gün səmada üz-üzə gəlcək
Onlar qaynaşarlar xırda qurdlartək.
Nə düşsə, qorxusuz tutub yeyərlər
Bu sayaq Ay yarı olana qədər.
Göydə Ay kiçilib olanda yarı
Azalar bir qədər iştahaları.
Qara buludlardan ildə bir kərə
Böyük bir əjdaha düşər o yerə;
Yaman yekə olur həmin o heyvan.
Yəcuclar doyunca yeyərlər ondan.
Yıxılıb qalarlar, bir aya qədər
Sərxoştək yatarlar, heç nə yeməzlər.
Köklə otdan başqa bilməzlər yemək.
Xəstəlik görməzlər ölən günədək.
Arabir hücumla talayıb bizi,
Xaraba qoyarlar evlərimizi.
Qoyun-quzumuzu aparıb onlar.

Yeyərlər nə qədər azuqəmiz var.
Bu itsifətlərdən qorxduğu qədər
Canavardan qorxmaz bizim sürülər.
Bizləri qırmaqçın edərlər qovğa,
Didərgin salarlar yurddan uzağa.
Biz uca dağlara qaçıb qorxudan
Quştək ağaclarda salarıq məkan.
Ancaq ayaqları süstdür bir qədər,
Ardımızca dağa çıxa bilməzlər.
Bu böyük bəlanı bizdən əgər sən
Dəf etsən, çox böyük savab edərsən!"
İskəndər bildi ki, zordur yəcuclar,
Yəqin hər birində bir fil gücü var.
Bir sədd ucaltdı ki, orda poladdan,
Olmaz həşrə qədər onu dağıdan.
Ona uca bəxti köməklik etdi.
Tikilib qurtardı İskəndər səddi.
Dönüb bir şəhərə gəldi şah ordan,
Axtarıb tapmadı orda bir insan.
Yenə səfərinə davam etdi şah,
Köçməyə başladı ordan qərargah.
Bu işdən keçəndə bir xeyli müddət,
Bir ay dağlar, çöllər aşıb, nəhayət,
Gözəl bir mənzildə məskən saldılar,
Bu yerdən hamısı məmnun qaldılar.
Bir yol töhfəsitək böyük hökmüran
Göstərdi qoşuna şəhri uzaqdan.
Başqa cürə idi burda təbiət,
Su ilə, əkinlə tapmışdı ziynət.
Hasarsız, divarsız bağlardı hər yan,
Bol-bol sürü vardı, yoxdu bir çoban.
Qoşundan birisi tər meyvələrə
Əlini uzadıb istədi dərə,
Həmin meyvələrdən birini dərcək
Bədəni qıc olub qaldı kamantək.
Başqa bir atlı da qoyun tutanda
Onu bərk qızdırma tutdu bir anda.
İskəndər: "Bax, bunlar ibrətdir", deyə,
Əlini vurmadı orda heç nəyə.
Qoşuna əmr edib şah dedi:
"Heç kəs özgənin bağına toxuna bilməz!"
Tələsik gedərək ordan bir qədər,
O axar-baxarlı yerdən keçdilər,
Cənnəttək, neməti bol-bol, firavan

Bir şəhər gördülər onlar uzaqdan.
Gəlib darvazaya çatdı İskəndər
Gördü ki, qapıdan yoxdur bir əsər.
Müdrik qocalarla girdi şəhərə,
Baş vurdu onlarla burda hər yerə,
Gördü çox bəzəkli, dolu dükanlar,
Ancaq nə qapısı, nə qıfılı var.
Nəcib şəhər əhli onu görəntək
Çıxdı qarşısına təzim edərək.
Gətirdilər qəsrə bir mehman kimi,
Saray ziynətliydi asiman kimi.
Süfrə bəzədilər, büsat qurdular,
Özləri xidmətdə hazır durdular.
Pərəstiş etdilər o mehmanlara,
Əhsən qonaqsevən bu insanlara!
Süfrəni bəyəndi böyük hökmüdar,
Onlar fərəhlənib çox şad oldular.
İskəndər soruşdu: "Nə üçün sizlər
Qorxu bilməzsiniz heç zərrə qədər?
Neçün burda belə arxayınlıq var?
Neçün qıfılsızdır burda qapılar?
Yoxdur heç bir bağda keşikçi, bağban,
Neçin sürünüzü güdməz bir çoban?
Çobansız sürülər nədir bir belə,
Baxdıqca yayılıb düzənə, çölə?
Belə arxayınlıq, laqeydlik nədir?
Sizin inamınız, deyin, kimədir?"
Ədalət yurdunun ağsaqqalları
Bir də mədh eləyib o hökmüdarı
Dedilər: "Başına tac qoyan allah
Ömrünü payidar eləsin, ey şah!
İşində haqq sənə havadar olsun,
Şöhrətli adına hünər yar olsun!
Bizim güzəranı sordu hökmüran,
Buyurub dinləsin, biz edək bəyan:
Doğrusu budur ki, bizlər qədimdən
Bu dağı, bu çölü etmişik məskən.
Fağır bir tayfayıq, həm də dinpərvər,
Düzlükdən keçmərik əsla tük qədər.
Əyri dolanmaqla yoxdur işimiz,
Düzlükdən başqa yol tanımırıq biz.
Əyrilik yoluna çəkmişik hasar,
Düzlüklə olmuşuq əzabdan kənar.
Yalan gətirmərik biz dilimizə,

Əyri yuxular da görünməz bizə.
Faydasız etmərik heç sorğu-sual.
Çünki allaha da xoş getməz bu hal.
Allahdan nə gəlsə, edərik şükür,
Çünki narazılıq naşükürlükdür.
Biz razı qalarıq nə gəlsə həqdən,
Düşmənlik edərmi pərəstiş edən?
Acizin dərdinə edərik çara,
Xilas eyləyərik düşərsə dara.
Bizim aramızda, bilsək ki, əgər,
Birinə bir işdə yetişib zərər,
Biz öz kisəmizdən onu ödərik,
Verib mayasını təmin edərik.
Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana heç kimsə gülməz.
Oğrudan qorxmarıq, biz nə şəhərdə
Keşikçi qoyarıq, nə də çöllərdə.
Oğurluq eləməz bizdə bir nəfər,
Oğurlaya bilməz bizdən özgələr.
Nə zəncir, nə qıfıl görər qapılar,
Gözətçisiz otlar bizim mal-davar.
Bizim uşaqları böyüdər allah,
Naxıra şir, pələng toxunmaz əsla.
Bizim bir qoyuna dəysə canavar,
Ordaca gəbərib yerində qalar.
Kim dərsə bir sünbül bizim əkindən,
Qəfil bir ox dəyər düz ürəyindən.
Biz əkin zamanı səpərək dəni,
Haqqa tapşırarıq sonra əkini.
Altı ay olarıq əkindən uzaq,
Bir də biçin vaxtı gələrik ancaq.
Bizim bərəkətli münbit zəmilər
Düz birə yeddi yüz məhsul yetirər.
Bir, yaxud yüz belə işi bacarsaq,
Allaha təvəkkül elərik ancaq.
Bizi hifz eləyən allahdır, allah,
Biz yalnız allaha gətirrik pənah
Xəbərçilik bilməz bir nəfərimiz,
Özgənin eyvana göz yumarıq biz.
Birini qəzəbli, acıqlı görsək,
Ona məsləhətlə elərik kömək.
Heç kəsi pis yola əsla çəkmərik,

Fitnə axtarmarıq, qan da tökmərik.
Dərdlinin dərdinə olarıq şərik,
Şad olsa, onunla şadlıq eylərik.
Qızıla, gümüşə aldanmaz heç kəs,
Bunlar bizim yerdə bir şeyə dəyməz.
Xəsislik bilmərik dünyada bizlər,
Zorla şey almarıq bir arpa qədər.
Bizdən qaçmaz əsla vəhşi heyvanlar,
Vermərik onlara əziyyət, azar.
Ehtiyac olanda gur, cüyür, ceyran
Özləri axışıb girər qapıdan.
Ovlamaq istəsək onlardan əgər,
Ovlarıq ehtiyac duyulan qədər.
Lazım olmayanı biz nahaq yerə
Qırmarıq, ziynətdir onlar çöllərə.
Nə öküz, nə eşşək kimi yeyərik,
Nə də ağzımızı möhürləyərik.
Süfrəyə hər cürə nemət düzsələr,
Yeyərik, gözümüz qalana qədər.
Bizdə cavanlardan ölüm uzaqdır,
Ölüm çox yaşamış qocaya haqdır.
Ölüyə biz əsla saxlamarıq yas,
Bilirik bu, dərdə bir çarə olmaz.
Üzə deyilməyən bir sözü heç kəs.
Bizlərdə qaydadır, daldada deməz.
Kim nə cür dolanır, danışmarıq biz,
Kimsənin işinə qarışmarıq biz.
Naşükür deyilik qismətimizə,
Razıyıq qəzadan nə gəlsə bizə.
Allahın lütf edib verdiyi şeyə
Demərik: “Bu hardan? Bu belə niyə?”
Bizimlə birlikdə o adam yaşar
Ki, ola bizimtək təmiz, pəhrizkar.
Tutduğumuz yoldan çıxsa bir insan.
Kim olsa, qovarıq öz aramızdan...”
İskəndər bu qayda-qanunu görcək
Duruxub dayandı divanələrtək.
Çünki belə şeyi nə görmüş, nə də
Oxumuş idi bir xosrovnamədə...
Öz-özünə dedi: “Arifsən əgər,
Qoy sənə bir ibrət olsun bu sirlər.
Dünyanı gəzmərəm mən, daha bəsdir,
Hər ovlaqda bir tor qurmaq əbəsdir.
Bütün bildiklərim qalsın bir yana,

Bunların söhbəti bəs elər mana.
Elə bil dünyanı o pərvərdigar
Bu mərd insanlarçün etmiş bərqərar.
Bunlar şövkət vermiş aləmə, yəqin
Sütunu bunlardır bütün aləmin.
Düz yaşayış yolu budursa əgər,
İnsan bunlardırsa, bəs nəyik bizlər?
Bizi haqq göndərib çölə, dənizə,
Qəsdi göstərməkmiş bunları bizə.
Vəhşi adətlərə eyləyib nifrət,
Öyrənək bunlardan ayin, mərifət,
Bunları əvvəldən görsəydim əgər,
Dünyanı bu qədər gəzməzdim hədər.
Tapardım özümə dağda bir kaha,
İbadət eylərdim orda allaha.
Bunlartək asudə ömr edərdim mən,
Dinim də olardı həmin bu dindən!..”
İskəndər görəndə onları dindar,
Peyğəmbərliyini etmədi izhar.
Görəndə onları əməlisaleh,
Xəzinə bəxş etdi o böyük fateh.
Qayıtdı geriyə ordan fərəhlə,
Qoşunu dəniztək yönəltdi çölə.
Bayraqlar qaldırdı rum ipəyindən,
Al xara geyindi sanki çöl-çəmən!
Tutdu qarışqatək qoşun hər yanı –
Dərəni, təpəni, düzü, ormanı...
Hara iz saldısa atının nalı,
Sildi o yerlərdən dərdi, məlalı.

## İSKƏNDƏRIN VƏSİYYƏTİ

Əcəl yetişəndə tapıb bəhanə
İnsana min əzab verər zəmanə.
Ruzgardan o qədər inciyər insan
Özü ölümünü istər allahdan.
Əl atmadıqları tədbir qalmadı,
Rəylərdən bir fayda hasil olmadı.
Çırağın əcəli çatıbsa əgər,
Ona öz yağı da yetirər zərər.
Çürümüş bir meyvə ağacda durmaz,
Düşəcək, tərpənsə budaqda bir az.
Ən mahir, ən ustad təbib heç zaman
Tapa bilməmişdir ölümə dərman.

Göyün hesabına bələd olanlar
Saldılar hesaba göydə hər nə var.
Onun taleyini gördülər nursuz,
Ondan uzaqdaydı bəxt açan ulduz.
Heç elə bir ulduz yoxdu ki, onun
Göstərmiş olaydı ömrünü uzun.
Taleyi səmada bəd görən zaman
Münəccim özü də əsdi qorxudan.
Önündə aynaya baxdı İskəndər.
Baxdı, vücuduna yetirdi nəzər,
Gördü ki, bədəni tüktək incəlib,
Qaçmaq istəyən can dodağa gəlib.
Nə qəlbdə qüvvə var, nə canda taqət,
Əyilmiş əvvəlki o sərv qamət.
O öz ölümünü gözüylə görcək,
Özü öz halına ağladı şamtək.
Yaxın dostlarını dəvət elədi,
Ürək sözlərini onlara dedi:
"Gəmim dar girdaba düşdü, a dostlar,
Ölüm ağzı açıq nəhəngtək durar.
Köçmək vaxtı gəldi bu düşərgədən,
Başqa bir ovlağa getməliyəm mən.
Bu fələk mənimlə xoşrəftar oldu,
Dağda, daşda mənə pərəstar oldu.
İndi düşmən oldu o haqq-sayda,
Dəyişdi rəftarı Günəş də, Ay da.
Ruzgar gözlərimdə çənə bürünür,
Bu dardan çıxmağım müşkül görünür,
Nə çarə qılım ki, oldum dərdmənd,
Bu fələk tacıma atıbdır kəmənd.
Hardadır, çatdırın xəzinədara,
Bəlkə, rüşvət verib məni qurtara.
Mənim od qılınclı qoşunum hanı?
Qovsun canımdakı bu qızdırmanı.
Ən qorxunc divləri tutub ram edən,
Təxti-tac sahibi İskəndərəm mən!
Qılınca qurşandım, kəmər bağladım,
Bütün qulaqlara çatmışdır adım.
Zəhərli qılıncla tufan edib mən
Tozlar qaldırmışam Bəhri-Qülzümdən.
Böyüdüb çoxunu etdim hökmüran,
Çox qoyun almışam qurdlar ağzından.
Çox-çox sınıqları mən calamışam,
Çox-çox bütövləri parçalamışam.

Zülmü ədalətlə eyləyib əvəz,
Müşküllər həll edim hesaba gəlməz.
Qünnücdən Qülzümə oldum hökmüran,
Şimşək qılıncımı gördü Qiyrəvan.
O qılınc dönübdür indi zəncirə,
Ömrümü tor kimi salıbdır girə.
Çox dağlar, dənizlər keçmişəm, heç kəs
Dünyanı mənimtək seyr edə bilməz.
Yudum məcusluğu dünya üzündən,
Rus dənizində də od qaladım mən.
Mən hansı bir yerə etdimsə səfər
Ədalətlə bilik qazandı ellər.
"Nə gördün?" deyərək sorsalar əgər,
Deyərəm: sanki heç etmədim səfər.
Dünyanı görmədən torpağa girən
Birgünlük körpəyə bənzəyirəm mən.
Dünyanı başabaş gəzmişəm özüm,
Hələ ki, dünyadan doymayıb gözüm...
Bütün biliklərdən dərsimi aldım,
Ölümün əlində, heyf aciz qaldım.
Çox azğın zalimi çəksəm də dara,
Bu namərd ölümə tapmadım çara.
Çoxuna mərhəmət, lütf eyləmişəm,
Görən də olubdur əlimdən sitəm.
Zalim olmuşamsa, əfv edin məni,
Mən də öldürmüşəm çox zülm edəni!
Tabutum torpağa olanda təslim,
Pak ruhum paklara qovuşar mənim.
Başa kül sovurmaq əvəzində siz
Mənimçün allaha dua ediniz!.."
Bunları söyləyib, almadı cavab,
Yenə yatağına sərildi bitab...

**İSKƏNDƏRİN ANASINA MƏKTUB YAZMASI**

Gecə köçüb getdi, ağladı şəbnəm,
Günəş şəfəq saçıb güləndə aləm
Artdı İskəndərin ahü naləsi,
Ucaldı çalınan zənglərin səsi.
Hər dərdə yüz çarə bilən Ərəstu
Bu dərdin önündə çarəsiz durdu.
Sanki ərimişdi şah səhərədək
İyirmi yeddinci gecəki aytək.
Anası yadına düşdü, İskəndər

Sarsıldı, ürəkdən oldu mükəddər.
Buyurdu, hüzura ağıllı, zirək
Rumlu katiblərdən biri gələrək,
Qələmi qapqara hislə doldurub,
Əziz anasına yazsın bir məktub.
Ana dili kimi şirin dil ilə
Ona and verərək başlasın belə:
“Anacan, sən məni eyləyəndə yad
Sıxma ürəyini, qoparma fəryad!”
Böyük yaradanı gətirib dilə
Katib məktubunu başladı belə:
“Məndən – İskəndərdən bu namə getsin,
Dörd yox, bircə olan anama yetsin.[1]
Anacan, qətrəyə döndüsə çeşmə,
Su qabı suda da sınar, qəm çəkmə!
Ağacdan düşdüsə bir qızıl alma,
Narınctək rövnəqdən düşüb saralma!
Soldu, sarı-gülün getdi növrağı,
Qalsın qızıl gülün yaşıl budağı.
Anacan, bu sözə inanmıram mən:
Məhəbbət könüldə çox olur dildən.
Eşidib od tutar sinəndə ürək
Ki, şahlar gülünü aparıb külək.
Yanma, bəslədiyin balan qayıtmaz,
Əlini o yanan ürəyinə bas!
Zaman etsin səni bu oddan kənar,
Sənə səbir versin o pərvərdigar!
Səni and verirəm əmdiyim südə,
O şirin laylaya, o ilk öyüdə,
Dünyadan gənc getmiş bir övladına,
Ağlayan ananın o fəryadına,
Dinə əməl edən pak insanlara,
Həmişə, hər yerdə dada çatana,
Can verib can alan o yaradana...
Anacan, bu məktub gəlib çatarkən
Çatıb qaşlarını kədərlənmə sən!
Bu dünya fanidir, əbəs ağlama,
Mənimçün yas tutma, qara bağlama!
Dünyanın əzəldən axırı budur,
Əyilmə ələmdən, mətanətlə dur!
Dünya bir kimsəyə qalmışsa əgər,
Səni də qoy üzsün bu dərd, bu kədər.
Ancaq bu dünyanı fani görəndə
Başqaları kimi toxtaq ol sən də!

Yox, əgər bunlara baxmayaraq sən
Mənimçün yasxana qurmaq istəsən,
Əvvəlcə şahanə bir məclis düzəlt,
Gözəl yeməklərdən bir süfrə bəzət,
Çağır qonaqlığa xalqı hər nə var,
Bütün gələnləri elə xəbərdar:
Təbrdə adamı yoxsa hər kəsin,
Buyursun süfrəyə, doyunca yesin!..
Əgər yemiş olsa onlardan biri,
Sən də ye dünyada acı qəmləri.
Heç kim o süfrəyə əl uzatmasa,
Sən də unut qəmi, heç batma yasa!
– Oğlum ölüb, – deyə çəkmə heç məlal.
Gəl, öz işlərinin qeydinəcə qal.
İkiqat uzun da olsaydı ömrüm,
Axır yenə bir gün vardı bu ölüm.
Ən uzun ömür də kifayət deyil,
Nə fərqi, yaşadın otuz, ya yüz il?
Əlimdə qalmadı bu saxta saray,
Siz də səbr eləyin, salmayın haray!
Şəbdizim sıçradı çaydan o taya,
Məndən salam olsun dosta, aşnaya.
Bizi azad etdi zindandan fələk,
Hamı azad olsun görüm bizimtək!..”
Məktubu yazdırıb o, yola saldı,
Özü də cənnətə sarı yol aldı.
Dolanıb görmüşdü o bir çox yeri,
Başqa bir yerəydi indi səfəri.
Tufan başlayarsa almağa qisas
Balıqtək üzənlər əsla qərq olmaz.
İpək karxanası bil bu dünyanı,
Orada hərlənən çox tağalaq var,
Biri boşalanda o biri dolar.
Dünyanın sirrini boşdur axtarmaq,
Üstü tüstü-duman, altı toz-torpaq.
Bu tozdan, tüstüdən görünür hər an
Çarpışır, vuruşur yerlə asiman!
Sazişə gəlsəydi göylə yer əgər,
Bizi yer üzündən süpürməzdilər...
Nizami, gəl qurtar axır sözünü,
Qorxutma özgəni, nə də özünü.
Sultanın bəzminə gedəndə mehman
Yolun yarısında olma peşiman.
Eşit sözlərini huşu-guş ilə,

Acı badəsini alıb nuş elə!
İskəndər bu camdan murada çatıb,
İçib o badəni, əbədi yatıb.
Sultan sağlığına kim içsə şərab,
Nuş olsun, içənlər olsun feyziyab!

***İzahlar və şərhlər:***

*1 Məndən - İskəndərdən bu namə getsin,*
*Dörd yox, bircə olan anama yetsin.*

*Burada dörd ana - dörd ünsür (su, od, torpaq, hava) deməkdir ki, qədim təsəvvürə görə insan vücudu da bunlardan ibarətdir.*

*Beytin mənası: məktubum təbiət hadisələrinə məruz qalmayıb öz doğma anama yetişsin.*

# Məhəmməd Füzuli
# Leyli və Məcnun
## *(ixtisarla)*

**LEYLNİN ANASINA CAVABI**
1. Leyli bu itabı çün eşitdi,
Öz könlündə müqərrər etdi
Kim: "Şöbədeyi-sipehri-zalim,
Tərh eylədi nəqşi-namülaim...
2. Naçar tutub təriqi-inkar,
Asari-təcahül etdi izhar;
Gülzari-itabə ab verdi,
Giryan-giryan cəvab verdi:
3. "Key munisi-ruzigarım ana!
Dürci-düri-şahvarım ana!
Sözlər dersən ki, bilməzəm mən,
Məzmununu fəhm qılmazam mən
4. Dersən məşuqü eşqü aşiq,
Mən sadəzəmir tifli-sadiq;
Bilmən, nədir ol hədisə məzmun?
Söylə! Necə olmayım digərgun?
5. Eşqin qılmazdı kimsə yadın,
Ha səndən eşitdim indi adın.
Billah! Nədir, ana, eşqə məfhum?
Bu sirri-nihanı eylə məlum!
6. Hadiyi-rəhi-muradım olğıl!
Bu şivədə ustadım olğıl!
Mən məktəbə rəyim ilə getmən,
Bir şüğli xilafi-rəyin etmən.
7. Həm dersən sən ki: "Məktəbə var!"
Həm dersən sən ki: "Getmə, zinhar!"
Qanğı sözə etiqadım olsun?
Sənə necə etimadım olsun?
8. …Artıq bu sözü mükərrər etmə,
Lütf eylə, məni mükəddər etmə!"
9. Çün ana eşitdi bu cəvabi,
Tərk etdi şikayətü itabi.
Şəksiz ona rövşən oldu kol mah
Aşiqlikdən deyildir agah.
10. Bihudədir ol qamu fəsanə
Kim, aşiqdir filan filanə.
Çün vaqeə şək məhəlli oldu,
Ol vaqeədən təsəlli oldu.
11. Leyli həm oturdu evdə naçar,
Düzdü sədəfinə dürri-şəhvar...

**LEYLNİN ANASINA CAVABI**
1. Leyli bu məzəmməti eşidəndə ürəyində belə qərara gəldi ki, zalım fələk onun tale səhnəsində dəhşətli bir oyun çıxarıb...
2. Əlacsız qalıb danmaq yolunu tutdu. Özünü bilməzliyə vurub məzəmmət gülşənini sulayaraq ağlaya-ağlaya cavab verdi:
3. "Ey ömür-günümün munisi ana! Mənim şahanə incimin mücrüsü ana! Elə sözlər deyirsən ki, başa düşmürəm, məzmununu anlamıram.
4. Məşuqə, aşiq, eşq deyirsən! Mən sadədil, sadiq uşağam, onların mənasını bilmərəm. Söylə, mən necə məəttəl qalmayım?
5. Heç kəsdən eşq sözünü eşitmədim. Bunu indi səndən eşitdim. Allah eşqinə, ana, de görüm, eşqin mənası nədir? Bu gizli sirri aç!
6. Mənim murad yolumda rəhbərim ol, bu işdə ustadım ol. Mən məktəbə özbaşına getmirəm, sənin fikrinə zidd iş tutmuram.
7. Həm özün deyirsən ki, "məktəbə get!" Həm də deyirsən ki, "ay aman, getmə!" Hansı sözə inanım? Sənə necə etibar edim?
8. …Bu sözü bir daha təkrar eləmə, mənə yazığın gəlsin, dərdə salma.
9. Ana bu cavabı eşidib, şikayət və töhmətdən əl çəkdi. O ayüzlünün aşiqlikdən xəbərsizliyi ona aydın oldu.
10. Danışılanların hamısının boş əfsanə, kiminsə kimə aşiqliyinin boş söz olduğuna inandı və təsəlli tapdı.
11. Leyli də əlacsız evdə oturdu, şahanə inciyə bənzər göz yaşları axıtdı…

12. Hərdəm çəkib ol ğəm içrə min ah,
Səbr etdi zərurət ilə ol mah.
Dərd ilə düzüb təraneyi-ğəm,
Bu bir qəzəli oxurdu hər dəm:

**QƏZƏLİ –LEYLİ**
Fələk ayırdı məni cövr ilə cananımdan,
Həzər etməzmi əcəb naləvü əfqanımdan?
Oda yandırmasa gər şölə ilə nöh fələki,
Nə bitər atəşi-ahi-dili-suzanımdan?
Qəmi-pünhan məni öldürdü, bu həm bir qəm kim,
Gülrüxüm olmadı agah qəmi-pünhanımdan.
Ah idi həmnəfəsim, ah ki, ol həm axır
Çıxdı ikrah qılıb külbeyi-əhzanımdan.
…Can əgər çıxsa tənimdən əsəri-mehri ilə,
Əsəri-mehrini sanman ki, çıxar canımdan.
Lütf edib sən məgər, ey bad, bu gündən böylə,
Verəsən bir xəbər ol sərvi-xuramanımdan.
Ey Füzuli, qəmi-hicr ilə pərişandır hal,
Kimsə agah deyil hali-pərişanımdan.

**MƏCNUNUN LEYLİYƏ SƏHRADA RAST GƏLMƏSİ**

1. Bir gün ki, bahari-aləməfruz
Vermişdi cahanə feyzi-novruz,
Salmışdı niqab çöhrədən gül,
Çəkmişdi sürudi-nalə bülbül.
Şəbnəm meyi-nabı ilə lalə,
Doldurmuş idi qızıl piyalə.
Olmuşdu gül ilə səbzeyi-tər,
Firuzəfüruz, ləlpərvər.
2. Bir neçə müsahibi-vəfadar,
Məcnuni-şikəstəyi görüb zar.
Hər yan dedilər ki: "Ey bəlakəş!
Gül çağıdır, olmagil müşəvvəş!
Bu fəsldə adəmi gərək şad,
Ənduhü bəlavü ğəmdən azad!
Çün əbr deyilsən, olma giryan!
Çün seyl deyilsən, etmə əfğan!
3. Ey ğönçədəhanü sərvqamət,
Gül, oyna, zamani et fərağət!
Pakizə vücudə heyfdir ğəm,
Böylə dəxi qalmaya bu aləm,
…Seyr üzrə bu novbahar fəsli,
Şayəd buluna nigar vəsli".
4. Məcnuni-həzin ayağa durdu,
Səhralarə seyr üçün üz urdu.
Giryan-giryan qılırdı seyran,
Heyran-heyran gəzərdi həryan,

12. Hər dəm qəm içində min ah çəkə-çəkə o ayüzlü zərurətə səbrlə qatlaşdı. Dərdlə qəm nəğməsi qoşaraq bu qəzəli oxuyurdu:

**QƏZƏLİ –LEYLİ**
Fələk zülm ilə məni cananımdan ayırdı.
Əcaba, mənim nalə və əfqanımdan cana gəlməzmi?
Əgər şöləsi ilə göylərin doqquz qatını yandırmasa,
mənim yanan ürəyimin ahının odundan nə çıxar?
Gizli qəmim məni öldürdü, bu da bir qəm ki,
gül üzümün bu gizli qəmdən xəbəri olmadı.
Həmnəfəsim ahım idi, ah ki, axırda
o da bezikib qəm evimdən çıxdı.
…Can əgər məhəbbət təsirilə bədənimdən çıxsa,
sanmayın ki, məhəbbət təsiri bədənimdən çıxa bilər.
Lütf edib, ey külək, bu gündən belə,
bəlkə, sən bir xəbər verəsən nazlı sərvimdən.
Ey Füzuli, ayrılıq qəmi ilə halım pərişandır,
heç kəsin də mənim pərişan halımdan xəbəri yoxdur.

**MƏCNUNUN LEYLİYƏ SƏHRADA RAST GƏLMƏSİ**

1. Bir gün aləmi işıqlandıran bahar dünyaya novruz feyzi gətirmişdi. Gül üzündən pərdəni götürmüş, bülbül nalə nəğməsini ucaltmışdı. Lalələr şeh meyindən qızıl piyalə doldurmuşdu. Gül ilə təzə yaşıllıq firuzə ilə qızılı andırırdı.
2. Bir neçə vəfalı həmsöhbəti Məcnun yazığı ağlar görüb hər tərəfdən dedilər ki: "Ay başı bəlalı, gül çağıdır, pərişan olma! Bu fəsildə gərək adam şad, qəm-qüssədən azad olsun! Bulud deyilsən ki, ağlama! Sel deyılsən ki, fəryad qılma!
3. Ey qönçədəhan, sərvqamət, oyna, gül bir az rahatlan! Təmiz vücuda bu qədər qəm çəkmək heyfdir. Dünya belə qalmayacaq. Bu yaz fəslində bir az gəzməyə çıxsaq, bəlkə, yarınla da görüşərsən.
4. Dərdli Məcnun ayağa durdu, gəzmək üçün səhraya üz tutdu. Ağlaya-ağlaya seyr eləyirdi, heyran-heyran hər yanı gəzirdi, gah sirrini yaşıl otlara açırdı, gah laləyə yalvarırdı. Lalənin

Gəh səbzəyə ərzi-raz edərdi,
Gəh laləyə min niyaz edərdi,
Çeşminə sürərdi lalə dağın,
Aşiq sanuban öpüb ayağın…
5. Bir mənzilə düşdü rəhgüzari
Kim, seyrdə idi onda yari,
Bir neçə pərirüx ilə həmdəm,
Məcnuni-şikəstədən müqəddəm
Leyli güzər etmiş ol fəzayə,
Salmış gülü lalə üzrə sayə.
6. Bir səbzəyə səbz xərgəh urmuş,
Meh səhni-çəməndə halə qurmuş.
Ğönçə kimi ol lətif xərgah,
Gül bərgi kimi içində ol mah.
Məcnunə müqabil oldu Leyli,
Bəhri-qəmə yetdi dərd seyli.
7. Leyli demə – şəmi-məclisəfruz,
Məcnun demə – atəşi-cigərsuz.
Leyli demə – cənnət içrə bir hur,
Məcnun demə – zülmət içrə bir nur.
Leyli demə – övci-hüsnə bir mah,
Məcnun demə – mülki-eşqə bir şah.
Leyli demə – bir yeganeyi-dəhr,
Məcnun demə – bir fəsaneyi-şəhr.
8. Ol iki səhiqədü səmənbər
Bir-birinə oldular bərabər…
9. Məcnunda qərar tutmayıb huş,
Dəryayi-təhəyyür eylədi cuş.
Bir dəm baxa bilmədi ol ayə,
Döşəndi yer üzrə misli-sayə.
10. Leyli həm itirdi ixtiyarın,
Bir dəm görə bilmədi nigarın.
Heyranlığı ol məqamə yetdi
Kim, düşdü ayaqdan, usu getdi.
Gül suyu səpib rəvan üzünə,
Leylini gətirdilər özünə.
11. Hər yan dedilər ona ki: “Ey mah!
Nagah olur atan-anan agah
Kim, qeyr ilə aşina olubsan,
Bir dilbərə mübtəla olubsan!
Verməz bu rəviş nəticeyi-xub,
Şayəstə deyil sənə bu üslub.
Yaxşı nəzər eyləsən yamandır,
Həm bizə və həm sənə ziyandır”.
12. Ondan götürüb büsatü xərgah,
Ol mahliqayi, xahü naxah,
Öz bürcünə qıldılar rəvanə,
Ta olmaya vaqif atə-anə.

sinəsinin dağını gözlərinə sürtərdi, onu aşiq bilib ayağından öpərdi...

5. Gözlənilmədən yolu bir yerə düşdü ki, orada sevgilisi də bir neçə gülüzlü ilə birlikdə, Məcnun xəstədən ayrı gəzib, kölgəsini laləliklərə salırdı.

6. Bir çəməndə yaşıl çadır qurmuşdu, elə bil ki, ay yaşıllıqda halə (işıqlı dairə) salmışdı. O gözəl çadır qönçəyə ayüzlü isə onun içində gül yarpağına bənzəyirdi. Leyli ilə Məcnun üz-üzə gəldi, dərd seli qəm dəryasına qovuşdu.

7. Leyli demə – məclisi işıqlsndıran bir şam,
Məcnun demə – ciyər yandıran atəş de,
Leyli demə – cənnət içində bir huri de,
Məcnun demə – zülmət içində nur de.
Leyli demə – gözəllik zirvəsində bir ay de,
Məcnun demə – eşq mülkündə bir şah de,
Leyli demə – zəmanənin yeganəsi de,
Məcnun demə – bir şəhərin əfsanəsi de.

8. O iki sərv qamətli və yasəmən boylu bir-birilə qarşılaşdı…

9. Məcnun huşunu itirdi, heyranlıq dəryası coşdu, bircə anlığa o aya baxa bilmədi, kölgə kimi yerə sərildi.

10. Leyli də ixtiyarını itirib nigarını bir an belə görə bilmədi. Heyranlığı o yerə çatdı ki, yıxıldı, huşu getdi. Uzünə gül suyu səpib Leylini özünə gətirdilər.

11. Hər yandan ona dedilər ki, “Ey ayüzlü, birdən atan-anan xəbər tutar ki, özgə ilə aşina olubsan, bir gözələ əsir olubsan... Yaxşı baxsan, bu, yamandır, həm sənə, həm də bizə ziyandır”.

12. Oradan çadır və xalılarını yığışdırıb o ayüzlünü öz bürcünə (çadırına) apardılar ki, ata-ana xəbər tutmasın. Bu macəradan – nə xəzinədən, nə əjdəhadan bir söz açmadılar.

Söz demədilər bu macəradən,
Nə gəncdənü nə əjdahadən.
13. Məcnunu həm etdi çeşmi-xunbar,
Sular saçıban üzünə, bidar.
Gördü ki, nigardan nişan yox,
Bir cismi-füsürdə var, can yox.
Divanə qalıb, pəri gedibdir,
Salıb onu dilbəri gedibdir.
Çak eylədi camə, çəkdi nalə,
Halı bədəl oldu özgə halə…
14. Həmdəmlərə üzr qıldı ağaz:
"Key bir neçə həmnişinü həmraz!
Seylabi-hücumi eşq yetdi,
Mən şiyftəhalı qərq etdi.
Olman məni-xəstə ilə həmdəm,
Ta batmayasız bu suya siz həm.
15. Mən rəngi-məlamətə boyandım,
Sövdazədəlik oduna yandım.
Əlbəttə, bu od ki, düşdü canə,
Axır tutuşub çəkər zəbanə...
16. Mən bir quşam, uçdum aşiyandan,
Mən qandanü meyli-xanə qandan?
Qılman mənə ev hekayətin çox,
Dəxi mənim onda getməyim yox!
17. Sizdən sorar olsa ata halım,
Keyfiyyəti-möhnətü məlalım,
Söylən ki: "Fənayə verdi rəxtin,
Əyyam siyah qıldı bəxtin.
Ey piri-şikəstəhalü naşad,
Tanrıçün əlimdən eyləmə dad!
Demə ki, "nədir bu macəralər?"
Səndən mənə yetdi bu bəlalər!
Mən bilməz idim qəmi-cəhani,
Təşvişi-zəminü asimani.
18. Sən vasiteyi-vücudim oldun!
Sən manei-feyzi-cudim oldun.
Umdun ki, mənimlə olasan şad,
Dərda ki, ümidin oldu bərbad.

13. Qan-yaşlı gözlərinin suyu üzünə səpilib Məcnunu oyatdı. Gördü ki, nigarından bir nişan yoxdur, solğun bir bədən var, cansa yoxdur. Divanə qalıb, pəri gedibdir. Dilbəri onu qoyub gedibdir. Geyimini yırtıb, nalə çəkdi, halı özgə hala düşdü…

14. Həmdərdlərindən üzr istədi: "Ey mənim dostlarım, sirdaşlarım! Göz yaşlarımın seli üstümə hücum etdi və mən yazığı qərq elədi. Mən xəstəylə durub-oturmayın ki, bu suda siz də batmayasınız.

15. Mən məlamət rənginə boyandım, sevda vurğunluğu odunda yandım. Bu od ki, cana düşdü, əlbəttə alışıb yüksələcəkdir.

16. Mən bir quşam, yuvamdan uçub getdim. Mən hara, ev meyli hara? Mənə evdən çox da danışmayın. Mən daha ora getmərəm.

17. Atam sizdən halımı, dərdimi, məlalımı sorsa, deyin ki: "Əyin-başını yox elədi, zaman onun bəxtini qaraltdı. Ey əhvalı pozulmuş məhzun qoca, mənim ucumdan tanrıdan dad eləmə, demə ki, bu macəralar nədir?" Bu bəlalar səndən mənə yetişdi! Mən dünya qəmini, yerin, göyün təşvişini bilmidim.

18. Sən mənim yaranmağımın vasitəsi oldun! Yoxluq nəşəsindən məni ayırdın. İstədin ki, mənimlə şad olasan, nə böyük dərd ki, ümidin bərbad oldu.

19. Mən yox olubam, sən indi var ol!
Özgə xələfə ümidvar ol!
Məzur tut, ey əziz, məzur!
Mən qəsd ilə səndən olmadım dur.
Çox sidq ilə eylədim ona əzm
Kim, dövləti-vəslinə edəm cəzm,
Su saldı yoluma əşki-həsrət,
Damanımı tutdu xari-möhnət”.

19. Mən yox olmuşam, indi sən var ol! Ümidini özgə oğula bağla. Məni üzürlü say, ey əzizim! Mən qəsd ilə səndən ayrılmadım. Mən çalışdım ki, səni xoşbəxtliyə çatdıram, ətəyimə möhnət, həsrət tikanları ilişdi, göz yaşları yolumu sel kimi basdı”.

## MƏCNUNUN ATASININ LEYLİYƏ ELÇİLİYƏ GETMƏSİ VƏ RƏDD CAVABI ALMASI

1. Söz cövhərinə olan xiridar
Bu növ ilə qıldı gərm bazar
Kim, aciz olub ğəm içrə ol pir,
Məcnununa qıldı fikri-zəncir.
Bildi ki, gər olmaz olsa Leyli,
Mümkün deyil olmağı təsəlli.
Qıldı tələbin özünə lazim,
Cəm etdi əaliyü əazim.
Ümmid ilə bağladı umub kam,
Ol kəbeyi-arizuyə ehram.
2. Çün Leyli atası bildi hali,
Uydurdu əkabirü əali.
Qarşılarına olub rəvanə,
Qıldı olar ilə əzml-xanə.
“Əhlən və səhlən!” – deyib dəmadəm,
Min gəz dedi: – “Ola xeyr məqdəm!”
3. Çün şəm sifət olar oturdu,
Ol sərv kimi ayağə durdu.
Ortaya buraxdı türfə xanlar,
Ta kami-dil ala mehmanlar.
4. Xanlar götürüldüyündə, ol pir
Təqrib ilə dərdin etdi təqrir:
“Key qədrlə qibleyi-qəbail!
Səndən qamunun muradı hasil.
Əslü nəsəbim sənə əyandır,
Hökmüm neçə min evə rəvandır…
5. Nəxli-əməlim səmər veribdir,
İyzəd mənə bir gühər veribdir.
Hala dilərəm bu türfə lölu,
Bir ləl ilə ola həmtərazu…

## MƏCNUNUN ATASININ LEYLİYƏ ELÇİLİYƏ GETMƏSİ VƏ RƏDD CAVABI ALMASI

1. Söz cövhərinin alıcısı bazarı belə qızışdırdı: O qoca qəm içində aciz qalıb Məcnunun zəncirlənməsi fikrinə düşdü və bildi ki, əgər Leyli olmasa, onu sakitləşdirmək mümkün deyil. Onu istəməyi lazım bildi, başına ali və böyük şəxsləri toplayıb, kam ümidiylə arzusunun Kəbəsinə üz tutdu.
2. Leylinin atası xəbər tutan kimi uca rütbəliləri və böyükləri toplayıb onları qarşılamağa çıxdılar və birlikdə evə gəldilər. Dəfələrlə “Xoş gəldiniz”dən sonra min kərə “Gəlişiniz xeyir olsun!” – dedi.
3. Hamı şam kimi oturdu, o isə sərv kimi ayaq üstə qaldı. Qonaqlarını ürək arzularına çatdırmaq üçün misli-bərabəri olmayan yeməklərlə dolu süfrə açdı.
4. Süfrə yığışdırıldıqdan sonra o qoca dərdini tədriclə açdı: "Ey qüdrəti ilə qəbilələr qibləsi! Hamı sənin vasitənlə öz arzusuna yetir. Əslim, nəslim sənə məlumdur. Hökmümə minlərlə ev tabedir...
5. Əməlimin xurma ağacı bar verib - tanrı mənə bir gövhər veribdir. Bu nadir incimi bir ləl ilə qarşılaşdırmaq istəyirəm ki, onları bir-birinə qovuşdurub ürək sevincinə nail olum.

6. Bir ləlin eşitmişəm sənin var
Kim, lölöümə odur səzavar.
Lütf eylə, inayətü kərəm qıl!
Ol ləl ilə dürrü möhtərəm qıl!
Qılsın gülü sərv sayəpərvər,
Olsun gülə sərv sayəgüstər.
7. Fəhm et sözümü, təğafül etmə!
Bir xeyr işidir, təəllül etmə!
Gər hasil olur bu kam səndən,
Hər nə ki, dilərsən, istə məndən!"
8. Ol sərvi-səmənbərin atası,
Ol gənci-nihanın əjdəhası
Lütf ilə dedi ki: "Ey xirədmənd,
Mən kimi əsiri-dami-fərzənd!
Sən xoş gəldin, səfa gətirdin!
Topraqlardan bizi götürdün!
Müşkülcə xitabdır xitabın,
Bilmən necə verəyin cavabın?
9. Qürbün bilirəm mənə şərəfdir,
Əmma xələfin əcəb xələfdir.
"Məcnun" – deyə tən edər xəlayiq,
Məcnuna mənim qızım nə layiq?
…Div ilə pəri olurmu həmdəm?
Olmaz, sözü açma, əbsəm, əbsəm!
Tədbir ilə döndərib mizacın,
Sövdasının eyləsən əlacın,
Leyli onun olsun, eylədim əhd,
Vav indi, sən et əlacına cəhd!"

6. Eşitmişəm, sənin də mənim incimə yaraşan bir ləlin var. Lütf eylə, kərəm və yardım göstər! O ləlinlə mənim incimi əzizləndir! Sərv gülü öz kölgəsində bəsləsin və gül sərvin sayəsində olsun.
7. Sözümü anla, qəflətdə də qalma, bu xeyir işdir, gecikmə. Əgər bu arzum səndən yerinə yetsə, məndən nə diləsən istə".
8. O sərv boylunun atası, gizli xəzinənin əjdahası lütf ilə cavab verdi: "Ey müdrik və mənim kimi övlad tələsinin əsiri. Xoş gəlib, şəfa gətirmişsən, bizi yerlərdən götürmüşsən. Xitabın (müraciətin) çox çətindir, heç bilmirəm, cavabını necə verim?
9. Bilirəm ki, sənin qohumluğun mənə şərəfdir. Ancaq varisin çox qəribə övladdır. Xalq ona "Məcnun" deyə tənə edir. Mənim qızım niyə "məcnuna" layiq olsun? … Div ilə pəri dost ola bilərmi? Olmaz, söz açma, sus, sus! Bir tədbir ilə xasiyyətini dəyişib sevdasına əlac eyləsən, əhd edirəm, Leyli onun olsun. İndi get, sən əlacına çalış!

**NOVFƏLİN MƏCNUNLA SÖHBƏTİ**

1... Kim, var idi bir xücəstəfərcam,
Ol əsrdə adilü nikunam;
Tiğilə müsaf müşküli-həll,
Mərufi-zəmanə, adı: Novfəl.
2. Həm eşq yolunda çox yügürmüş,
Həm çox sitəmi-zəmanə görmüş.
**Bəzmində misali-dürri-məknun,**
**Bir gün oxunurdu şeiri-Məcnun,**
**Qayətdə bəyəndi tərzi-pakın,**
**Məzmuni-kəlami-suznakın.**
**3. Sordu sifətin, dedilər: "Ey şah!**
**Aşiftə qılıbdır onu bir mah.**
**Rüsvalıq edib özünə pişə,**
**Damü dəd ilə gəzər həmişə".**
**Novfəl qılıb arizuyi-Məcnun,**
**Əshab ilə qıldı əzmi-hamun.**

**NOVFƏLİN MƏCNUNLA SÖHBƏTİ**

1. … O vaxt bir xoşbəxt, ədalətli, adlı-sanlı qılıncı ilə çox çətinliklərin düyününü açа bilən Novfəl adlı bir zəmanə məşhuru var idi.
2. Həm eşq yolunda çox yürümüşdü, həm də çox zəmanə zülmü görmüşdü. Bir gün məclisində Məcnunun qiymətli dürrə bənzər şeiri oxunurdu. Onun səlis üslubunu, yandırıcı sözlərinin məzmununu çox bəyəndi.
3. "O kimdir?" – deyə soruşdu, dedilər: "Ey şah! Onu bir ay (Leyli nəzərdə tutulur) özünə vurğun edibdir, rüsvaylığı özünə peşə edib, həmişə heyvan və vəhşilərlə bir yerdə gəzir". Novfəl Məcnunu görmək istədi, yoldaşları ilə səhraya yollandılar.

**4. Bir guşədə gördü zarü məhcur,**
**Halı nəsəqi-səlahdən dur,**
**Ətrafını teyrü vəhş almış,**
**Vəhşət onu bir həsarə salmış,**
**Çün daireyi-sibaü hail,**
**Qət etdi, sipəh görüb səlasil,**
**5. Məcnuna yetişdi ol vəfadar,**
**Asari-tələttüf etdi izhar:**
**"Key xəstə, nədir bu çəkdiyin rənc,**
**Viranədə zaye etdiyin gənc?!**
**Vəhşi nə bilir sənin məqamın?**
**Həmcinslərindən istə kamın!**
**Hal əhlisən, istə əhli-hali,**
**Səhralərə düşmə laübali!**
6. Dövlət diləsən, hümadən istə,
Gənc istəsən, əjdəhadən istə!
Qəm çəkmə ki, mən olunca qəmxar,
Yarın sənə ənqərib olur yar.
Gər olsa zər ilə iş sərəncam,
Yük-yük tökəlim zər, alalım kam,
Vər olsa ğərəz müsafə möhtac,
Biz qan tökəlim, sən eylə tarac.
Ancaq ola gör mənimlə həmdəm,
Mən kim səninəm, sənindir ol həm".

4. Onu bir küncdə atılmış və ağlar tapdı. Halını yaman gündə gördü. Ətrafını quşlar və vəhşilər (vəhşi heyvanlar) bürümüşdü. Yırtıcı heyvanlar onu dövrəyə almışdılar. Vəhşilər qoşunu görüb öz sıralarını dağıtdılar.

5. O vəfadar Məcnuna çatıb mehribanlıqla dedi: "Ey xəstə, bu nə əzabdır çəkirsən, niyə xəzinəni zay etmisən?! Vəhşilər sənin qədrini nə bilərlər. Həmcinslərindən kamını dilə! Hal əhlisən, hal əhlini istə. Sərgərdan səhralara düşmə!

6. Dövləti huma quşundan, xəzinəni əjdahadan istə. Neçə ki, qəmxarın mənəm, qəm çəkmə, sabah yarın sənə yar olar. İşin qızılla ötsə, yük-yük qızıl tökərik, kam alarıq. Əgər vuruşa ehtiyac qalsa, biz qan tökərik, qənimət sənə çatar. Mənimlə dost ol və bil ki, mən səninəmsə, demək o da sənindir".

**MƏCNUNUN NOVFƏLƏ DƏRDİNİ İZHAR ETMƏSİ**

1. Məcnun dedi: "Ey yeganeyi-əhd!
Tədbirimə çoxlar etdilər cəhd.
Çox əhli-əzaim etdi tədbir,
Olmadı pəri bu divə təsxir.
Topraqlərə töküldü çox zər,
Olmadı bu kimiya müyəssər.
2. Səndə bilirəm ki, lütf çoxdur,
Nə sud, çü məndə bəxt yoxdur.
Sürmə, bilirəm ki, artırır nur,
Nə faidə, göz əgər ola kur?
İqbalıma yoxdur etimadım,
Müşkül görünür mənim muradım.
3. Ah, ər qılasan bu şüğlə iqdam,
Rəyincə iş olmaya sərəncam,
Həm dustum olmaya mənə yar;
Həm düşmən ola nə dust kim var.
4. Bəxtim, bilirəm, mənim yamandır.
Sud istədiyin mənə ziyandır.
Bəxtim sifətində bir qəzəl var.
Daim qılıram mən onu təkrar:

**BU QƏZƏL MƏCNUNİ-ZARINDIR**

Vəfa hər kimsədən kim istədim, ondan cəfa gördüm,
Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm.

Kimə kim dərdimi izhar qıldım, istəyib dərman,
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.

Mükəddər xatirimdən qılmadı bir kimsə qəm dəfin,
Səfadən dəm uran həmdəmləri əhli-riya gördüm.

Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən,
Və gor güzgudən umdum sidq, əksi-müddəa gördüm.

Ayaq basdım dəri-ümmidə, sərgərdanlıq əl verdi,
Hünər sərriştəsin tutdum, əlimdə əjdəha gördüm.

Mənə göstərdi gərdun, tirə bəxtim kövkəbin yüz gəz,
Məni-bədbəxt ona hərgah kim baxdım, qəra gördüm.

Füzuli, eyb qılma, üz çevirsəm əhli-aləmdən,
Nədən kim, hər kimə üz tutdum, ondan yüz bəla gördüm.

**MƏCNUNUN NOVFƏLƏ DƏRDİNİ İZHAR ETMƏSİ**

1. Məcnun dedi: "Ey zəmanənin yeganəsi! Çox dua-tədbirlə cəhd etdilər, mənə yardım göstərmək istədilər, lakin pəri divə tabe olmadı. Torpağa çox qızıl töküldü, bir fayda olmadı.
2. Səndə bilirəm, lütf çoxdur, nə fayda, məndə bəxt yoxdur. Bilirəm ki, sürmə göz işığını artırır. Göz kordursa, nə fayda. Bəxtimə inamım yoxdur, murada çatmağım çətin görünür.
3. Ah, qorxuram, bu işə başlayasan və iş də sən istədiyin kimi bitməyə, həm sevgilim mənə yar olmaya və həm də bütün dostlarım dönüb düşmənim ola.
4. Bilirəm ki, bəxtim yamandır, sənin vermək istədiyin fayda mənə ziyandır. Bəxtim sifətində bir qəzəl var, daim mən onu deyirəm:

**BU QƏZƏL AĞLAR MƏCNUNUNDUR**

Kimdən ki, vəfa istədim, ondan cəfa gördüm.
Vəfasız dünyada kimi gördümsə, vəfasız gördüm.

Kimə ki, dərdimi söyləyib dərman istədim,
Onu özümdən də betər bir dərdə düşmüş gördüm.

Kədərli könlümdən heç kəs qəmi yox etmədi.
Səfadan dəm vuran dostları riya əhli gördüm.

Suyun ətəyindən yapışdım, axarı məndən üz döndərdi.
Güzgüdən sədaqət umdum, orada da gözlədiyimin əksini gördüm.

Ümid qapısına ayaq basdım, sərgərdanlıq qismətim oldu,
Hünər ipinin ucundan yapışdım, əlimdə əjdaha gördüm.

Göylər qara baxtımın ulduzunu yüz dəfə mənə göstərdi.
Nə vaxt baxdımsa, mən bədbəxt onu qara gördüm.

Füzuli, dünya əhlindən üz çevirsəm, eyb tutma,
Ona görə ki, hər kimə üz tutdumsa, ondan yüz bəla gördüm.

## NOVFƏLİN İKİNCİ DƏFƏ VURUŞUB QALİB GƏLMƏSİ VƏ ƏHDİNİ POZMASI

1. Çün tiğ çəkib mübarizi-Rum,
Şam əhlini etdi əmrə məhkum,
Fəth oldu sipahi-türkə mənsub,
Oldu ərəbin sipahı məğlub,
Adətcə, yenə ol iki ləşkər,
Rəzm etməyi etdilər müqərrər;
2. Tiğ aldı əlinə pəhləvanlar,
Başlar kəsilib töküldü qanlar.
Can eylədi tərki-xaneyi-tən,
Ol çıxmağa açdı tir rövzən.
Başlarda bəlani çox görüb əql,
Bir özgə məqamə eylədi nəql.
3. Peykan zireh içrə oldu peyvənd
Gül şaxələrində qönçəmanənd.
Əlqissə, xilafi-rəzmi-əvvəl,
Ədayə müzəffər oldu Novfəl.
Xəsm etdi qəbul hökmi-taət,
Başlandı təzərröü şəfaət.
4. Leylinin atası açdı başın,
Doldurdu gözünə qanlı yaşın,
Əcz ilə dedi ki: "Ey xudavənd!
Şahənşəhi-adilü xirədmənd!
Gər Leyli üçündür iztirabın,
İkrah ilə verməzəm cavabın.
5. Əmma rəhü rəsmdir müqərrər,
Bir övrətə eybdir iki ər.
Leyli bu həşəmdə namizəddir,
Əqd ilə müqəyyədi-əbəddir.
Çün hökmün edər bu rəsmi pamal,
Bari onu qeyrə vermə, sən al!
Gülbərgimizi həvayə vermə!
Namusumuzu fənayə vermə!"
6. Novfəl dedi: "Ey güzidə əşraf!
Yox məndə xilafi-ədlü insaf!
Mən məhz mürüvvətü vəfayəm,
Gəncineyi-gövhəri-ətayəm!
Bidadü sitəm deyil şüarım,
Ədl içrə təmamdır əyarım.
7. Mən həm xəciləm bu macəradən,
Acizlərə qıldığım cəfadən.
Həqqa bu deyildir etiqadım
Kim, hasil edəm mən öz muradım.
Bir sınmışa mumiya dilərdim,
Bir xəstə üçün şəfa dilərdim.

## NOVFƏLİN İKİNCİ DƏFƏ VURUŞUB QALİB GƏLMƏSİ VƏ ƏHDİNİ POZMASI

1. Elə ki, Rum pəhləvanı ox çəkib Şam əhlini əmrə tabe etdi, türk silahı qalib çıxdı. Ərəb qoşunu isə məğlub çıxdı, adətcə yenə o iki ordu vuruşmağı qərara aldı.

2. Pəhləvanlar oxa əl atdılar, baş kəsildi, qan töküldü. Can bədən evini tərk etdi. Bunun üçün oxlar deşik açdı. Əql başların bəlasının həddən aşdığını görüb başqa bir yol seçdi.

3. Oxlar zirehlərə sancıldı, elə bil gül budaqları qönçə bağlamışdı. Qısası, əvvəlki vuruşdan fərqli olaraq, Novfəl bu dəfə qalib çıxdı. Düşmən itaət hökmünü qəbul etdi, aman istədi.

4. Leylinin atası başını açdı, gözündən qan-yaş tökdü, acizanə dedi ki: "Ey başçı, müdrik və ədalətli şahlar şahı! Əgər bu iztirabın Leyli üçündürsə, cavabında yox demirəm.

5. Ancaq adət belədir ki, bir qadına iki ər ayıbdır. Leyli qəbilədə nişanlıdır və əbədilik qolu nikahla bağlıdır. Əgər hökmün bu qaydanı pozursa, barı o qızı özgəyə vermə, sən al! Gül yarpağımızı bada vermə, namusumuzu fənaya vermə!"

6. Novfəl dedi: "Ey şərəflilərin seçilmişi, mən də ədalət və insafa qarşı deyiləm. Mən ancaq vəfa və vicdanam, gövhər xəzinəsini bağışlayanam, şüarım amansız zülm deyil, ölçülərimin məhək daşı ədalətdir.

7. Özüm də bu macəradan, acizlərə etdiyim zülmdən xəcalətliyəm. Məqsədim öz muradıma yetmək deyildi. Bir sınmışa mumiya-dərman istəyirdim. Bir xəstəyə sağlamlıq diləyirdim.

8. Gördüm, görünür bu əmr müşkil,
Bimar deyil əlacə qabil.
Bidaddən olmuşam peşiman,
Əfv edə məgər bu səhvi sübhan.
Gəlməz gözümə əyalü malın,
Malın sənin olsunü əyalın.
Var, indi sən eymən ol xətərdən,
Minbəd təvəhhüm etmə şərdən".
9. Bunu dedi, açdı aləti-rəzm,
Öz məmləkətinə eylədi əzm…

8. Gördüm ki, bu tələb çətindir. Xəstə əlacsızdır. Zülmümdən peşman olmuşam. Qoy bu səhvimi o şərəfli Allah bağışlasın, mal-dövlətin də mənə gərək deyil, əyalın da sənin olsun. Get, indi o xətərdən arxayın ol, bundan sonra şərdən qorxma".
9. Bunu dedi, silahını açdı və öz ölkəsinə üz tutdu…

## LEYLİNİN İBN SƏLAMA NİGAH EDİLMƏSİNİN MƏCNUNA XƏBƏR VERİLMƏSİ

1. Sahibxəbəri-fəsanəpərdaz,
Bu tərz ilə qıldı qissə ağaz,
Kim, var idi bir nədimi-nadir,
Zeyd adlı, vəfayi-əhdə qadir…
2. Olmuşdu əsir bir nigarə,
Büt ziybli, Zeynəb adlı yarə.
Çəkmişdi məhəbbətin cəfasın,
Görmüşdü məlamətin bəlasın.
Ol aşiqi-müstəməndi-məhzun,
Eylərdi həmişə meyli-Məcnun…
3. Leyli ərə getdiyindən ol zar,
Təhqiq ilə oldu çün xəbərdar.
Məcnuna özün yetirdi filhal,
Rəngi-rüxi-zərdi əşkdən al.
4. Məcnun dedi: “Ey vəfalı yarım!
Qəm mərhələsində qəmküsarım!
Adətcə görünməz ixtilatın,
Hərgünküyə bənzəməz nişatın,
Noldu sənə, söylə, zar olubsan?
Bitaqətü biqərar olubsan?
… Qandan bu küdurət oldu hasil?
Noldu səbəbi-məlaləti-dil?”
5. Zeyd ol xəsi-xüşkə urdu atəş,
Suz ilə dedi ki: “Ey bəlakəş!
Dün əxtəri-bəxtin oldu tirə,
Dövran sitəm etdi sən fəqirə.
Yar İbn Səlamə ruzi oldu,
Ruzi sənə dərdü suzi oldu.
6. Yar özgəyə oldu şəmi-məhfil,
Qaldı sənə tabi-atəşi-dil.
Əğyar ilə oldu yar Leyli,
Var indi sən ondan ol təsəlli.
Zaye sənin ol fəğanü ahin,
Suzi-şəbü ahi-sübhgahin”.
7. Məcnun ki, xəbərdən oldu agah,
Gərdunə yetirdi şöleyi-ah.
Vəhşilər içində ol giriftar,
Bir dərd ilə qıldı naləvü zar.
…Yazdı alıban əlinə xamə,
Dildarına bir itabnamə.

## LEYLİNİN İBN SƏLAMA NİGAH EDİLMƏSİNİN MƏCNUNA XƏBƏR VERİLMƏSİ

1. Əfsanə qoşan rəvayət sahibi hekayəti belə başladı: Bir nadir dost var idi, vəfalıydı, adı Zeyd idi. …

2. Zeynəb adlı büt kimi bir gözəlin əsiriydi. Məhəbbətin cəfasını çəkmiş, məzəmmət bəlasını görmüşdü. Bu zavallı və kədərli aşiq həmişə Məcnuna meyil edərdi. …

3. Leylinin ərə getdiyini o ağlar yəqin edən kimi üzünün rəngi saralmış, göz yaşlarından qana boyanmış, dərhal özünü Məcnuna yetirdi.

4. Məcnun dedi: “Ey vəfalı dostum! Qəmli çağlarımda qəmküsarım. Söhbətin həmişəki deyil, şadlığın hərgünkü kimi deyil. Sənə nə olubdur, söylə, nədən belə ağlarsan? Taqətini, səbrini itirmisən? Bu kədər nədəndir, ürək dərdinin səbəbi nədir?”

5. Elə bil qurumuş çöpə od vuruldu, Zeyd yanaraq dedi: “Ey bəlakeş! Dünən bəxt ulduzun qaraldı, dövran sən yazığa zülm etdi. Yarın ibn Səlamın qisməti oldu, səninsə qismətinə yanıb sızlamaq qaldı.

6. Sevgilin özgə məclisinin şamı oldu, səninsə qismətin ürək oduna dözmək oldu. Leyli başqasına yar oldu. İndi get, bundan təsəlli al. Sənin fəğanın, ahın, gecələrin oduna yanmağın, sübhlərinin fəryadı zay oldu”.

7. Məcnun bu xəbəri eşidəndə ahının alovu göylərə ucaldı. Vəhşilər içində bu bədbəxt bir nalə çəkdi. … Əlinə qələm aldı, dildarına bir məzəmmət məktubu yazdı.

## ATASININ MƏCNUNU SƏHRADA TAPMASI VƏ NƏSİHƏTLƏ YOLA GƏTİRMƏKDƏ ACİZ QALMASI

1. Təhrir qılanda əhli-inşa,
Böylə bu misalə çəkdi tuğra
Kim, ğüsseyi-dəhr mübtəlası,
Məcnuni-şikəstənin atası
Qalmışdı məlamət içrə dün-gün,
Nə günü gün idi, nə dünü dün.
2. Getmiş idi əldən ixtiyari,
Gündüz səbri, gecə qərari.
Qılmazdı tərəddüdündə təqsir,
Bulmazdı bu dərdə hiç tədbir.
3. Bir gün onu etdilər xəbərdar,
– “Key piri-şikəsteyi-diləfkar!
Dün Leyli atası, ol siyəhdil,
Ol münimi-süflə, piri-cahil,
Sərxeyli yanında dad edərdi,
Məcnuni-həzini yad edərdi:
4. “Kim, bu dəli hökmə olmayıb ram,
Xəlqə bizi eylər oldu bədnam.
Peyvəstə bizə yetər bəlasi,
Novfəl ğəzəbindən et qiyasi.
Hər necə ki, təndə canı vardır,
Namusumuza ziyanı vardır.
5. Çün məhzi-şər oldu zati-əfi,
Vacib görünür müdam dəf'i”
Namus bizim deyil, sənindir.
Dəf eyləyə gör ki, düşmənindir.
Çün kim zərərində gördülər nəf.
Əzm eylədilər ki, edələr dəf.
6. Yadın deyil, eylə oğlunu yad!
Qıl çarə ki, düşmən olmaya şad”.
Ol pir düşüb min iztirabə,
Naçar özün verib əzabə,
Səhralərə tutdu seyl tək ru,
Cəhd ilə yüyürdü gəzdi hər su.
7. Mənzil-mənzil sirişki qanın,
Rəhbər qılıb istədi nişanın.
Çün gecəyə gündüz oldu təğyir,
Oldu gecə zülməti cahangir,
Rəf oldu əlameyi-mənazil,
Ol pirə tərəddüd oldu müşkil.

## ATASININ MƏCNUNU SƏHRADA TAPMASI VƏ NƏSİHƏTLƏ YOLA GƏTİRMƏKDƏ ACİZ QALMASI

1. Qələm əhli əhvalatı yazanda hekayəti belə möhürlədi ki, zəmanə dərdinə düşmüş xəstə Məcnunun atası gecə-gündüz qaxınc içindəydi. Nə gecəsi gecəydi, ne gündüzü gündüz.

2. Əlindən ixtiyarı getmişdi, gündüzlər səbri, gecələr qərarı yox idi. Əlindən gələni edirdi, ancaq bu dərdə heç bir əlac tapa bilmirdi.

3. Bir gün ona xəbər çatdırdılar ki, “Ey ürəyi yaralı xəstə qoca! Dünən Leylinin o acıdil atası, o varlı alçaq, cahil qoca xeyli adam içində dad edirdi, yazıq Məcnunun adını çəkirdi:

4. “Bu divanə hökmə tabe olmayıb, bizi el içində bədnam eləyir. Daima bizə zərəri dəyir, elə Novfəlin qəzəbini götürün. Necə ki, təndə
canı var, namusumuza ziyandır.

5. Şeir ilanın zatında olduğu üçün onu dəf etmək lazımdır. Namus bizim deyil, sənindir, dəf elə, axı o sənin düşmənindir. Düşmənliyinə inandılar, onu yox eləmək qərarına gəldilər.

6. Yad deyil, oğlunu yada sal, bir çarə gör ki, düşmənimiz sevinməsin”. O qoca min iztiraba dözüb, əlacsız qaldı; özünə əzab verib sel tək səhralara üz tutdu; cəhd edib hər yeri gəzdi.

7. Mənzil-mənzil qanlı göz yaşlarının izini tutub onun nişanını axtardı. Gecənin qaranlığı gündüzü əvəz edəndə, dünya zülmətin əlinə keçəndə, iz seçmək çətinləşdi, qocanın axtarışı ağırlaşdı.

8. Sərgəştə gəzərkən eyləyib ah,
Bir şölə ona göründü nagah,
Ol pirin olub dəlili-rahi,
Ruz etdi ol od şəbi-siyahi.
Sandı odu yandıran ərəbdir,
Xeyli həşəm ol oda səbəbdir.
9. Pərvanə kimi üz urdu narə,
Çün yetdi və eylədi nəzarə,
Gördü ki, bu şölə bir nəfəsdir,
Nə şöləyi-cirmi-xarü xəsdir,
Məcnunundur bu ahi-sərkəş,
Çəkmiş, urmuş cahana atəş.
10. Qəti-nəzər eyləmiş cahandan,
Keçmiş sərü çeşmü cismü candan
Nə mülk, nə mal cüstcüsu,
Nə ata, nə ana arizusu,
Getmiş yelə bərgi-etibari,
Ol qalmışü merg intizarı.
11. Ol pir çü gördü oğlu halın,
Tökdü rüxi-zərdə əşki-alın.
Yanında oturdu zarü ğəmnak,
Əl urdu ki, çöhrəsin edə pak,
12. Ol şiyftə açdı çeşmi-pürnəm,
– "Kimsən? – dedi – ey mənimlə həmdəm
Gər elçi isən, yetir pəyamın!
Ver müjdəsin ol məhi-təmamın!
Vər yolçu isən, oturma ğafil,
Əzm eylə, gözət bir özgə mənzil!"
13. Ol pir təzərrö etdi ağaz:
– "Key nəqdi-həyatə kisəpərdaz!
Mən dürcəmü sən düri-şəbəfruz,
Yəni atanam məni-siyəhruz!
Ey hasili-məzrəi-vücudim!
Vey ömr xəsarətində sudim!
14. Ey cövhəri canımın həvası,
Vey didəyi-bəxtimin ziyası!
Dərdim olasan mənim pənahım,
Fəxrim, şərəfim, ümidgahım.
Məndən bu sərir olanda xali,
Sən olasan əhli-mülkə vali.
15. Xəlq edə səni görəndə yadım,
Baqi sənin ilə ola adım.
Gər tifliliyində məstü bibak,
Səhrayə düşüb, yaxan qılıb çak,
Oldun rəhi-eşq içində məşhur,
Məzur idin ol zamanda, məzur!

8. Ah-vayla avara gəzərkən qəflətən bir işıq göründü və o, qocaya yol göstərdi. O od qara gecəni gündüzə çevirirdi. Elə bildi ki, odu yandıran böyük bir ərəb qəbiləsidir.
9. Pərvanə kimi oda tərəf üz tutdu, yetişib baxıb gördü ki, bu şölə bir nəfəsdir, çör-çöp yanmasının işığı deyil, Məcnunun başından ucalan ahdır, ucalır, od saçır.
10. Dünyadan gözünü çəkmiş, başından-gözündən, cismindən, canından keçmiş Məcnunun ahıdır. O nə mal, nə mülk qovğasındadır, nə ana, nə ata arzusundadır. Etibar yarpaqlarını yel aparmış. Gözlədiyi təkcə ölümdür.
11. Oğlunun halını görüb qoca gözündən saralmış üzünə qanlı yaş tökdü. Dərd-qəm içində onun yanında oturdu, əl uzatdı ki, üzünün tozunu silsin.
12. O yazıq yaşla dolu gözünü açdı və dedi: "Kimsən! Ey mənim həmdəmim! Əgər elçisənsə, xəbərini yetir! O bədrlənmiş ayın müjdəsini ver! Əgər yolçusansa, vaxtını itirmə, çalış, özünə özgə mənzil axtarma.
13. O qoca yalvarmağa başladı: "Ey mənim həyat nəqdimin sahibi! Mən sandıqçayam, sən gecəni işıqlandıran dürrsən, yəni mən üzüqara sənin atanam! Mənim ziyana düşmüş ömrümün barı-bəhəri:
14. Ey canımın cövhərinin havası! Ey bəxtimin gözünün nuru! Deyirdim, mənim köməyim olasan, fəxrim, şərəfim, ümidim olasan.
15. Bu taxt məndən boşalanda sən mülkümə vali olasan, səni görəndə xalq məni yada sala, sənin adınla adım həmişəlik ola. Uşaq vaxtında sərxoş olub qorxmadan səhralara düşəndə, yaxanı yırtıb eşq yolunda dünyada məşhur olduqda o vaxt üzürlüydün!

16. Hər vəqtdədir bir əmr ğalib,
Hər əhddədir bir iş münasib.
Növrəslərə eşq bir hünərdir,
Sərhəddi-kəmalə rahbərdir.
Hala ki, məqami-əql buldun,
Təhsili-kəmalə qabil oldun,
17. Səndən nə rəva bu macəralər,
Sərmayeyi-eyb olan sədalər.
Gər ğafil idin, ol indi aqil,
Səhralərə düşmə, gəzmə ğafil!
Vəhşilər ilə nədir bu birlik?
İnsan ilə xoş deyilmi dirlik?
18. Vəhşi ilə vəhşi, teyr ile teyr,
Həmcins ilə xoşdur eyləmək seyr
Rəhm et məni-zarü namuradə,
Qoyma bu məşəqqətü bəladə.
Kafürvəş oldu mişknabım,
Bu sübhdə sənsən afitabım!
19. Olmaq əlifim qərinəyi-dal,
Meylim sinə olmağunadır dal.
Dövran sitəmilə canə yetdim,
Mən özgə diyar əzmin etdim.
Gəl, tapşırayım sənə məqamım,
Zəbt eylə büsatü ehtiramım!
20. Nə sud həmişə məstlikdən,
Nə faidə bütpərəstlikdən?
Ey məst, kəmali-hiddətindən,
Yoxdur xəbərin qəbahətindən!
Ol ləhzə ki, huşiyar olursan,
Əlbəttə ki, şərmsar olursan.
21. Ey bütkədələr sənəmpərəsti!
Çün rəf ola bu hicabi-məsti.
Məzmum olub etdiyin bu halət,
Əlbəttə, sənə yetər xəcalət.
Bir dilbərə ver könül ki, daim
Bünyadi-səbatı ola qaim!
22. Gər olsa yolunda bu cahan xak,
Damani ola ğübardən pak.
Sən seydi olan xücəstə şehbaz
Hər ləhzə qılır bir əldə pərvaz.
Gəh Novfələdir mütii-fərman,
Gəh İbn Səlamə munisi-can.
23. Sən – böylə bəlalərə giriftar,
Ol – öylə çirağı-bəzmi-əğyar.
Şərm eylə bu eşqbazlıqdan,
Bifaidə cangüdazlıqdan!

16. Hər vaxtın bir əmri var, hər əhdin öz uyar işi var. Cavanlar üçün eşq hünərdir, ağla dolmağa rəhbərdir. İndi ki, ağıl məqamına çatmısan, tam təhsilə, kamala sahib olmusan.
17. Bu macəralar, əsası eyib olan sədalar sənə rəvadırmı? Əgər özündən xəbərsiz idinsə, indi ağıllı ol, səhralara düşmə, qafil gəzmə! Bu vəhşilərlə birlik nədir? Dirilik insanla xoş deyilmi?
18. Vəhşilər vəhşilərlə, quşlar quşlarla, hərəyə öz həmcinsi ilə gəzmək xoşdur. Mən ağlar namurada da rəhm et, məni bu bəla əzabında qoyma. Mişkim kafura dönür. Mənim sübhümün günəşi sənsən.
19. Belimin bükülməsi ömrün sona yetməsinin və meylimin qəbrə tərəf olmasının sübutudur. Dövrün sitəmindən cana yetmişəm, artıq özgə yolun yolçusuyam. Gəl yerimi sənə tapşırım, büsatımın, ehtiramımın sahibi ol.
20. Həmişə məstlikdən nə xeyir? Bütpərəstlikdən nə fayda? Ey məst, hiddətin o qədərdir ki, qəbahətindən xəbərin yoxdur? Elə ki, ayılırsan, əlbəttə, xəcalət çəkirsən.
21. Ey bütxanələr sənəmpərəsti! Bu sərxoşluq pərdəsi üzündən götürülməlidir. Bu məzəmmətli halətin sənə ancaq xəcalət gətirər. Elə bir dilbərə könül ver ki, səbatı olsun.
22. Yolunda bütün dünya toza, torpağa dönsə də, ətəyi təmiz olsun. Səni ovlamış xoşbəxt şahin daima əldən-ələ qonur. Gah Novfəlin qulluğunda durur, gah ibn Səlama can dostu olur.
23. Sən bu bəlada ikən o düşmən məclisinin çırağıdır. Bu eşqbazlıqdan canını boş yerə güdaza verməkdən utan.

24. Yoxdur çü bəqasi ruzigarin,
Fərz eylə ki, oldu yar yarin,
Vəsl etmə onunla kim, bilirsən,
Bir gün olur ondan ayrılırsan.
25. Tərk eylə bu hərzə-hərzə seyri,
Yad eylə ilahi, anma ğeyri
Kim, nəfsə məadü mərcə oldur,
Qət et ona söz ki, məqtə oldur.
Həq sanei-dəhrü kargəhdir,
Bunda əməl etməmək günəhdir.
26. Hər kimsə gərək gələn məhəldə,
Bu kargəh içrə bir əməldə.
Hər kim nə əməl qılırsa bünyad, Muzdunu
verər əməlcə ustad.
Ey kargəhi-cahana daxil,
Sən həm əməl eylə, olma ğafil!
27. Vəqt oldu səfər qılam cahandan,
Avarə olam bu xakidandan;
Vəqt oldu verəm fənayə təxtim,
Qədr ilə çəkəm bəqayə rəxtim.
Gəl yanıma, eylə fikri-halım!
Biganəyə vermə mülkü malım!
28. Çün onu yığınca çəkmişəm rənc,
Qıyma ki, nəsibi-ğeyr ola gənc.
Eşqin, bilirəm ki, böylə qalmaz,
Daim səni ğəm bu halə salmaz;
Bəxtin oyananda bu yuxudan,
Hirsin yorulanda cüstcudan,
Qorxum bu ki, özgə ola halım,
Dünyadə nə mən qalam, nə malım.
29. Bikəslik olub sənə müqərrər,
Bikəs olasan müdam, bizər...
Aqil kişi durbin gərəkdir,
Dünyada ümid bir dirəkdir".
30. Çün pəndi tükətdi ol xirədmənd,
Məcnuna təfavüt etdi ol pənd.
Dövlətli sözünə oldu mail,
Bir fikr elədi ki, ola aqil,
Qət edə səlasili-cünuni,
Sevdasının olmaya zəbuni;
Tərk eyləyə arizuyi-dildar,
Eşqə dəxi olmaya giriftar.

24. Dünyanın vəfası yoxdur. Tutaq ki, yarın sənə yar oldu. Onunla qovuşanda bil ki, bir gün gələcək ayrılacaqsan.

25. Bu boş-boş gəzməyi burax. Allahı yada sal, başqa heç kəsi anma, çünki o ruhun son sığınacağı və son qayıdacağı yerdir. Axırda da ruhun Allahındır. Sən sözünü ona de, çünki son nöqtə odur. Allah zamanın da, aləmin də yaradıcısıdır. Buna əməl eləməmək günahdır.

26. Hər kəs bu iş yerində bir iş görməlidir. Ustad muzdu hər kəsin əməlinə görə verir. Ey bu iş evinə – dünyaya gəlmiş, sən də bir əməldən yapış, qafil olma!

27. Mənim də dünyadan köç edib, bu torpaq binasından ayrılmaq vaxtım gəlib. Vaxtımı fənaya vermək, qədr-qiymətlə yatağımı əbədi dünyaya çəkmək vaxtım gəlib. Qayıt yanıma, məni də düşün! Malımı, mülkümü yadlara vermə.

28. Çünki onu çox əzabla yığmışam, qıyma xəzinə özgələrin payı olsun. Bilirəm, eşqin belə qalmayacaq, qəm səni həmişə bu hala salmayacaq. Bəxtin yuxudan oyananda bu çəkişmədən yorulanda, qorxuram, halın başqa ola, dünyada nə mən olam, nə malım.

29. Kimsəsizliyə bağlanıbsan, qorxuram, kimsəsiz və qızılsız qalasan. Aqil insan uzağı görən olmalıdır, dünyada ümid bir dirəkdir".

30. Ağıllı qoca nəsihətini bitirəndə, öyüd Məcnuna təsir elədi. Müdrik sözlərə mayil oldu, bir fikrə düşdü ki, aqil olsun, divanəlik zəncirini qırsın, öz sevdasının əsiri olmasın. Dildar arzusundan keçib bir daha eşqə düşməsin.

31. Əmma yenə eşq şəhriyari
Fərmanına çəkdi ol fikari:
– “Key vari olan mənim cahanda
Nən var sənin, bu cismü canda?
Canə təmə etmə kim, mənimdir!
Tərk eylə təni ki, məskənimdir!
Məndən keçü canü təndən ayrıl!
Qoy varlığın, özünlə sən bil!”
32. Gülbün kimi qanı cuşa gəldi,
Bülbül sifəti xüruşə gəldi:
– “Key eyni-səlah olan bəyani!
Vəzi mənə afiyət nişani!
Mən həm buna qailəm ki, pəndin
Məzmuni-kəlami-sudməndin
Nisbət mənə xeyrdir, deyil şər,
Gər olsa eşitməyi müyəssər.
33. Gərçi sözünə qulaq tutdum,
Nə sud, eşitdimü unutdum.
Sən demə ki, tut xəbər sözümdən
Kim, yox xəbərim mənim özümdən.
Eşq aldı dərunimü birunim,
Getdi yelə səbr ilə sükunim.
34. Mən əqlə təvəccöh eylərəm çox,
Sevda yolumu tutar ki: – Yox, yox!
Sən qandanü tərki-eşq qandan?
Eşqi-əzəli çıxarmı candan?
Tənin sitəmilə canə yetdim,
Tərk eylə məni çü tərkin etdim!
35. Lütf eylə zaman-zaman verib pənd,
İslahıma olma arizumənd!
Artar ələmim bu macəradən,
Atəş kimi cünbüşi-həvadən.
Bir şişə ki, oldu parə-parə,
Peyvəndinə hiç varmı çarə?
36. Təklifimi qılma xanimanə,
Gör sürəti-gərdişi-zəmanə;
Çün sən həm onu qoyub gedirsən,
Onda məni əyləyib nedirsən?
Ancaq mənə ərzi-mülkü mal et!
Oğlunu özün kimi xəyal et!
Fərz eylə ki, malə oldu vali,
Getdi, yenə ğeyrə qoydu mali”.

31. Amma yenə eşq şəhriyari o yazığı qulluğuna çəkdi: “Ey bu dünyada bütün varlığı mənim olan! Bu cism və canda sənin nəyin var? Cana tamah salma ki, mənimdir! Tənimdən əl çək ki, məskənimdir! Məndən keç, canımdan, tənimdən ayrıl! Varın qoy özünün olsun, özün bil!” – dedi.

32. Gül kolu kimi qanı cuşə geldi. Bülbül kimi fəğanə gəldi: “Ey sözləri tamam haqlı olan! Nəsihəti mənə sağlamlıq nişanı olan! Mən inanıram ki, öyüdünün, kəlamının və fikirlərinin faydalılığı mənim xeyrimədir, şərimə deyil. Əgər eşitməyim mümkün olsaydı!

33. Əgər sözünə qulaq tutdumsa da, nə fayda, eşitdim və unutdum. Sən demə, sözümdən xəbər tut, çünki mənim özümdən xəbərim yoxdur. Daxilimi və xaricimi eşq alıb, səbrimi, sükutumu yel aparıb.

34. Mən çox ağıla can atıram, amma sevda yolumu tutub ki, yox, yox! Sən hara, eşqi tərk etmək hara! Əzəli eşq də candan çıxarmı? Tənənin sitəmindən cana yetdim. Məni tərk eylə, çünki səni tərk etmişəm.

35. Rəhm elə, zaman-zaman nəsihət verib məni sağaltmaq arzusuna düşmə! Bu rəftarından dərdim-qəmim yeldən od güclənən kimi artar. Para-para olmuş şüşənin calanmasına çarə vardırmı?

36. Məni evə çağırma, zamanın sürətini gör ki, sən də onu qoyub gedirsən, onda məni niyə dayandırırsan? Sənsə ancaq mənə mülk, mal sözü söylə! Oğlunu da özün kimi bil! Fərz elə ki, mala sahib oldu, getdi, yenə dövləti özgəsinə qoydu”.

37. Ol kişvəri-eşq padişahi,
Ol övci-bəlavü dərd mahi
Üzr ilə qılırdı eyləyib ah,
Babasına şərhi-ğəm ki, nagah
Lərzan oluban təni-həzini,
Qan doldu qolundan asitini.
38. Əl verdi atasına təhəyyür,
Məcnun dedi: – “Eyləmə təfəkkür!
Fəsd eylədi ol büti-pərizad,
Niş urdu onun qoluna fəssad;
Ol zəxm əsəri göründü məndə,
Biz bir ruhuz iki bədəndə.
39. Bizdə ikilik nişanı yoxdur,
Hər birinin özgə canı yoxdur.
Sən sanma ki, oldur ol, mənəm mən,
Bir can ilə zindədir iki tən.
Xürrəm oluram, o olsa xürrəm,
Qəm yetsə ona, mənə yetər ğəm”.
40. Ol pir çü vaqif oldu halə,
İnsaf gətirdi ol kəmalə.
Bildi ki, deyil bu nəqş batil,
Olmaz hiyəl ilə eşq zail.
Minbəd nəsihət etməz oldu,
Tən ilə fəzihət etməz oldu,
Tərk etdi təriqeyi-nizain,
Nomid olub eylədi vidain

37. O eşq ölkəsinin padişahı, o bəla-dərd zirvəsinin ayı, üzr istəyib ah çəkirdi. Atasına qəmini anladırdı ki, birdən zəif bədəni titrədi, qolundan qolçağına qan doldu.
38. Atası heyrət elədi. Məcnun dedi: “Fikir eləmə, o pərizad bütümdən qan aldılar. Qan alan onun qoluna neştər vurdu və onun nişanəsi məndə göründü. Biz iki bədəndə bir ruhuq.
39. Bizdə ikilik nişanı yoxdur. Hər birimizin özgə canı yoxdur. Sən sanma ki, o odur, mən mənəm, iki tənimiz bir canla diridir. O, şad olsa, şad oluram, qəm etsə, mənə də qəm yetir”.
40. O pir bu halı bilib bu kamalın qiymətini insafla anladı. Bildi ki, bu nəqş pozulan deyil, hiylə ilə eşq zail olmaz. Bir daha nəsihət, tənə vurmaqla əzab vermədi. Qovğa yolundan əl çəkib ümidsiz vidalaşdı.

**İBN SƏLAMIN VƏFAT ETMƏSİ VƏ NİCAT TAPMASI**

1. ... Qəm matəmin eyləyəndə bünyad,
Neyyah bu növ çəkdi fəryad
Kim, İbni Səlami etdi gərdun
Amaci-xədəngi-ahi-Məcnun.
2. Ol səddi götürməyə aradən
Əşk oldu rəvan iki yanadən.
Ol növrəsi-natəvan dəmadəm
Şövq ilə çəkərdi möhnətü ğəm.
Həsrət ələmi yaman ələmdir,
Qəm bədriqeyi-rəhi-ədəmdir.
3. Dərdü qəmi-həsrəti-nihani
Sərvi-qədin etdi xizərani.
Üz urdu pozulmağa tilismi,
Bir qayətə yetdi zəfi-cismi
Kim, peykəri nəqşi-bəstər oldu,
Rəna qədi bəstər istər oldu.
4. Gün-gündən olub xərab halı,
Qalmadı sağalmaq ehtimalı.
Dərdinə dəva bulunmaz oldu,
Rəncinə şəfa bulunmaz oldu.
Əndişeyi-ömrü oldu batil,
Can verdivü həqqə oldu vasil…
5. Leylini gətirməyə fəğanə
Ol vaqeə oldu bir bəhanə.
Matəm tutub etdi ol giriftar,
Dırnağı ilə üzünü əfgar.
Çak etdi fəraqət ilə camə,
Faş etdi fəğani xasü amə…
6. …Derlər, bu idi ərəbdə adət
Kim, ər əgər ölsə, qalsa övrət,
Bir il, iki il tutardı matəm,
Fəryadü fəğan edib dəmadəm.
Xoş gəldi bu adət ol nigarə,
Fəryadü fəğanə buldu çarə.
7. Matəmkədə eylədi məqamın,
Matəmdə keçirdi sübhü şamın.
Bir neçə gün onda ağlayıb zar,
Həm ata evinə döndü naçar.
Əmma dünü gün fəğan edərdi,
Xunabi-ciyər rəvan edərdi…

**İBN SƏLAMIN VƏFAT ETMƏSİ VƏ NİCAT TAPMASI**

1. … Qəm matəm quranda, növhəxan belə fəryad çəkdi ki, fələk İbni Səlamı Məcnunun ahının oxuna hədəf etdi.

2. Aradakı səddi götürmək üçün göz yaşı iki yandan yola çıxdı. O natəvan gənc arası kəsilmədən yanaraq şövqlə qəm, əzabını çəkirdi. Həsrət dərdi yaman dərddir. Qəm heçlik yolunun bələdçisidir.

3. Gizli həsrətin dərdi və qəmi onun sərv qəddini naziltdi. Tilsimi pozulmağa başladı və canı elə bir hala düşdü ki, bəxt ulduzu onu yatağa saldı. Rəna qəddi yataq istər oldu.

4. Günü-gündən halı pisləşdi. Sağalmaq ehtimalı qalmadı. Dərdinə dava, xəstəliyinə əlac tapılmadı. Ömrünün qayğıları batil oldu. Can verib haqqa qovuşdu...

5. Leylini fəğana gətirmək üçün bu hadisə bir bəhanə oldu. O dərdə düşmüş matəm tutub, dırnağı ilə üzünü cırdı, paltarını parçaladı, dərdini xalqa bildirdi.

6. Deyirlər, ərəbdə belə bir adət varmış ki, ər öləndə arvad bir-iki il matəm tutarmış, fəryad-fəğan edərmiş. O gözələ bu adət xoş gəldi, ah-fəğan etməyə çarə tapdı.

7. Məkanını yas yerinə çevirdi, gecəsini, gündüzünü matəmdə keçirdi. Bir neçə gün orada ağladı, əlacsız atası evinə döndü. Amma yenə də gecə-gündüz fəğan edirdi, ciyərinin qanlı yaşını axıdırdı…

8. Ol vaqeədən olub xəbərdar,
Tutdu rəhi-dəşt Zeydi-qəmxar.
Gördü ki, şikəstəhal Məcnun
Durmuş dədü dam içində məhzun.
Çün verdi səlam, qıldı elam
Kim, İbn Səlamə netdi əyyam.
9. Verdi bu qəziyyədən bəşarət
Kim: “Qıldı müarizin xəsarət,
Dəhr İbn Səlami qıldı pamal,
Leyli öz evinə döndü xoşhal.
Məcnun çəkib ah, qıldı nalə,
Əfğan edib ağladı bu halə.
10. Heyrətlərə düşdü Zeydi-qafil,
Bu halət ona göründü müşkil
Kim, fövti-rəqib eşitsə aşiq,
Gülmək gərək, ağlamaq nə layiq?
Təhqiqi-bəyani-hal qıldı,
Ol vaqeədən sual qıldı.
11. Məcnun dedi: “Ey vəfalı yarım!
Yoxdurmu bu yolda nəngü arım?
Cananəyə can verən yetibdir,
Can verməyən arada itibdir.
Ol dostum idi, degildi düşmən,
Həm ol ona aşiq idi, həm mən.
12. Ol canını verdi, vasil oldu,
Öz mərtəbəsində kamil oldu.
Nəqsim mənim irmədi kəmalə,
Eyb eyləmə ağlasam bu halə”.

8. Zeydi qəmxar bu hadisədən xəbərdar olub səhraya üz tutdu. Gördü ki, üzgün Məcnun vəhşilər arasında dərd-bəla içində dayanıb. Salam verdi, İbn Səlamın ölüm xəbərini bildirdi.
9. Bu qəziyyədən muştuluq verərək dedi ki: “Rəqibin xəstələndi və zaman İbn Səlamı məhv elədi, Leylisə əhvalı xoş öz evinə döndü”. Məcnun ah-nalə çəkdi, fəryad qopardı, bu hala ağladı.
10. Qafil Zeyd heyrətləndi və bu haldan heç nə anlamadı. Çünki rəqibinin ölümünü eşidən aşiq gülməlidir, ağlamaq nə üçündür? Bu işi anlamaq istədi və bu əhvalatı (Məcnundan) soruşdu.
11. Məcnun dedi: “Ey vəfalı dostum! Heç bu yolda abrım-həyam yoxdurmu? Canana can verən tapılıb, can verməyən arada itibdir. O mənim dostum idi, düşmənim deyildi. Leyliyə həm o aşiq idi, həm də mən.
12. O, canını tapşırıb öldü və öz yolunda kamil çıxdı. Mən bu kamala çata bilmədim, ağlamağımı eyib tutma”.

**LEYLİNİN DƏVƏYƏ SİRRİNİ AÇMASI**

1. Çün naqədə gördü nəşəyi-hal,
Qıldı ona həm bəyani-əhval:
“Key Qaliyə muyü ənbərinbuy,
Gülçöhrəvü xar-xar, xoşxuy.
Ey başı açıq, ayağı yalın,
Bulmuş neçə gəz hərəm visalın.
2. Sövdazədə nişədir dimağın?
Köksündə nədir bu əski dağın?
Kimdən sənə yetdi zülmü bidad,
Hər ləhzə nədir fəğanü fəryad?
Üşşaq təriqidir təriqin.
Gər aşiq isən mənəm rəfiqin.
3. Nalan qəmi-eşqi-yardansan,
Sən dəxi bizim qətardansan.
Mən kimi, yox əldə ixtiyarın.
Bir özgə əlindədir məharın.
Çün düşdü səninlə ittifaqım.
Rəhm eylə mənə, gör iştiyaqım
4. Lütf eylə, binayi-kari-xeyr et,
Məcnunum olan diyarə seyr et!
Bu şiyfteyi yetir ol ayə,
Bu dərdi yetişdir ol dəvayə”.
Nagah, gedərdi, oldu bihuş,
Mütləq özün eylədi fəramuş.
5. Bihuşluğunda düşdü ol nur,
Həmrahi olan güruhdən dur.
Ol növ idi zülməti-şəbi-tar
Kim, olmadı sariban xəbərdar.
Çün gəldi özünə ol pərivəş,
Oldu bu qəziyyədən müşəvvəş.
6. Göz açdı, özünü gördü itmiş,
Həmrahi buraxmış onu getmiş.
Dərd üzrə müzaəf oldu dərdi,
Tərpətdi həyuni-rəhnəvərdi.
Çox cəhd ilə eylədi təkapu,
Çox yol arayıb yügürdü hər su,
Nə rah, nə rahibər bulundu,
Nə qafilədən əsər bulundu…
7. … Düşdü güzər ol səmən üzarə,
Məcnuni-həzin olan diyarə.
Hər yan nigəran gəzərdi ol mah,
Bir şəxsi-həzin göründü nagah,
Sormağa əlameyi-mənazil,
Ol şəxsi-həzinə oldu mail.

8. Lütf ilə təkəllüm etdi ağaz:

**LEYLİNİN DƏVƏYƏ SİRRİNİ AÇMASI**

1. Leyli dəvənin halını görüb öz halından ona söz açdı: “Ey tükləri ənbər ətirli, çöhrəsi gül, tikan yayan, xasiyyəti xoş! Ey başıaçıq, ayağı yalın, nə qədər qadınlar səninlə yol getmiş!

2. Eşq vurğunusan, keyfin necədir? Köksündəki bu köhnə dag nədir? Kim sənə zülm edib, hər ləhzədə bu fəğanın nədir? Yolun aşiqlər yoludur. Əgər aşiqsənsə, dostun mənəm.

3. Sən də yar eşqindən, qəmindən ağlayırsan, sən də bizim cərgədənsən. Mənim kimi sənin də cilovun özündə deyil. İpin başqasının əlindədir. İndi ki, səninlə bir yolun yolçusuyuq, rəhm elə, mənə, şövqümü gör.

4. Lütf eylə, xeyir iş gör, Məcnunum olan yerə üz tut! Bu vurğunu o aya yetir, bu dərdi davaya yetir”. Birdən yol gedə-gedə huşunu itirdi, özünü unutdu.

5. Bihuş halda o işıq, yol yoldaşlarından aralı düşdü və gecənin qaranlığı elə idi ki, heç sariban da xəbər tutmadı.

6. Elə ki, o pəri özünə gəldi, bu qəzanı bildi. Gözünü açıb özünü itmiş gördü. Yoldaşları onu qoyub getmişdilər. Dərdinin üstünə dərd gəldi. Yol gedən dəvəni tərpətdi, özünü o tərəfə, bu tərəfə vurdu, yol axtardı, nə yol, nə yolçu tapıldı, nə də karvandan bir əsər göründü…

7. Yol yazıq Məcnunun diyarına gəlib çıxdı. Nigaran o yanı-bu yanı gəzərkən ayüzlünün gözünə birdən bir zəif şəxs göründü və ona mail oldu.

8. Yol-iz soruşmaq lütfi ilə mərhəmətlə xəbər

"Kimsən" – deyibən yetirdi avaz.
Baş qaldırıb ol əsiri-məhzun,
Döndərdi cavab ona ki: "Məcnun!"
Leyli dedi: "Ey özünə məğrur,
Haşa deyə əjdəha sözün mur!
Haşa deyə zağ, bülbüləm mən,
Ya laf ura xar kim, güləm mən!"
9. Məcnun dedi: "Ey düri-yeganə,
Məcnuna bilirmisən nişanə?
Ol şiftənin nədir nişani,
Gördükdə nədən bilirsən ani?"
10. Leyli dedi: "Ol pəriliqadır,
Rüxsarlə qəddi dilrübadır.
Sən şiftəsən, əsiri-matəm,
Rüxsarı şikəstə, qaməti xəm.
Sən xarsən, ol əzizi-aləm,
Sən bisərü pasən, ol müəzzərm".
11. Məcnun dedi: "Əhli-eşq olur xar,
Hüsn əhlinədir səfa səzavar".
12. Leyli dedi: "Ey bəhanəpərdaz!
Qeydi-dili-zarimə füsunsaz!
Peykər, tutalım, töküldü qəmdən,
Ya qamətin oldu xəm sitəmdən.
Məcnunu deyərlər əhli-idrak,
Əşari letifü ləhcəsi pak,
Səndə qanı ol ədayi-dilsuz,
Əşari-hekayəti-diləfruz?"
13. Məcnun dedi: "Əhli-hal olur lal, Bəsdir
nəmi-əşk şahidi-hal.
Tərtibi-ibarətü fəsahət,
Eşq əhlinədir dəlili-rahət.
Rahətdən olan mənim kimi dur,
Gər samit ola, deyilmi məzur?"
14. Leyli dedi: "Çün sənə şəkim var,
Məcnun isən eylə halın izhar;
Leyliyi sevərsən eylə bünyad
Bir şeir, keçən zamanın et yad!"

aldı ki, "kimsən?" O yazıq dərd əsiri, başını qaldırıb cavab verdi ki, "Məcnun!" Leyli dedi: "Ey özündən razı! Qarışqa özünə əjdaha deyə bilməz! Qarğa özünü bülbül adlandırmaz, ya da tikan "güləm" deyə bilməz!"
9. Məcnun dedi: "Ey yeganə inci! Sən Məcnunun bir nişanını bilirsənmi? O aşiqin nişanı nədir ki, gördükdə onu tanıyasan?"
10. Leyli dedi: "O pərisifətdir. Üzü də, qəddi də dilrübadır. Sən tikansan, o dünyanın əzizidir, sən səfil və sərgardansan, o mətlidir.
11. Məcnun dedi: "Eşq əhli xar olur, səfa gözəllərə yaraşır".
12. Leyli dedi: "Ey bəhanəçi! Ağlar ürəyimi ovsunlayan! Tutaq ki, görünüşün – yaraşığın qəmdən tökülüb, ya qamətini zülm əyib. Məcnun idrak əhli sayılır. Şeirləri incə, dili pakdır, hanı səndə o ürək yandıran əda, ürək işıqlandıran şeir və hekayətlər?"
13. Məcnun dedi: "Hal əhli lal olur. Göz yaşlarının onların halına şahid olmağı bəsdir. İbarələr və gözəl sözlər eşq əhli üçün sadəcə sübutdur. Rahatlıqdan mənim kimi uzaq olanın lal olması üzürlü deyilmi?"
14. Leyli dedi: "Sənə şübhə edirəm, Məcnunsansa, halını anlat, Leylini sevirsənsə, danış və bir şeirlə keçmişləri yad et".

**MƏCNUNUN ÖZ HALINI LEYLİYƏ BİLDİRMƏSİ**

1. Məcnuni-həzin eşitdi sövgənd,
Gördü onu şeirə arizumənd,
Təfsili-qəminə verdi icmal,
Qıldı ona ərzi-surəti-hal:
2. "Key səbzeyi-dərdimə verən ab!
Sərrişteyi-razdan açan tab!
Sorma necə keçdi ruzigarın,
Eşq içrə nə oldu hali-zarın?
Dildar qəminmi söyləyim, ah,
Ya pəndi-mühibbü təni-bədxah.
3. Çəkdim neçə gün cəfayi-məktəb,
Hər ruz məşəqqət ilə ta şəb.
Axır ki, çox oldu təni-əğyar,
Ayrıldı məni-şikəstədən yar.
Faş oldu çü aləmə fəsanəm,
Tədbirimə düşdü atəm, anəm.
4. Gəh dəğdəğeyi-təbib gördüm,
Gəh səy ilə Kəbəyə yügürdüm.
Açılmadı hiç babdən bab,
Tədbirimə aciz oldu əhbab.
Gəh Novfələ eylədim təzərrö,
Feyzində bulunmadı təvəqqö.
5. Gəh İbn Sələmə yar olub yar,
Verdi dili-mübtəlayə azar.
Gəh Zeyd pəyamına inandım,
Hər vəd ki, verdi, doğru sandım,
Ümmid ilə ömrüm oldu zaye,
6. Halım betər etdi zəfi-tale.
Əlqissə, vücudim oldu bərbad,
Bir ləhzə fələkdən olmadım şad".

**MƏCNUNUN ÖZ HALINI LEYLİYƏ BİLDİRMƏSİ**

1. Yazıq Məcnun and eşitdi və onun şeir dinləmək arzusunu gördü, müfəssəl qəmini qısaca təsvir edərək əhvalını ona danışdı:
2. "Ey dərdimin çəmıəninə su səpən! Sirrimin kələfinin dolaşığını açan! Günlərimin necə keçdiyini, eşqdən halımın necə olduğunu sorma. Dildarımın qəmindənmi, sevənlərin nəsihətindənmi, ya da düşmənlərin tənəsindənmi danışım.
3. Neçə günlərlə məktəb cəfası keçdim, hər günüm gecəyə qədər zülm, əzab oldu. Axırda düşmən tənəsi güc gəldi, yarım mən xəstədən ayrıldı. Əfsanəm aləmə aşkar oldu, atam-anam mənə çarə axtardı.
4. Gah həkim çildağı gördüm, gah səy ilə Kəbəyə getdim, lakin heç yandan bir qapı açılmadı, dostlarım əlacımda aciz oldu. Gah Novfələ yalvardım, arzuma çatmadım.
5. Gah yarım İbn Sələma yar olub, bəlalı ürəyimə ağrı verdi. Gah Zeydin sözlərinə inandım, verdiyi vədləri doğru sandım.
6. Ümid ilə ömrüm zaya getdi, taleyin hökmü halımı xarab etdi. Qısası, vücudum bərbad oldu. Bir an fələkdən şad olmadım".

**LEYLİNİN MƏCNUNU TANIMASI**

1. Cün bildi kim olduğunu Leyli,
Rüxsarına axdı əşk seyli.
Giryan dedi: – "Ey gözüm çirağı,
Vəhşilərə el, mənimlə yağı.
Sən mən dediyim həbib imişsən,
Dərdi-dilimə təbib imişsən.
2. Sənsən dünü gün dilimdə zikrim,
Könlümdə olan xəyalü fikrim.
Gər tanıya bilmədim rəvadır,
Məstəm mənü məst işi xətadır.
Kimsə ki, özündən ola qafil,
Bir özgəyi bilməyə nə qabil?

**LEYLİNİN MƏCNUNU TANIMASI**

1. Elə ki, Leyli onun kim olduğunu bildi, gözlərindən üzünə yaş seli axdı, ağlayaraq dedi: "Ey gözümün çırağı! Vəhşilərlə el, mənimlə yad olan! Sən mən dediyim dostum imişsən, ürək dərdimin təbibiymişsən.
2. Gecəli-gündüzlü dilimin sözü, könlümün xəyalı, fikri sənsən. Səni tanıya bilmədiyim üzürlüdür, mən məstəm, məstin işi xətadır. Özündən xəbərsiz birisi özgəni necə tanısın?

3. Ol dəm ki, dimağa yetdi buyin.
Göz gördü şüai-mahi-ruyin,
Can bixəbər oldu, əql şeyda,
Tən qıldı min iztirab peyda,
Dəryayi-təhəyyürə olub qərq,
Əğyardən etmədim səni fərq.
4. Məzur tut, ey sənəm, bu halım,
Tən eyləmə, vermə infialım.
Sənsiz mən idim şikəstəxatir,
Yüz şükr, sənə yetişdim axir.
Gülzari-ümidim oldu sirab,
Ya Rəb, bu xəyaldırmı, ya xab?
5. Eyşü tərəbim çirağı yandı,
Bəxtim yuxudan məgər oyandı?
Ey dil ki, edərdin ahü nalə,
Daim nigəran olub vüsalə,
Ha, dövləti-vəslü zövqi-didar!
Billah, dəxi etmə naləvü zar!
6. Ey didə, tökүb sirişki-gülgun,
Hər dəm der idin ki: – "Qanı Məcnun?"
Mənzurun olubdur ol səmənbər,
Qıl məqdəminə nisar gövhər!
Ey can ki, çəkərdin intizarı,
Görmək diləyib həmişə yarı.
7. Yetdin ona, gəl çıx indi təndən,
Get yarə, kəs ixtilatı məndən".

3. Onda ki, ətrini duydum, gözlərim ay üzünün şüasını seçdi, canım bixəbər oldu, əqlim aşiq oldu, canımdan min əzab oyandı, heyranlıq dəryasında batdım, səni yadlardan seçə bilmədim.
4. Ey gözəlim, bu halımı bağışla, tənə vurma, halımı pozma. Sənsiz mən ürəyi sınıq idim, yüz şükr, axır ki, sənə yetişdim. Ümid gülşəninə su çiləndi. Ay Allah, bu xəyaldırmı, yoxsa yuxu?
5. Şadlığımın çırağı yandı, yoxsa yatmış baxtım oyandı? Ey ürəyim, vüsal həsrəti ilə nalə çəkirdin, buyur, bu da ürək zövqünün vəsl dövləti! Allah eşqinə, daha nalə çəkib ağlama!
6. Ey gözüm, gül rəngli yaş töküb hər dəm "Hanı Məcnun?" deyirdin. O yasəmən sənin qarşındadır, qədəmlərinə gövhər yağdır! Ey intizar çəkən canım, həmişə yarı görmək istəyirdin.
7. Ona yetişmisən, gəl indi bədənimdən çıx get, yarımın ol, məndən əl çək".

## MƏCNUNUN LEYLİYƏ ETİNASIZLIĞI VƏ SAFLIĞINI SÜBUT ETMƏSİ

1. Məcnun dedi: – "Ey büti-pərivəş!
Xaşaki-zəifə urma atəş!
Yandırmağıma yetər xəyalın,
Yoxdur mənə taqəti-visalın.
Zinhar, gətirmə, ey səmənbər,
Ayineyi-arizin bərabər.
Bir zərrəyə kim, vücud yoxdur,
Ayinədən ona sud yoxdur.
2. Ol gün ki gözümdə var idi nur,
Gözdən üzünü yaşırdın, ey hur!
Hala ki, nəzarən oldu müşkil,
Durmaq nə üçün mənə müqabil?
Eşq etdi binayi-vəsli möhkəm,
Mənidə məni səninlə həmdəm.

## MƏCNUNUN LEYLİYƏ ETİNASIZLIĞI VƏ SAFLIĞINI SÜBUT ETMƏSİ

1. Məcnun dedi: "Ey pəriyəbənzər sənəm! Bu zəif çör-çöpə od vurma! Məni yandırmaq üçün xəyalın da bəsdir. Məndə sənin vüsalına taqət yoxdur. Çəkin, ey yasəmən üzlüm, üzünün güzgüsünü göstərmə. Bir zərrənin ki, vücudu yoxdur, ona güzgüdən fayda olmaz.
2. Gözlərimdə nur olan günlərdə üzünü məndən gizləyirdin, ey huri! İndi sənə baxmağım çətin olan vaxt qarşımda dayanmağın nə üçündür? Eşqim vəsl binasını möhkəm eyləyib, mənada mən sənə bağlanmışam.

3. Rəf oldu bu etibari-surət,
Haşa ki, olam şikari-surət.
Ləzzət rüxi-yari-dilsitandan,
Candır bulan, ey diriğ candan!
Canım gedəli bəsi zamandır,
Cismimdəki indi özgə candır.
4. Sənsən hala tənimdə canım,
Gözdə nurim, ciyərdə qanım.
Məndən bəri eylədin məni sən.
Ərzə kimə eyləyim səni mən?
Məndə olan aşikar sənsən,
Mən xud yoxam, ol ki var, sənsən!
5. Daim sənə məndədir təcəlli,
Mən qeyrdən olmuşam təsəlli.
Gər mən mən isəm, nəsən sən, ey yar?
Vər sən sən isən, nəyəm məni-zar?
Çün mən oluban səninlə məmlu,
Vəhdət rəvişində xoş deyil bu
Kim, dışrədə istəyəm nişanın,
Bir özgə məkan biləm məkanın.
6. Əvvəl bu işi edəndə bünyad,
Mən tifl idimü zəmanə ustad.
Etmişdi sənə məni müqəyyəd,
Guya oxudurdu dərsi-əbcəd.
Hala qılıbam kəmal hasil,
Əbcəd səbəqin oxurmu kamil?
7. Çün yetdi kəmalə sərxəti-eşq,
Sərxət görüb ancaq eylərəm məşq.
Risvalığa çün mən etmişəm ad,
Sən həm bu süluki etmə bünyad.
Tut pərdeyi-ismət içrə aram,
Risvay mənəm, sən ol nikunam!
8. “Məcnun” mənə derlər əhli-aləm,
Ancaq mənədir cünun müsəlləm.
Sən olma fəsaneyi-xəlayiq,
Məcnun işi Leyliyə nə layiq?
Məcnun mənəm, ey vəfalı dildar!
Divanəliyə mənəm səzavar!
9. Sən eyləmə halını digərgun,
Leyli nə rəva ki, ola Məcnun?
Qəmxarsan, ey büti-pəriru,
Qəmxarlığın həmin yetər bu.
Kim, pərdənişin olub həmişə,
Daim qılasan hicab pişə.

3. Mənim artıq surətə etibarım yoxdur, heç istəmirəm də surətə ov olam. Ürəyimin məskəni olan yarın üzündən ləzzət alan canım idi. Canım əfsus ki, çoxdan əlimdən gedib. İndi cismimdəki özgə candır.
4. Sənsən indi bədənimdə canım, gözümdə nurum, ciyərimdə qanım. Sən məni məndən aldın, səndən kimə şikayət eyləyim? Mən özüm yoxam, məndə var olan sənsən.
5. Sən daima məndə görünsən, mən ondan da təsəlli alıram. Əgər mən mənəmsə, sən nəsən, ey yar? Əgər sən sənsənsə, onda mən yazıq nəyəm? Mən səninlə dolu olduğum halda, heç birlik yolunda doğru olardımı sənin nişanını içimdən kənarda axtaram, sənin özgə bir yerdə olduğunu düşünəm?
6. Əvvəl bu işin binası qoyulanda mən uşaq idim, zəmanə isə ustad. O məni sənə bağlamışdı və elə bil ki, əlifba oxudurdu. İndi böyüyüb ağıllanmışam. Kamil də əbcəd dərsi oxuyarmı?
7. Eşqimin başlanğıcı kamala yetib, indi mən ancaq baş hərfələrlə məşğulam. Mən rüsvayçılıqda ad çıxarmışam, sən də bu yolu tutma. İsmət pərdəsi içində aram ol. Rüsvay mənəm, sənin adın yaxşı qalsın.
8. Aləm əhli məni “Məcnun” çağırır. Dəlilik məndə yurd salıb. Sən el-aləmin dilinə düşmə. Məcnunluq işi Leyliyə nə layiq? Məcnun mənəm, ey vəfalı dildar! Divanəliyə mən layiqəm!
9. Sən halını dəyişmə. Heç rəvadırmı, Leyli də Məcnun ola? Qəmxarımsan, ey pərisifət, elə qəmxarlığın da mənim bəsimdir. Yetər ki, sən həmişə pərdənişin olub daima pərdədə qalasan!

10. Gün kimi çıxıb müdam seyrə,
Göstərməyəsən cəmal qeyrə
Kim, səndə nə olsa rəsmü adət,
Ətvarımadır mənim şəhadət.
Mən eşq güzərgəhində xakəm,
El cümlə bilir məni ki, pakəm.
11. Rəhm et mənə, ey büti-vəfadar,
Tən əhlinin ağzın açma, zinhar!
Çün mən rəhü rəsmi-eşq tutdum,
Namus təriqini unutdum.
Namusunu saxla hər xələldən,
Sən əql ətəyini qoyma əldən".
Təqrib ilə ol əsiri-məhcur".

**LEYLİNİN MƏCNUNUN DAVRANIŞINI BƏYƏNMƏSİ**

1. Leyli dedi: – "Ey vücudi-kamil!
Qürbi-həqə ismət ilə qabil!
Meraci-kəmalını sınardım,
Keyfiyyəti-halını sınardım,
Oldum necə olduğundan agah,
Xoş mərtəbədir bu, barəkallah!
2. Əhsəntə ki, zati-pak imişşən,
Pakizə vücudi-xak imişşən.
İnsaf həmin ola qənaət,
Təskini-həvayə istitaət.
Eşqində riya güman edərdim,
Ətvarını imtəhan edərdim.
3. Əlminnətülillah oldu məlum,
Vəsl olduğu məşrəbində məzmun.
Qəmnak idim, eylədin məni şad,
Bu qeyd təəllüqündən azad.
Bir qafili-xudpərəst idim mən,
Cəhl ilə müdam məst idim mən…

10. Gün kimi hər dəm seyrə çıxıb camalını özgələrə göstərməyəsən. Sən nəyi adət eləsən, mənim varlığımdan o xəbər verəcək. Mən eşq səhrasının torpağıyam, bütün el bilir ki, eşq yolunda təmizəm.

11. Vəfalı yarım, mənə rəhm et, tənə əhlinin ağzını açma, çəkin! Çünki mən eşqin qaydasını, yolunu tutmuşam, namus qaydalarını unutmuşam. Namusunu hər ləkədən saxla, sən əqlin ətəyini əlindən buraxma.

**LEYLİNİN MƏCNUNUN DAVRANIŞINI BƏYƏNMƏSİ**

1. Leyli dedi: "Ey kamil vücud! Öz ismətində haqqa yaxınlığa qabil! Sənin əqlinin yüksəlişini sınayırdım. Əsl halını sınayırdım. Necə olduğunu bildim. Çox gözəl səviyyədəsən. Barəkallah!
2. Əhsənlər ki, pak zat imişşən, torpaqdan yaranmış gözəl varlıq imişşən. İnsafla deyə bilərəm ki, sən öz şəhvətini söndürməyə özündə qüvvə tapmısan. Eşqində riya olduğunu güman edirdim, sənin davranışını imtahana çəkirdim.
3. Allaha şükr olsun, məlum oldu ki, sənin varlığında vəsl qəbahətdir. Qəmliydim, məni şad elədin. Asılılıq zəncirindən məni azad elədin. Mən qafil bir özünüsevər idim, nadanlıqla daim məst idim…

**LEYLİNİN ANASINA VƏSİYYƏTİ VƏ ÖLMƏSİ**

**1.** Məbudinə ərz qıldı razın,
Bildirdi könlündəki niyazın:
– “Key hakimi ərseyi-qiyamət!
Sultani-səriri-istidamət!
Nomidilik atəşinə yandım,
Billah, bu vücuddən usandım!
2. Çün dust yanında naqəbuləm,
Billah, bu həyatdan məluləm!
Mən şəmi-şəbi-fəraqi-yarəm,
Suzanü siyah ruzigarəm.
Yandırdı məni cəfayi-aləm,
Dinlənməzəm ölməyincə bir dəm.
3. Derdim ki, vücudum ola baqi,
Şayəd düşə vəsl ittifaqi...
Pərtöv bürcündə afitabım,
Bildim ki, vücud imiş hicabım!
Ya Rəb, məni et fənayə mülhəq
Kim, rahi-fəna imiş rəhi-həq”.
4. Pak idi, duası etdi təsir,
Filhal mizacı oldu təğyir.
Təsiri-həvayi-namünasib,
Tərkibinə qıldı zəf qalib.
Gəldikcə ziyadə oldu dərdi,
Təblərzə fərağətin gedirdi.
5. Məhv oldu təb içrə ol pərivəş,
Bir şəm kimi ki, görə atəş.
Əksildi ərəqdə hüsni tabi,
Bir gül kimi kim, gedər gülabi...
Zəfi-təni ol məqamə yetdi
Kim, bəstər içində cismi itdi.
6. Bəstərdə tələb qılan nişanın,
Görməzdi vücudi-natəvanın.
Rəf oldu nişaneyi-səlamət,
Mövtinə göründü min əlamət.
Əzm eylədi olmağa müsafir,
Rehlət əsəri çü oldu zahir.
7. Rəf etdi hicab ehtirazın,
Faş etdi anayə gizli razın:
“Key dərdi-dilim dəvası ana!
Şəmi-əməlim ziyasi ana!
Qəm gizləmək ilə canə yetdim,
Ta mümkün idi təhəmmül etdim.

**LEYLİNİN ANASINA VƏSİYYƏTİ VƏ ÖLMƏSİ**

**1.** Tanrısına sirrini dedi, ürəyindəki yalvarışını bildirdi: “Ey qiyamət mülkünün hakimi! Əbədi taxtın sultanı! Ümidsizlik oduna yandım, vallah, bu canımdan da usandım!

2. İndi ki dost məni qəbul etmır, vallah, bu həyatdan bezmişəm. Mən yarımın ayrılıq gecəsinin şamıyam, yanıram, qara günlüyəm. Məni dünyanın zülmü elə yandırıb ki, ölənəcən bir an dincələ bilməyəcəyəm.

3. Deyirdim, bəlkə, vücudum qalaydı, bəlkə, bir görüş mümkün olaydı. Görünür ki, günəşim aydınlıq bürcündə imiş, mənim pərdəm mənim varlığım imiş. Ya Rəb, məni heçliyə yetir, çünki həqq yolum heçlik yoluymış”.

4. Pak olduğu üçün duası təsir etdi və dərhal əhvalı dəyişdi. Əhvalının pozulmasının təsiri ilə zəiflik canına üstün gəldi. Dərdi get-gedə artdı. Titrəmə, qızdırma rahatlığını əlindən aldı.

5. Yanar şam kimi qızdırma içində o pəriyə bənzər məhv oldu, gülabı çəkilmiş gül kimi tər içində onun hüsnü və təravəti itdi. Zəifliyi o məqama yetdi ki, yataq içində cismi itdi.

6. Yataqda nişanını görmək istəyən onun gücsüz vücudunu görə bilməzdi. Salamatlıq əlamətləri yox oldu, ölümünün nişanələri göründü. Səfərə yığışdı, köçmə əlamətləri üzə çıxdı.

7. Utanmaqdan keçib anasına gizli sirrini açdı: “Ey ürək dərdimin dərmanı ana! Əməl şamının ziyası ana! Qəmimi gizlətməkdən cana doydum. Bacardığım qədər dözdüm.

8. Hala ki, müqərrər oldu getmək,
Fərz oldu bu sirri zahir etmək.
Olsun sənə, ey zəifə, rövşən
Kim, tiği-həva həlakiyəm mən.
Cismimdə yox özgə dərd tabi,
İlla qəmi-eşq iztirabi.
9. Mən aşiqi-zarü binəvayəm,
Bir mahliqayə mübtəlayəm.
Sövdası ilə yox oldu varım,
Keçdi həvəsilə ruzigarım.
Çox arizu eylədim cəmalin,
Bir dəm görə bilmədim vüsalin.
10. Məndəndir onun cünuni əfzun,
Qeys ikən olubdur adı Məcnun.
Daim keçirər qəmimdə əyyam,
Bir gün ona hasil olmayıb kam.
Risvayi-zəmanə oldu məndən,
Afaqə fəsanə oldu məndən.
11. Ey munisi-ruzigarım ana!
Qəmxarimü qəmgüsarım ana!
Mən dari-bəqayə əzm edəndə,
Dünyaya vida edib gedəndə,
Mənsiz çəkib ahlar, fəğanlar,
Səhralərə düşdüyün zamanlar
Düşsə yolun ol olan diyarə,
Ərzi-ğəmim eylə ol fikarə.
12. Zinhar ona olanda vasil,
Xoş kimsədir, ondan olma qafil!
Damanını tut, rizasın istə,
Mən mücrim üçün duasın istə!
Ərz eylə ki: “Ey vəfalı dildar!
Can verdi yolunda Leyliyi-zar,
Eşqində yerinə yetdi lafi,
Dəvasının olmadı xilafi”.
13. Söylə məni-zarü mübtəladən:
“Key eşqdə laf edən vəfadən!
Xəlvətgəhi-ünsə məhrəm oldum,
Azadəvü şadü xürrəm oldum.
Sən həm gələ gör, təəllül etmə,
Mən müntəzirəm, təğafül etmə!
14. Gər sadiq isən bu yolda, sən həm
Səbr eyləmə, eylə tərki-aləm.
Gəl kami-dil ilə olalım yar,
Bir yerdə ki, yoxdur onda əğyar...
Daim olalım bir evdə həmraz
Kim, çıxmaya dışra ondan avaz.

8. İndi getmək qərara alındı, sirrimi sənə açmalıyam. Məlumun olsun ki, ey xanımım, mən ruhuma sancılmış xəncərdən ölürəm. Canımda eşq qəmindən başqa özgə bir xəstəlik yoxdur.
9. Mən bədbəxt ağlar aşiqəm. Bir ayüzlünün vurğunuyam. Onun sevdası ilə varlığım yox oldu, ömrüm onun həvəsi ilə bitdi. Camalını çox arzuladım, amma bir an vüsalını görmədim.
10. Onun divanəliyi məndən də böyükdür. Qeys ikən adı Məcnun olub. Həmişə vaxtını mənim qəmimlə keçirir. Bircə an da olsa, ona kam qismət olmayıb. Mənim ucbatımdan el-aləmdə rüsvay olub, əfsanələrə çevrilib.
11. Ey ömrümün munisi ana! Qəmxarım, sədaqətli dostum ana! Mən əbədiyyət diyarına üz tutanda, dünyaya vida edib gedəndə, mənsiz ah-fəğan eyləyib səhralara düşəndə, əgər yolun onun diyarına düşsə, mənim dərdimi o yaralıya yetir.
12. Ona tuş olarsansa, saqın, etinasız olma, bil ki, xoş insandır! Ətəyini tut, razılığını al. De ki, mən günahkar üçün dua etsin, bir də söylə ki: “Ey vəfalı dildar! Ağlar Leyli yolunda can verdi. Eşqdə sənə verdiyi söz yerinə yetdi. Dediklərində əyrilik olmadı”.
13. Mən ağlar aşiqin dilindən de ki, “Ey eşqdən, vəfadan dəm vuran, mən xəlvət dünyasına qovuşdum, azad və şad oldum. Sən də gəl və gör, gecikmə, gözləyirəm, vaxtı itirmə.
14. Əgər sən də bu yola sadiqsənsə, səbr eyləmə, dünyanı tərk et. Gəl ürək arzumuza çatıb o yerdə yar olaq ki, orada yad yoxdur. Həmişəlik elə bir evdə olaq ki, oradan səda çıxmaz...”

15. Çün qıldı vəsiyyətini axir,
Əzmi-səfər etdi ol müsafir.
Yad eylədi yari-mehribanın,
Vəsl arzusu ilə verdi canın.

15. Vəsiyyətini sona yetirdi və o qonaq şəfər yolunu tutdu. Mehriban yarını yad elədi və vüsal arzusu ilə canını tapşırdı…

## LEYLİNİN VƏFATINDAN MƏCNUNUN XƏBƏRDAR OLMASI VƏ BU DƏRDƏ DÖZMƏYİB ÖLMƏSİ

1. Kim, Zeydi-sitəmrəsideyi-zar
Ol vaqeədən olub xəbərdar,
Filhal qılıb əziməti-rah,
Məcnuni-həzini etdi agah:
2. "Key şiyfteyi-şikəstətale!
Əfsus ki, səyin oldu zaye!
İdbari-tilismin oldu batil,
Bu məşğələdən dəxi nə hasil?
Bazar pozuldu, yığ büsatın!
Bu silsilədən kəs irtibatın!
3. Leyli sənə verdi zindəgani,
Sən ol baqi, ol oldu fani!"
…Məcnun ki, xəbərdən oldu agah,
Suzi-cigərilə çəkdi bir ah.
Kim, ğülğüləsin həm ol zamanda,
Cananı eşitdi ol cahanda.
Az qaldı ki, naləsilə dildar
Ol xabi-əcəldən ola bidar.
4. Bir ləhzə bülənd olub xüruşi.
Düşdü yerə, getdi əqlü huşi.
Çün gəldi özünə, qıldı nalə.
Yağdırdı xəzani üzrə jalə…
5. Düşdü yola, oldu Zeydə həmrah,
Bir hal| ilə kim, nəuzü billah.
Çün gördü məzari-gülüzarın,
Düşdüvü qucaqladı məzarın.
Köksünü qılıb ləhəd kimi çak,
Mərqəd kimi saçdı başına xak.
Qəbr üzrə axıtdı qanlı yaşın,
Ləl eylədi yaşı qəbri daşın.
6. Yer üzün edib sirişki məmlu,
Keçdi yerə ol sirişkdən su.
Oldu düri-əşki-biqərarı,
Qəbr içrə nigarının nisarı.

LEYLİNİN VƏFATINDAN MƏCNUNUN XƏBƏRDAR OLMASI VƏ BU DƏRDƏ DÖZMƏYİB ÖLMƏSİ

1. …Çox zülmlər çəkmiş ağlar Zeyd bu hadisəni biləndə dərhal yol tutub, Məcnun yazığa xəbər çatdırdı:

2. "Ey xəstə, taleyi bədbəxt! Əfsus ki, səyin zay oldu. Bəxtinin tilsimi pozuldu, daha bu işdən nə çıxa bilər? Bazarın pozuldu, malını yığışdır və bu zəncirdən qurtar.

3. Leyli dünyanı sənə tapşırdı. Sən həmişəlik ol, o, isə fənaya uğradı". Məcnuna bu xəbər çatanda ciyərindən elə bir ah çəkdi ki, o dünyada sevgilisi də bunu duydu. Az qaldı ki, bu nalədən dildarı o dünyada əcəl yuxusundan oyansın.

4. Bir anda fəryadı göyə ucaldı, yerə yıxıldı, huşu başından çıxdı. Elə ki, özünə gəldi, nalə çəkdi, solğun üzünü göz yaşları ilə suvardı …

5. Zeydlə bərabər yola düşdü. Elə bir gündəydi ki, Allah göstərməsin. Elə ki, gülzarının məzarını gördü, yıxılıb qəbri qucaqladı. Köksünü məzar kimi qazıb, qəbir kimi üstünə torpaq ələdi. Gözündən qanlı yaş axaraq qəbir daşını lələ çevirdi.

6. Göz yaşları qəbrin torpağının üstünü doydurdu və altını da suladı. Gözündən axan incilər məzardakı nigarının üstünə şabaş kimi çiləndi.

7. Göz yaşını eylədi müxatəb:
"Key tirə şəbi-fəraqə kövkəb!
Çıxmaq sənə oldu indi vacib,
Kim, oldu ol afitab qaib!
Bir bürci məqam tutmuş ol mah
Kim, olmaz ona nəsim həmrah.
8. Sən durma əgər mürüvvətin var,
Gir torpağa, istə onu zinhar!
Gör qandadır ol düri-yeganə,
Netmiş ona afəti-zəmanə!
Pabus edibən yetir niyazım,
Bildir bu təzərrö ilə razım:
9. "Key şəm, nədir bu ictinabın?
Mən bəxti siyahdən hicabın?
Cami-meyi-qəm tutanda aləm,
Həm sən içdin bu camı, mən həm.
Məst etdi məgər səni bu badə,
Kim, bəzmdə durmadın ziyadə?
10. Həmrahım idin bu yolda ey mah!
Həmrahı qoyub gedərmi həmrah?
Əflakə təfaxür eylə, ey xak!
Kim, oldu rəfiqin ol düri-pak.
Zülfünə müariz olma, ey mar!
Kim, onda müqimdir dili-zar.
11. Xalına təərrüz etmə, ey mur!
Kim, bağlıdır onda cani-məhcur!
Ey ömr, gəl indi başa sən həm
Kim, çeşmimə tirə oldu aləm!
Aləm xoş idi ki, var idi yar,
Çün yar yox, olmasın nə kim var.
12. Ey can, təni-xəstəni vida et,
Bu xəstə ilə, yetər, niza et!
Müştaqinəm, ey əcəl, kərəm qıl,
Dəfi-ələm ilə rəfi-qəm qıl!
Qurtar məni iztirabi-qəmdən!
Ver müjdə, vücudimə ədəmdən!
13. Ayinəmi eylə jəngdən pak,
Qıl pərdeyi-etibarımı çak!
Rəf et, nə isə aradə hail,
Eylə məni ol nigarə vasil!
Təklifi-visal edər mənə yar,
Bir xəlvətə kim, yoxdur əğyar.
14. Mən getməmək eyləsəm xətadır,
Səndən mənə bir məded rəvadır.
Billah, məbədimdə qılma ehmal
Kim, bəxtimə üz veribdir iqbal!
15. Ya Rəb, mənə cismü can gərəkməz.
Cananımsız cahan gərəkməz!
Minbəd zəlilü xar qılma,
Sərgəşteyi-ruzigar qılma!"

7. Göz yaşına xitabən dedi: "Ey qara ayrılıq gecəsinin ulduzu! İndi sənin çıxmağın vacibdir! Çünki o günəş yox oldu! O ay elə bir bürcün küncündə məqam tutub ki, ona küləklər belə çatmaz.
8. Əgər insafın varsa, sən də dayanma. Gir torpağa, onu xəbər al! Gör haradadır o yeganə inci? Zamanın odu ona nə edib?! Onun ayağını öp, arzumu, yalvarışımı yetir:
9. Ey şam, bu qaçmağın nədir? Mən bəxtiqaradan gizlənməyin nədir? Aləm bizə qəm şərabının camını tutanda bu camdan həm mən içdim, həm sən. Bu badədən məstmi olub məclisi tərk etdin?
10. Yoldaşım idin bu yolda, ey mah! Heç yoldaş da yoldaşını qoyub gedərmi? Ey torpaq, göylərin qarşısında fəxr elə! O pak dürr sənin dostun olub! Zülfünün rəqibi olma, ey ilan, axı o saçların içində inləyən ürəyim var!
11. Xalına toxunma ey qarışqa, çünki hicranlı canım ona bağlıdır. Ey ömrüm, daha başa gəl, axı dünya gözümdə qaraldı. Nə qədər ki, yar var idi, aləm mənə xoş idi. Yar yoxdursa, var olanlar da yox olsun.
12. Ey canım, xəstə bədənimə vida et, bəsdir, bu xəstə bədəni tərk elə. Yolunu gözləyirəm əcəl, insafın olsun! Ələmimə və qəmimə son qoy! Məni bu qəm iztirabından qurtar! Vücuduma yoxluq dünyasından müjdə ver!
13. Güzgümün pasını sil! Etibar pərdəmi parçala, arada nə varsa yox et, məni nigarıma yetir! Yarım mənə vüsal təklif eləyir, elə bir xəlvətə ki, orada yadlar yoxdur!
14. Səndən mənə kömək rəvadır. Mən getməsəm, böyük xətadır. Allah eşqinə, köməyində ləngimə, çünki bəxtimə səadət üz verib.
15. Ya Rəb, mənə nə cism, nə də can gərəkdir. Cananımsız cahan mənə gərək deyil! Bundan sonra da məni zəlil və xar etmə. Fələyin sərsəmi eləmə".

**ƏHVALATIN TAMAMLANMASI**

1. Çün razi-dərunin etdi təqrir,
Rəyinə müvafiq oldu təqdir!
İmdad qılıb inayəti-həq,
Qıldı onu məqsədinə mülhəq.
Gül dərdi hədiqeyi-əməldən,
Mey içdi sürahiyi-əcəldən,
2. Qəbrini qucaqladı nigarın,
Can sədqəsi etdi ol məzarın.
"Leyli" – dedi verdi cani-şirin
Ol aşiqi-biqərarü miskin.
3. … Çün gördü bu halı Zeydi-ğəmnak,
Əfğan qılıb etdi yaxasın çak,
Fəryad ilə qıldı növhə bünyad,
Övci-fələkə yetirdi fəryad.
Zar ağladı öylə kim, həm ol dəm
Ahı oduna yığıldı aləm.
4. El cəm olub etdilər nəzarə,
Məcnuni-siyahruzigarə.
Qəbr üstünə gördülər yıxılmış,
Cananəyə can nisar qılmış.
Əhvalına ağlayıb sərasər,
Dəfn etməyin etdilər müqərrər.
5. Ğüsl eyləyibən təni-nizarın,
Dildarının açdılar məzarın,
Qoydular onu həm ol məzarə,
Ğəmnak yetişdi ğəmgüsarə.
Ruh oldu fələkdə ruhə həmraz,
Tən oldu tən ilə yerdə dəmsaz.
Rəf oldu təəllüqati-hail,
Mətlubuna talib oldu vasil
6. Bir bəzm iki şahə məhfil oldu,
Bir bürc iki mahə mənzil oldu.
Qəbr üstünə qoydular nişanə,
Faş oldu bu macəra cahanə.

**ƏHVALATIN TAMAMLANMASI**

1. Ürəyindəki sirləri deyəndən sonra tale onun arzusuna müvafiq əməl elədi. Haqqın köməyi və yardımı onu məqsədinə yetirdi. Əməl bağçasından gül dərdi, əcəl qədəhindən mey içdi.

2. Nigarının məzarını qucaqlayıb canını ona qurban elədi. Zavallı və səbirsiz aşiq "Leyli" deyərək öz şirin canını verdi.

3. Dərdli Zeyd bu halı görəndə yaxasını yırtıb, fəryad qopardı, növhə dedi, səsini göylərin zirvəsinə ucaltdı. Elə zar-zar ağladı ki, bütün aləm ahının oduna toplaşdı.

4. Bütün el cəm olub Məcnun bəxti qaranı qəbir üstünə yıxılıb canını sevgilisinə qurban vermiş gordü. Onun halına ağlaya-ağlaya dəfn etmək qərarına gəldilər.

5. Zəif bədənini yuyub qüsl verdilər, nigarının məzarını açıb onu da həmin qəbrə qoydular. Nəhayət, dərdli dərdlisinə yetişdi. Ruh göylərdə ruhla görüşdü, bədən yerdə bədənə qovuşdu. Bütün çətinliklər yox oldu. İstəkli istəyinə çatdı.

6. Bir məclisə iki şah qonaq oldu. Bir bürc iki aya mənzil oldu. Qəbrin üstünə nişan qoyuldu və bu əfsanə bütün dünyaya yayıldı.

*N. Rzanın "Məhəmməd Füzuli "Leyli və Məcnun" (bədii nəsrlə şərhi) kitabı əsasında*

# Cəlil Məmmədquluzadə
# Anamın kitabı

*(ixtisarla)*

Məclislərin əhalisi

Zəhra bəyim – 60 yaşında
Rüstəm bəy – onun böyük oğlu, intelligent, 40 yaşında
Mirzə Məhəmmədəli – onun ikinci oğlu, elmi-ilahi müəllimi və vaiz, 35 yaşında
Səməd Vahid – onun üçüncü oğlu, türk dili müəllimi, 30 yaşında
Mirzə Həsən – Rüstəm bəyin dilmancı, 30 yaşında
Salimə xanım – müəllimə (danışmır), 25 yaşında
Məşədi Cəfər – ərizə sahibi, 40 yaşında
İkinci hambal – (fəs qoyur) 30 yaşında
Gülbahar – qızı, müsəlmanca oxumuş, 20 yaşında
Zivər xanım – Rüstəm bəyin övrəti, rusca tərbiyə tapmış, 25 yaşında
Teymur bəy – Cəmiyyəti-xeyriyyənin dəftərdarı, 25 yaşında
Mirzə Zeynal – millətpərəst, 30 yaşında
Aslan bay – mal həkimi (rus intelligenti libasında), 30 yaşında
İsmayıl ağa – Cəmiyyəti-xeyriyyənin üzvü (danışmır), 45 yaşında
Münəvvər xanım – onun qızı (danışmır), 20 yaşında
Hüseyn Şahid – türk dili müəllimi (fəsli), 30 yaşında
Mirzə Bəxşəli – elmi-ilahi müəllimi, 35 yaşında
Qənbər – Rüstəm bəyin sərkarı, 45 yaşında
Qurban – çoban, 25 yaşında
Zaman – çoban, 25 yaşında
Senzor Mirzə Cəfər bəy – 45 yaşında
Polis məmuru (danışmır) – 30-35 yaşında
Yenə üç nəfər fəqir – 40-45 yaşında
Birinci hambal – 30 yaşında
İkinci hambal – 30 yaşında

## İKİNCİ MƏCLİS

*Rüstəm bəyin zal otağı. Ortalıqda uzun stol, ətrafında sandalyalar üstə əyləşiblər cəmiyyəti-xeyriyyə üzvləri; başdan Rüstəm bəy ki, cəmiyyəti xeyriyyənin sədridir; onun sağ tərəfində Zivər xanım, sol tərəfində Teymur bəy. Ondan savayı əyləşiblər: Mirzə Zeynal - millətpərəst, Səlimə xanım – müəllimə, Aslan bəy, İsmayıl ağa, Münəvvər xanım, Səməd Vahid, Hüseyn Şahid, yanında məktəb şagirdi, fəsli. Kənarda diz üstə əyləşiblər: Mirzə Məhəmmədəli, Mirzə Bəxşəli, yanında bir məktəb şagirdi, börklü. Qapının yanında üç-dörd nəfər fəqir və qeyri adamlar ki, ayaq üstə durub iclasa tamaşa edirlər. Otağın küncündə, camaat görükməyən yerdə, pərdə dalında Zəhrabəyim və Gülbahar oturub, məclisə nəzər eləyirlər. Üzvlərin hərəsinin qabağında bir vərəq ağ kağız və qələmtəraş; sədrin gabağında zəng. Adamların çoxu papiros çəkir.*

R ü s t ə m  b ə y. Qospoda, zasedaniye obyavlyayu otkrıtım.[1]

M i r z ə  Z e y n a l (durur ayağa və yumruğunu silkələyə-silkələyə, acıqlı). Ağalar, ana dilindən başqa burada özgə dil danışmaq olmaz. Ana dili, ana dili. Türk dili, milli dil.

*Camaat çəpik çalır.*

[1] Cənablar, iclası açıq elan edirəm.

Z i v ə r   x a n ı m (durur ayağa). Ne ponimayu, qospoda, çto za dikarstvo? Pust kto kakim yazıkom luçşe vladeet, na tom i obyasnyayetsya, çto je takoe?![2]

M i r z ə   M ə h ə m m ə d ə l i (acıqlı). Haqq buyurur Mirzə Zeynal, islam məclisi hara, rus dili hara?!

*Qalan üzvlərdən də bəzi deyir: "eybi yoxdur", bəzi deyir: "olmaz".*

R ü s t ə m   b ə y (zəngi çalır). Ağalar, mən təklif edirəm ki, hər kəs ki, mümkündür, müsəlmanca danışsın; çünki burada rus dili bilməyənlər də var. O ki, birisi müsəlmanca heç danışmaq bilmir, onda dəxi çarə nədi?..

M i r z ə   B ə x ş ə l i (Rüstəm bəy). Bağışlayınız, Rüstəm bəy, birisi ki, müsəlmanca bilmir, dəxi bu məclisdə onun üzv olmağa nə haqqı?!

Z i v ə r   x a n ı m. Qospoda, tak nelzya rassujdat, yey boqu.[3]

M i r z ə   Z e y n a l (durur ayağa və ucadan). Biz dübarə təvəqqə edirik sədr cənablarından ki, rusca danışmağı bilmərrə qədəğan eləsin.

*Yenə səs-küy qalxır, yenə Rüstəm bəy zəngi çalır, camaat sakit olur.*

R ü s t ə m   b ə y (Teymur bəyə). Xub, Teymur bəy, povestkada yazılan voprosları oxu, camaat eşitsin.

T e y m u r   b ə y (papkadan bir kağız çıxardıb oxuyur). Əvvəlinci məsələ: il hesabı təsdiqi məsələsi; ikinci məsələ: məktəb proqramı barəsində; üçüncü məsələ: acların ərzi-halı barəsində; dördüncü məsələ: elmi-ilahi dərsləri barəsində, bunlardır.

R ü s t ə m   b ə y (durur ayağa). Həzərat, il hesabatı barəsində keçən zasedaniyada bir qədər raznoreçiya oldu. Bu da o barədə idi ki, smetanın bir para punktlarında bir qədər təfavüt görsəndi və özgə cür də ola bilməzdi; səbəb bu ki mədaxil oldu, məxaric oldu, onun bəzi yerlərini biz məhz priblizitelno təyin edirik. Kimin bu barədə sözü var, buyursun. Aslan bəy danışacaq.

*Gülbahar diqqət ilə baxır.*

A s l a n   b ə y (durur ayağa). Heç belə deyil, bağışlayasınız. Zakon bu sluçayları tamamən predusmatret eləyibdir. Əgər raznoreçiye elə bir sluçayda oldu ki, onu mədaxil cərgəsində olan punktlar düz gətirmədi, o vədə smetni statyaları o qədər sokratit edirlər ki, il axırında hesab düz gəlir.

*Camaatdan bir neçəsi gülür, bir neçəsi də çəpik çalır. Gülbahar neçə dəfə əsnəyir, bərk yuxusu gəlir; Mirzə Məhəmmədəli və Mirzə Bəxşəli başlarını bulayır.*

R ü s t ə m   b ə y (zəngi çalır). Dəxi bu barədə genə söz danışan varsa, desin.

*Bir səs gəlmir.*

Xub (kağızları aralayır) – İkinci məsələ məktəb proqramı barəsindədir. Məlumdur ki, keçən həftə reviziyonnaya komissiya...

M i r z ə   Z e y n a l. Təftiş komissiyası.

R ü s t ə m   b ə y. Keçən həftə təftiş komissiyası məktəb proqramı barəsində irad tutub ki, guya proqramlara, necə ki, lazımdır, diqqət olunmur və dərslər bir növ süst keçir və ikinci klasda...

M i r z ə   B ə x ş ə l i. İkinci sinifdə.

---

[2] Başa düşmürəm, cənablar, bu nə vəhşilikdir? Qoy kim hansı dili yaxşı bilirsə, o dildə də danışsın. Burada nə var ki?

[3] Cənablar, Allah xətrinə, belə mühakimə etmək olmaz.

R ü s t ə m  b ə y. İkinci sinifdə ədəbiyyat dərsləri nəhayət çətinləşib və bizim öz milli Azərbaycan dilimiz bilmərrə nəzərdən salınıb. Keçən zasedaniyada müəllim cənablarından xahiş olunub ki, bu barədə camaatın arzusuna hörmət qoyuban, məsələni mümkün dərəcədə nəzəri-diqqətə alsınlar. Hüseyn Şahid cənabları danışmaq istəyir.

*Gülbahar qulaq verir.*

H ü s e y n  Ş a h i d (durur ayağa). Möhtərəm əzayi-əncümən həzrətlərinə öz ixlasımı təqdim edib, mətləbin ən ibtidasından bir şəmmə izahat verməyi fərz və qərz bilib, iltimas ediyorum, əfəndim. Arkadaşlar, şimdi həpimiz tanrımızın buyruğu ilə iştə köyümüzdə torpağa borcunu ödəməkdən qaçacaq tək bir kişi olmaz; onu hay cift sürərkən tər olaraq əlimizdən dökmüşüz, yetər!

Z ə h r a  b ə y i m (Gülbahara). Qızım, bu adamlar nə danışırlar?

*Gülbahar cavab vermir, çünki mürgüləyir.*

M i r z ə  M ə h ə m m ə d ə l i (hirsli, camaata). Ay balam, hələ bizi başa salın görək, niyə çəpik çalırsınız?

R ü s t ə m  b ə y (kağızları aralayır). Ağalar, qaldı iki məsələ: biri elmi-ilahi dərsləri barəsində, bir də acların ərizəsi. Elmi-ilahi barəsində uşaqların bir parasının ataları tərəfindən ərizə gəlib ki, məktəbin üçüncü sinfində müəllim cənabları ki, ibarət olsun Mirzə Bəxşəli və mənim kiçik bəradərim Məhəmmədəlidən, oktyabr ayında xüsuf və küsuf barəsində, yəni ayın və günün tutulmağı barəsində bir moizə başlayıblar ki, indi dörd ay olur ki, həman küsuf və xüsuf dərsləri nəinki azalmır, hələ bəlkə 6 ay bundan sonra da qurtarmayacaqdır.

M i r z ə  B ə x ş ə l i. Xeyr, ağa, elə deyil, əfv buyurasınız. İndiki dərslər məhz xüsuf barəsindədir ki, dörd aydır ki, oxunur. O ki, qaldı küsuf dərsləri, bəli, həqdir, bir altı ay da küsuf dərsləri təhsil olunmalıdır.

R ü s t ə m  b ə y (Mirzə Bəxşəliyə, zəng çala-çala). Cənab Mirzə, məni bağışlayasınız, xahiş edirəm sözümü qurtarmamış sözümü kəsməyəsiniz. Bəli, heç eybi yoxdur, danışmaq istəyirsiniz, izahat veriniz. Amma xahiş olunur bəyanatınızı müxtəsər söyləyəsiniz.

M i r z ə  B ə x ş ə l i (durur ayağa və əlində bir yekə, dəridən cildi, köhnə müsəlman kitabı) .

*Gülbahar diqqətlə qulaq asır.*

Əzayi-giramdan üzr istəyirəm ki, zeyldə məruzeyi-mühəqqərim ağ ayani-büzürgüvarın dərdi-sərinə şayəd səbəb ola. Ağama ərz olsun ki, elmi-ilahi dərsləri, elmi-nücum dərsləri, heyət dərsləri və xülasətül hesab dərsləri məktəb proqramlarında, necə ki, şayistə və əlzəmdir, arayişt olunmuyub ki, aya xüsuf və küsuf məsələləri bu saydığımız fünunun hansı birisinin dairəsində təhsil olunasıdır və fövqəzzikr fünun hansı müəllimin öhdəsində və təhti-cavabdehliyindədir.

*Camaatdan və üzvlərdən çoxu mürgüləyir: Zəhrabəyim və Gülbahar da mürgüləyir.*

M i r z ə  B ə x ş ə l i (Mirzə Məhəmmədəliyə). Buyur, ağa növbət sizindir.

M i r z ə  M ə h ə m m ə d ə l i (durur ayağa). Fəsli-nozdəhhüm dər bəyani-küsuf və xüsuf; yəni günün və ayın tutulmağı...

T e y m u r  b ə y. Mənim qanacağıma görə, bu qədər təfsil verməyin lüzumu yoxdur.

M i r z ə  M ə h ə m m ə d ə l i (hirsli və ucadan). Necə yəni lüzumu yoxdur?

*Camaat içinə danışıq düşür; bir neçələri deyir: "Lüzum yoxdur", bir parası deyir: "qoy sözünü desin".*

R ü s t ə m  b ə y (zəngi çalır və bir kağız alır əlinə). Camaat, xahiş olunur acların ərizələrinə qulaq verəsiniz. Ərizə müsəlman cəmiyyəti-xeyriyyəsinə Məşədi Cəfər usta Mehdi oğlu tərəfindən. Ərizədə yazılıb ki, "mən qoca və şikəst adamam və on iki nəfər külfətim var, yomiyyə çörəyinə möhtacıq; cəmiyyəti-xeyriyyədən beş-on manat çörək pulu istəyirik ki, nə qədər canımız sağdır, sizə duaçı olaq".

*Haman ərizə sahibi Məşədi Cəfər yeriyir camaatın içinə və ağlaya-ağlaya pul istəyir.*

R ü s t ə m  b ə y. Ağalar, bu barədə sözü olan danışsın.

T e y m u r  b ə y. Mən elə bilirəm ki, cəmiyyəti-xeyriyyə bu məsələyə indi əl vura bilməz. Səbəb budur ki, keçən iclasda da acların ərizələrinə kifayət verilmədi və verilməməyinin də səbəbi budur ki, cəmiyyətin sandığında olan pulları zapasnoy fonda qoymaq söhbəti ortalığa qoyulubdur.

R ü s t ə m  b ə y. Belə olan surətdə acların ərizələrini bugünkü məclisdə müzakirəyə qoymaq olmayacaq.

*Aclar ağlaşır, Zivər xanım durur gedir. Məşədi Cəfərə bir gümüş pul verir.*

Z i v ə r  x a n ı m. Doğrusu, mənim bu kişiyə yazığım gəlir. Kakoy on jalkiy! İ navernoe qolodnıy.[4]

*Qapıda görsənir Qənbər, Qurban və Zaman. Qurbanın və Zamanın hərəsinin bir əlində uzun çomaq, bir əlində dəstmal bağlaması.*

Q u r b a n (acların ağlamağına diqqət salır və deyir). A balam, niyə ağlayırsınız?

M ə ş ə d i  C ə f ə r. Ay qardaş, vallah, acıq. Üç gündü dilimizə çörək dəyməyib.

*Bunu eşidəndən sonra Qənbər, Qurban və Zaman bağlamanın birini açırlar və üç nəfər acların hərəsinə bir çörək və çörək üstə yağ qoyub verirlər.*

A c l a r (çobanlara). Ay qardaşlar, Allah sizə kömək olsun, Allah atanıza rəhmət eləsin.

Z a m a n. Nuş-can olsun, qardaşlar. Doyunca yeyin. Doymasanız, genə verərik.

Cəmiyyət durur ayağa və acların yeməyinə tamaşa edir. Gülbahar da diqqət ilə baxır çobanlara.

R ü s t ə m  b ə y. Qospoda, zasedaniye obyavlyayu zakrıtım.[5]

# ÜÇÜNCÜ MƏCLİS

*Rüstəm bəyin kabineti. Zəhra bəyim və Gülbahar oturublar öz yerlərində. Qapıda durublar Qənbər, Qurban və Zaman.*

Q ə n b ə r. Xanımlar, biz məəttəl qaldıq, bilmədik bu mal həkimindən qoyunlara dava olacaq, ya yox?!

G ü l b a h a r. Niyə gedib soruşmursan?

Q ə n bə r. Xanımcan, bilmirəm harda olur.

G ü l b a h a r. Rüstəm dadaşım bilər. Niyə tələsirsiniz, gözləyin gəlsin, soruşun.

Q u r b a n. Xanımcan, qoyunlardan nigaranıq.

G ü l b a h a r. İndi nə eləyəcəksən? Qoyun sürüdən yox olanda nə eləyirsiniz?

Q ə n b ə r. Xanımcan, bizim qoyunçuluq bir tərəfdən gözəl peşədi. Həmişə gəzdiyimiz və yaşadığımız yerlər, çəmənlər, laləli və çiçəkli dağlar, daşlar; içdiyimiz nədir? Bulaq suları və pak qoyun südü. Amma bu heyvanın yox olmağı, üzdəniraq, elə bir dərddir ki, elə bil, bir külfətdən bir övlad yox olub.

G ü l b a h a r. Yəni çoxmu dərd eləyirsiniz?

Q ə n b ə r. Xanımcan, elə olur ki, ağlayırıq da; çünki söz bir qoyunun qiymətində deyil ki, üç, ya beş manatdı. Amma deyəndə ki, boz qumral kərə yoxdu, elə bilirik bu boz qumral kərə bizim qardaşımız idi, yainki bir əziz yoldaşımız idi. Xanımcan, and olsun allaha, keçən ay sarı əbrəş kərəni canavar dağıdanda Zaman bir gün axşama kimi tütək çaldı, mən axşama kimi bayatı deyib ağladım. (Qolu ilə gözünün yaşını silir).

*Gülbahar dəsmalını basır gözünə, girir içəri otağa. Rüstəm bəy çöldən girir içəri. Zəhra bəyim də gedir içəri otağa.*

R ü s t ə m  b ə y (Qənbərə). Qənbər, hələ buradasınız?

Q ə n b ə r. A bəy, elə davadan ötrü qaldıq, bilmədik mal həkiminnən qoyunlara dava olacaq, ya olmayacaq?

---

[4] O necə də yazıqdır və yəqin ki, acdır.

[5] Cənablar, iclası bağlı elan edirəm.

R ü s t ə m b ə y. Niyə gedib soruşmursan? Mal həkiminin evi bazar başında, karvansaranın yanında, Hacı Qasım bəyin evindədir. Get hambaldan-zaddan soruş, tap. Məəttəl olmuyun, gedin.

*Qənbər və çobanlar çıxırlar. Rüstəm bəy yazıya məşğul olur. Çöl qapıdan girir içəri Mirzə Məhəmmədəli, dalınca bir hambal. Mirzə Məhəmmədəli gedir kitablarını yığışdırır sandığa ki, versin hambala. Zəhra bəyim, qorxa-qorxa başını qapıdan uzadır içəri və Mirzə Məhəmmədəlinin yığışmağını görəndə, gəlib durur onun yanında.*

Z ə h r a b ə y i m. Bala, bunu hara yığışdırırsan? (Mirzə Məhəmmədəli cavab vermir və kitablarını yığışdırır). Olmaz, olmaz! Deyəsən, buradan köçmək istəyirsən? Qoymanam, qoymanam, özümü öldürrəm! (Qoltuğunu eşələyir, bayazını çıxardır). Olmaz, köçmək olmaz! Siz burda hamınız bir yerdə yazılmısınız, ayrıla bilməzsiniz; yoxsa vallah bağrım çatlar! (Üzünü çöndərir Rüstəm bəyə)). Rüstəm, bala, qoyma getsin. Burada hamınız bir yerdə yazılmısınız, qoymanam ayrılasınız.

*Çöl qapıdan Səməd Vahid, dalınca bir hambal girirlər içəri; Səməd Vahid də gəlir, kitablarını yığışdırır.*

Z ə h r a b ə y i m (Səməd Vahidə). Səməd, bala, sən nə qayırırsan? Niyə bunları yığışdırırsan? Yoxsa sən də köçmək istəyirsən? Buy, evim yıxıldı! Aman Allah, mənim başıma kül ələnsin! Allah, məni öldür, öldür, öldür! (Ağlaya-ağlaya girir içəri).

*Mirzə Məhəmmədəli və Səməd Vahid Zəhra bəyimə qulaq verməyib yığışmaqdadırlar. Bu heyndə çöl qapıdan girir içəri Senzor Mirzə Cəfər bəy, yanında bir nəfər polis məmuru və iki nəfər polis fərraşı. Üç qardaş çəkilib dururlar öz yerlərində, hamballar çəkilir kənara. İçəri otaqdan, qapının arasından Gülbahar baxır və çöl qapıdan Qənbər baxır.*

S e n z o r. Həzərat, hökumətin qərardadı mocibincə biz təyin olunmuşuq ki, burada üç qardaşın, yəni (papkasından bir kağız çıxarıb baxır) Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahidin mənzilini axtaraq, kitabxanalarını müayinə edək, siyahiyə götürək, məzmunlarını bilək və hökumətə çatan bəzi şayiatı təftiş və təhqiq edib, bu barədə bəratülqovl yazaq və hökumətin baş senzorxanasına pişnəhad edib, bizə mühəvvəl olunan məmuriyyəti sədaqətlə yerinə yetirək. Burada olan əşxasdan xahiş olunur ki, nə bir yerə tərpənsinlər və nə də buraya sair bir adam qoysunlar.

R ü s t ə m b ə y. Bəli, nə sözümüz ola bilər.

M i r z ə M ə h ə m m ə d ə l i. İxtiyar sahibisiniz.

S ə m ə d V a h i d. Şayəd belə icab edər.

S e n z o r. Cənab Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahid.... (kağıza baxa-baxa) xahiş edirəm familiyanızı da buyurasınız.

R ü s t ə m b ə y. Rüstəm bəy Əbdüləzimof.

M i r z ə M ə h ə m m ə d ə l i. Mirzə Məhəmmədəli xələfi-mərhum Ağa Əbdüləzim.

S ə m ə d V a h i d. Əbdüləzimzadeyi Səməd Vahid.

S e n z o r. Xub, sizdən gərək pünhan olmaya ki, sizin bir para bədxahlarınız hökumət nəzərində sizi belə qələmə veriblər ki, siz üç qardaş söz bir və həmfikir olmusunuz ki, əvvəla, Rusiya islamlarını Türkiyə dövlətinə tərəf çəkib, ittihadi-müslimin cəmiyyətinə iştirak edəsiniz. Saniyən, axır zamanlarda Azərbaycanda əmələ gələn Hübbi-vətən və Ədəmi-mərkəziyyət firqəsinin amalı yolunda çalışmaqdasınız ki, bir tərəfdən Qafqaz Azərbaycanını, digər tərəfdən İran Azərbaycanını ki, ibarət olsun Təbriz, Tehran, Gilan, Osmanlı və İran Kürdüstanı, Urmu və qeyrilərə bu vilayətləri bir-birinə ilhaq edib, müstəqil Azərbaycan hökuməti əmələ gətirəsiniz və salisən bu fikirdən də uzaq deyilsiz ki, müsavat və hürriyyət əsaslarını kəndli və əhli-kəsəbə içində müntəşir edirsiniz ki, min il yuxuda olan camaat hökumətin əsarət zəncirini qırıb, özləri üçün bir nicat yolu tapsınlar və həmin niyyətlərinizi əmələ gətirmək yolunda lazımi mətbuat cəm eləyib, qələm ilə çalışmaqdasınız. Məhz bu səbəbdən siz üç qardaşın cəmi kitablarını bu saat gərək təftiş edək. Cənab Rüstəm bəy, əvvəl siz öz kitablarınızı nişan veriniz.

*Rüstəm bəy öz kitablarını nişan verir. Senzor bir-bir kitabları çıxardır, açıb baxır və polis məmuru oturub, senzor baxdığı kitabları siyahı edir.*

S e n z o r (rusca da, müsəlmanca da oxuyur):
Slovar russkoqo yazıka – Rus dili lüğəti, bir cild.
Slovar russkoqo yazıka Dalya, 3 toma – rus lüğəti.
Bolşaya ensiklopediya, 2 toma – Rus dilində böyük qamus, iki cild.

*Rüstəm bəyin kitabları qurtarır.*

S e n z o r. Buradakı kitablar tamam oldu. Dəxi bundan savayı bir yanda kitabınız varsa, nişan veriniz.

R ü s t ə m b ə y. Xeyr, dəxi bundan savayı mənim kitabım yoxdur.

S e n z o r. Xub, bunlar cəmisi rus lüğətləridir. Bunlardan bizim üçün bir mətləb hasil olmadı. Bunları yığışdırın qoyun yerinə. Pəs sizin müsəlman kitabınız məgər yoxdur?

R ü s t ə m b ə y. Xeyr, yoxdur.

S e n z o r. Heç biri də?

R ü s t ə m bəy. Heç yarısı da.

S e n z o r (Mirzə Məhəmmədəliyə). Cənab Mirzə Məhəmmədəli, şayəd siz ittihadi-müslimin məşqinə düşübsünüz ki, İran və Rusiya azərbaycanlılarından bir müstəqil hökumət əmələ gətirəsiniz və bu qəsd ilə qardaşlarınız ilə bir ittihad bağlamısınız. Xahiş edirəm, siz də öz kitablarınızı nişan verəsiniz.

M i r z ə M ə h ə m m ə d ə l i (Hər iki əli ilə kitab sandığını nişan verir). Ağa, buyura bilərsiniz, bu da mənim kitablarım.

S e n z o r (bir-bir kitabları alır əlinə, baxır). Xub, bu nədir? Bəli, “Kitab dər bəyani-küsufi-külli”, yəni günün tamam tutulmağının duaları (polis məmuru yazır). “Kitab dər bəyani-əhvəlati-küsufi-cüzi”, yəni günün yarımçıq tutulmağının əhvalatı (polis məmuru yazır). Vəssəlam, dəxi kitabınız yoxdu?

M i r z ə M ə h ə m m ə d ə l i. Xeyr, ağacan, dəxi bunlardan savayı kitabım yoxdur.

S e n z o r. Bağışlayasınız, sizin sənətiniz nədir?

M i r z ə M ə h ə m m ə d ə l i. Bən də xüsuf və küsuf duası yazıram, özüm də cəmiyyəti-xeyriyyədə elmi-ilahi müəllimiyəm.

S e n z o r. Cənab Rüstəm bəy və Mirzə Məhəmmədəli, hökuməti-əliyyənin politikasına xətər yetirən mətləblər sizin ikinizin də kitablarından tapılmadı. Yəqin ki, olsa Səməd Vahid cənablarında olacaq. (Səməd Vahidə). Yəqin ki, sizin kitablarınız bunlardır?

S ə m ə d V a h i d. Bəli, ağa.

S e n z o r (bir kitabı götürub oxuyur) –
Zavallının işi çoqdur zaman bulub gələməz,
Gedib də söyləməmişsə, nə haldasan biləməz.

M i r z ə M ə h ə m m ə d ə l i (öz-özünə). Pəh-pəh, ləzzət apardıq.

S e n z o r. Demək, bu hamısı şeirdi?

S ə m ə d V a h i d. Əvət, həpsi əşardır.

S e n z o r (o biri kitabı götürüb oxuyur) –
Köksündən qalqar, topuqdan salqar,
Kəndini içə saqın, iç çəngələ taqar.
Güc ilə əgər Misri,
Varmı bu pəhləvanların qüsuri.

S e n z o r. Bunlar da, deyəsən, hamısı şeirdi.

S ə m ə d V a h i d. Əvət.

*Mirzə Məhəmmədəli başını bulayır.*

S e n z o r. Bağışlayasınız, pəs sizin sənətiniz nədir?

S ə m ə d V a h i d. Mən özüm də şairəm. Kəndim də cəmiyyəti-xeyriyyə məktəbində elmi-qafiyə dərsi diyorum.

M i r z ə M ə h ə m m ə d ə l i (öz-özünə). Allah bərəkət versin.

S e n z o r (üzünü polis məmuruna və fərraşlara tutub). Xub, biz getməli olduq. (Üç qardaşa) Həzərat, bəndə bir saat bundan əqdəm sizin üçünüzün də barəsində bir özgə xəyalda idim. Amma kitablarınızı görəndən sonra, dəxi indi fikrimi bilmərrə dəyişdim. İndi nə fikirdəyəm, o da qalsın mənim öz yanımda; lakin özümə fərz bilirəm hökumətə ərzi-hal edib sizi ümənayi-dövlət yanında ən sələmət və zərərsiz bəndələr cümləsində hesab edəm. Məni əfv buyurasınız və səlamət qalasınız.

*Senzor, polis məmuru və fərraşlar çıxıb gedirlər.*

R ü s t ə m b ə y, M i r z ə M ə h ə m m ə d ə l i v ə S ə m ə d V a h i d (birdən). Xoş gəldiniz.

*Qardaşlar başlayırlar kitablarını yığışdırmağa. Rüstəm bəy kitablarını şkafa düzdüyü yerdə birdən üzünü çöndərir qardaşlarına və qah-qah çəkib başlayır gülməyə. Mirzə Məhəmmədəli və Səməd Vahid təəccüblə baxırlar Rüstəm bəyə. Bir dəfə də uğunub güləndən sonra Rüstəm bəy qardaşlarına deyir:*

R ü s t ə m b ə y. Hələ indiyə kimi xalq bir şeyi başa düşmürdü. İndiyə kimi xalq deyirdi: mərhəba-Əbdüləzimin oğlanlarına! Maşallah, biri Peterburqda elm təhsil edib, biri İstambulda, biri Nəcəfül-əşrəfdə. Üçü də, maşallah, oxuyub alim olub. Amma bundan sonra ağızlarda söylənəcək ki, haman üç alimlərin biri (Mirzə Məhəmmədəliyə işarə edir) xüsüf-küsuf duası yazır; biri (Səməd Vahidə baxır) məfailün fəilatün; biri də ... (özünə baxır), vallah, mən özüm də heç başa düşmürəm ki, mən nəçiyəm. Qah-qah-qah! (Qah-qah çəkir).

M i r z ə M ə h ə m m ə d ə l i (Rüstəm bəyə). Cənab Rüstəm bəy! Əksər üləma və füzəladan mütəvatir rəvayətdir ki, "əl-qəhqəhətü minəşşeytan" – yəni bilirsən bunun mənası nədir? (Bir az dayanır). Bilmirsən təfsir edim. Bunun mənası budur ki, qah-qah çəkib gülmək şeytan sənətidir (məşğul olur kitablarını yığışdırmağa).

R ü s t ə m b ə y (çığırır). Biədəb!

M i r z ə M ə h ə m m ə d ə l i (çığırır). Biədəb özünsən!

R ü s t ə m b ə y (çığırır). Sənsən!

M i r z ə M ə h ə m m ə d ə l i (çığırır). Sənsən.

S ə m ə d V a h i d (çığırır). Bəradərlərim, nə qovğa?

Z ə h r a b ə y i m girir içəri və qoltuğundan bayazını çıxarıb tutur gah Rüstəm bəyin qabağına, gah Mirzə Məhəmmədəlinin qabağına. Bunlar da Zəhra bəyimi itələyib deyirlər: "Sən də cəhənnəm ol başımızdan!" İkisi də övrətin kitabını tullayırlar, vərəqləri dağılır. G ü l b a h a r və Q ə n b ə r ç o b a n l a r ilə tökülürlər içəri. Mirzə Məhəmmədəli "sənsən!" deyə-deyə çıxıb gedir. Səməd Vahid "nə qovğadır!" deyə-deyə çıxıb gedir. Zivərxanım gəlib yapışır Rüstəm bəyin qolundan, çəkib aparır. Zəhra bəyim yıxılıb bihuş olur. Gülbahar özünü salır arvadın yanına. Qənbər də yavuq gəlib, məəttəl qalır.

*P ə r d ə s a l ı n ı r.*

# DÖRDÜNCÜ MƏCLİS

*Rüstəm bəyin və qardaşlarının haman kabinəsi. Zəhra bəyim azarlı halətində sövkənib yastığa, yanında oturub Gülbahar və yapışır anasının əlindən. Rüstəm bəy öz yerində oturub, kitaba baxır. Səməd Vahid və Mirzə Məhəmmədəli kitablarını yığışdırıb qoyurlar qutuya və az qalıb ki, qurtarsınlar Zəhra bəyim vayıldayır.*

R ü s t ə m b ə y (gəlir durur anasının qabağında). Ana, ay ana! (Zəhra bəyim dinmir. Rüstəm bəy yekə çağırır). Ana! Ana!

Z ə h r a b ə y i m (həzin səs ilə). Nə deyirsən, Rüstəm bala?

R ü s t ə m b ə y. Ana mən sənin yanında müqəssirəm. Mənim günahımdan keç. Dünən səni mən incitdim.

Z ə h r a b ə y i m. Bala, sənin mən qadanı alım. Sənin nə bir günahın var ki, mən sənin günahından keçəm? Sən məni incitməmisən. Sən bircə qardaşlarından ayrı düşmə, mən öləndən sonra da, qəbirdə də sənə duaçı olum, ay Rüstəm bala!

R ü s t ə m b ə y (bir qədər dinmir və sonra). Ana, ay ana, axır sən bəzi işləri bilirsən, bəzisini də bilmirsən. Bizim bir-birimiznən danışığımız məslək üstədir, mübahisəmiz kitab üstədir. Yoxsa sən dediyin söz bir gözəl sözdü. Məsələn, elə mən açığını sənə deyim. Ana, ana, eşidirsən nə deyirəm? Ana, qulaq asırsan, ya yox?

Z ə h r a b ə y i m (həzin səs ilə və güc ilə). Hə, hə, bala, sözünü de, eşidirəm.

R ü s t ə m b ə y. Ana, bax, mən səni lap yaxşı başa salım: nə qədər ki, mən bu kitablara etiqad eləyirəm (öz kitabları tərəfə əlini tutur), Məhəmmədəli də bu kitablara (Mirzə Məhəmmədəlinin tərəfinə əlini uzadır) və Səməd də bu kitablara (Səməd Vahidə tərəf əlini uzadır) etiqad eləyirlər, dəxi biz nə təhər ittihad edib, mehriban yola gedə bilərik?

*Rüstəm bəy yavaş-yavaş uzaqlaşır içəri otağa. Zəhra bəyim dərin ah çəkir, sonra Mirzə Məhəmmədəli gəlib çökür diz ustə anasının qabağında.*

M i r z ə M ə h ə m m ə d ə l i. Ana, məni bağışla, dünən hirsli vaxtımda sənə tərk-ədəblik göstərdim.

Z ə h r a b ə y i m. Bala, ayaqlarının altında ölüm, qardaşlarından ayrılma.

G ü l b a h a r. Dadaş, sən, atanın goru, ayrılma.

M i r z ə M ə h ə m m ə d ə l i. Ana, ay ana, bir qulaq as, gör nə deyirəm. İşin əslkarı bir yerdədir ki, bax, mən səni bu saat başa salım. Bax, bu evdə üç qisim kitab var ki, biz üç qardaş bunlara sitayiş edirik. Bir qismi budur (Rüstəm bəyin kitablarını nişan verir). Bir qismi budur (Səməd Vahidin kitablarını nişan verir). Bir qismi də budur (öz kitablarını nişan verir). Əgər biz bu kitabları bir-birinin yanına qoysaq, diqqətnən baxsaq və zaiqəyə tapşırsaq, baxıb görərik ki, bu üç qisim kitablar bir-birinə o qədər oxşayır, necə ki, məsələn, mən Səmədə oxşayıram, Səməd Rüstəmə oxşayır, Rüstəm bəy də mənə oxşayır. Bax, qoy səni qurtarım; qulaq asırsan, ana, ya yox? Bu kitabların cəmisi əşardı, özü də əşar deyirəm ha! Fikrin özgə yana getməsin. Xoruz səsi eşitməyən əşardı!

S ə m ə d V a h i d. Pəki!

M i r z ə M ə h ə m m ə d ə l i (əlini Rüstəm bəyə sarı tutur). Bu kitabların da cəmisi bilirsən nədir? Bilmirsən, deyim: cəmisi rus lüğətidir. Bu da elə bir cür naxoşluqdur.

*Rüstəm bəy sağ əlini Mirzə Məhəmmədəliyə tərəf atır və gedir çölə.*

O ki, qaldı mənim öz kitablarım (kitablarına tərəf baxır və bir qədər fikrə gedir), bunların biri xüsufdu, biri küsufdu. Di indi, ana, bizə bir tədbir tök, görək biz nə tövr yola gedə bilərik?!

*Zəhra bəyim dərin ah çəkir.*

Ana, sözün yoxdu? Məni bağışla, mən getməliyəm. (Durur, başmaqlarını geyir). Gülbahar, mən hammal göndərəcəyəm, mənim kitab sandığımı və yatacağımı verərsən, gətirsin (çıxıb gedir).

S ə m ə d V a h i d (Zəhra bəyimə tərəf gəlir). Validəm, bənə də bəradərlərim ilə yola getməyi təklif edəcəksən, bəni də əfv et, zira gərək gavur lüğətlərinin (Rüstəm bəyin şkafınaa işarə edir) və gərək fanatik kitablarının (Mirzə Məhəmmədəlinin kitablarına işarə edir) sahibləri ilə bir sırada bulunmaq bəndə üçün qabili-imkan deyil. Bəni əfv et. (Gülbahara) Bənim də kitablarım ardınca hammal gələsidir, ona təslim etməkdə müzayiqə göstərməzsən, zənn ediyorum. (Çıxıb gedir).

*Zəhra bəyim bir qədər fikir eləyir və güc ilə o tərəf-bu tərəfə baxır və Gülbahardan savayı otaqda bir kəsi görmür.*

Z ə h r a b ə y i m. Qızım, bunlar hara getdilər?

G ü l b a h a r. Nə bilim, ana? Çıxıb getdilər.

Z ə h r a  b ə y i m (fikrə gedir). Ürəyim, ürəyim (əlini qoyur ürəyinə) üç yerə bölünə, üç tikə ola, hər tikəsi də bir tərəfə çıxıb gedə (yenə baxır otağa), onda dəxi ürəyim parçalanar, ölərəm. Qızım, pəs mənim ürəyim üç parça olsa, sən nə elərsən?! Qızım, anasız qalarsan (dərin ah çəkir və huşa gedir).

*Gülbahar bir qədər baxır anasına və tez durur ayağa, qaçır qapıya və nə qədər səsi var, çığırır.*

G ü l b a h a r. Səməd, Səməd!... Məhəmmədəli dadaş!... Səməd!...

Q ə n b ə r (*hövlnak girir içəri, dalınca Q u r b a n və Z a m a n. Gülbahar qaçır Qənbərin yanına, yapışır əlindən və çəkə-çəkə gətirir anasının yanına və özü də çökür anasının qabağında, əlini götürür və çağırır).* Ana! Ana!

*Qənbər təəccüb edir və deyir.*

Q ə n bə r. Xanımcan, nə var? Yoxsa xanım bəyim pis haldadır?

*Zəhra bəyim gözlərini açır və baxır Gülbahara və sonra da Qənbərə və güc ilə başını çöndərir və gözü ilə bir şey axtaran kimi çobanlara gözü sataşır.*

G ü l b a h a r. Ana, necəsən?

Z ə h r a  b ə y i m (Qənbərə baxır). Qənbər, sənsən? Hələ getməmisən?

Q ə n b ə r. Xanım bəyim, qulluğunda durmuşam.

G ü l b a h a r. Ana, Qənbər və çobanlar gəliblər sənin kefini xəbər alırlar. (Qənbərə) Qənbər, bir az danış, anamın kefi açılsın.

Z ə h r a  b ə y i m (Qənbərə). Qənbər, bir az danış, danış. Nə olar, danış, qulaq asaq. Niyə danışmırsan? Mən istəyirəm qulaq asam. De görək, indi qoyunların nə qayırır? Deyirdin axı azarlıyırlar.

Q ə n b ə r. Xanımcan, and olsun Allaha, bir dəfə mən özüm təəccüb qaldım. Günorta zamanı idi. Qoyunları çobanlar aparırdılar "Qızlar bulağına". Biz də yoldaşlarımıznan oturmuşduq kəklik təpəsinin yamacında, qoyunlara baxırdıq. Bax, bu qırışmal Zaman da oturmuşdu yanımızda, tütək çalırdı. Bizim qoyunlar da, Zamangilin qoyunları da bulağa sarı getməkdə idi. Birdən Zaman bizə qayıtdı ki, "nə verərsiniz, elə çalım ki, qoyunlar getdikləri yerdə dayanıb, geri qayıtsınlar?" Söz yox, heç kəs inanmadı. Xülasə, nə başınızı ağrıdım, xanımlar, Zaman başladı çalmağa. (Zamana). Ədə, çıxart tütəyini. (Zaman utana-utana tütəyini çıxardır). And olsun sizin əziz canınıza, qoyunlar tütəyin səsini eşidən kimi elə bil ki, bir şeydən ürkdülər. Eləcə getdikləri yerdə dayandılar, qulaqlarını qırpıtdılar. Elə bil, bir şeydən qorxan kimi geri döndülər və quyruqlarını ata-ata, mələşə-mələşə başladılar təpəyə tərəf geri qaçmağa. (Zamana). Ədə, Zaman, çal.

*Zaman başlayır tütəkdə "Çoban – bayatını çalmağa; bir qədər ona baxıb, Qənbər oxuyur.*

Q ə n b ə r.

Biz çobanıq, dağdı, daşdı yerimiz,
Yoldaşımız qoyun-quzu sürümüz,
Dərs almayıb, haqdı-ki, heç birimiz,
Amma zövqü səfalıdı çobanlar,
Qardaşlıqda vəfalıdı çobanlar.

Gözəl olur çöldə çəmənlər, çaylar,
Qışda arandayıq, dağda da yaylar,

Çoban südü sağar, hamıya paylar,
Niyyəti çünki alidir çobanlar,
Qardaşlıqda vəfalıdı çobanlar.

Sürü kəndə dönəndə axşam-səhər,
Qoyun mələr, quzu mələr, hey mələr,
Səsə-küyə düşər, köpəklər hürər,
Billah, zövqü səfalıdı çobanlar,
Qardaşlıqda vəfalıdı çobanlar.

Z a m a n (*tütəyi qoyur cibinə və deyir*). Eh, xanımların canı sağ olsun.

*Çöl qapıdan bir hambal girir içəri.*

H a m b a l. Burdadımı Mirzə Məhəmmədəli ağanın kitabları? Məni göndərib aparam məscid hücrəsinə.

*Gülbahar hambala əli ilə işarə eləyir dinməsin və hambala yavuq gəlib qulağına bir şey pıçıldayır. Hambal çıxıb gedir, sonra gəlir anasının yanına.*

G ü l b a h a r (anasına). Ana, dur səni aparım içəri otağa. Orada uzan, rahat ol.

*Zəhra bəyim hazırlaşır dursun ayağa, bir qədər fikir eləyir və qoltuğunu eşələyib bayazını çıxardır verir Gülbahara və deyir:*

Z ə h r a  b ə y i m. Qızım, bu kitabı al saxla yanında. Qardaşların yola getməyəndə kitabın bir yerində atanın yazısı var, – öz əlinən yazıb, – onu axtar tap, ver qardaşların oxusun. Onu oxusalar, dəxi savaşmazlar. Onu atan öləndən iki gün qabaq öz əlinən yazdı (durur ayağa); əli titrəyə-titrəyə yazdı; elə naxoş ola-ola yazdı. Dedi uşaqlar oxusunlar. Qız, yapış əlimdən, qalxa bilmirəm.

*Zəhra bəyim "vay-vay" eləyə-eləyə durur ayağa, Gülbahar kitabı qoyur qoltuğuna, yapışır anasının əlindən; yavaş-yavaş aparır o biri otağa. Qayıdır geri, kitabı vərəqləyir, bir yerini tapır, diqqətnən oxuyur.*
*İkinci  hambal daxil olur içəri.*

İ k i n c i  h a m b a l. Mən gəlmişəm Səməd Vahidin kitablarını və yatacağını aparam.
G ü l b a h a r. (bir qədər baxır). Bir qədər dur çöldə, bir azdan sonra gəl apar.

*Hambal gedir.*

G ü l b a h a r (bir qədər fikirdən sonra, Qənbərə). Qənbər, bilirsən nə var?
Q ə n b ə r. Buyur, xanımcan.
G ü l b a h a r. Gərək mənə kömək eləyəsən.
Q ə n b ə r. Gözüm üstə, xanımcan, buyur. (Əlini qoyur gözünün üstə).

*Bu heyndə Rüstəm bəy içəri otaqdan başını uzadıb, Qənbəri və çobanları görüb deyir.*

R ü s t ə m  b ə y. Qənbər, sizin burada bir işiniz yoxdur, bu saat buradan rədd olun, bir də sizi mən burada görməyim!

*Qənbər və çobanlar çıxıb gedirlər, Rüstəm bəy də yox olur. Gülbahar gedir Rüstəm bəyin kitab şkafını açır, kitabları bir-bir çıxardır və cildlərini cıra-cıra, vərəqlərini dağıda-dağıda tullayır ortalığa və tullaya-tullaya deyir.*

G ü l b a h a r. Rus lüğəti. Slavyan lüğəti (hambal bu işi görcək yavaşca yox olur. Rüstəm bəyin kitablarını qurtarandan sonra Gülbahar Səməd Vahidin kitablarını haman minval ilə, yəni cırıb dağıda-dağıda atır yerə və ata-ata deyir): Elmi-qafiyə. Vəzni-şer. (Bu kitabları da qurtarandan sonra, Gülbahar gedir Mirzə Məhəmmədəlinin sandığından kitabları yenə bir-bir çıxarır və cıra-cıra tullayır yerə və deyir): Xüsuf. Küsuf. Sonra o tərəf-bu tərəfə baxıb görür hambal yoxdur, gəlir kitabların tikə-parçalarını qucaqlayır və pəncərədən tökür çölə. Qaçır içəri otaqdan neft və spiçka gətirir, kitabların üstünə neft töküb od vurur. Kitablar çöldə alışır və Gülbahar durur otağın ortasında; qoltuğundan anasının kitabını çıxardır, bir səhifəsini açır və diqqət ilə baxır.

*Çöl qapıdan hövlnak daxil olur, Mirzə Məhəmmədəli, Səməd Vahid və dallarınca birinci və ikinci hamballar. İçəri otaqdan hövlnak daxil olurlar Rüstəm bəy, Zivər xanım və bunların dalısınca Zəhra bəyim sürünə-sürünə özünü salır qapının ağzına. Camaat hamısı kitabların yanmağını və Gülbaharın əhvalının dəyişməyini görüb mat qalır. Zəhra bəyim vayıldaya-vayıldaya deyir.*

Z ə h r a b ə y i m. Ax, yazıq canım!

*Qardaşlar gedirlər, pəncərədən kitabların yanmağına baxırlar, sonra çönüb Gülbahara tamaşa edirlər. Gülbahar əlindəki kitabın açıq səhifəsini yuxarı qalxızıb, qardaşlarına tərəf tutub baxır. Ara bir qədər sakit keçir və heç kəs dinmir. Axırda Gülbahar ucadan mütəəssiranə deyir:*

G ü l b a h a r. Qaldı bircə kitab: bu da anamın kitabı!

*Bir qədər hamı sakit durur baxır.*

Budur atam öz əli ilə yazdığı vəsiyyət (oxuyur). Tarixi-hicrinin min iki yüz doxsan dördüncü ilində, rəbiüs-saninin on ikisində, seşənbə günü, sübh əzanından yarım saat keçdikdə yoldaşım Zəhranın cismindən bir parça qopub ayrıldı ki, ibarət olsun Rüstəm balamdan (barmağı ilə Rüstəm bəyə işarə edir; Rüstəm bəy atasının xəttinə diqqət edəndən sonra dəsmalını basır üzünə).

Biçarə övrətin cisminin qalanından genə tarixi-hicrinin min iki yüz doxsan doqquzuncu ilində, ramazanın beşində, pəncşənbə günü, axşamdan üç saat keçdikdə genə bir parça ayrılıb qopdu. Haman gün oğlum Məhəmmədəli anadan oldu (barmağı ilə Mirzə Məhəmmədəliyə işarə edir; Məhəmmədəli də yavuq gəlir və atasının xəttini görür və dəsmalı basır üzünə).

Yazıq Zəhranın qalan cismi genə bir dəfə parçalandı. Bu da vaqe oldu haman tarixin min üç yüz dördüncü ilində, cəmadiəl-əvvəlin on beşində, çaharşənbə günü, günorta zamanı ki, haman gün balamız Səməd dünyaya gəldi (Səməd Vahidə işarə edir; Səməd Vahid dəsmalı basır üzünə).

Bundan da bir neçə il sonra baxtı-qara övrətin qalan yarım canından genə bir parça qopdu ki, adını Gülbahar qoyduq. Bu da vaqe olub haman tarixin min üç yüz onuncu ilində, şəvvalın iyirmi birində, cümə axşamı, sübh vaxtı.

Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın (əlini anasına tərəf tutur) ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da

analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq.

*Gülbahar qurtarcaq anası Zəhra bəyim bihuş oturduğu yerdə yıxılır. Gülbahar kitabı qoyur qoltuq cibinə və gedir oturur pəncərənin qabağında, dizlərini qucaqlayır və baxır çölə tərəf. Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid və Zivər xanım tökülürlər Zəhra bəyimin yanına. Mirzə Məhəmmədəli anasının əllərini soyumuş və can üstə görüb, qalxır durur övrətin başının üstündə və başlayır "fatihə" surəsini oxumağa. Hamı qalxır ayağa. Rüstəm bəy, Səməd Vahid və Zivər xanım dəsmallarını üzlərinə basıb, yavaşca ağlayırlar. Gülbahar mat-mat baxır gah anasına tərəf, gah çölə tərəf.*

M i r z ə  M ə h ə m m ə d ə l i (avaz ilə). Əlhəmdülillahi-rəbbil-aləmin. Ərrəhmanir-rəhim, maliki yövməddin....

*Pərdə salınır və Mirzə Məhəmmədəlinin oxumağını kəsir.*

Tamam.

# Cəfər Cabbarlı
# Oqtay Eloğlu

*(ixtisarla)*

İştirak edənlər:

| | |
|---|---|
| Oqtay Eloğlu | Mazandaranski |
| Firəngiz | Şaqqulu |
| Sevər | Şəkinski |
| Səməd bəy | Dursun |
| Gülgəz | Muxan |
| Hacı Zaman | Elxanlı |
| Aslan bəy | Rüstəm |
| Nadya | Özdəmir |
| Nərgiz | Şvarts |
| Tamara | Moor |
| Xaspolat | |

## İKİNCİ PƏRDƏNIN QISA MƏZMUNu

Aktyorlar göstərdikləri tamaşa barədə qəzetdə dərc olunmuş rəyi bir yerdə oxuyurlar. Rəydən məlum olur ki, Oqtayı əhatə edənlərin əksəriyyətində istedad olmadığı kimi, aktyorluq peşəsinə rəğbət də yoxdur. Tamaşalar yalnız Oqtayın səyi, sonsuz zəhməti hesabına baş tutur.

Oqtayla Səmədin söhbətlərindən aydın olur ki, bu böyük aktyor xalqına xidməti hər şeydən uca tutur, onu milli teatr yaratmaq məqsədindən uzaqlaşdırmaq mümkün deyil.

Firəngiz məhəbbətini Oqtaya etiraf edir. Oqtay onu gözləyən məhrumiyyətdən, yoxsulluqdan dönə-dönə danışır. Firəngiz hər əziyyətə qatlaşmağa hazır olduğunu söyləyir. Oqtay Firəngizin inadkarlığı qarşısında, sevgisini dilə gətirməli olur.

## ÜÇÜNCÜ PƏRDƏ

*Aslanbəyin qəbul otağı.*

Na d y a. Axı sən məktubu kitabın arasına neçin qoyursan ki, Aslan bəy tapsın?

F i r ə n g i z. Ox, N a d y a, həmişə qoynumda gəzdirirdim. Bircə dünən...

N a d y a. Hər halda Aslan bəy bu gün Oqtayı çağırtdırmış. Deyir əgər çağırtdırsam, dedikləri sözlərin hamısını bir-bir Oqtayın üzünə deməlidir. Özü də qapının arxasından qulaq asacaqdır.

Fi r ə n g i z. Nadya, sən o dəqiqəni görmüş olsaydın, özün də razı olmazdın. Of, dediyim sözlər! Hətta onunla əbədi göz yaşlarında belə, razı olduğuma söz verdim. İndi onların hamısını danmaq.

N a d y a. Həyatın coşub düşüncəni, iradəni ehtiraslara təslim etdiyi vaxtlar olur. Belə bir halda, sən də demişsən. İndi anlayır, çəkilirsən.

F i r ə n g i z. Nadya! Mən onu görməzdən, Allahımdan ölüm istərdim. Onun əzici baxışları altında alçaq bir yalançı kimi qızarmaq, səni oynadırdım, zarafatca dedim, bilməm nələr-nələr söyləmək! Axı mən də bir insanam. Axı onun da ürəyi vardır.

N a d y a. Sanki hər sözün bir qanun imiş. Beş aydır onu görmürsən. İki kəlmə söylərsən. Bir də heç bir zaman ki, o səni görməyəcəkdir. Bu qısa müddətdə zəhər də olsa...

F i r ə n g i z. Vallah, zəhər tapsaydım içər, bu qədər tərəddüd etməzdim.

N a d y a. Yaxşı ki, hələ atan bilmir. Yoxsa, bizi də bu evdən köçürər, öldürər: məni də, atamı da, hamısını öldürər.

F i r ə n g i z. Axı bunların hamısı neçindir? Sanki yoxsullarla yaşamaq olmaz. Altunsuz, üzüksüz... Olsa yaxşıdır, fəqət olmayanda qiyamət olmaz ki...

N a d y a. Onu sən atandan, qardaşından soruş.

F i r ə n g i z. Vallah, ürək sevən dünyalardan yaxşıdır. Sanki o, Danyar bəydən əskikdir. Of! Mən onunla daha xoşbəxt ola bilərdim.

N a d y a. Fəqət çarə nədir? Sən yenə bu paltarı dəyişmişsən. Axı qardaşın dedi.

F i r ə n g i z. Ox! O məni belə görmək istəyirdi. Tikdirdim. Bir daha görüşmədik. Barı bu gün, bu son görüşümüzdə... Allah, neçin məni qız yaratdın?

G ü l g ə z *(girir*). Ay qız, atan gəlir. Bilmirəm bu boynunu Allah sındırmış yenə nə eşidib. Bir çanaq qanı götürüb başına gəzdirir. Gəl, evlərin birində gizlən. Gəldi Nadya gilin şeylərini tökdü həyətin ortasına.

H a c ı Z a m a n. Allaha and olsun, kəfəni sallam boynuma, cahad elərəm. Bütün dünyanı qıraram.

F i r ə n g i z. Getməyəcəyəm! Qoy gəlsin biryolluq öldürsün, qurtarım.

N a d y a. Oy! Mən qorxuram.

G ü l g ə z. Gəl sən Allah, bizi qana salma! Səni axtarır.

*Firəngizi aparırlar. Hacı Zaman daxil olur.*

H a c ı Z a m a n. Hanı o? Bəs sən qız olasan... Hanı o küçüyün balası?

G ü l g ə z. A kişi, evdə qonaq var. Nişan gətirmişlər. İndi nə olmuş ki, Allah eləməmişkən...

H a c ı Z a m a n. Tfu, sizin zatınıza, namussuz balası, namussuzlar! 60 yaşım var, adıma güldən ağır bir söz deyilməyib. Aləmə mən gülmüşəm... İndi siz məni biabır edirsiniz! Mənim qızım teatrlara, oyunbazxanalara getsin? Xalq mənə tənə vursun, itin balası, it! Dağıdaram beynini! Qanlı Rüstəm kimi hamınızı qıraram.

G ü l g ə z (*qorxaraq*). A kişi, vallah, mən yazığın heç bir şeydən xəbəri yoxdur. Hər nə olsa, yenə qardaşı bilər.

H a c ı Z a m a n. Elə o namussuz qardaş deyilmi mənim başıma bu işləri gətirən! Gəldi dayısı, oxusun, oxusun. Bir ətək pul qoydum, sonra özü gəldi, qız da oxusun. Sən də şeytan kimi girdin mənim qəlbimə. Filankəsin qızı oxudu, filan oldu... Fit, fit, fit, fit götürdü iki tari kəssəlatı da soxdu mənim evimə ki, bunlar da ona tərbiyə versinlər. Az qalıb mənim boynuma bir bürünc xaç da salasınız.

G ü l g ə z. A kişi, oxumağın sənə... özün deyirsən ki, divan-dərədə hörməti var, sözü keçir...

H a c ı Z a m a n. O kişidir, cəhənnəmə! Yoxsa qız xeylağı, oxusun də, bir abır-həya ilə... yoxsa başıaçıq gəzmək – belə də namussuzluq olar! Yox! Görünür, mən əvvəlki adam deyiləm. Mənim kişiliyim qalmayıb. Bunların hamısının səbəbi sənsən, mürtədin qızı, mürtəd. (*Gülgəzə hücum edirkən.*)

A s l a n. Yenə nə olmuş! Evdə qonaq var! Bu nə vurhavurdur. Nə var?

H a c ı Z a m a n. Zəhrimar var, dərd var, zəqqum var, kafir oğlu kafir! Mənim qızımı urus evinə soxdunuz, bəs deyil, indi də qızımın sorağı bir para, bir para adamlar kimi qəmədiyələrdən gəlir? Az qalıb ki, mənim boynuma da bir xaç salıb, başıma da bir ləçək bağlayasınız! Salaram kəfəni boynuma, cahad elərəm, qıraram bütün dünyanı...

A s l a n. İndi nə var ki, teatr fəna bir şey deyil. Bir məktəb kimidir. Xalq oradan ibrət alır. Hətta məsciddən də müqəddəs bir yerdir.

H a c ı Z a m a n. Tfu, sənin zatına! Daha sənə sözüm yoxdur!

A s l a n. Bəli, bəli! Oradakı sözlər axundların sözündən daha yaxşıdır. Xalq görər, adam öldürməz...

H a c ı Z a m a n. Deməli, oradakı oyunbazlar ki, hətta deyirlər arvad tumanı geyirlər, o namussuzlar yetmiş il Allah kəlamı oxumuş axundlardan yaxşıdır, hə? Qız xeylağı gedib, o namussuz kişilərin rəngli üzlərinə baxsın...

A s l a n. Arvad da kişi kimi bir insandır. Biz analarımızı çarşaf içində cəhalətdə saxlamışıq. Başqa millətlər... Bir də axı mən də bacımı gizlətsəm, sabah qlava, qubernator və başqaları mənə də bir vəhşi deyərlər, gülərlər. Mən bir qapıdan girə bilmərəm...

H a c ı Z a m a n. Vay-vay! Kül mənim başıma! Ey yeri, göyü yaradan Pərvərdigar! Ya məni öldür, bu günləri görməyim, ya da... Baba, canım-gözüm, nə istəyirsən? Sən daha mənim oğlum deyilsən! Verin, mənim qızımın əlini mənim əlimə, mən köçüb gedəcəyəm Kərbəlaya. (*Gedərkən.*) Daha mən təngə gəldim. Dinim, məzhəbim getdi. Namusum getdi. Gəl, yığışdır mənim müxəllifatımı. (Gedir.)

G ü l g ə z. Ay balam, sən də deyirsən, məscid, Axund... Bunu bir dil ilə... Bir tərəfə baxanda doğru deyir...

A s l a n. Bütün şəhər məni ağıllı bilir. Çlen seçib. Bircə siz... odur də. Qızın gedib heç bir yerdə hörməti olmayan itin birisinə məktub yazır...

G ü l g ə z. Sən onu aparmasaydın...

A s l a n. Yaxşı, yenə evdə otur. Qlava-filan buradadır. Bu dikarka paltarı ilə bayıra çıxma, ayıbdır.

*Gülgəz başını tərpədərək gedir.*

N a d y a. Aslan bəy! Firəngiz ağlayır, yalvarır ki, mümkünsə, məni onunla görüşdürməsin.

A s l a n. Axı onun bəhanəsini kəsmək üçün əlimdə bir fakt olmalıdır. Siz ona anladın ki, mən abşestvenni adamam. Sabah bir ziyafət düzəltdim, bir ziyalı kimi bacım olmalı, əri də olmalıdır. Hansı yaxşıdır: desəm bacımın əri rodovoy dvoryanın, uprava əzası, mejdunarodnıy kommersant Danyar bəy Qalaçıxanov və ya onda nə deyim, kakoy-to bədbəxt nictojnıy, jalkiy, razvratnıy aktyor ki, heç bir xeyrə-şərə buraxmırlar. İt dəftərində də adı yoxdur.

N a d y a. Hamısını demişəm. Ancaq sözlərini danmaqdan utanır.

A s l a n. Mən onu sürgün elətdirərəm. Onu da tapşıraram atasına.

N a d y a. Oy, yox! Deyir söylərəm, ancaq ona heç bir şey etməsin, özümü öldürərəm.

A s l a n. Mən onun üçün pul hazırlamışam, razı salaram. Hər halda özüm qapının arxasından qulaq asacağam. Bir də, bu gün o gələcək. Danyar bəy də nişan göndərmiş. Stepan Vasilyeviç-filan da gəlmiş. Sizdə nişan gəlirkən qız özü məclisə gəlirmi? Gəlirsə, söyləyin, o paltarları dəyişib ruscaları geyinsin. Ayıbdır. Siz özünüz onunla gəlib qaydanı öyrədərsiniz. (*N a d y a gedir, telefon zəng çalır.)* Danyar bəy! Aha, Stepan Vasilyeviç dedi. Buradadırlar. (*O q t a y girir*.) Deyir Danyar bəy abşestvenni işlərdə sənin üçün böyük aporadır, hə, dedi ki, Danyar bəy sənin üstündə müharibə açmışdı ki, Aslan bəy mütləqa seçilməlidir. Keçmiş, hə! Çox razıyam! Axşam sizə? Ziyafət! Yaxşı! Avtomobili göndərərsən. Yaxşı, sağ ol!

A s l a n. Oturun! Sizə belə soyuq dəyər. (*Sükut.*) Çalışırsınız, deyilmi? Deyirlər, çox gözəl işləyirsiniz. Teatr yaxşı şeydir.

O q t a y. Vəzifəmiz və bacarığımız budur.

A s l a n. Neçin! Daha da tərəqqi edər.

O q t a y. Tərəqqi etməmək – yaşamamaq deməkdir. İndilik səhnəmiz gəncdir. Aktyor yox, əsər yox, hər kəsin köməyi olursa, bir şey yaratmaq olar.

A s l a n. Təbii, kömək etmək hər kəsin borcudur. Çünki teatr bir məktəbdir.

O q t a y. Teatra bir məktəb, bəlkə də, demək olur. Fəqət bir sənət məbədi kimi o daha yüksəkdir. Nə isə...

A s l a n. E, iş burasındadır ki, mənim əlimə bir məktub keçmiş ki, altında siz imza etmiş və e... bacıma göndərmişsiniz...

O q t a y. Bəli, yazmışam!

A s l a n. O məktubdan görünür ki, guya o da sizə məktublar yazmış. Onları lütfən mənə verərmisiniz?

O q t a y. Yox!

A s l a n. Neçin?

O q t a y. Çünki nə sizədir, nə də sizdən.

A s l a n. Siz mənim qardaşlıq haqqımı unutmayın.

O q t a y. Hər halda o haqqınız mənə qarşı deyildir.

A s l a n. Mən bilirəm ki, ən sonda siz məndən razı qalacaqsınız. Fəqət...

O q t a y. Məktub yiyəsi hürriyyəti-nisvançı bir adamın bacısıdır – bu bir, lüzum görülərsə, özü söyləyə bilər – bu iki.

A s l a n. Hürriyyəti-nisvan təcrübəsiz bir qızın... Hər halda mən avamlar kimi tapança ilə danışmıram. Fəqət bir ziyalı kimi sizi məhkəməyə cəlb edər, Sibirə göndərə bilərəm.

O q t a y. Məni qorxuda bilməzsiniz. Başqa sözünüz varsa, söyləyin.

A s l a n. Qorxmayırsınız, amma gizlədirsiniz. Bu nə deməkdir?

O q t a y. Bu, o deməkdir ki, könüllər sevilirkən dəllallar susmalıdırlar. Onlara lüzum yoxdur.

A s l a n. Mən təkrar edirəm ki, siz mənə hər bir şeyi söyləməlisiniz.

O q t a y. Lüzum görülərsə, özü söyləyə bilər.

A s l a n. O sizə heç bir şey deməmiş. Siz bir naxal kimi ona rahatlıq vermirsiniz.

O q t a y. Aslan bəy, mən sizinlə çox görüşməmiş, danışmamışam. Çünki siz böyük adamlar, biz isə zəhmətinə qarşı hər kəsdən təhqir görən zavallı, əxlaqsız aktyorlar! Fəqət eşitdiklərimdən bilirdim ki, siz çinovnikdən başqa bir şey deyilsiniz.

A s l a n. Hər halda bir çinovnik.

O q t a y. Şübhəsiz, bu sözlərlə iftixar edə bilərsiniz. Fəqət məncə, onun mənası bilirsinizmi nədir? Bir heç!

A s l a n. Mən sabah qubernatora müraciət edər, sizi həbs etdirər, sürgün etdirərəm. Siz məni yaxşı tarnıyırsınız! Mən uprava əzası...

O q t a y. Mən sabah da söylərəm ki, sizin mənim üçün bir məna və əhəmiyyətiniz varsa, o da ancaq bir heç! Nə az, nə çox!

A s l a n. Çox gözəl, görərik. Gedə bilərsiniz. Bir də mənim bacımın adını çəksəniz, bütün Avropaya...

O q t a y. Mən avropalı deyiləm, olmaq da istəmirəm. İnsan könlü kimsənin qəyyumluğunu qəbul etməz.

A s l a n. O sizi tanımaq istəmirkən, aldadaraq...

O q t a y. Yalan deyirsiniz! Mən bunu özündən eşitmək istərdim.

A s l a n. Mən avam, fanatik bir kəndli deyiləm. Bir ziyalı kimi çağıra bilərəm. Fəqət sizi qızartmaq istəmirəm.

O q t a y. Kimin daha çox qızaracağı şübhəlidir.

A s l a n. Çox yaxşı. (*Gedir, F i r ə n g i z çıxır. Uzun bir sükutdan sonra.)*

O q t a y. Firəngiz! Söylə, yavrum, indi artıq mənim bütün gələcəyim, varlığım, yoxluğum sənə, sənin hər bir sözünə bağlıdır. İndi sən mənim taleyimin hakimisən. Son söz sənindir. Yavrum, söylə!

F i r ə n g i z. Oqtay! Mən sizə göndərdiyim məktubların lütfən qaytarılmasını rica edərdim.

O q t a y. Zatən, bu cansız kağız parçalarının heç bir əhəmiyyəti yox! Onlarla azad bir könül zorlanmaz. Fəqət neçin?

F i r ə n g i z. Siz mənim sizə qarşı səmimiyyətimi başqa cür düşünürsünüz.

O q t a y (*diksinərək və getdikcə sinirlənərək*). Başqa cürmü?.. O... başqa cür... nə cür?

F i r ə n g i z. Mən, adətən, bir aktyor kimi, bir sənətkar kimi sizi sevirdim. Fəqət bu, kimsəyə heç bir şey üçün haqq verməz.

O q t a y (*sinirlənərək*). Haqq verməz. Bəli, bəli! Sonra? Bir aktyor kimi sevirsiniz, sonra?

F i r ə n g i z. Siz özünüz deyirdiniz və bilirsiniz ki, rus aktyorlarına hər gün yüzlərcə qızlar kağız yazırlar. Bu, o demək deyil ki, hamısı onu başqa cür sevir.

O q t a y. Firəngiz! Firəngiz! Axı bir mənə anlat ki, sən nəsən, nə? Allah eşqinə anlat ki, bu qanlı komediyaların, bu gülünc faciələrin, bu müdhiş müəmmaların əsil mənası nədir, nə? Zavallı ürəkləri telbətel didib parçalayan bu məhzun baxışlar, tam üç il sanki ilahi bir eşqin gözəlliklərini oxşayan xəyali mahnılar, sarsılmaz qüvvətlər sarsıdan, yorğun qolları qüvvətləndirən bu dadlı ümidlər, bir qızın yanaqlarını öpən, qucan bu məsum qızartılar, bu qızartıları öpən zəif göz yaşları, bu iztirablar, üzüntülər, hamısı qanlı bir əyləncə, qara bir yalan, bir oyuncaq, bir cəhənnəm, hamısı bir aktrisanın səhnədə göstərdiyi süni hərəkətlərindənmi ibarət idi?

F i r ə n g i z. Siz həmişə deyirdiniz ki, orada heç bir şey həqiqət deyil! Sözlər, hərəkətlər, eşqlər, hətta insanlar belə süni olduğunu, hətta özünüz belə göründüyünüz kimi olmadığınızı demirdinizmi? Neçin bircə mənim sözlərim süni olmasın, həqiqət düşünülsün?

O q t a y. Süni! Orada hər şey süni, fəqət mənim ürəyim, o, süni deyildi! O, yüksək bir ideal, böyük, pak bir eşqlə çarpırdı. Fəqət sən! Canlı bir insanı taxta bir oyuncaq kimi oynatmaq, sevinci yazıq bir ürəyi saxsı bir kukla kimi atıb-tutmaq, çamurlara çırpıb tikə-tikə parçalamaq! Mənim taleyim, həyatım, gələcəyimlə yırtıcı pələnglər quzularla etdiyi kimi əylənmək, gülmək! Yox, yox! Sən o zaman süni deyildin! Ey uca Pərvərdigarım! Yox, yox, ey kobud və anlaşılmaz sənətkar! Bu gözlər ki, bir barmaq sümüyün arxasından, cəhənnəm kimi coşan mənəvi bir həyatı görmürsə, neçin yaratdın? Ox, neçin mən o zaman Karlın bıçağilə bu köksü parçalayıb da həqiqəti kəsdirmədim. Həqiqət! Ha-ha! And içirəm onun yoxluğuna ki, bu gündən onu axtaracaq, varsa, tapacağam.

A s l a n (*çıxır*). E... e... məsələ Aydındır! Şübhəsiz siz yanılmışsınız. Fəqət utanmayın! Gənclikdir, hər halda xidmətiniz üçün sizi sevərik. E... e... Eşitdim, maddi cəhətcə... Hə, alın. (*Ona bir konvert verir.*) Və həmişə də mənim yardımıma əmin ola bilərsiniz. Mən bir ziyalıyam...

O q t a y (*pulları alaraq*). Bəli! Budur səbəb, bu! Otuzillik dərsində həndəsədən başqa bir şey öyrənməyən, dilsiz-ağızsız qoyunlar kimi həyata yuvarlanmış, cansız, duyğusuz, bir yığın əski parçalarına tapındıran, yüksək bir

eşqi alçaq bir oyuncağa çevirən, üç ildə iki söz deməkdən utanan məsum bir yavrunu qrammafonlar kimi söylədən budur, bu! Düşünən beyinlər, çarpınan ürəklər bunlara satılır. Fəqət neçin? Bəli, mənim pulum yox, altunum yox, fəqət bunlara qarşı mənəvi bir varlığım, döyünən ürəyim, yorulmaz qollarım, sarsılmaz qüvvətim var idi. Mən bir aslan kimi çarpışarkən bir yırtıcı çıxdı da, onların hamısını çeynədi, qırdı, tökdü, tapdadı. İndi mən bu sarsılmış qüvvət, bu sönük ruh, ölgün ürək ilə nə edə biləcəyəm, nə? Fəqət yeriyəcəyəm. Həm də qarşımda bir yol qalmış ki, o da intiqam!

A s l a n. Siz kimdən intiqam alacaqsınız?

O q t a y. Hər halda intiqam sizdən, cansız, duyğusuz, varatnikli odun parçalarından olmayacaqdır. Siz bu intiqam hədəfindən çox aşağısınız. Sizdən mühit özü intiqam alacaqdır. Çünki siz bir heçsiniz ki, məqsədiniz mənsəb, diləyiniz pul, işləriniz də, özgələrdən meymunlar kimi kobudcasına alınmış bir moda! Fəqət mühit irəliləyir. Çəkməz çox zaman ki, taleyi ilə oynadığınız bu zavallı xalq özü əməlpərvər gənclər, səmimi idealçılar, böyük qəhrəmanlar, mübarizlər yetirəcək, mühit sizə irəliləyəcək və gərəksiz əsgi parçaları kimi işıqlıqda qaranlıqlar, aydınlıqda kölgələr deyə, diri ikən tarixin arxivlərinə atacaqdır.

A s l a n. Siz aydın demirsiniz, siz kimdən intiqam alacaqsınız?

O q t a y. Kimdən? Özümdən, öz eşqimdən, öz taleyimdən, öz idealımdan, öz tanrımdan, həyatdan, mühitdən, gələcəkdən, həqiqətin yoxluğundan! Mən o olacağam ki, bundan sonra ola biləcəyəm. Ola biləcəyəm və olacağam bir səfil. Həm də sadə bir səfil yox, səfillər padşahı! Budur mənim intiqamım!

Əlindəki pulları bütün qüvvətilə Aslan bəyin üzünə çırpıb, son bir baxışla gözlərini yerə dikmiş Firəngizi süzərək, dönüb gedir. Nadya və Aslan arxasınca çıxır, Firəngiz qapıya yaxınlaşıb dayanır və məhzun-məhzun baxırkən, içəridən oxuyurlar.

S ə s:

Mən aşıq neylim sənə,
Düşübdür meylim sənə,
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neylim sənə?
Balam ağrını alım...

*Firəngiz baxır, birdən üzünü örtüb bərkdən ağlayaraq, divan üzərinə atılır və boğulurcasına ağlayırkən.*

*Pərdə*

# DÖRDÜNCÜ PƏRDƏ

Qarlı bir qış gecəsi. Səhnə soldan ölgün, hisli və çirkin bir meyxananı, sağda isə qaranlıq bir küçəni təsvir edir. Meyxanada O q t a y səfil, solğun bir qiyafədə, başını miz üzərinə qoymuş, sanki yatmışdır. Ötədən gələn ara-sıra sərxoş gülüşlər, içəridə kefli bir dəstənin olduğunu anladır. Küçədə S e v ə r və ikinci d i l ə n ç i bir qadın oturmuşlar.

S e v ə r (*küçədən keçən bir nəfərə*). Allah eşqinə, qardaşlar! Yazığam, acam, kömək edin! (*Yolçu maraqlanmadan keçir.)* Ondan sonra yazıq qardaşımı buradan sürgün edirlər. İndi 10 ildir ki, göndərilmişdir. O zaman mən 5-6 yaşlarında çocuq idim. Gedərkən məni və hər bir şeyimizi dayıma tapşırır ki, tədriclə satıb məni saxlasın. O da bir-iki il məni saxladı, evimizi satdı, hamısını dağıtdı, öldü, getdi. Ondan sonra mən küçələrdə qaldım. Həmin F i r ə n g i z gəlib məni tapdı, ərindən gizlin həmişə mənə kömək edirdi. Bəzən yazıq biixtiyar ağlayaraq, üzümdən öpüb deyirdi: Ox, Sevər! Mən sənin qardaşını sevirdim. Hər ikimiz bədbəxt olduq. Sonra əri onu çıxartdı, mən də qulluqçu durdum, indi bir neçə aydır ki, xəstələndim, qovdular. Ac, səfil-sərgərdan küçələri dolaşıram. İndi də ara-sıra küçələrdə adamlar O q t a y E l o ğ l u yaxşı oynayırmış, hayıf ki, sürgün etmişlər deyə, danışırlar. Ox, mən yazıq qardaşımdan, bəlkə, bir xəbər öyrəndim deyə, saatlarla arxalarınca yüyürür, qardaşım barədə belə gözəl sözlər danışdıqları üçün onları sevirəm. Fəqət heyhat!

S ə m ə d və X a s p o l a t çıxırlar.

S e v ə r. Qardaşlar, acam, kömək edin! (*Meyxanaya girirlər.*) Sanki insanların ürəyi daşdır. Gündüz utanır, bayıra çıxmıram, iki gündür acam. (*Gedirlər.)*

X a s p o l a t. Siz o vaxt dost idiniz. Olsa-olsa siz ona təsir edə bilərsiniz. Fəqət çətin! Bax, buradadır, görürsünüzmü? İki gündür sizi axtarıram.

S ə m ə d. Doğrudanmı, bu odur? Adı dillərdə dastan kimi gəzən, bir zamanlar Azərbaycan səhnəsini titrədən Oqtay Eloğlu budurmu? Ola bilməz! Mən onu oyadacağam.

X a s p o l a t. Yox, yox, Səməd bəy, başqa çarəsi yoxdur. İndi meyxanəni bağlayacaqlar, sərxoş çıxacaq, dediyim kimi təqib edərik, zorla bir arabaya, oradan da bir evə. İki gün dustaq, ayılsın, bəlkə, ayıqlıqda razı edə bildik. (*Muxana*) O günkü çalıb oynayan qaraçılar gəlməmişlərmi? Şərab ver!

M u x a n. Yenə gəlmişlər. Söylərəm gəlib burada çalarlar.

X a s p o l a t. Üç gün əvvəl buradan keçirkən onu gördüm, tanıdım. Üç gündür, hər gün gəlirəm, getmərəm deyir ki, getmərəm. Nə qədər pul vəd etdim, nə qədər pul tökdüm, olmadı. Mən bir də bu süni həyatın içinə girmərəm, həqiqət axtarıram deyə, çıxıb gedir.

S ə m ə d. Yaxşı, bu 10 ildə harada imiş?

X a s p o l a t. O gündən ki, qubernatoru təhqir etdiyi üçün sürgün ediblər, bu gedir, Türküstanda hökumət əleyhinə çalışdığı üçün, tutub Sibirə göndərirlər. Dörd-beş ildən sonra çıxır, yenidən həbs edirlər, yenə buraxırlar. Ötəyə-bəriyə...

İnqilabdan sonra azadlıq alır, hətta böyük bir vəzifə təklif edirlər, mən bəşəriyyətə ayıq baxa bilmərəm, mən səfillər yurdunun padşahıyam, deyə getmir. Özü kimi krımlı bir yoldaşı var, ondan öyrəndim.

S ə m ə d. Getməz, canım! Hər kəs böyümək istər, amma bu... yaxşı, nə vaxt gəlib?

X a s p o l a t. Üç-dörd gündür. Onu da yetənə yetmiş, yetməyənə bir daş atmış. Nə isə, yazıq çox bəlalar çəkmişdir.

S ə m ə d. Burada hansı evdə olur? Onun bir bacısı var idi.

X a s p o l a t. Bacısını bilmirəm, özünü öyrənmişəm. Buradan çıxdı, təqib etdim, yol üzərindəki yanmış xarabalıq nədir, oraya getdi. Bir qədər oturdu, düşündü, düşündü, axırda bir kərpic tapıb başının altına qoydu, yatdı.

S ə m ə d. Bu soyuq, bu qar, bu qiyamətdə?

X a s p o l a t. Bəli, bu soyuqda! Yalvardım, getmədi. Fəqət onu əldən buraxmaram. Bu saat onun hər tükü bir qızıldır. Siz o zaman onunla dost idiniz, fəqət mən əvvəlləri aktyor, sonra antreprenyor, indi də teatr müdiri. Xalqla daim təmasdayam. Bilirəm, onun adı bir sənət simvolu kimi olmuşdur. Görənlər görmüş, görməyənlər eşitmiş, danışmış. Bu 10 ildə adı dildən-dilə gəzmiş, nəhayət, o qədər böyümüş ki, bu artıq bir məsəl, bir hekayə, bir ideal olmuşdur.

S ə m ə d. Mən o vaxtlar çox fikir verməzdim.

X a s p o l a t. Ondan sonra ikinci Oqtay yetişməmişdir. Səhnəmiz varlığını o zavallıya borcludur. İndiki baş rejissorumuz Şəkinski ki, bayaq Oqtayı bəyənmirdi, bilirmisiniz, bu yazıq onun üçün nə qədər əmək sərf etmişdir. Gətirmiş, öyrətmiş. Onda bir qüvvət var idi ki, gələn artıq qaça bilməzdi. Hələ xalq üçün. O, teatrımızın indiki parlaq halını, salonlarını, onu rəngarəng çiçəklərlə bəzəyən Azərbaycan xanımlarını, teatrlarımızın tərəqqisini görəcək olarsa... axı o bu teatrın anasıdır.

S ə m ə d. Görəsən, indi də əvvəlki kimi oynaya bilərmi?

X a s p o l a t. Bilər, ancaq ayıq saxlaya bilərsək. Oynamazsa da, bir elan verildimi, xalq, adı dillərdə dastan kimi gəzər, bu adamı görmək üçün qapıları qıracaqdır. Həm də düşünmüşəm, ilk oyun Şillerin "Qaçaqlar". Həm bir az da beynəlmiləl. Bütün əcnəbi teatrlarından nümayəndələr çağıracağam, gəlsinlər, görsünlər, azərbaycanlılar Şilleri necə anlayırlar. Biletlərin də qiymətini yüksəldəcəyəm. Heç olmazsa bir gecə...

S ə m ə d. Yox, yox, razı edərəm. Amma kim bilir. O qədər nəhsdir ki! Yazığı bədbəxt etdilər, axtarsan özü də...

X a s p o l a t. O vaxtlar o bir qızla tanış idi. Mən o qızı çox görmüşdüm.

S ə m ə d. Mən bu işin içində idim. Özü həmişə mənə söylərdi. Qəribədir. Deyir, o qız ilk əvvəl xalqdan ayrılıb, mənə çiçək gətirdi. Mənə elə gəlirdi ki, xalqım artıq oyanmış və F i r ə n g i z bütün bir xalqdır ki, gəlib məni təqdir edir. Əvvəlləri, deyir, onu belə ictimai bir hiss ilə sevirkən, getdikcə bu duyğu xüsusi bir eşqə çevrildi.

X a s p o l a t. O zaman açıq gəzən bir-iki nəfər idi. İndi yüzlərlə.

S ə m ə d. Bilirsinizmi, qız da onu sevirdi. O da qəribədir. Deyir ki, ilk əvvəl bunu gördüm, sevindim. Sabah bizim də teatrımız, aktyorumuz var deyə, məktəbdə kimsəyə rahatlıq vermədim. O sanki mənim bütün bu iftixarım üçün bir istinadgah idi. Onu başqasına verdilər. O da bu yazığın son örpəyinədək qumara uduzub, axırda çıxartdı, başqa zəngin bir qadın aldı. O indi azad bir qadındır. O gün mənə deyir ki, Səməd bəy, mən onu sevirdim. Ondan sonra onun xatirəsilə ağlamadığım, şən və sevinc bir ziyafət, bir əyləncə xatırlamıram. O da, zavallı, ömründə böyük faciələr keçirmiş! İndi Oqtayın burada olduğunu bilərsə...

*Qaraçılar çıxır. Çalır, oxuyur, oynayırlar.*

O q t a y (*başını qaldıraraq*). Ey, onlar nə çalırlar?

M u x a n. Bah, nə çalırlar! Adətən çalırlar.

O q t a y. Səsini kəs! Degilən, səfillər padşahı əmr edir ki, bundan sonra süni şeylər çalmasınlar, bir həqiqət varsa, çalsınlar, yoxsa, sussunlar! Eşidirsənmi?

M u x a n. Nə həqiqət? Bah!..

O q t a y. Elə bir şey ki, olduğu kimi görünsün, göründüyü kimi görünməsin.

M u x a n. Necə görünməsin?

O q t a y. Buraya gəl! Bu divar nədəndir?

M u x a n. Daşdan.

O q t a y (*kağızları göstərərək*). Bəs bu nədir? Bu nə üçündür?

M u x a n. Bah! O da kağızdır. O sözgəlişi, bir bəzəkdir.

O q t a y. Axı bu ki, altun deyil, doğruçu altun deyil.

M u x a n. O, süni bir bəzəkdir. Kağızsız divar olurmu?

O q t a y. Süni, hər şey süni! Sanki bu süni bəzək olmazsa, işlər keçməz. Axı neçindir bu süni bəzəklər? Zavallı bəşəriyyət, neçin həqiqəti gizlədirsiniz? Cırın onu! Bax, belə! Qoyun bu çirkin qara daşlar olduğu kimi, bütün dəhşətilə görünsünlər. Daşdır, qoy daş görünsün. Neçin gizlədirsiniz? O, çirkin də olsa, həqiqət olduğu üçün gözəldir!

M u x a n. Sarsaq adam! Nə edirsən? Divarları neçin dağıdırsan?

O q t a y. Aha, indi anlamışsan. Söylə, bir daha çalmasınlar.

X a s p o l a t (*əlilə çağırır*). Ey! Bura gəl. Bir az keçincə söyləyin ki, dükanı bağlayıram, çıxarın, getsin.

Q a r a ç ı q ı z.

Məhzun, könlüm, ey vah, ey vah, şad olacaqmış sanıyorsan;
Va əsəfa, biçarə könlüm, ey vah, ey vah, aldanıyorsan;
Bu qədər cövrü-cəfaya bilərək qatlanıyorsan?
Va əsəfa, biçarə könlüm, ey vah, ey vah, aldanıyorsan?
Nəşə yox, ümmid yox, ləzzət həyatın harasında?
Hicri çox, hicran lap çox, ləzzət sevdanın harasında?

O q t a y (*qalxıb hücumla*). Yalan deyirsən! Aldanan yalnız mən deyiləm. Bütün bəşəriyyət aldanır. Həm də bilərək aldanır. Bu aldanışlarla da yaşayır.

M u x a n (*önünü kəsərək*). Canım, sənə demir ki, sən neçin hiddətlənirsən?

O q t a y. Səsini kəs! Sən özün də aldanırsan. Yalan deyir, özün öz yalanlarına inanırsan.

M u x a n. Bah, kimə yalan dedim?

O q t a y. Yaxşı. Sən olduğundan başqa heç bir şey olmayacaqsan. Gözəlsən, gözəlsən, çirkinsən, çirkin! Əqillisən, əqilli, dəlisən, yenə osan. Fəqət bu gümüşlər, bu zəncirlər nədir, nə? Bax, bunlarla sən xalqı aldadırsan. Çünki bunların arxasında özün görünmürsən.

M u x a n. Bah, bu bir adətdir.

O q t a y. Yox! Bu yaşayış üçün bir prinsipdir. Hətta təbiət də bu aldanışlardan, bu yalanlardan çəkinmir. (*Qaraçı qızı göstərir.*) Bax, onu görürmüsən? Qara qaşlar, qara gözlər, al dodaqlar, qızarmış yanaqlar, görürmüsünüz, nə qədər gözəl görünür? Fəqət o, göründüyü kimi deyildir. Təbiət qurnaz baqqallar kimi bizi aldadır. Sən onu olduğu kimi, həqiqəti görmək istəyirmisən? Gedək məzarlığa, istədiyin bir gözəli sənə göstərim. Bilirsənmi nədir? Bir yığın

ət, bir yığın sümük! Hətta o da deyil, bir ovuc su, bir yığın duz, torpaq, kül! Nəhayət, gözəgörünməz müxtəlif qazlar, bəlkə də bir heç, anladınmı?

M u x a n. Yaxşı, əzizim! Artıq bağlayıram, vaxt gecdir.

O q t a y. Yaxşı, mən gedirəm.

M u x an. Bəs pul?

O q t a y. Nə pul?

M u x a n. Necə nə pul? Sadəcə pul.

O q t a y. Mənim pulum yox! Həyatımda heç bir vaxt nisyə hamballıqlar fikrinə düşməmiş, elə yüklər daşımamışam.

M u x a n. Nə sərsəmləyirsən, pulsuz nə haqla...

O q t a y. Cəhənnəm ol, sənə deyirəm! Mənə hüquq dərsi verəcək. Mən səfillər padşahıyam. Mənim özümün qanunlarım vardır. Ala bilmədiyin sənin deyil, ala bildiyim mənimdir.

M u x a n. Bəs pulu?

O q t a y. Pulu? Pulunu sən məndən ala bilməyəcəksən. Onlar sənin yaşayış ümidin olsaydı, ya ölər, ya alardın. Fəqət indi ölmək istəməzsən, çünki onlarsız yaşaya bilərsən. Demək, o artıqdır. Artıqdır, gərək deyildir. Gərək deyil, sənin deyildir. Haqqın yoxdur. Fəqət mən bu çörəyi götürməzsəm (*alıb cibinə qoyur*), bu gecə ölərəm. Ona görə də götürməyə haqqım vardır. Almaq istərsən, ya ölər, ya vermərəm.

M u x a n. Hər kəs bacardığını edərsə, mən də səni bu döşəmənin üzərinə sərib qol-qıçını əzərsəm...

O q t a y. Aha! Onu edə bilərsən. O sənin haqqındır. Qol-qıçım, demək, sənindir. Fəqət mən ondan əvvəl bu boş şüşəni götürüb sənin başına çırpa bilərsəm. (*Şüşəni alıb Muxanın başına atır.*) Bu da mənim haqqımdır.

S ə m ə d. Oqtay! Oqtay!

*Muxan başını əyirkən, yıxılır və qalxır.*

M u x a n. Şeytan oğlu şeytan! (*Xaspolat onu saxlayır.)*

S ə m ə d. O q t a y!

O q t a y. Sən nəsən?

S ə m ə d. O q t a y, sən nə vaxt gəldin? Məni tanıyırmısan?

O q t a y. Mənim başım Durovun qəfəsi deyil ki, hər yoldan ötən əl-ayaqlını saxlasın, gəzdirsin.

S ə m ə d. Yaxşı bax, məni tanıyırmısan?

O q t a y. Yəni sən, doğrudan da, varsan? Tanımaq üçün varlığını mənə göstər. Mən sənin varlığına da şübhə edirəm.

S ə m ə d. Necə yəni mən yoxam. (*Xaspolata*) Yazıq keflidir, dediyini bilmir.

O q t a y. Sübut göstər, sübut!

S ə m ə d. Nə sübut, məni görmürsən?

O q t a y. Görünən hər şey var demək deyildir. Yox, yox, mən bir daha gözlərimə inanmıram, çox zaman onlar aldadırlar. Bəlkə, sən bir kölgəsən. Bəlkə, güzgüdəki şəkillərdən birisən. Sənin həqiqət olduğuna bir sübut varmı?

X a s p o l a t. Səsini, sözlərini eşidirmisən? Heç güzgü kölgəsi də söylərmi?

O q t a y. Mən həqiqət sandığım çox səslərin, çox sözlərin sonradan bir yalan, bir əyləncə olduğunu görmüşəm. Aha! Yəqin sən qrammafonsan.

S ə m ə d. Bununla heç danışmaq olmayır ki! Oqtay, mən Səməd bəyəm. On il bundan əvvəl... Tanıdınmı?

O q t a y. Aha, bir zaman sənin paltarlarını tanıyardım. Özünü tanımıram. Artıq paltarla da kimsəni tanımaq istəmirəm.

X a s p o l a t. Oqtay! Bu sənin əziz dostundur. Səməd bəy!

O q t a y. Əziz dostum? Tanımıram. İstəyirsən soyun, sənə paltarsız baxım. Artıq mən hər bir şeyi çılpaq görmək istərəm.

X a s p o l a t. Oqtay, bir neçə il səninlə dostluq, qardaşlıq etmişik. Sənin bu halına acıyırıq ki, arxanca gəzirik.

O q t a y. Dostluq, qardaşlıq (*sanki bu sözləri ilk dəfə eşidirmiş kimi, düşünür.*) Soyunun! İstəməzsiniz, mən sizi soyunduraram. Dostlar, qardaşlar, hanı mənim bacım? (*Hər ikisi özlərini itirib, mızıldanırlar.*) Dostlar, sizi arxasınca gəzdirən mən deyiləm, puldur, pul!

X a s p o l a t. Oqtay, bunları burax, sən özün yaratdığın bir yerdən qaçırsan. Bu gün səhnə hər cəhətcə səni təmin edə bilər.

O q t a y. Mən qaçmıram, mən düşünür, öyrənirəm.

S ə m ə d. Nə düşünürsən?

O q t a y. Düşünürəm ki, dəyişən sizin başınızdır, ya papağınız.

X a s p o l a t. Oqtay, bircə gün də olsa.

O q t a y. İstəmirəm! Hər bir şeyi həqiqət olan bir yer varsa, haydı gedək, yoxsa itilin! Mən artıq süni bir həyata soxulmaram. Həqiqət axtarıram, həm də yalan yox, əbədi bir həqiqət.

S ə m ə d. Oqtay, sən neçin bilərək özünü məhv edirsən? İndi haraya gedəcəksən.

O q t a y. Orada həqiqətə oxşar bir yer var ki, hər şey bir az olduğu kimi görünür, oraya.

X a s p o l a t. Oqtay, səhnəmiz doğma bir ana kimi qollarını açmış, səni gözləyir.

O q t a y. Unutmayın ki, mən Oqtayam. Getmərəm dedim, getmərəm! (*Çıxırkən Muxan saxlamaq istəyir.*

X a s p o l a t. Dur, toxunma! Sal! *(Muxan çotkaya salır.*) Al! (*Pulunu verir.)*

O q t a y (*çıxaraq, laübalı oxuyur*).

Qarlı dağlar aşaram,
Yorulmadan qoşaram.
Bir ümid, bir işıq yox,
Bilməm neçin yaşaram...

S ə m ə d. Təqib edək, deyilmi!

X a s p o l a t. Mən edəcəyəm, çarəsi yox. Onu əldən buraxmaram. Hər tükü bir qızıldır. Canım, özünü tələf edir.

S e v ə r (*çıxaraq*). Ay qardaş, acam, xəstəyəm, kimsəsizəm! Mənə kömək edin!

O q t a y. Aha! Çox gözəl! İndi sənin, doğrudan da, ac olduğunu biz nədən bilək?

S e v ə r. Vallah, qardaş, acam! Özüm də xəstəyəm.

O q t a y. Yalan deyirsən! Sən istəyirsən ki, pulları alasan, aparıb yığıb gizlədəsən.

S e v ə r. Mənə gülməyin, bu qarın, qiyamətin altında ehtiyacsız bir insan oturarmı? Ox, mən bədbəxtəm. Məni danışdırma. Heç bir şey istəmirəm. Ancaq mənə gülmə.

O q t a y. Yaxşı! O zaman neçin yaşayırsan? Madam ki, yaşamırsan, uzan öl! Həyatdan artıq nə gözləyirsən? İndi görürəm, hələ bir qədər gəncsən, fəqət dilənçisən, bütün məhzunluğu, bütün solğunluğu ilə ilahi bir heyət təşkil edən bu gözəlliyə kimsə baxmayacaq. Pulun yox, kimsə səni almayacaqdır. Sabah getdikcə qocalacaqsan: üzün, gözün qırışacaq, daha fəna bir hala düşəcəksən. O zaman neçin yaşayırsan? Zavallı bəşəriyyət bilir ki, taleyi bu, dəyişməyəcəkdir. Mövhum bir ümid onu sürükləyib aparır, haraya, özü də bilmir. Yaxşı, demək, sən acsan?

S e v ə r. Fəqət soyuq məni kəsmiş, dilim tutmur, danışdırmayın!

O q t a y. Bax, mənim çörəyim var, sənə verərdim, ancaq nədən bilək ki, bu sözlər doğrudur. Bu iniltilər yalan deyildir. Ürəyində "onu aldatdım" deyə, gülməyəcəksən. *(Sevər ağlayır.*) Yox, ağlama! Bilirsənmi nə var? Dur, mən gedib bir bıçaq tapım. Yox, yox, bu şüşə ilə sənin qarnını cırıb baxım. Doğrudan da acsansa, onda bax, bu çörəyi sənə verərəm.

S e v ə r. Ox! Özüm bacarmıram, öldürün məni, bu əzabdan qurtarım. (*Ağlayır.)*

O q t a y. Yaxşı! Al, zavallı, bu çörək sənin haqqındır. Bunu mən sənin üçün götürdüm. Buradan keçərkən səni görmüşdüm. Evim olsaydı, səni apardım, fəqət yoxdur. O q t a y Eloğlu xərabələr bayquşudur.

S e v ə r. Aman, nə deyirsiniz, siz kimsiniz?

O q t a y. Mən bir kölgə.

S e v ə r. Sən Allah, sən kimsən?

O q t a y. Hansı Allah? Çünki allahlıq məsələsi hələ aramızda ixtilaflıdır. O deyir mən səni yaratmışam, mən deyirəm yox, mən səni yaratmışam.

S e v ə r. Axı siz Oqtay Eloğlu adını haradan bilirsiniz?

O q t a y. Bu ad bir zaman mənim adım idi, indi isə mən yoxam.

S e v ə r. Ox qardaşım! Mən sənin bacınam! Sevərəm!

O q t a y. Sevər! Ox, zavallı bacım! Sənsən? Səadətini tanrım qədər sevdiyim bu xalq bircə səni də yaşatmadı.

X a s p o l a t. Aman, nə böyük faciəyə təsadüf etdik.

S e v ə r. Ox, qardaşım!.. Yazıq bacın. (*Ağlayır.*)

O q t a y. Zavallı! Həyatın varlığımı unutdurduğu qiyamətləri arasında üç şeyi düşünürdüm: bu zavallı xalqı, səni, ox, bir də o bivəfanı ki, sevirdim. Fəqət səni də mən bədbəxt etdim. Mən varlı-adlı bir adam olsaydım, hər gün yüzlərcə elçilər gələr, səni almaq istərdilər. Fəqət bu hal ilə səni kim alacaqdır? Sən indi bir dilənçisən. Gözəl də olsan, almazlar. Bəli, sən dilənçisən. Qalx, yavrum! Sən də mənim kimi bir səfilsən, bərabər gedək.

S ə m ə d (*yaxınlaşaraq)*. Oqtay!

O q t a y. İtil! Toxunmayın bizə! Dostlar!.. Nə istəyirsiniz bizdən, nə?

X a s p o l a t. Oqtay!

O q t a y. Bəli, öyrəndim.

X a s p o l a t. Oqtay, bu müztərib yavrunun xatirəsiçin də olsa.

O q t a y. Müztərib yavru! Ona yer verin, sabah axşam oynayıram.

X a s p o l a t. Mən indidən görürəm ki, xalq sabah səni bağrına basacaq, çiçəklər altında oxşayacaqdır. Mən sənin üçün hər şey taparam. Sabah elan verirəm.

O q t a y. Yaxşı.

*Pərdə*

# BEŞİNCİ PƏRDƏ

Səhnədə.

Ş ə k i n s k i. Məni bircə şey kəsir ki, neçin bu camaatın ağlı yoxdur. Bu qapıları qırıb bileti bir-birinin əlindən qapan camaatdan Oqtayı olsa-olsa ya birisi tanıyır, ya ikisi. Qalanı heç görməmişdilər. Nə cür oynadığını bilmir, bəlkə, deginən, heç oynamır.

X a s p o l a t. Gündüz görmürdünmü nə gözəl oynayırdı?

Ş ə k i n s k i. Mən görmüşəm də, camaat ki, görməyib.

X a s p o l a t. Hər halda adını eşitmişlər. Çoxusu da xidmətləri üçün onu sevirlər.

Ş ə k i n s k i. Həm də o başqa bir tərcümə ilə oynayır. Bizim kitabla öyrənməsi gec çəkər. Aktyorlara maaş gərəkdir.

M a z a n d a r a n s k i (*yüyürərək)*. Xaspolat əfəndi! Oqtay elə bir qrim eləmiş ki, nə deyim!

Ş ə k i n s k i. Durun, hələ bu gecə ayıqdır.

M a z a n d a r a n s k i. Yox! Yox! Sizin canınız üçün, mən qapının deşiyindən baxırdım. Daha səhərki adam deyil. Sanki on iki yaşı varmış, quş kimi! Amma bilirmisiniz, geyindi, güzgüyə baxdı, düşündü, düşündü, birdən əllərilə üzünü örtüb divan üzərinə düşdü qaldı.

X a s p o l a t. Biz onu içkidən ayıra bilərsək, o bizim səhnəmizin ulduzu olacaqdır.

M a z a n d a r a n s k i. Onda Şəkinski bir fındıq.

Ş ə k i n s k i. Mazandaranski, haydı səhnədən! Min yol demişəm səhnəyə ayaq basmayın.

M a z a n d a r a n s k i. Daha acığın neyçün gəlir? İndi nə rejissorluğu əlindən alan var, nə premyerliyini.

Ş ə k i n s k i. Adamı də kəsən orasıdır, hər gəldi-gedəri...

M a z a n d a r a n s k i. Şəkinski! Sən rejissorsan, amma bağışla ha! Öz vicdanınla söylə, o yazıq nə qədər sənin üçün əmək sərf etmişdir. Səni də, məni də o adam etmiş, araya çıxarmış.

Ş ə k i n s k i. Görürəm, nə cür olmuşsan.

M a z a n d a r a n s k i. Əlbəttə, mən heç özümü səndən əskik adam bilmirəm. Sən nəsən məgər! Onun yanında heç nə deyilsən.

Ş ə k i n s k i. Rədd ol, deyirəm sənə, bu saat səhnədən! (*Xaspolata.)* Baxın, deyirəm sizə bundan sonra hər yetən gəlib yenə bir ağa olacaqsa, mən əlimi ağdan qaraya vurmaram.

X a s p o l a t. Yaxşı, yaxşı, nə oldu? İndi sənə nə dedilər? Gəl görək Oqtay nə edir. (*Gedirkən.*)

M a z a n d a r a n s k i. Qorxma, sənin kimi rejissorluq üçün ölmür. Ona-buna yaltaqlanmaqla... Ona yalvarsalar da, boynuna götürməz. O, nanəcib deyildir, bilirmisən.

*Gedirlər. Tamara girir.*

Ş ə k i n s k i. Bəs sən gəlməyəcəkdin? Yeddi sözün vardır.

T a m a r a. Gəlməyəcəkdim. Amma fərqi yox, deyəcəyəm ki, xəstəyəm, ancaq sonra...

Ş ə k i n s k i. Mən dedim ki, hər şeyin cavabını mən verəcəyəm. Deyərdin, xəstə idim, vəssalam.

T a m a r a. Onsuz da deyəcəyəm. Çıxmıram. Öldürməyəcəklər məni ki.

Ş ə k i n s k i. Ondan başqa təzə bir şey də var. Bu gün bir nəfər – Danyar bəy Qalaçıxanov mənə beş yüz manat pul göndərib ki, Oqtayın çıxışına yol verməyim. Öyrəndim, dedilər, bilmirəm, keçmiş arvadıyla nə isə bir işləri varmış. Bu, bizim aylıq maaşımız. Onu xalqın gözündə bu gecə elə öldürüm ki...

T a m a r a. Beş yüz manat...

Ş ə k i n s k i. Deyirəm, zəngin bir qadın almış, milyonlarla pulu var. Onlar üçün nədir ki? Sən get uzan ki, xəstəyəm, amma çıxmayasan ha! Bu gün Oqtay belə bir zərbəni alarsa, oyun yatırılarsa, sabah bir daha oynamaz. Olmasa, sabah mən xəstələnərəm, sabah gecə də biabır olarsa, demək, qiyamətədək getdi!

T a m a r a. Yaxşı, mən gedib uzanıram. Yoxsa lap açıq deyərəm: dəlinin birilə oynamıram.

D u r s u n və O q t a y gəlir.

O q t a y. Doğrudanmı, Azərbaycan qadınlığı sənətkar bir qız yetişdirə bilmir. Hələ çox çalışmalıdır.

T a m a r a. Yenə əski mahnıları başlamışsınız. Sanki bu xalq səhnədə adam deyildir.

O q t a y. Tamara, sən daim yersiz hiddətlənirsən. Fəqət anla ki, bir gürcü qızı Tatyananı, ya mən Onegini oynaya bilərəm. Fəqət bu, rus xalqının bütün ruhunu, bütün incəliklərini əks etdirən bir Onegin, bir Tatyana ola bilməz. Daha zəif bir rus aktrisası bir Tatyananı daha bir az zəhmətlə, daha gözəl oynaya bilər. Çünki ruhu həmin mühit ilə mərbutdur. Həyatda elələrini çox görmüş, o özü bir Tatyanadır.

T a m a r a. Bu qədər Avropa aktyorları oynayırlar...

O q t a y. Avropa gündoğuşu anlamır. Onu heç bir vaxt doğru təsəvvür etməmişdir. Bir azərbaycanlı qızı yaratmaq üçün xalqın bütün ruhunu, hissiyyatını, tarixini, adət və ənənələrini görünməz incəliklərinə qədər bilməli, onun dərinliklərindən, onun mühitindən çıxmalı, bəlkə bir azərbaycanlı olmalıdır. Sənətkarlar hamısı bir ailədir. Fəqət...

T a m a r a. Bu on-on beş ildə bacardıq yaratdıq; yenə Oqtay gəldi, biz bacarmırıq. Gəlsin, bir azərbaycanlı aktrisa oynasın, pajaluysta! Mən hər sərxoş səfildən söz çəkmək istəmirəm. Çox deyərsən, heç oynamaram da.

O q t a y. Tamara, mən sərxoş da olsam, sözlərimi anlayıram.

T a m a r a. Pajaluysta! İndi ki, elədir, mən heç oynamıram.

O q t a y. Ehtiyac təkamülün babasıdır! Xalq görər ki, səhnəsində qadın yox, özü öz arasından tapar verər.

X a s p o l a t. Nə var? Nə olmuş, Tamara, neçin geyinmirsiniz?

T a m a r a. Mən oynamıyacağam!

X a s p o l a t. Necə oynamıyacağam! Burası başlı-başına deyil ki, camaat salona dolmuş.

T a m a r a. Biz yaramırıq və oynamırıq, vəssalam! Bu saat çıxıb gedəcəyəm. Özüm də xəstəyəm.

X a s p o l a t. Yaxşı, yaxşı, bunları sonra da danışarıq. Hələ bu gecə geyinin.

T a m a r a. Mən qəti deyirəm, oynamıyacağam. Mən öz mənliyimi hər yoldan ötən bir səfil üçün tapdayan deyiləm.

X a s p o l a t. Nəhayət, mən müdirəm! Əmr edirəm! Belə qəti bir gecədə... Yoxsa, mən sabahdan başqa aktrisalar...

T a m a r a. İstədiyinizi edin, pajaluysta, tapsanız götürün! Boğazıma ip də salsanız, oynamaram.

Ş ə k i n s k i. Elə də heç bir aktyor işləməz, gəlib onu tutanda ki, sən... oynamaz da. Nəhayət, heç kəs razı olmaz ki, hər səfil, hər yerindən qalxan...

O q t a y. Şəkinski!.. Bəli, O q t a y bir səfildir! O tapdalanmalıdır... O... Dursun! Allah eşqinə, bir şüşə şərab! Bu zavallı bəşəriyyətə, bu darürəkli gülünc insancıqlara, bu insan görkəmli, əqrəb ürəkli, həşərata ayıq baxa bilmirəm. (*Gedirlə*r.)

X a s p o l a t. Dursun? Yox, onu sakit et! Tamara! Görürsünüz ki, o bir zavallıdır. Keçirdiyi faciələri siz bilsəniz... Ürəyi sınıqdır. Yaxşı, sizə nə demişsə, mən qəbul edərəm.

T a m a r a. Doğrusu, mən oynamıyacağam. Özünüz bilin.

Ş ə k i n s k i. Haqqı da var, kimsə də ona bir söz deyə bilməz.

X a s p o l a t. Axı sən də bir düşün! Neçə gündür bayram, teatr bağlı, boğazımdan çörək getmirdi. Biletlər birə-üç qiymətə, hər yerdə üç adam oturub. Bayaq müxtəsər hesabladım, teatrın bir aylıq xərci durulur. Bu qədər camaatı qaytarmaq. Axı bunu getdim tapdım, yalvardım, söz verdi, qaçmır da. Tamara, axı belə iş olmaz, yalvarıram sizə.

T a m a r a. Öldürsələr də, oynamıyacağam.

Ş ə k in s k i. Mənə nə var, özünüz bilərsiniz. O öz şərəfindən keçərsə... Sanki mənim sözümlədir.

T a m a r a. Daha bəsdir, mən çəkdim. Xurşid dünən səhnəyə çıxmış, sizinlə tanışdır. Səlmanı ona verərsiniz, Tamaradan yaxşıdır. O biri gəlir ki, azərbaycanlı qızı belə gəldi, cəhənnəmə olsun hamısı.

X a s p o l a t. Tamara, bu gecə ölmüşəm, məni yerdən götürün. And verirəm sizin oğlunuzun canına!

T a m a r a. Oynamaram, deyirəm, vəssalam! (*Çıxıb gedir.*)

X a s p o l a t. Ay Allah, indi nə edəcəyik!

Ş ə k i n s k i. Elan verin ki, bu gecə oyun olmayacaqdır. Bu qədər!

X a s p o l a t. Bura dövlət teatrıdır. Oyuncaq deyil! Tutduraram onu! Aktyorların bir aylıq donluğu. Şəkinski, siz Allah, bu işi bir cür eləyin.

D u r s u n. Xurşid İvanova evdə idi, bir az xəstə də olsa...

X a s p o l a t. Aha! Bu saat, Dursun, min arabaya gətir gəl. Yaxşı yadıma saldın.

Ş ə k i n s k i. Heç bir şeydən xəbərsiz nə cür oynayacaqdır? Həm də xəstə.

X a s p o l a t. Yüz yol oynamış, bir cür keçər. Tez!

*Dursun gedir.*

Ş ə k i n s k i. Görərik!

*Pərdə enir, işıqlar yanır. Salon. Firəngiz, Nrgiz lojaya gəlir.*

E l x a n l ı. Vaxtdır! (*Əl çalınır, işıqlar sönür.*) Başlayın.

F i r ə n g i z. Of, Nərgiz, xatırlayıram ki, tam on üç il bundan əvvəl, həmin bu yerdən onu ilk əvvəl və indicə oynayacağı rolda görmüşəm. Ox! O zaman iki çocuq könül...

N ə r g i z. Ay qız, yavaş, xəlq eşitdi.

F i r ə n g i z. Aman Allah, bilmirəm onu görəndə nə olacağam. Ürəyim döyünür. İlk görüşdə özümü saxlaya bilərsəm.

N ə r g i z. Ağıllı ol, birdən bağırıb elərsən, biabır olarıq.

F i r ə n g i z. Ox, Nərgiz! Bədbəxt həyatımın qaranlıqları içində illər uzunu eşqini bəsləyib, gecələr bir məbud kimi, xəyalını qucduğum bir adamı... Of, xatirat... Nərgiz, anla ki, mən onu sevirdim. Ayrılıq eşqin süd anasıdır. Sən bilsən, o yazıq nə bəlalar çəkmiş! Öz bacısı mənə söylərkən, ürəyim parçalanırdı. Bunların hamısına bais mənəm, mən! Yox, mən deyiləm, onlar: o canavar, həm də atam, qardaşım! O daşürəkli insan tacirləri!

N ə r g iz. Yavaş, qız, indi Aslan bəy gəlib eşidər. Fəqət heç dilindən düşməyən bir adamı nə cür olub da gedib görməmişsən?

F i r ə n g i z. Ox! Nə üzlə gedəcəyəm! Hələlik gözünə görünmək, əhvalını pozmaq istəmirəm.

Ö z d ə m ir. Vaxtdır, başlayın! (*Əl çalınır, Xaspolat pərdə qarşısına çıxır.*)

X a s p o l a t. Cənablar! Bu gün böyük bir sevinclə ilk çıxışını görməyə gəldiyiniz və bu qədər səbirsizliklə gözlədiyiniz Oqtay Eloğlu, dəfələrlə gördüyünüz adi qastrolyorlardan deyildir. O, səhnəmizi tanrısı qədər sevən, eyni vaxtda səhnənin tanrısı olan, səhnəyə doğma bir ana kimi baxan, eyni vaxtda Azərbaycan səhnəsinin doğma anası olan ikincisiz[6] böyük bir sənətkar, sarsılmaz, fədakar bir sənət mübarizidir. Bir çox səbəblərdən onillik uzun bir müddətdə səhnədən ayrılmaq məcburiyyətində qalmışsa da, bu gün yenidən...

E l x a n l ı, Ö z d ə m ir (*və başqaları əl çalaraq*). Görmək istəyirik! Səhnəyə çıxsın! Yaşasın Eloğlu!

*Xaspolat çəkilir, pərdə qalxır. Oqtayı bürüyərək və gəlmirmiş kimi dartaraq, səhnəyə gətirirlər. Qızlar, oğlanlar, gəlinlər, bütün xalq onu gurultulu alqışlarla qarşılayır, başına çiçəklər səpirlər. Eyni halda qatışıq səslər eşidilir.*

Ö z d ə m i r. Yaşasın Azərbaycan səhnəsinin sevinci, anası və sevimli oğlu Oqtay Eloğlu!

E l x a n l ı. Yaşasın Azərbaycan sənətinin böyük mübarizi Oqtay Eloğlu!

O q t a y. Əziz vətəndaşlarım! Mən və mənə qarşı bu hissiyyat heç... fəqət məni sevindirən xalqımızın bir ideal kimi bəslədiyim bugünkü tərəqqisini... Of, mən ki, sizi sevirdim... (*Ağlayıb susur, eyni halda xalq gurultulu alqışlarla...*)

E l x a n l ı. Yaşasın səmimi sənətkarımız! Ura! (*Alqışlar arasından.)*

X a s p o l a t. Vətəndaşlar! Xüsusilə tələbə qardaşlar! Gənclərimizin bağrından qopan bu coşqun hissiyyata hər kəs, xüsusilə səhnə işçiləri sevinirlər. Fəqət Oqtay hazırlanacağı üçün hissiyyatınızı gizləyib aktyoru ancaq pərdələrin və oyunun sonunda təbriklə, oyunun gedişinə mane olmayacağınızı ümid edirik.

*Əl çalınır. Pərdə.*

F i r ə n g i z. Ox, Nərgiz! Dayana bilmirəm. (*Ağlayır.)*

N ə r g i z. Firəngiz, dəli deyilsən ki, xalq baxır.

F i r ə n g i z. Ox, Nərgiz, xatirat məni məhv edir. Həm də belə yüksəlməsinə sevinirəm. (*Bir uşaq Firəngizə bir məktub verib gedir. Firəngiz bir iztirabla getdikcə pozulur, oxuyur.)*

N ə r g i z. Qoy düşmənləri ağlasınlar.

F i r ə n g i z. Aman! Nə dəhşətli xəbər! Səməd bəyə yalvarmışdım, yazır (*Kağızı verir.*) Bu qədər gurultudan sonra onu üzüqoylu çırpıb tapdamaq, təhqir etmək!

N ə r g iz. Aktrisa oynamaq istəmir? Nəhayət, bu canavarlıqdır. Belə iş olmaz!

F i r ə n g i z. Onu zəlil etmək istəyirlər. Edərlər də, ürəklərimi yanacaqdır?

N ə r g iz. Allah göstərməsin elə şeyi, onda nə olar! Bu qədər gurultudan sonra. Bilmirəm bu qədər qızdan biri nə üçün səhnəyə getmir!

F i r ə n g i z. Nərgiz! Mən sənin kimi olsaydım, gedərdim. Fəqət mövqeyim elədir ki...

N ə r g i z. Gedəcəyəm! Ancaq...

F i r ə n g i z. Nədən, bilmirəm, qorxursunuz? Sara deyir, Gülgəz deyir, sən deyirsən səhnəyə gedəcəyəm, gedəcəyəm, heç biriniz tərpənmirsiniz.

N ə r g i z. Yox də, heç kəs getməmiş biz durub araya atılmayacağıq ki, heç olmazsa iki-üç nəfər getsin.

F i r ə n g i z. Axı bu birinci kim olsun? Cəhənnəmə olsun bir-iki nəfər, sanki sən onlardan birisi olmazsan. Belə qəti bir gündə. Of, mən gedərdim! Fəqət bilirəm, o canavar yenə mənim adıma min cür söz çıxaracaq, məni ləkələməyə çalışacaqdır. Sənin kimi olsaydım...

N ə r g i z. Yox, canım, oyunu saxlamazlar.

F i r ə n g i z. Elə bir şey olarsa, inan ki, ürəyim partlar.

*Xaspolat çıxır.*

---

[6] Əvəzsiz, misilsiz mənasında işlənmişdir.

X a s p o l a t. Cənablar, nə qədər acı bir xəbər də olsa, bildirməliyəm ki, aktrisa Tamara Pavlova xəstə olduğundan bu gecə oyun olmayacaqdır. Yaxın günləri gözləmək istəməyənlər yerliklərini[7] qaytara bilərlər.

Ö z d ə m ir. Tamara bir az bundan əvvəl sağ-salamat faytonla gəldi.

E l x a n l ı. Tamara Pavlovanı bu saat gözümlə burada gördüm.

X a s p o l at. Buradadır, ancaq xəstədir. Başqa aktrisa üçün də göndərildi, o da xəstədir.

S ə m ə d bəy. Xəstə deyildir.

N ə r g i z. Camaat içində doktor var, gəlsin xəstəliyini təsdiq etsin.

E l x a n l ı. Xalqı ələ salmamışsınız. İki saat yerlik üçün zəhmət çəkmişik. Olmaz, gərək, oynansın.

X a s p o l a t. Mən də istərdim, oynansın, ancaq aktrisa yoxdur, nə edə bilərik.

N ə r g iz. Onu məhkəməyə cəlb edərik, xəstə deyil. Borcudur oynasın, məcbur edin.

X a s p o l a t. Hər halda oynamır. İnanmırsınız, özü gəlsin, söyləsin.

E l x a n l ı. Gəlsin! Gəlsin! Özü gəlsin! Xalqı oynadırsınız. Özü gəlsin!

*Xaspolat gedir. Səməd bəy Firəngizin lojasına gəlir.*

F i r ə n g i z. Ox! Onu öldürürlər. Belə bir gündə mən gedər, onu yalqız buraxmazdım. Fəqət, onun böhtanları yolumu kəsibdir. Kaş mən sənin kim sərbəst olaydım.

S ə m əd bəy. Bilirsinizmi, sizə yazmışdım! Bayaq getdim, öyrəndim. Rejissorun Oqtayı gözü götürmür, gəlib ona rəqib olacağından qorxur. Aktrisa ilə sözləşmiş. Oqtayın bir sözünü bəhanə edib “oynamıram” deyir. Oqtayın nüfuzunu qırmaq, xalqın gözündən salmaq, ləkələmək istəyirlər. Ancaq mən xüsusi eşitdim ki, Danyar bəy də rejissor üçün çoxlu pul göndərmiş ki, Oqtayın çıxışına yol verməsin. Oqtay təbii bunu bilmir, amma onsuz da çox tutqundur.

F i r ə n g i z. Bilmirəm, neçin bu canavar o zavallının yolunu kəsir.

*Xaspolat və Tamara çıxır. Səməd bəy yerinə gedir.*

X a s p o l a t. Bu da aktrisa, özündən soruşa bilərsiniz.

T a m a r a. Xəstə olduğumdan oynamadığım üçün üzr istəyirəm.

S ə m ə d bəy. Xəstə deyilsiniz.

E l x a n l ı. Söyləyə bilərsiniz, oynaya da bilərsiniz.

Ö z d ə m ir. Sizin borcunuzdur. Biz sizi məhkəməyə cəlb edərik!

T a m a r a. Deyirəm ki, xəstəyəm.

E l x a n l ı. Yalandır! Oynaya bilərsiniz. Artıq söz istəməz.

T a m a r a. Məni, söyləmək istəmədiyim bir çox səbəbləri açıq söyləməyə məcbur etməyin.

E l x a n l ı. Söyləyin! Səbəbini söyləyin.

*Tamara düşünür.*

F i r ə n g i z. Aman! Qorxuram ki...

E l x a n l ı. Madam ki, söz tapmayırsınız, başlayın.

T a m a r a. Bir səbəbi yox, hər yetən səfil bir sərxoşla səhnəyə çıxmıram.

F i r ə n g i z. Ox, yırtıcı qadın!

S ə m ə d bəy. Halbuki sizi o, aktyor etmişdir.

T a m a r a. Hər halda mən öz həyatımı yarımdəli bir adamın əlinə tapşıra bilmərəm. Nəhayət, mən öz həyatım üçün qorxuram.

F i r ə n g i z. Nərgiz, o baxır. Mən onun tapdanmasına dözə bilmərəm. Məni buradan çıxar.

[7] Biletlərini

Ö z d ə m ir. Əvvəldən bildirəydin.

*Tamara çıxmaq istəyir.*

T a m a r a. Mən səbəbini söylədim, artıq əfv edərsiniz. (*Gedir.*)
E l x a n l ı. Başqası oynasın!
X a s p o l a t. Göndərdik, başqası da yox. Tapıb verin, sözüm yox, oynasın.
S ə s l ə r. Xalqı oynadırsınız! Hamısı yalandır! (*Qatışıq səslər.*) Məhkəməyə cəlb etməlidir...
O q t a y. Səfil xalq, nə bağırırsan! Səndə sənətkar bir qadın yox, varsansa yarat, yaratmırsansa sus, uzan, öl!

*Bayaqdan bəri bir iztirab içərisində çırpınan Firəngiz coşqun bir hissin əzilən təsiri altında bağırır.*

F i r ə n g i z. Mən bu rolu oynaram!
O q t a y gedir. Hamı susub oraya baxır.
N ə r g i z. Firəngiz!
F i r ə n g i z. Burax! Mən onu elə zəlil görmək istəmirəm.
X a s p o l a t. Dildə deyirsiniz, amma gəlməzsiniz. Həm də sözlərini nə vaxt öyrənəcəksiniz. Belə hazırlıqsız bir halda, bu gecə olmayacaq.
F i r ə n g i z. Mən bu rola hazıram. Bu saat oynaya bilərəm.
X a s p o l a t düşünür.
E l x a n l ı. Bacarar, bacarar. Xanım söyləyir ki, oynaya bilərəm.
X a s p o l a t. Mənim də düşündüyüm orasıdır. Ancaq qorxuram bir gecədə sözlərini...
F i r ə n g i z. Oynaya bilərəm, deyirəm sizə, hərəkətlərini də, sözlərini də əzbər bilirəm. Soruşa bilərsiniz.
E l x a n l ı. Bacarar, bacarar. Biz yadımızda saxlarıq ki, hazırlıqsız çıxmışdır.
X a s p o l a t. Yaxşı, xanım buyursun səhnəyə.

*Aslan gəlir.*

N ə r g i z. Firəngiz, sən nə etdin?
F i r ə n g i z. Burax, mən onu məhv etmişəm, indi diriltmək istəyirəm.
A s l a n. Firəngiz, sən haraya gedirsən?
F i r ə n g i z. Mən artıq çocuq deyiləm. Artıq öz taleyimi özüm idarə edə bilərəm. Gəldim!

*Gedirkən xalq əl çalır. Firəngiz səhnəyə çıxır.*

X a s p o l a t. Heç səhnədə olmuşzunuzmu, xanım əfəndi?
F i r ə n g i z. Yox! Studiyaya getmişəm! Bu rolu da orada keçmişəm. Onsuz da bilirdim.
X a s p o l a t. Yaxşı... Şəkinski!
Ş ə k i n s k i. Mən xam bir aktrisanı səhnəyə buraxa bilmərəm.
F i r ə n g i z. Mən bilirəm, nə istəyirsiniz, soruşun.

*Xaspolat suflyordan kitabı alıb oxuyur.*

X a s p o l a t. Deyin 3-cü pərdədə Amaliyanın Fransdan ayrıldığı zaman dediyi sözləri.
F i r ə n g i z. Yaxşı. Məni sevirsənsə, ricamı qəbul edərmisən?
X a s p o l a t. Həyatımdan artıq olmayan xahişini qəbul edərəm.
F i r ə n g i z. Qəbul edərsən, deyilmi? Mənə nifrət et, məndən uzaqlaş! Gönlümdə Karlın eşqini bəslərkən, sənin məhəbbətinlə uğraşmaq mənə yaraşmaz. İndi get, məni tək burax!
X a s p o l a t. Gedin geyinin!

Ş ə k i n s k i. Tamara geyinir.

F i r ə n g i z. Gəldim, artıq arxam bir uçurumdur, geri dönə bilmərəm, çəkilin! Zəhərli gülüşlər altında yüngül bir yaramaz kimi geri qayıtmaqdansa... bu ananın doğma yavrusu mənəm, mən oynayacağam!

X a s p o l a t. Gedin geyinin! *(Səhnə qarşısına çıxaraq.)* Cənablar! Bu gün Azərbaycanın, bütün Gündoğuşun görmədiyi xoşbəxt bir günü görürük. Bu gün hər kəsə bəlli olan səhnəmizin böyük dahisi Oqtay Eloğlu ilə yan-yanaşı tariximizdə ilk dəfə olaraq, səhnəmizə Azərbaycan qızı çıxır. Bu gün bizim üçün böyük bir tarixi gün, bir bayram olmalıdır. Yaşasın ilk əvvəl öz sonsuz anasının qoynuna atılan doğma yavru! *(Xalq əl çalır.)*

Ö z d ə m ir. Yaşasın ilk qaranquş! Ura!

E l x a n l ı. Yaşasın azad Azərbaycan sənəti! Ura!

Ö z d ə m ir. Yaşasın azad Azərbaycan qızı, Ura!

*Sürəkli alqışlar.*

*Pərdə*

# ALTINCI PƏRDƏ

*“Qaçaqlar”ın səkkizinci pərdəsi*

Q r i m m. Sən öz sadiq qullarının üzünə baxmaq istəmirsən?

O q t a y (*Karl rolunda*). Bu dəfə də mənə sadiq olmuşsunuzsa, vay sizin halınıza.

Q r i m m. Sənin sadiq qulun Şveytserlə son vidan. O bir daha gəlməyəcəkdir.

O q t a y. Necə? Onu tapmadınızmı?

Ş v a r t s. Ölüsünü tapdıq.

O q t a y. Şükür sənə, İlahi! Bir bəladan qurtardımsa, işim düzəldi.

Q a ç a q l a r (*Firəngizi – Amaliyanı gətirərək*). Ataman, ataman sizə çox gözəl bir töhfə!

F i r ə n g i z (*dayısının qucağına atılaraq*). Ah, dayı, dayı!

M o o r. Amaliya! Amaliya! Mənim qızım! (*Firəngiz qalxıb Oqtaya tərəf gedir.)*

F i r ə n g i z. Karl! Karl!

O q t a y (*onu görüncə diqqətlə baxır, böyük bir həyəcan içində dili dolaşıb özünü itirir*). O... Firəngiz, sənsən! Yuxumu görürəm!.. Of, ilan... Əqrəb. O... Fəqət... Bunu mənim yanıma kim gətirdi?

F i r ə n g i z (*şaşırır, özünü toplayaraq*). Əziz Karlım! Ah, sevgili Karlım yenə mənimlədir.

O q t a y. Of! Uzaq, aman, ayırın onu məndən! Qoy bütün dünya məhv olsun! Kim, hansı canavar məni bu hallara saldı? Kim məni yenidən buraya gətirdi? Yaşamalı deyil bu çirkin həşərat yurdu. Həlak ol! (*Firəngizə.*) Həlak ol!

S u f l y o r. Oğlun qaçaqların başçısıdır. (*Təkrar edir.*) Oqtay! (*Təkrar edir.*) De də!

M o o r (y*avaşdan*). Sözünü de də! Öləcəyəm axı!

*Oqtay inləyərək ağır bir böhran keçirirmiş kimi çırpınırkən.*

M o o r. Sözünü de də. (*Məyus olunca yıxılır.*) Mən daha öldüm. (*Ölür.*)

F i r ə n g i z. (*Oqtayı qucaraq*). Sən qatilsən, şeytansan, mələksən, hər nəsən, mən özümü ağuşuna atıram!

O q t a y. Yalan deyirsən. O da yalandır! Sabah həmin bu sözlərlə bir başqasının ağuşuna atılacaqsan.

F i r ə n g i z (*yavaşdan*). Oqtay, neçin belə eləyirsən? Sözlərini söylə də! Oqtay (*üzülərək acı gülüşlərlə*). Ha-ha-ha! Nə söyləyim, nə?

Ş a h q u l u. Canım, bu belə neçin oynayır? Özündən danışır.

M a z a n d a r a n s ki. Bilmirəm. Gündüzdən deyirdi kitabın tərcüməsi yaxşı deyildir. Bəlkə, özü bildiyi kimi oynayır.

S u f l y o r. Karl! Sözlərini söylə də!

O q t a y. Eh... bilirmisən, mən kiməm?

F i r ə n g i z. Mənim əziz, sevgili Karlım!

O q t a y. Yalan deyirsən, burax bu boş komediyaları. Mən Karl deyiləm, mən on il sənin eşqinlə bütün dünyanı gəzmiş, sürgünləri, dustaqları, Sibiri dolaşmış bir səfil, bir səfillər padşahıyam ki, bir zamanlar ona Oqtay Eloğlu deyərdilər.

F i r ə n g i z (*yavaşdan*). Oqtay, əzizim, biz səhnədəyik.

O q t a y. Yox, yox, mən artıq bu süni həyatın içində dura bilmərəm. Mənə həqiqət gərəkdir, mən gedirəm.

Q a ç a q l a r. Dayan, xain! Bohemiya meşələrini unutma! Verdiyin söz əsasında sona qədər bizimlə getməlisən. Yüzlərlə qurban verilmiş, Amaliya da onlardan biri.

O q t a y. Bəli, Amaliya!.. Of, Firəngiz, neçin gəldin, neçin daim həyatımın keçidlərində görünüb məni məhv edirsən? Ox... mən istəyirdim ki... Axı mən bu səfil həyatı buraxıb dönmək istəyirdim. Neçin yenidən mənim yolum üzərinə çıxıb onu kəsdin? Çəkil! Allah eşqinə çəkil! Bir daha mənim gözlərimə görünmə! Mən artıq gedir, həm də əbədilik olaraq gedirəm. Mən səfillər padşahı idim, yenə o olacağam!

F i r ə n g i z. Dayan, əvvəlcə məni öldür, sonra get!

O q t a y. Çəkil! Mən öz arzularını idarə etməyi bacarmayan, özünü dolandırmaq üçün özündə qüvvət tapmayan zavallı, gülünc bir məxluqa əl açmaq istəmirəm. Aldanırsan, mən bu kiçik intiqamlardan çox yüksəkdəyəm. (*Getmək istərkən.*)

F i r ə n g i z (*qaçaqlar*a). Ey şeytan şagirdləri, siz mənə yardım edin! Başçınız qorxaq və yalançıdır!

O q t a y (*qaçaqların tüfəngini itələyərək*). Yox mən yalançı deyiləm! Mən səni sevirdim. Fəqət, sən yenidən nə istəyirsən? Yox, yox, burax bu süni həyatı. Mən böyük bir idealı kiçik bir oyuncaq görmək istəmirəm. Bu süni dünyadan uzaq, parlaq bir həqiqət!

F i r ə n g i z. Oqtay, nə danışırsan? Sən məni öldürməlisən. Mənim artıq sözüm qalmamış.

O q t a y. Bəli, səni öldürməliyəm, çünki mən öz idealımdan, öz eşqimdən, öz taleyimdən, öz tanrımdan intiqam alası idim. Fəqət... Ox, Firəngiz! Kimsən sən, kim?

F i r ə n g i z. Oqtay! Mən səni sevirəm. Çıxıb hamısını danışarıq.

O q t a y. Yalan deyirsən, yalan! Artıq məni aldada bilməzsən. Başqa bir rəngə boyanıb tarixi təkrar etdirə bilməzsən. Yenə yalan, yenə hər şey süni! Mən artıq həqiqəti anlamaq istəyirəm. Of, tökül, gözlərim, tökül yerə! Madam ki, həqiqəti görə bilmirsən, tökül! Sən osan, fəqət səni qucmaq, susmaq, durmaq, əbədilik məhv olmaq! Yox, artıq sən o deyilsən, sən artıq o ola bilməzsən. Sən bir daha bu məsum qızartıları, bu pak həyatı, bu sevimli görkəmi qaytara bilməyəcək, yarada bilməyəcəksən, göstərə bilməyəcəksən. O indi tapılmaz! Aç mənim könlümü, tam mənasilə bir Firəngiz ancaq orada tapıla bilər. Sən artıq yoxsan, mənim sərt çöhrəmə başqa üfüqlər gülümsəyir.

F i r ə n g i z. Oqtay, indi mən nə etməliyəm?

O q t a y. Sən ölməlisən! Mən mənəviyyatımda bir ideal olaraq yaradıb, gizlədiyim mini-mini bir məxluqu qara torpaqlarda sürünəcək qədər rəzil olan bu həşərat içində görmək istəmirəm. Xatırlayırmısan, bir zaman süni həyatın nə olduğunu həmin Karlın bıçağı ilə sənə öyrədirdim. (*Göstərir.*) Belə! Fəqət indi doğru bir həyatı öyrətməliyəm. Uzaq bu sünilikdən, uzaq! Bir həqiqət ol! Mənə də bu həqiqəti anlat! Mən onu axtarıram, onu bilməliyəm, öyrənməliyəm. Bax, belə! (*Bıçağı doğrudan da Firəngizin köksünə sancır.)*

F i r ə n g i z. Aman, aman, neçin? Ox!.. Qorxma! Mən onsuz da... Ox... Səni bağışlayıram.

O q t a y. Yox, sən həqiqəti mənə anlat! Mən onu görmək istəyirəm. Hanı, görünürmü?

Q a ç a q l a r. Ataman, sən nə etdin?

O q t a y. Tam ürəyindən vurdum. Bir dəqiqədə tamam oldu.

Ş a h q u l u. Canım, bu doğrudan da vurdu. Deyirəm “Qaçaqlar”da bu sözlər yoxdur.

X a s p o l a t. Pərdəni salın! Zanaves!

M a z a n d a r a n s ki. Pərdəni verin! Suflyor, senarius. (*Bağırır.*)

O q t a y. Bəli, doğrudan! Yetər sünilik! Yetər yalan! Siz həqiqəti mənə göstərin! Mən onu görmək istəyirəm. Yox, onu korlar görməzlər, gəlin mən sizə göstərim! Budur həqiqət! Toxunmayın! (*Pərdələri səhnənin ortasına atır.*) Ox, yavrum, nə qədər gözəlsən! Yalan deyirlər. Mən səni öldürmədim! Sən yaşayırsan! Sən buradasan! (*Köksünə vurub göstərir.*) Mənim bağrımdasan! Ölən, bu səfilin quraşdırdığı bir yığın ət, bir yığın sümükdür! Ox... Aparın məni buradan! Mən buraya gəlirkən bir balıqçı gördüm... O da yalandır. Yalan deyir Şiller...

A s l a n. Tutun bu sərsəmi (*deyirkən).*

O q t a y. Bir insan idealı barmağında altun üzük gəzdirməz! Bu altunlar onlara gərəkdir. Onlara, onlara. (*Üzükləri çıxarıb Aslan bəyin başına çırpır.)*

X a s p o l a t (*içəri atılır*). Aman, bir doktor! Zavallını, doğrudan, öldürmüş.

O q t a y. Bəli, doğrudan! Bütün həyatını süni görünüşlərlə keçirən, varlığı məchul zavallı bəşəriyyət! Nə istəyirsiniz bu sünilikdən? Həm də nə qədər gözəl! Qaldırın bu divarları, belə... (*Qələni vurub yıxır.*) Elə bir həyat qurulmalıdır ki, orada hər söz bir qanun, hər şey bir həqiqət olsun. Hər şey göründüyü kimi deyil, olduğu kimi görünsün. Belə, belə! (*Divarları yıxır.*) Sən də ey böyük sahir, söndür bu günəşləri, ay, ulduzları! Süni işıqlara lüzum yox! Dünya qaranlıqdır, qoy qaranlıq görünsün. Qaldır bu güzgüləri! Qoy bu şaşqın bəşəriyyət bir dəfə də olsa, həqiqəti görsün, görsün ki, o bir heçdir. Sən özün də bir heçsən, yaratdıqların da! Bacarmırsan yaratma, yaradırsan yaşat! Sən yaratdığın Firəngiz indi yoxdur, fəqət mən yaratdığım Firəngiz əbədidir! Onu kimsə öldürməz, o solmaz, qocalmaz, usandırmaz, getdikcə gözəlləşər! Özün söylə, kimdir daha böyük sənətkar? Sən, ya mən?

N ə r g i z. Firəngiz! Ax, ölmüş.

O q t a y. Yalan deyirsiniz, o ölməmişdir, o mənim bağrımdadır!

A s l a n. Tutun onu!

Ş a h q u l u. Canım, əlində bıçaq var.

O q t a y. Bıçaq! Al. (*Atır.*) Fəqət istəməz... Mən özüm gedib özümü ədalət divanına təslim edəcəyəm. Yox, yox, onu Şillerin idealları edə bilər. Səfillər padşahı Oqtay Eloğlu onu etməz. Mən dünyada ədalət divanı adına bir şey tanımıram. Hamısı yalandır! Yalan deyir Şiller! Mən yenə ancaq bu zavallı xalqı tanıyır, ona müraciət edirəm. Ona təslim oluram. Son söz onundur. Qoy o söyləsin: kimdir müqəssir? Yaşadaraq öldürən, öldürərək yaşadan, sevərək parçalayan, parçalayaraq sevən əliqanlı səfillər padşahı Oqtay Eloğlumu? Bu zavallı, günahsız yavrumu? Əski mühitin bu gülünc heykəlimi? Və yaxud alman dahisi böyük Şiller özümü?

*Pərdə*

# Səməd Vurğun
# VAQİF
**İştirak edənlər:**

*Vaqif – XVIII əsrin məşhur Azərbaycan şairi*
*Ağa Məhəmməd şah Qacar – İran hökmdarı*
*Vidadi – Vaqifin müasiri və yaxın şair dostu*
*İbrahim xan – Qarabağ xanı*
*Eldar – xanlıq zülmü və Qacar basqını əleyhinə üsyan qaldırmış kəndlilərin başçısı*
*Kürd Musa,  Arsak – Eldarın dəstəsindən*
*Xuraman – Vaqifin arvadı*
*Əli bəy – Vaqifin oğlu*
*Gülnar – Əli bəyin sevgilisi*
*Əminə – Gülnarın anası*
*Tükəzban – Vidadinin arvadı*
*Vəzir – Qacarın vəziri*
*Təlxək – İbrahim xanın təlxəyi*
*Şaliko, Tamara,  kiçik gürcü – Qacar tərəfindən əsir alınmış gürcülər*
*Şeyx Alı – Qarabağ şeyxi*
*İlyas – Eldarın dəstəsinə soxulmuş casus*
*Sərkərdə – Qacar qoşunlarının sərkərdəsi*
*Zülfüqar, Teymur – Qacarın əleyhdarlarından*
*Əhməd kişi, Qurban kişi – kəndlilər*
*Qasım, Murad – çobanlar*
*Kəndlilər, qaçaqlar, əsgərlər, elçilər və b.*

**DOQQUZUNCU ŞƏKİL**

*Şuşa qalası. Qayalıqda zindan. Səhərdir, günəş yenicə qalxır. Vaqif divara şeir yazır, sonra da yazdığı şeiri oxuyur. Əli bəy qulaq asır.*

**Vaqif**

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Beyətü iqrarü imanü dəyanət görmədim, Bivəfadan
lacərəm, təhsili-hacət görmədim.

Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər.
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə əhkamü ləyaqət görmədim.

*(oğluna baxaraq)*

Ah, oğlum, of, mənim qəhrəman oğlum!
Bu qədər qəm yemə, qurbanın olum!

**Əli bəy**

Eh... ata, nə qoyub, nə axtarırsan? Zülmün
qarşısında ağlarmı insan?

**Vaqif**

Mərhəba, mərhəba, qəhrəman oğlum! Bir gəl,
öpum səni, pəhləvan oğlum!

*(oğlunu qucaqlayıb bərk bərk öpür)*

Gözümün işığı, canım, ciyərim,
Bu nəmli torpaqlar olsa da yerim,
Mənim nə dərdim var, təki sən yaşa! Of,
Qacar, vicdanın döndümü daşa?

**Əli bəy**

Ata, bilirsənmi?

**Vaqif**

Nəyi? De, nə var?
Hələ də çöllərdə qaçaqdır Eldar
– Sənin köhnə dostun vardı bir zaman;
Sən özün qurtardın onu zindandan.

**Vaqif**

Bilirəm, bilirəm.

**Əli bəy**

Yaz ki, Eldara,
Yaman bir gündəyəm, düşmüşəm dara, Bir
kömək əli ver!

**Vaqif**

Yazım, qoy yazım....

*(cibindən dəftərçə çıxarıb yazır)*

**Gülnar**

*(tələsik gəlib qapıçının ovcuna pul basaraq, pəncərədən)*

Əli bəy, Əli bəy

**Əli bəy**

Ata, Gülnardır!

**Vaqif**

Sənin sevgilinin vəfası vardır!

**Gülnar**

*(əlindəki kiçik bağlamanı pəncərədən uzadaraq)* Alın, ac qalmayın...

*(ağlayır)*

**Əli bəy**

Ağlama, Gülnar!

**Vaqif**

Qızım, hər gecənin bir gündüzü var. Sənə
halal olsun hər əməyimiz, Yoxdur səndən
özgə bir köməyimiz.
Ala bu məktubu, qoynunda gizlə,
Onu gözün kimi qoruyub gözlə,
Çatdır, hardadısa, qaçaq Eldara!

**Gülnar**

Siz arxayın olun.

*(çaparaq gedir)*

**Vaqif**

Bir bax Gülnara,
Atalar sözüdür, yaxşı qulaq as:
"Aslanın erkəyi, dişisi olmaz!"
Ellər qurtaracaq bizi bu dardan.
Dünya ayırmasın səni Gülnardan!

*(doğmuş günəşə şairanə bir göz gəzdirərək)*

Odur, bax, günəşin rənginə bir bax!
Yanır kainata işıq saçaraq.
O günəş gəncliyin timsalıdır, bil,
Gəncliyin günəşi saralan deyil.
Can balam, parlasın ömrün günəştək, Nə can
yanğısı gör, nə iztirab çək!

*Əli bəyin başını sinəsinə doğru çəkərək onu oxşayır. Vidadi gəlir, qapıçı buraxmaq istəmir.*

**Zülfüqar**

Olmaz, kişi, bir dayan,
Bizi işə salarsan.

**Vidadi**

Yox, mən onu görəm gərək,
Kor eləsin səni fələk
Məni geri qaytarsan!

*Qapıçı qapını açaraq.*

**Zülfüqar**

Di gəl, tez ol, tez qayıt ha!
Xəbər çatar birdən şaha.
Onsuz da çox qudurğandır,
Çörəyi qan, suyu qandır...

*Vidadi daxil olur, Vaqifi qucaqlayaraq.*

**Vidadi**

Nə qədər yalvardım yenə Qacara, Dedi: –
Get, səni də çəkdirrəm dara...
Sonra bütün gecə xəyala vardım, Allaha üz
tutub yenə yalvardım.
Onda da görmədim vicdandan əsər, Doğru
deyərsənmiş, aldanmış bəşər!
Bir kömək gəlməyir sizə əlimdən,
Sözüm yerə düşdü... niyə sağam mən?!

**Vaqif**

Qardaşım! Sən nahaq yalvardın ona, Söz əsər
eləməz qəlbi pozğuna...
Bir də, qorxmayıram mən heç ölümdən,
Dünyanın qəlbində qalacağam mən!

**Vidadi**

Yox, yox, ölüm sənə yaraşmayır heç!

**Vaqif**

Vidadi! Gəl məndən birdəfəlik keç, Qayıt
kəndimizə, qorxuram səndən; Barı
Vidadisiz qalmasın vətən...

**Vidadi**

Necə? Man qayıdım? Bunu görməzsən, Sən
ölən torpaqda öləcəyəm mən!...

*Qapıçı Vidadini çəkə-çəkə aparır, Vaqif fikrə gedir.*

**Əli bəy**

Ata, lap heyranam Vidadiyə mən,
Doğrudan, o sənə yanır ürəkdən.
Nə təmiz, nə böyük təbiəti var, Ona
bənzəsəydi bütün insanlar!...

**Vaqif**

Böyük təbiətlər yaranır az-az,
Hər yerdə, hər zaman inci tapılmaz...

*Pauza. Həzin musiqi səsi.*
*Xuraman pəjmürdə və son dərəcə dalğın gəlir.*

**Xuraman**
*(zəif bir səslə)*

Vaqif! Ey sərvərim, ey tacidarım!

**Vaqif**

*(acı bir fəryadla)*

Nə var, nə deyirsən, vəfalı yarım?

**Xuraman**

Uydum bu dünyada nazü nemətə,
Özüm də bilmədən uydum şöhrətə.
Bilmədim, axırı zəhrimarımış,
Hər qızıl xəzinə bir şahmarımış...
İndi öz əlinlə gəl öldür məni,
Nə qədər alçaldım, alçaltdım səni...

**Vaqif**

*(daha şiddətli)*

Get, get, vəfasızsan bu dünya kimi...
Görünmə, gözümə bir röya kimi!..

*Xuraman məyus və peşman qayıdır, uzaqdan onun qəmgin səsi eşidilir.*

**Xuraman**

Bir ceyrandım, ürkütdülər yatağımdan,
Bir quş idim, ayrı düşdüm budağımdan,
Külək əsər, yarpaq düşər, çiçək solar.... Viran
qalmış mənim bu can otağımdan.

**Vaqif**

*(bu nəğmədən mütəəssir olaraq)*

Budur, yer üzünün əşrəfi insan
Yaradır gündə bir hicranlı dastan.
Nəydi o yazığın, nəydi günahı?
İndi çöllərdimi onun pənahı?
İnsan! O müqəddəs bir kainatdır,
O saf qəlbi pozan yalnız həyatdır.

*(tez pəncərədən)*

Qapıçı, qapıçı, çağır gedəni!
Oğul! Lap oyatdı o mahnı məni...
Bəzən yanılsa da gözəl bir mələk, Ondan
iyrənsə də hər duyan ürək,
Buna müqəssirdir, şübhəsiz, zaman...

**Qapıçı**

*(qayıdaraq)*

Özünü qayadan atdı Xuraman!

**Vaqif**

*(başını əlləri arasına alaraq fəryadla)*

Of... partla, ürəyim! Yazıq Xuraman!
Bizim eşqimizi məhv etdi zaman...

*Pərdə salınır*

## BEŞİNCİ PƏRDƏ

### BEŞİNCİ PƏRDƏNİN ONUNCU ŞƏKLİNİN QISA MƏZMUNU

*Dəstəsi ilə Şuşa yaxınlığındakı meşədə dayanan Eldara gürcülər köməyə gəlirlər.*

*Gülnar Vaqifin məktubunu Eldara çatdırır. Vaqifin zindana salınması xəbəri Eldarı qəzəbləndirir.*

*Dünyagörmüş bir qoca Eldara əvəzsiz hədiyyə – Misri qılınc verir. Eldarın sayca çoxalmış dəstəsi Qacarın qoşunu üzərinə yeriyir.*

### ON BİRİNCİ ŞƏKİL

*Şuşa qalası. Cıdır düzü. Günəş batmaq üzrədir. İki nəfər çoban qayaya arxalanaraq oturmuşdur, onların biri ney çalır.*

**Murad**

Qasım!

**Qasım**

Nə var?

**Murad**

Canına azar!
Elə belə gəlib, belə də getdik,
Nə bir günə çatdıq, nə kama yetdik.

**Qasım**

Nə var? Bir de də...

**Murad**

Çor nə var, nə var!..
Bilirsən, neyləyir Məhəmməd Qacar?!

**Qasım**

Neyləyir?

**Murad**

Vaqifi öldürür Qacar..

**Qasım**

Yox, əyə, bu qədər qansızlıq olar?

**Murad**

Sən öl, düz deyirəm!

**Qasım**

Vay sənin... can...can
Əyə, lap üşütmə qopdu canımdan.

**Murad**

Bəli, öldürürlər Molla Pənahı...

**Qasım**

Görəsən, yazığın nəymiş günahı?

**Murad**

Deyirlər, Vaqifə demiş ki, Qacar
Çarıqlı tayfadan nə şair olar?
O da həcv eyləmiş o zülümkarı,
Buna acıqlanıb zalım hökmdar.

**Qasım**

Murad!.. Əyə, sənin yaxşı səsin var Onun sözlərindən bir oxu, barı!

**Murad**

*(oxuyur)*

Xumar-xumar baxmaq göz qaydasıdır, Lalətək
qızarmaq üz qaydasıdır.
Parişanlıq zülfün öz qaydasıdır.
Nə badi-səbadan, nə şanədəndir.

**Qasım**

*(dizinə vuraraq)*

Vay, sənin gözlərin kor olsun, Qacar! Bir gör,
Vaqifə də heç adam qıyar?
*(heyrətlə ətrafına baxaraq)*

Murad, Murad, ayə, gətirirlər, bax!

**Murad**

*(heyrətlə baxır və göylərə üsyan edir kimi)*

Ey fələk! Ey dünya! Ey qanlı çanaq!

*Şeyx bir dəstə adamla Vaqifi və Əli bəyi gətirir.*

**Şeyx**

Dayanın!

**Vaqif**

*(tənəli)*

Mümkünmü durub dayanmaq?..

**Şeyx**

Oğlum, sən Allahın qüdrətinə bax!

**Əli bəy**

Nə oldu, tez deyin, gəlsin cəlladlar!
Uzun mırıldama, satılmış alçaq!
Səni də udacaq bu qara torpaq!..

**Şeyx**

*(ətrafa)*

Əstəğfürüllah,  Kafirə bir bax!

**Vaqif**

*(qürub etməkdə olan günəşi həsrətli gözlərlə seyr edərək, oğluna)*
Günəş qürub edir... sönür kainat,
Əzəldən belədir vəfasız həyat...

*(günəşi göstərərək)*

O mənim ömrümün timsalıdır, bax!
Sönər bir varlığın xəyalıdır, bax!
Mən də yaradıldım, mən də parladım.
Gözəllər ağzından düşmədi adım...
İndisə yelkənin toxundu daşa.
Bir insan ömrünü vurmadın başa.

Oğul! Alışıram, yanıram, aman,
Səni öldürürlər mənim ucumdan!
Qoy uçsun başıma qayalı dağlar...

**Əli bəy**

Ata!
Sənin günəş boyda bir vicdanın var. Çiynində
el dərdi daşıyacaqdır,
Bu dünya durduqca yaşayacaqdır!

**Vidadi**

*(arxadan)*

Vaqif!

**Vaqif**

Vidadi, qardaşım, sənmisən, gəl, gəl, Bizi
ayrı saldı bimürvət əcəl!

**Vidadi**

Kor olsun gözlərim, nələr görürəm! Günəşi
tutulmuş səhər görürəm...

*Vaqifi və Əli bəyi çəkə-çəkə aparırlar.*

Ağlama, qardaşım, sən yaşa, yarat!
Yaxındı gözlənən azad bir həyat.

**Vidadi**

*(goylərin dərinliyinə əl qaldıraraq)*

Tfu, sənin taxtına, ey çərxi-fələk!
Daşdan yaranmamış, ətdəndir ürək!..

*Cəlladlar gəlirlər.*

**Şeyx**

Kəlmeyi-şəhadət alın dilinizə!

**Vaqif**

*(oğlunu bağrına basaraq cəllada tərəf)*

Nə qədər olsa da, qanın var, cəllad!
İnsanın canından şirindir övlad.
Məni qorxutmayır bu vaxtsız əcəl,
İnsaf et, qabaqca məni öldür, gəl.
Gözlərim görməsin övlad qanını!
Uçurma könlümün xanimanını...

**Şeyx**

*(kinayəli)*

Şair, rənginizdə bir sarılıq var?

**Vaqif**

Qafil, gün batanda rəngi saralar!

**Şeyx**

Bu fani aləmi artıq unudun,
İndi üzünüzü qibləyə tutun!

*Cəllad Əli bəyi çəkir. Vaqif onu buraxmır.*

**Vaqif**

Of... sənin gözlərin kor olsun, cəllad! Sənə
demədimmi şirindir övlad!

*Şeypur çalınır. Qacar gəlir, yüksək bir yerdə dayanaraq.*

**Qacar**

Ha... ha... böyük şair!

*(öz adamlarına)*

İndi bərk durun!
Burda kəllələrdən bir qala qurun!
Göylərə dayansın qoy onun başı!
Dibindən çay kimi axsın göz yaşı.
Onun zirvəsinə yalnız və yalnız
Vaqifin başını qoymalısınız!

**Vidadi**

Hökmdar! Yerlərə, göylərə bir bax,
Buludlar qaralır matəm quraraq.
Vaqif bir oğludur əbədiyyətin.
Ölməz böyük dili şeirin, sənətin... Yalvarıram
sənə, onu ver mana, Əllərin batmasın
günahsız qana!

**Vaqif**

*(Vidadiyə tərəf)*
Yalvarma, yalvarma o cəllada sən!
Hələ baş əyməmiş bu böyük vətən...

**Qacar**

*(Vidadiyə)*

Görürsən? O imiş qatı düşmənim,
Onu yandırsam da, haqqım var mənim. Tez
olun, cəlladlar!

**Vidadi**

Yox, yox, qanın varsa, əmr et, zülmükar,
Qoy mənim boynumu vursun cəlladlar!

*Bu arada səs-küy qopur. Eldarın dəstəsi hücuma keçmişdir. Vuruşma yaxınlaşır.*

**Vəzir**

Şahım! Vuruşmağa gəlir ki, Eldar,

Gəl qaçaq, gəl qaçaq, xata toxunar!

**Qacar**

Yox, bir basacaqdır gədənin biri, Göylərə
hökm edən bir cahangiri!

*(Cəllad Əli bəyi vurmaq istərkən.)*

**Murad**

*(öz yoldaşlarına)* Əyə,
gəldilər!

*Cəlladın başından çomaqla vurur, cəllad yıxılır. Eldar, Musa, Gülnar və Şaliko qabaqda olmaqla, Eldarın dəstəsi görünür.*

**Qacar**

*(öz adamlarına)*

Tutun, diri tutun bu saat onu!

*Vidadi Vaqifi qucaqlayıb bir tərəfə çəkir. Əli bəy Gülnarla görüşür, onun tüfəngini alıb davaya qarışır.*
*Şiddətli vuruşma gedir. Eldar qılınc davasında saray adamlarını yara-yara gedir.*

**Qacar**

Özüm vuruşmağa qarışım gərək!

*Eldar irəli gedir. Şeyx və Vəzir qaçırlar. Əli bəy Şeyxi vurub qayadan salır.*

**Eldar**

*(Qacara müraciət edərək)*

Ehey, bəri bax!...
Arxadan vurmaq
İgidə yaramaz!

**Qacar**

Dayan, yaramaz!
Mən Qacar nəsliyəm, şahlar şahıyam, Mən də
yer üzünün bir allahıyam!..

**Eldar**

Gəl, gəl, çulu cırıq kəndliyəm mən də, Şahla
vuruşuram yeri gələndə...

*Şiddətli qılınc vuruşması gedir.*

**Qacar**

Mənlə vuruşmağa Koroğlu gərək!

**Eldar**

*(kinayə ilə)*

Bəh... bəh nə söz var ki, pələngsən, pələng!

*Eldar Qacarı yaralayır, ancaq vuruşma yenə davam edir. Birdən Eldarın qılıncı əlindən düşür.*

**Qacar**

*(dayanaraq gülür)*
Bəh...bəh....
Anan gəlsin indi tüstünə!

**Eldar**

*(yapıncının altından Misri qılıncı çıxararaq)*

Dayan!.. Misri qılınc gəlir üstünə...

**Qacar** *(çaşaraq)*

Nə?.. Nə?.. Misri qılınc? Nə? Nə? Koroğlu?

*Eldar Qacarı yenə qılıncla vurur. Qacarın qılıncı düşür. Qapıçı əlində siyirmə xəncər gələrək, onu arxadan vurur.*

**Qoca kəndli**

*(Qacarın meyitinə rişxəndlə baxaraq)*

Bu dağlar qoynunda aslan yatmışdır, Burda
Koroğlular at oynatmışdır.

**Eldar**

Əzildi şahmarın zəhərli başı,
Dağıdın sarayı, bütün daş-qaşı
Paylayın aclara və yoxsullara,
Bu gün bayram olsun bütün qullara!

*Təlxək gəlir, Qacarın meyitinin ətrafında at kimi hərlənir, ona rişxəndlə baxaraq.*

**Təlxək**

Sizi, doğrudan da, əsir alsalar, Qaranlıq
zindana tutub salsalar.
İnsan boğazlaram düz otuz nəfər.

*(bərk-bərk gülür)*

*Vidadi və Vaqif daxil olurlar. Hamı hörmətlə onlara baş əyir.*

**Eldar**

*(Vaqifə müraciət edərək)*

Möhtərəm şairə salamlar olsun!
Bu dünya durduqca o da var olsun!

**Vidadi**

Aha, uzanmışdır bizim şiri-nər.
İran torpağını ləkələyənlər.

**Vaqif**

*(Vidadiyə)*

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!
Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Sən bizim dağlar pələngi qəhrəman Eldarə bax!

*Eldar hörmətlə Vaqifin əllərindən öpür, xalq onu böyük sevinc və təntənə ilə ölüm meydanından çıxarır.*

*Pərdə salınır.*

## İlyas Əfəndiyev

# XURŞİDBANU NATƏVAN

İŞTİRAK EDİRLƏR:

| | |
|---|---|
| Xurşidbanu Natəvan | Bəyim |
| Canişin | Kor kamançaçı |
| Knyaz Xasay | Təhminə |
| Seyid Hüseyn | Şahmar |
| Hidayət xan | Möhnət |
| Mirzə Ruhullah | Fərəc bəy |
| Nəvvab | Qala rəisi |
| Mamayı | Mixaylov |
| TerVahan | Şahzadə |
| Zahir bəy | Məliküldövlə |
| Qoca knyaz | Muradalı |
| Daşdəmir | |

## İKİNCİ PƏRDƏ

### DOQQUZUNCU VƏ ONUNCU ŞƏKİLLƏRİN QISA MƏZMUNU

Xurşidbanudan ayrılan Knyaz Xasay onunla gizlicə görüşür. Nikahlarını təzələməyi, birlikdə xaricə getməyi xahiş edir. Xurşidbanu vətənini atmayacağını söyləyir. Onlar həmişəlik ayrılırlar. Xurşidbanu iftiradan yaxa qurtarmaq üçün, Hidayət xanın təhdidlərinə baxmayaraq, Seyid Hüseynə ərə getməyi qərara alır. Hidayət xan Seyid Hüseyni öldürtmək istəyir. Xurşidbanu onu xilas edir.

### ON BİRİNCİ ŞƏKİL

Şahzadənin malikanəsi. Şahzadə və Məliküldövlə. Şahzadənin qabağında alçaq stolun üstündə şərab kuzəsi və məzələr görünür.

Ş a h z a d ə. Siz bu xan qızı Xurşidbanunun əməlinə baxın?! Böyük İran səltənətinin vəliəhdini rədd eləyib, Cənubi Azərbaycandan qaçmış bir gədəyə ərə gedir?! (*Şərab içir*) Xeyrini-şərini başa düşən deyil sənin bu Azərbaycan millətin, Məliküldövlə...

M ə l i k ü l d ö v l ə. Siz məni rəncidəxatir eləyirsiniz, qurban... Məgər məndə azərbaycanlılıqdan bir əlamət qalmışdır?

Ş a h z a d ə. Lakin bir həqiqət var ki, İran taxtına mənim yolum Cənubi Azərbaycandandır. Cənubi azərbaycanlılar İran şahının siyasətindən bərk incikdirlər. Biz bundan bə qədri qüvvə istifadə etməliyik! Düşündüm ki, İbrahim xanın nəvəsi Xurşidbanu ilə evlənmək məni azərbaycanlılarla qohum edər. Onlar da bu ali qohumluğa binaən mənim vədlərimə inanıb, taxta sahib olmağıma kömək edərlər. Özləri də vuruşmağı bacaran cəsur millətdir.

M ə l i k ü l d ö v l ə. Onlar rusları üstün tuturlar, qurban...

Ş a h z a d ə. Bəs dini-islam? Məgər onlar bunu düşünmürlərmi?

M ə l i k ü l d ö v l ə. Xeyr, qurban, düşünmürlər. Xurşidbanu cavanları dəstə-dəstə Rusiyada təhsil almağa göndərir...

Ş a h z a d ə (*əsəbi*). Nəhs gətirmə, baba! Siyasət əzm və hərəkət tələb edir. (*Şərab içir*) Günü sabah sən Xurşidbanuya mənim adımdan qiymətli bir hədiyyə apararsan, qoy elə güman etməsin ki, mənimlə izdivaca razı olmadığı üçün ondan incimişəm.

M ə l i k ü l d ö v l ə. Bə görmədinizmi, o məni necə bihörmətliklə qovdu?

Ş a h z a d ə. Eybi nədarəd, baba, siyasət tələb edir, bu üzünə tüpürürlər, o biri üzünü çevir. Sonra Təbrizə, Əhrə, Cənubi Azərbaycanın başqa şəhərlərinə gizli adamlar göndərib, onlara vəd edilməlidir ki, əgər mənə kömək eləsələr, taxt-taca sahib olan kimi onlara məşrutə verərəm.

M ə l i k ü l d ö v l ə. Onlar buna inanarlarmı?

Ş a h z a d ə (*əsəbi*). Nəhs gətirmə, baba! İnandırmaq lazımdır.

M ə l i k ü l d ö v l ə. Bə çeşm, qurban.

Ş a h z a d ə. Məgər, şeytanın belə əqlinə gəlməyən hiylələrlə məlun qardaşımı İran taxtına çıxaran sən olmadınmı?

M ə l i k ü l d ö v l ə (*yana-yana*). Amma bunun müqabilində, o, taxta əyləşən kimi mənim boynumu vurdurmaq istədi.

Ş a h z a d ə. Bilirsən ki, anamız məni gizlincə xəbərdar etməsəydi, o xain qardaş mənim də gözlərimi çıxartdıracaymış. Şübhələnirmiş ki, mənim taxt-tacda gözüm var. Eybi nə darəd. Mən İran taxtına çıxan kimi səni vəziri-əzəm eliyəcəyəm. Bəli!.. Bəli!.. Vəziri-əzəm!

M ə l i k ü l d ö v l ə. İnşallah.

Ş a h z a d ə. İndisə, get rəqqasəni göndər bura. Qapıçıya da tapşır ki, heç kəsi mənim yanıma buraxmasın. Hərəmbaşına da desin ki, mən bu gecə istirahət etmək istəyirəm.

M ə l i k ü l d ö v l ə. Bə çeşm.

Ş a h z a d ə. Di xub...

Məliküldövlə çıxır. Təhminə kor kamançaçı ilə gəlir. Kor kamançaçı çalır, Təhminə rəqs edir. Muradalı gizlənib baxır. Şahzadə şərab içir və birdən qalxıb qızın biləyindən tutub özünə tərəf çəkir.

T ə h m i n ə (*Şahzadənin qulağına pıçıldayır*). Əlahəzrət, icazə verin, atamı aparım yatsın, sonra...

Ş a h z a d ə. Tez qayıt, qız! Tez!

T ə h m i n ə (*kor kamançaçıya*). Gedək. Əlahəzrət istirahət etmək istəyir.

K o r k a m a n ç a ç ı. Əlahəzrət, icazə verin, bu qərib ölkədə, vəlinemətimiz vəliəhdin əlindən öpmək şərəfinə nail olum.

Ş a h z a d ə (*əlini uzadaraq*). Xub...

Təhminə kor kamançaçının əlindən tutub, şahzadənin yanına gətirir. Kor kamançaçı fövqəladə bir cəldliklə şahzadəni yaxalayıb, boğazından yapışır.

K o r k a m a n ç a ç ı. Əlahəzrət, mən Savalan dağlarında gözlərini çıxartdırıb, cavan gəlinini əlindən aldığın Eyvazam. Neçə vaxtdır ki, sənin ardınca diyarbədiyar gəzib intiqamımı öz əllərimlə, bax, beləcə almağa fürsət axtarırdım!

Kor geyməsinin altından çıxartdığı balaca xəncərlə Şahzadəni vurur. Muradalı səssizcə çıxaraq, getmələri üçün işarə edir. Kor , Təhminə və Muradalı gedirlər. Məliküldövlə gəlir.

M ə l i k ü l d ö v l ə (*öz-özünə*). Musiqi birdən-birə susdu... Sarayda da ayaq səsləri, hənirti eşidildi... (*Birdən yerə yıxılmış şahzadəni görür... Əyilib baxır*) Nə oldu buna?

(*Dəhşət içində bir neçə saniyə susur*) Elə bil, qeybdən bir səs mənə deyir: "Bu ölən sənin son ümidindir, Məliküldövlə! İmanını yandırdın, vətənini satdın, xalqına xəyanət elədin... Hiylələr, fəsadlar qurdun, şahların təhqirinə dözdün, axırıncı ümidini bu zalım əxlaq düşgününə bağladın, o da belə oldu... Ey böyük Yaradan! Sən əlrəhmərrahimsən, bağışla mən üzüqara bəndənin günahlarını! Yox, hiss edirəm ki, eşitmək istəmir Allah mənim səsimi... Hara üz çevirəcəksən, Məliküldövlə? Kimə iltica edəcəksən? Yoxdur bu dünyada sənə yer! Bütün var-dövlətin də bu məlunun ucbatından qaldı İranda. Heç nə götürməyə macal tapmadın. Deyirlər əqrəb düşdüyü torda öz-özünü sancıb öldürür.

Özünü öldürmək üçün əlini belindəki balaca xəncərə aparır. Lakin cəsarəti çatmır. Dərin bir ümidsizlik içində gözlərini yumur... Səhnə qaranlıqlaşır.

Pərdə salınır.

## ON İKİNCİ ŞƏKİL

Qala rəisinin kabinəsi. Qala rəisi, Zahir bəy Fəda, Mixaylov, bir də Fərəc bəy. Bir kənarda oturmuş Mixaylov ara-sıra nə isə yazır.

Q a l a r ə i s i (*əsəbi*). Məsələ aydındır! Bu, bizimlə İran şahının arasını vurmaq üçün təşkil edilmiş bir provakasiyadır. Bəli! Bəli, provakasiya!

F ə r ə c b ə y. Da... da... Elədir ki, var!

Z a h i r b ə y. Bəndeyi həqiriniz də o fikirdədi, cənab rəis.

Q a l a r ə i s i. Beynəlxalq vəziyyətin indiki şəraitində bizi ittiham eləyib, özünə borclu çıxarmaq üçün İran şahına bəhanə lazımdır! Cənab Zahir bəy, sizcə kimlər ola bilər bu işin təşkilatçıları?

Z a h i r b ə y. Cənab rəis, hayana çevirsən, bu cinayətin bir ucu gedir çıxır Xan qızı Xurşidbanunun sarayına!

F ə r ə c b ə y. Da... da... Elədir ki, var.

Q a l a r ə i s i. Nəyə görə siz bu fikrə gəlmisiniz, cənab Zahir bəy?

Z a h i r b ə y. Mən dəfələrlə qulluği-şərəfinizə ərz etmişəm ki, Xurşidbanunun təşkil elədiyi "Məclisi-üns" əlahəzrət imperatora düşmən kəsilmiş siyasi bir ocağa çevrilmişdir. Onlar "Məclisi-üns"də şeirdən çox siyasətdən, azadlıqdan danışırlar.

Q a l a r ə i s i (*əsəbi*). Hansı azadlıqdan?

Z a h i r b ə y. Məlumdu hansı azadlıqdan...

Q a l a r ə i s i. Yoxsa, dekabristlərin cinayətkar xülyaları buralara da gəlib çıxmışdır?! Yoxsa, qorxmurlar onlar imperatorun divanından?!

Z a h i r b ə y. Vəliəhd öldürülən gecənin səhəri Xurşidbanunun baş mehtəri Muradalı yox olmuşdur. Muradalı isə, Xurşidbanunun ərə getdiyi Seyid Hüseynin xalası oğludur.

F ə r ə c b ə y. Da... da... Elədir ki, var...

Q a l a r ə i s i. Şahzadə öldürülən gecə həmin Muradalını onun sarayının yanında görüblər... Belə düşünmək olar ki, Seyid Hüseyn Təbrizin keçmiş hakimi Şahzadəni öldürmək üçün Cənubi azərbaycanlılar tərəfindən göndərilmiş bir terrorçudur!

F ə r ə c b ə y. Da... da... Elədir ki, var.

M i x a y l o v (*qəzəblə*). Fərəc bəy, imkan verin!

Q a l a r ə i s i (*Mixaylova*). Sakit.

Z a h i r b ə y. Digər tərəfdən, cənab rəis, İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı Xurşidbanunun lüt bir Cənubi azərbaycanlı gədəsinə ərə getməsi özü də çox qəribə deyilmi? Bu əcayib əhvalat bütün zadəganları qəzəbləndirmişdir! Həmin Seyid Hüseynin də taxt-tac

əleyhinə necə qəzəbli nitqlər irad etdiyini sizə demişəm. Mən öz millətimin halına yanıram, cənab rəis, onlar bizi əlahəzrət imperatorun nəzərindən sala bilərlər.

F ə r ə c  b ə y. Da... da... Elədir ki, var.

Q a l a  r ə i s i (*qalxaraq*). Yaxşı, cənab Zahir bəy, biz, Şahzadənin öldürülməsi ilə əlaqədar qalaya gələn canişin həzrətlərini qarşılamağa getməliyik. Əlahəzrət hökuməti sizin xidmətinizi yenə də əvəzsiz qoymaz.

Z a h i r  b ə y. Mən əlahəzrət imperatorun sadiq quluyam.

Q a l a  r ə i s i. Rica edirəm, bu biri qapıdan çıxasınız.

Z a h i r  b ə y (*kinayəli təbəssümlə*). Başa düşürəm. (*Çıxır*)

Q a l a  r ə i s i. Bu qrafoman şairin söylədiklərini yazdınmı, Seryoja?

M i x a y l o v. Yazdım. Ancaq bu hərif qrafoman olmaqdan savayı, həm də, satqının biridir. Həmvətənləri bunu əclaf bir adam kimi tanıyırlar.

Q a l a  r ə i s i. Bizə nə dəxli var ki, Zahir bəy istedadsız şairdi, əclafdı... Adı şairdir, qurtardı. Elə deyilmi, cənab Fərəc bəy?

F ə r ə c  b ə y. Da... da... Elədir ki, var.

M i x a y l o v. İvan Petroviç, mən Zahir bəy kimi şərəfsiz bir vəzifəbazın "Məclisi-üns" haqqında, Xurşidbanu və onun əri Seyid Hüseyn haqqında dediklərinə inanmıram!

Q a l a  r ə i s i. İnanmaq lazımdır! Yoxsa, azərbaycanlıları sən Zahir bəydən, Fərəc bəydən yaxşı tanıyırsan? (*Qəzəblə*) Kim səni vəkil eləyib ki, bu qaçaq-quldur tuzemləri müdafiə eləyəsən?

M i x a y l o v. Onlar tuzem deyil, İvan Petroviç!

Q a l a  r ə i s i. Bura bax, Seryoja! Sən mənim arvadımın yaxın qohumu da olsan, unutma ki, dayın bir dekabrist kimi tutulub sürgün edilmişdir! (*Qışqırır*) Sən əlahəzrət imperator hökumətinin zabitisən!

M i x a y l o v. Bu o demək deyil ki, mən gözlərimi yumub, hər şeyi kor-koranə qəbul edəm. Ədalət lazımdır!

Q a l a  r ə i s i. Bizim üçün ən böyük ədalət əlahəzrət imperatorun şərəfini qorumaqdır! Aydındırmı?

M i x a y l o v (*dərindən nəfəs alaraq*). Aydındır!

İşıq sönür.

P ə r d ə  s a l ı n ı r.

## ON ÜÇÜNCÜ ŞƏKİL

Xurşidbanunun malikanəsi.

X u r ş i d b a n u. Mirzə Ruhullah, Seyid Hüseyn...

S e y i d  H ü s e y n. Banu bəyim əgər Muradalının elə bir qəsdi olsaydı, mən bilərdim.

X u r ş i d b a n u. Təəccüblüdür, bəs necə olub ki, Muradalı hara getdiyini bizə deməyib?

S e y i d  H ü s e y n. Bu mənim üçün də bir müəmmadır, Banu bəyim.

Nəvvab daxil olur.

N ə v v a b. Banu bəyim, başa düşə bilmirik ki, bu necə məsələdir? Şahzadənin əhvalatından sonra qala rəisinin müavini Fərəc bəy "Məclisi-üns"ün üzvlərini bir-bir çağırıb sorğu-suala tutur, ağlagəlməz qəribə şeylər soruşur. Hətta qorxudur da...

Mamayı tələsik gəlir.

M a m a y ı. Banu bəyim, bu işlərdən sizin xəbəriniz var?
X u r ş i d b a n u. Nə olub?
M a m a y ı. Rəisin müavini Fərəc bəy çağırıb məni sıxma-boğmaya salıb ki, sən əlahəzrət imperatorun əleyhinəsən, yazmısan ki, "vətənimdə vətənim yox...". Deyirəm mən zülm içində olan
Cənubi azərbaycanlıları nəzərdə tutmuşam, deyir, xeyr, əlahəzrət imperatora sataşmısan...
M i r z ə R u h u l l a h. Dad yarımçıq əlindən...

Daşdəmir tələsik daxil olur.

D a ş d ə m i r (*Xurşidbanuya*). Fərəc bəy iki nəfər polislə gəlmişdir. Sizi görmək istəyir.
X u r ş i d b a n u. Necə? Mənim sarayıma polislə gəlmək?! (*Qışqırır*) Denən bu saat rədd olub getsin! (*Daşdəmir yerindən tərpənmir*) Nə üçün durmusan?
M i r z ə R u h u l l a h. Yox, Banu bəyim, madam ki, o, polislə gəlib, Daşdəmirin sözü ilə geri qayıtmaz.
X u r ş i d b a n u (*Daşdəmirə*). Qoy gəlsin!

Daşdəmir çıxır. Fərəc bəy tək daxil olub, Xurşidbanuya təzim edir.

F ə r ə c b ə y. Xan qızı Xurşidbanuya hörmət və ehtiram.
X u r ş i d b a n u (*qəzəblə*). Nə ixtiyarla mənim sarayıma polislə gəlmisiniz?
F ə r ə c b ə y. Banu bəyim! Əgər, vəziyyət məcbur etməsəydi, əlbəttə, gəlməzdik. Da... da... Ancaq... Yenə də məhz sizə dərin hörmətimizə binaən mən kiçik rütbəli çinovnik göndərməyib, şəxsən özüm gəldim...
X u r ş i d b a n u. O!.. Nə böyük nəzakət... (*Qəzəblə*) Niyə gəlmisiniz?
F ə r ə c b ə y. Da... da... Əlahəzrət imperator hökuməti adından mən cənab Seyid Hüseyni həbs etməliyəm.
X u r ş i d b a n u. Nə üçün?
F ə r ə c b ə y. Üzr istəyirəm ki, mən bunu indi sizə söyləyə bilməyəcəyəm. Da... da... Ancaq Seyid Hüseyn bizimlə getməlidir.
X u r ş i d b a n u. Seyid Hüseyn heç bir günah sahibi olmadığı üçün heç yerə getməyəcək!
F ə r ə c b ə y. Ərz elədim ki, mən əlahəzrət imperator hökuməti adından gəlmişəm.
X u r ş i d b a n u (*qəzəblə*). Mən xan qızıyam! Seyid Hüseyn də mənim ərimdir, onu həbs etməyə sizin ixtiyarınız yoxdur!
F ə r ə c b ə y. Seyid Hüseynin həbsə alınması barədə prokurorun sərəncamı var.
X u r ş i d b a n u. Dedim ki, o heç yerə getməyəcək!
S e y i d H ü s e y n (*qalxaraq*). Banu bəyim...
X u r ş i d b a n u (*eyni qəzəblə Seyid Hüseynə*). Sən dayan! (*Fərəc bəyə*) Bura Mehdiqulu xanın sarayıdır!

F ə r ə c b ə y. Bağışlayın, Banu bəyim... İ... i... Elə eləməyin ki, mən polis nəfərlərini içəri çağırmalı olum...

X u r ş i d b a n u (*ağlını itirəcək dərəcədə qəzəbli*). Necə? (*Yaxınlaşıb Fərəc bəyi sillə ilə vurur*) Rədd ol! Bu saat! Bu dəqiqə!

F ə r ə c b ə y (*təəccübdən hələ də özünə gələ bilməyərək*). Siz dəli olmusunuz, nədir?

X u r ş i d b a n u (*qışqırır*). Çıx dedim! (*Dalbadal iki sillə vurur. Fərəc bəy qəribə keyliklə dönüb tələsik çıxır*) Alçaqlar!

N ə v v a b. Afərin, Banu bəyim. Qoy tarix görsün ki, şairə satqınların təhqirini cavabsız qoymadı!

T e r V a h a n. Şairəni təhqir etmək şeri-sənəti təhqir etmək deməkdir!

M i r z ə R u h u l l a h. Şairəni təhqir etmək bütün xalqı təhqir etməkdir.

S e y i d H ü s e y n (*qətiyyətlə*). Banu bəyim, onlar məndən əl çəkməyəcəklər. Ona görə də özüm gedirəm: görək mənim günahım nədən ibarətdir?! Əgər, gəlməsəm, darıxma! Hələlik, ağalar.

Sürətlə çıxır. Ağır pauza. Birdən Xurşidbanu zəngi səsləndirir. Daşdəmir gəlir.

X u r ş i d b a n u (*Daşdəmirə*). Denən tez karetanı qoşsunlar! (Daşdəmir çıxır) Ağalar! Mən bu saat getməliyəm canişinin yanına.

İşıq sönür.

P ə r d ə s a l ı n ı r.

## ON DÖRDÜNCÜ ŞƏKİL

Qala rəisinin otağı. Tiflisdən gəlmiş canişin və Xurşidbanu.

C a n i ş i n. Əlbəttə, Fərəc bəy sizin sarayınıza gəlməkdə qəbahət iş tutmuşdur. (*Zarafatyana*) Siz də onu pis cəzalandırmamısınız. Lakin, Banu bəyim, bəla orasındadır ki, həmin həbs olunan adamlar haqqında bütün məlumatı sizin öz millətinizdən, hətta öz zadəgan sinfinizdən olan adamlar vermişdir.

X u r ş i d b a n u. Ah, knyaz, bilirsiniz ki, namuslu adam heç vaxt bu dərəcədə alçaqlıq eləməz!

C a n i ş i n. Doğrudur. Mən sizə inanmaya bilmərəm. Lakin o məlumatların yalan olduğuna əlahəzrət imperatoru inandırmaq çətindir. (*Eyhamla*) Axı, bizdə məxfi şöbə də var... Vəliəhdin öldürülməsinin siyasi nəticəsi biz gözləyən kimi də oldu: İran şahı bizi ittiham edir.

X u r ş i d b a n u. Əlahəzrət hökumətinin bu işdə əli olmadığını sübut üçün günahsız adamları badi-fənaya vermək olarmı, knyaz?

C a n i ş i n (*bir qədər aralanaraq*). Hər şey diqqətlə öyrəniləcəkdir. Həbs edilən şəxslər, hətta siz özünüz də əlahəzrət hökumətinə qarşı düşmənçilikdə təqsirləndirilirsiniz.

X u r ş i d b a n u. Vətən, millət xainləri sizə dürüst məlumat verməyiblər, knyaz!

C a n i ş i n. Bəs dürüstü nədən ibarətdir, Banu bəyim?

X u r ş i d b a n u. Biz istəyirik ki, Cənubi azərbaycanlılar qəddar İran şahlarının zülmündən azad olsun. Biz öz qan qardaşlarımızla birləşmək istəyirik. Biz onu da bilirik ki, tək-tək caniləri qətlə yetirməklə bu böyük amala yetə bilmərik, böyük döyüşə isə gücümüz çatmır... Bizə kömək eləyən yoxdur...

C a n i ş i n. Mən sizi başa düşürəm, Banu bəyim. Çox təəssüf ki, beynəlxalq vəziyyətin indiki halında imperator həzrətləri sizə heç bir kömək eləyə bilməz. Arzular müxtəlif olduğu qədər də ziddiyyətlidir; deyirlər sizin yazıçılar, ziyalılar hər cürə mütləqiyyət əleyhinədirlər. Axı cümhuriyyət, məsələn, qədim Romaya hansı xoşbəxtliyi bəxş etdi? Dostları Sezarı öldürdülər ki, o özünü imperator elan etmək istəyir. Amma Sezardan sonra bir-birilərilə tutuşaraq, xalqı qırğına verdilər. Fransızlar on altıncı Lüdovikin başını gilyatinaya qoydular ki, "Respublika istəyirik". Amma həmin respublikaçılar özləri xalqa divan tutdular.

X u r ş i d b a n u. Şəxsiyyət, vicdan azadlığı olmayan yerdə hansı həyatdan danışmaq olar? Əgər xalq öz müqəddaratının sahibi deyilsə, onun dühası, cəsurluğu neyləyə bilər?

C a n i ş i n. Siz zərif bir şairəsiniz. Banu bəyim, həyatın sərt üzünü görməmisiniz. Xalq sizə əlvan buludlar üzərində uçuşan mələklər kimi görünür.

X u r ş i d b a n u. Knyaz, mən xan qızı, əminəm ki, əgər şeytanlar, mənsəb düşkünləri olmasaydı, zəhmətkeş xalqın, doğrudan da, mələk olduğuna siz də inanardınız! Satqınların, rəzil ikiüzlülərin qurduqları hiylə-fəsadların istedadlı, namuslu, mərd insanlara güc gəlməsi məni yandırır, knyaz!

C a n i ş i n (*dərindən nəfəs alaraq*). Etiraf edirəm ki, sizin sözlərinizdə həqiqət vardır. Lakin insanlar bu həqiqətin təntənəsini nə vaxt görəcək? O barədə bir söz deməkdə acizəm. (*Pauza*) Mən çalışaram, heç olmasa, sizin rəfiqiniz Seyid Hüseyni azad etdirim. İmperator sizin xətrinizi istəyir.

X u r ş i d b a n u (*qalxaraq*). Knyaz! Mən yalnız ərimin təvəqqəsi üçün gəlməmişəm. Mən istəyirəm ki, şahzadənin öldürülməsi Azərbaycanın üzərinə qara kölgə salmasın!

C a n i ş i n. Mənim hər şeyin ədalətlə həll olunmasına çalışacağıma əmin ola bilərsiniz, Banu bəyim.

Xurşidbanu xəfif təzimlə çıxır.

İşıq sönür.

P ə r d ə s a l ı n ı r.

## ON BEŞİNCİ ŞƏKİL

Xurşidbanunun malikanəsi. İşıq yananda Xurşidbanu, Mirzə Ruhullah, Nəvvab, Ter Vahan yan qapıdan çıxaraq həyəcanlı halda Zahir bəylə qarşılaşırlar.

Z a h i r b ə y (*gəlir*). Salam, ağalar. Gəncəyə getmişdim, bu saat gəlib faytondan düşürəm, deyir, bizim adamlardan neçəsini, hətta Seyid Hüseyni də həbs eləyiblər, bu nə işdir, canım? Axı, o yazıqların nə günahı var?

X u r ş i d b a n u (*əsəbi*). Yazıq deməyin! Yazıq deyə-deyə bu milləti aciz qələmə vermisiniz! Yazıq onları satan namussuz həmvətənləridir!

Möhnətlə Şahmar başıalovlu gəlirlər.

Ş a h m a r. Hidayət xan başımıza oyun açdı, Banu bəyim!

X u r ş i d b a n u. Nə olub?

M ö h n ə t. Xanın darğası neçə atlı ilə gəlib Mil düzünə çəkdirdiyimiz arxın dəhnəsini dağıtdırdı, fəhlələri də döyə-döyə qovdurdu. O cavan injinarı da az qalmışdı öldürələr, birtəhər camaat əllərindən aldı.

Ş a h m a r. Sənin əmizadən olduğu üçün əl-qolumuz bağlandı, Banu bəyim. Yenə tüfəngi götürüb qalxardım at belinə...

X u r ş i d b a n u. Yoxdur mənim əmizadəm! Hidayət xan mənə də, üstündə durduğumuz bu torpağa da yaddır! (*Qışqırır*) Düşməndir! Mən xan qızı Xurşidbanu inanmıram öz sinfimin vətən namusuna, eşidirsinizmi, inanmıram! Bu dəqiqədən etibarən mən onlara yadam!

Mixaylov gəlir.

M i x a y l o v (*daxil olub, Xurşidbanuya təzim edir*). Üzr istəyirəm, Banu bəyim. Mən öz vəzifəmdən istefa verib bir saatdan sonra yola düşürəm. Ancaq mən burda yaşadığım müddətdə sizin xalqınızdan elə səmimi hörmət və məhəbbət gördüm ki, içinizdəki bir xaini sizə tanıtdırmadan getməyə vicdanım yol vermədi!

S ə s l ə r. Kimdir o xain?

M i x a y l o v. O xain budur, qarşınızda dayanmışdır. (*Zahir bəyi göstərir*)

Z a h i r b ə y (*bağırır*). Cənab zabit!

M i x a y l o v. Buyur cənab! Əgər məni duelə çağırmaq istəsəniz, səfərimi bir gün təxirə sala bilərəm!

N ə v v a b. Cənab zabit, o sizi duelə çağıra bilməz. Əgər onda kişilik olsaydı, vətəndaşlarına o cür alçaq böhtanlar yapışdırmazdı.

M i r z ə R u h u l l a h. Mən bu şair bəyin satqın olduğunu çoxdan duymuşdum.

Ş a h m a r (*qışqırır*). Bəsdir siz bəylərin əlindən çəkdiklərimiz!

Şahmar xəncərini sivirərək Zahir bəyi vurmaq istəyir. Zahir bəy adamların arxasında gizlənir.

X u r ş i d b a n u. Qoymayın oğlanı!

Möhnət Şahmarı tutub saxlayır.

Ş a h m a r (*qışqırır*). Biqeyrətlər! Ə, Möhnət, qoy bu köpəkoğlunu isti-isti öldürüm!

X u r ş i d b a n u. Onu öldürəcəksən, başqa bir Zahir bəy peyda olacaq!

Z a h i r b ə y. Siz milləti-islamı badi-fənaya verirsiniz. Eşidirsinizmi, badi-fənaya verirsiniz! (*Gedir*)

X u r ş i d b a n u. Bu satqın ağalar hələ millətlə dini bir-birindən ayıra bilmirlər.

Hidayət xan daxil olur və onu görən kimi Xurşidbanudan başqa hamı səhnədən çıxır.

H i d a y ə t x a n. Salam, əmizadə. (*Xurşidbanu dinmir*) Dinmirsən... Amma mənim ürəyim dözmədi, yenə də gəldim.

X u r ş i d b a n u. Nə olub, yoxsa mənim çəkdirdiyim arxı uçurdub dağıtdığına görə ürəyin nazilib?

H i d a y ə t x a n. Yox, əmiqızı... Ürəyimi kövrəldən sənin taleyindir.

X u r ş i d b a n u. O!.. Doğrudanmı?

H i d a y ə t x a n. İstehza lazım deyil, Banu bəyim. Onsuz da çərxi-dövran bizim əleyhimizə işləyir. Xanlıq getdi, mülklərimizin çoxu əlimizdən çıxdı. İgid Pənah xanın yurdunda biz iki nəfər qalmışıq. Sən də ki, belə eləyirsən. Deyirlər, indi də bütün ata mülkündən, kəndlərindən əl çəkirsən, nə üçün belə eləyirsən, Banu bəyim? Çarın özü bizi tanıyır. Nə üçün bizi onun gözündən salırsan? Nə üçün xan babalarımızın şərəfini gədə-güdənin ayaqları altına atırsan? Banu bəyim! Əmi qızı! İndiyə qədər nə olub-olub. Daha bəsdir boş xəyallara uyub, özünü də, bizi də cümlə-əyan içində bədnam elədin. Axı nə işin var sənin siyasətlə, niyə "xalq, xalq" deyib vardan-yoxdan çıxırsan?

X u r ş i d b a n u. Mən öz elədiklərimdən peşman deyiləm. Əgər mən dünyaya ikinci dəfə gəlsəydim, yenə də bu yolu tutardım.

H i d a y ə t x a n. Bu sənin qəti sözündür?

X u r ş i d b a n u. Qəti!

H i d a y ə t x a n (*qalxır*). Qoy bir olan Allah bilsin ki, mən səni düşdüyün burulğandan çəkib çıxarmaq istəyirdim. Amma sən buna razı olmadın!

X u r ş i d b a n u. Əgər sən insanları burulğanlardan çıxarmaq haqqında düşünsəydin, Arazın o tayında boğulan azərbaycanlılar bir dəfə də olsa, yadına düşərdi!

Daşdəmir gəlir.

D a ş d ə m i r. Sizə məktub var, Banu bəyim. (*Məktubu verib çıxır*)

H i d a y ə t x a n. Heyf səndən, Banu bəyim! Əlvida! (*Dərindən nəfəs alaraq çıxır*)

Xurşidbanu məktubu həyəcanla açıb baxır. Mavi projektorun işığı onun baxdığı səmtdə nə isə yazan knyaz Xasayın üzərinə düşür və o yazdıqca səsini eşidirik:

"Beləliklə, hər şey məhv olub getdi, Banu bəyim. İndi məni bu uzaq yerə sürgün eləyiblər. Bu tilsimin sonu görünmür. Mən daha sürünmək istəmirəm, Banu bəyim. Zənn edirəm ki, buna sən də razı olmazdın. Əlvida, Banu bəyim. Heç olmasa, sən möhkəm dayan, Banu bəyim!"

Məktubu zərfə qoyaraq, qalxıb tapançanı götürüb ürəyinə dirəyir və atəş açılanda knyazın üzərinə düşən işıq sönür. Xurşidbanu dəhşətlə qışqırır.

X u r ş i d b a n u. Knyaz!

Mirzə Ruhullah həyəcanla daxil olur.

M i r z ə R u h u l l a h. Knyaz burada yoxdur, Banu bəyim.

X u r ş i d b a n u (*özünə gələrək*). O nə güllə idi, Mirzə?

M i r z ə R u h u l l a h. Hidayət xan tapança ilə sağsağana güllə atırdı.

X u r ş i d b a n u. Vurdu?

M i r z ə R u h u l l a h. Vurdu!

X u r ş i d b a n u. Niyə vururdu? Axı, deyirlər o xeyir xəbər gətirən quşdur.

M i r z ə R u h u l l a h. Onlar bu dünyaya xeyir xəbərləri vurmaq üçün gəliblər, Banu bəyim!

X u r ş i d b a n u. Mirzə, zəhmət olmasa, Daşdəmirlə Bəyimi bura göndər.

Mirzə Ruhullah çıxır. Çox dərdli pauza. Musiqi. Daşdəmirlə Bəyim gəlirlər.

X u r ş i d b a n u. Üç ildən artıqdır ki, siz mənim sarayımda xidmət edirsiniz. O da mənə məlumdur ki, bir-birinizi istəyirsiniz. İndi daha vaxtdır ki, özünüzə ailə qurasınız. Mən bu gündən sizi azad edirəm.

(*Stolun yeşiyindən iki pul kisəsi çıxarıb, hərəsinə birini verir*)

B ə y i m. Oy, Banu bəyim, mən ölənəcən sizə xidmət eləmək istəyirəm.

X u r ş i d b a n u. Daha mənə xidmətçi lazım deyil, Bəyim. Gedin, ləyaqətlə yaşayın. (*Həyəcanla*) Gedin, kəndlilərə deyin ki, onlar daha mənə vergi verməyəcəklər. Daha xan qızı Xurşidbanunun kəndi, torpağı yoxdur! Deyin ki, mən Xurşidbanu Natəvan bu əzablı yolları onlarla birlikdə gedəcəm! Onu da deyin ki, bu uçurumlu yolların sonunda bizi öz milli birliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir!

Musiqi. Pərdə yavaş-yavaş örtülür.